ISSN 2410-4108

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI
AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI

# “ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR”

## Elmi-praktiki jurnal

# № 1 (03)

BAKI-2015

**BAŞ REDAKTOR:**
**Hüseyn Qaraşov,** *sosiologiya üzrə elmlər doktoru, professor*

**BAŞ REDAKTORUN MÜAVİNİ:**
**Mobil Məcidov,** *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**MƏSUL KATİB:**
**Zeynəddin Şabanov,** *fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

**REDAKSİYA HEYƏTİ:**

i.ü.e.d., professor Səttar Mehbalıyev - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

sos.ü.e.d., professor Hüseyn Qaraşov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, baş redaktor

i.ü.e.d., professor Ramiz İsgəndərov - Azərbaycan Texniki Universitetinin “Sənaye iqtisadiyyatı və menecment” kafedrasının müdiri

i.ü.e.d., professor Tərbiz Əliyev - AMEA Elmi İnnovasiyalar Mərkəzinin nəzdindəki Təhsil-Tədris Mərkəzinin direktoru

i.ü.e.d., professor Sadıq Salahov - AMEA Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun direktoru

f.ü.e.d., professor İlham Məmmədzadə - AMEA Fəlsəfə və Hüquq İnstitutunun direktoru

p.ü.e.d., professor Fərahim Sadıqov - Bakı Elm-Təhsil Mərkəzinin direktoru

t.ü.e.d., professor Vəkil Həsənov - Azərbaycan Dövlət İqtisad Universitetinin “Azərbaycan tarixi” kafedrasının müəllimi

b.ü.f.d., dos. Sirac Məmmədov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Tədris və tərbiyə işləri üzrə prorektoru

i.ü.f.d., dos. Mobil Məcidov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Elmi işlər üzrə prorektoru, baş redaktorun müavini

i.ü.f.d., dos. Əsgər Əliyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “İqtisadiyyat” fakültəsinin dekanı

i.ü.f.d. Hicran Mirzəyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “Maliyyə” fakültəsinin dekanı

fəl.ü.f.d., dos. Zeynəddin Şabanov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “Sosial tərəfdaşlıq, Həmkarlar ittifaqı hərəkatı və humanitar fənlər” kafedrasının müdiri, məsul katib

i.ü.f.d. Raziyyə Maniyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “Həmkarlar ittifaqları kadr və fəallarının ixtisasartırma və yenidən hazırlanması” şöbəsinin müdiri

i.ü.f.d., dos. Gülnarə Hacıyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “Mühasibat uçotu və audit” kafedrasının müəllimi

i.ü.f.d. Şövqi Quliyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “Maliyyə” kafedrasının müəllimi

*Azərbaycan Respublikası, Bakı şəhəri, Azadlıq pr.181, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*Tel.: 563-01-62; e-mail: jurnal@aesma.edu.az; aesma.elmi-jurnal@mail.ru.*
*Jurnal Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının elmi şurasının qərarı ilə çap olunur. (protokol № 10, 01.06.2015)*
*Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 3883. 07.05.2014*

## MÜNDƏRİCAT

**MÜNDƏRİCAT**…………………………………………………………………......3

**HƏMKARLAR İTTİFAQI HƏRƏKATI VƏ SOSİAL TƏRƏFDAŞLIQ BÖLMƏSİ**

**Hüseyn Qaraşov**
Azərbaycanda Həmkarlar İttifaqının təşəkkül tarixindən..............................................5

**Zeynəddin Şabanov**
Həmkarlar İttifaqlarının Azərbaycanda hüquqi dövlət quruculuğunda rolu.............16

**HUMANİTAR VƏ SOSİAL ELMLƏR BÖLMƏSİ**

**Həbib Hüseynov**
İnformasion cəmiyyət və mühəndis təfəkkürünün qarşılıqlı münasibəti.....................22

**Ağasəlim Həsənov**
Ekoloji mədəniyyət anlayışının sosial-fəlsəfi məzmununa dair.................................27

**Sədaqət Məmmədova**
İdarəetmənin sosiologiyasi cəmiyyətin elmi idarə olunmasını səciyyələndirən sahə kimi.............................................................................................................................32

**Maya Abdullayeva**
Sosial siyasət və əhalinin sosial müdafiəsi.................................................................37

**İlham Soltanov**
Liberalizm ideologiya və siyasi doktrina kimi...........................................................44

**ELŞƏN ALLAHVERDIYEV**

SIVILIZASIYA VƏ SOSIAL NORMALAR........................................................................51

**Самир Мамедов**
Чаша в символизме государственности и права в древнетюркских традициях..56

**Üzeyir Şəfiyev, Daxil Vəliyev**
Azərbaycançılıq ideyasının mənbələri haqqında.......................................................63

**Kamal Hacıyev**
Azərbaycanda sosial dövlət quruculuğunun mərhələləri............................................71

**İQTİSADİYYAT VƏ İDARƏETMƏ BÖLMƏSİ**

**Шагин Касумов**
Проблемы организации системы государственного финансового контроля в Азербайджанской Республике.........................................................................82

**Kutais Sarıyev**
Regionların sosial-iqtisadi inkişaf strategiyasının konseptual əsasları və onun reallaşma istiqamətləri..........................................................................................85

**Güloğlan İsmayılov**
Dövlət orqanlarının informasiyalaşdırılmasının mərhələləri............................................90

**Firuz Qurbanov**
Turizmin davamlı inkişafına təsir edən amillər.........................................................96

**Şövqi Quliyev, Xaqani Məmmədov, Təranə Əhmədova**
Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi..........................................................................................102

**Gülnarə Hacıyeva**
Əmək haqqı əmək məhsuldarlığının yüksəldilməsinin əsas amilidir........................112

**Təranə Vəliyeva**
İqtisadiyyatın idarəedilməsində informasiya texnologiyalarından istifadə etməklə hesablamaların aparılması.............................................................................117

**Mehparə Hidayətova**
Azərbaycan Respublikasinin büdcə xərclərinin səmərəliliyinin qiymətləndirilməsi.......................................................................................................121

**Faziyə Məlikova**
Azərbaycan-Kanada iqtisadi əməkdaşlığının prioritetlərinin müəyyən edilməsi......124

**Azər İbrahimov**
**Plastik katlarla əməliyyatlar və onların inkişaf istiqamətləri..................................130**

## HƏMKARLAR İTTİFAQI HƏRƏKATI VƏ SOSİAL TƏRƏFDAŞLIQ BÖLMƏSİ

**UOT – 316.35**

**Hüseyn Qaraşov**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, sos.ü.e.d., professor**

# AZƏRBAYCANDA HƏMKARLAR İTTİFAQININ TƏŞƏKKÜL TARİXİNDƏN

*Məqalədə Azərbaycan həmkarlar ittifaqları hərəkatının təşəkkülü və inkişafının mühüm mərhələlərinə tarixi ekskurs edilir, bu hərəkatın yaranmasının müqəddəm sosial-hüquqi-iqtisadi şərtlərinə ətraflı baxış keçirilir. Əməkçilərin sosial-iqtisadi müdafiəsini fəaliyyətinin əsas məhvərinə çevirmiş həmkarlar ittifaqlarının ilk kollektiv müqaviləsinin uğurlu nəticələri, işəgötürənlərlə münasibətlərdə hüquq bərabərliyi prinsipinin qorunmasının zəruriliyinin önə çəkilməsi, bipartist əməkdaşlığın inkişafında işçilərin mənafelərinin qorunması məsələlərinin fundamental əsasları təhlil olunur və sosial-əmək münasibətlərinin tənzimlənməsində əsas determinantların inkişafı yeni baxış bucağından modern metodologiyadan istifadə etməklə araşdırılır.*

Həmkarlar ittifaqları bir sosial institut olaraq qeyri-dövlət təşkilatı olsa da, özünün əməkçi insanların rifahının yaxşılaşdırılması ilə bağlı fəaliyyətində bütün müvafiq institutlarda geniş əlaqələr yaradır, dövlətin sosial siyasətinin həyata keçirilməsində yaxından iştirak edir. Azərbaycan Respublikasının əsas qanununda deyilir ki, Azərbaycan dövlət bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir [1].

24 fevral 1994-cü ildə qəbul olunmuş “Həmkarlar ittifaqları haqqında” Azərbaycan Respublikasının Qanununda “Həmkarlar ittifaqları istehsal və ya qeyri-istehsal sahələrində çalışan işçilərin, habelə pensiyaçıların və təhsil alan şəxslərin əmək, sosial, iqtisadi hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üçün iş yeri, peşələr, sahələr üzrə və respublika səviyyəsində fərdi üzvlük prinsipi əsasında könüllü birləşdiyi, nizamnamələri və bu qanun əsasında fəaliyyət göstərən müstəqil, ictimai, qeyri-siyasi təşkilatdır” fikri öz əksini tapıb [2].

İlk dəfə həmkarlar ittifaqları XVIII əsrin ikinci yarısında Böyük Britaniyada öz peşə mənafelərini müdafiə etmək və sosial statusunu qorumaq üçün birləşmiş yüksək ixtisaslı fəhlələrin assosiasiyası kimi meydana gəlmiş və lokal xarakter daşımışdır. Uzun müddət həmkarlar ittifaqları fəaliyyətini Böyük Britaniyada bu şəkildə davam etdirmişdir. Böyük Britaniyada həmkarlar ittifaqları təşkilatları ilk dəfə yalnız 1824-cü ildə leqallaşmışdır [3].

XIX əsr ərzində həmkarlar ittifaqı Böyük Britaniyadan sonra Almaniya, Avstriya, Hollandiya, Kanada, Fransa və Amerikada yaranmağa başlamışdır.

Tədricən həmkarlar ittifaqlarının sahə istehsalat formaları, milli həmkarlar ittifaqları mərkəzləri meydana gəlmişdir. Bunlardan ən qədimi 1868-ci ildə formalaşmış Britaniya tred-yunionçularının konqresidir. O vaxtdan başlayaraq, həmkarlar ittifaqlarının sosial bazası genişlənməyə başlayır. Belə ki, qeyri-ixtisaslı işçiləri birləşdirən təşkilatlar meydana gəldikcə, həmkarlar ittifaqları, əsasən, maddi istehsal sahələrində yaranır, öz sıralarına fiziki əmək adamlarını cəlb edirlər. XX əsrin əvvəllərində həmkarlar ittifaqlarının beynəlxalq federasiyaları yaranmağa başlayır.

Britaniya tred-yunionçular konqresi yarandıqdan sonra həmkarlar ittifaqları haqqında qanunçuluq işlənib hazırlanması prosesi başlayır. Xüsusilə, bu proses XX əsrin əvvələrində Britaniya

həmkarlar ittifaqları öz siyasi partiyasını – leyboristlər partiyasını yaratdıqdan sonra güclənməyə başlamışdır.

İlk dəfə həmkarlar ittifaqı haqqında qanun Böyük Britaniyada 1871, 1876 və 1913-cü illərdə qəbul olunmuşdur.

Marksizm klassikləri həmkarlar ittifaqlarının sinfi mübarizədəki roluna yüksək qiymət vermiş, iqtisadi mübarizə ilə yanaşı, onu əməklə kapital arasında ziddiyyəti üzə çıxaran təşkilat adlandırmışdır. Marksizmə görə bu qurumun başlıca missiyası “muzdlu əmək sistemini və kapitalın hakimiyyətini məhv etməkdir” [3].

Rusiyada ilk dəfə həmkarlar ittifaqı 1905-ci ildə yaranmışdır. Belə ki,1905-ci ilin mart ayında Putilov, Obuxov və Semennikov zavodlarında məxfi qaydada birinci həmkarlar ittifaqı təşkilatları yaradılır. Bunların ardınca həmin ilin aprel ayında Moskva şəhərində 10 dəmiryol nümayəndələrinin qurultayında Ümumrusiya Dəmiryolçularının həmkarlar ittifaqı yaradılır [8].

Yaz-yay aylarında isə Xarkov, Kiyev, Donbas şəhərlərində, Uralda, Sibirdə, Qərbi Belarusiyada, Litvada, Latviyada həmkarlar ittifaqı təşkilatları meydana gəldi.

1905-1907-ci illər inqilabı ərəfəsində çarizmin Rusiya-Yaponiya müharibəsində rüsvayçı məğlubiyyəti bu ölkənin bütün sosial təbəqələri içərisində dərin narazılıq yaratmışdı. Fəhlələrin iqtisadi vəziyyəti xüsusilə dözülməz halda idi. “Nə qədər pis olsa, bizə bir o qədər yaxşıdır” prinsipinə söykənən bolşeviklər siyasi vəziyyətdən öz hakimiyyət iddiaları üçün əlverişli istifadə edə bilmişlər.

1905-ci ilin oktyabrında Moskvada çağırılmış I həmkarlar ittifaqı konfransında Moskvadan 26 və başqa şəhərlərdən 10 həmkarlar ittifaqı təmsil edilmişdi. 1905-ci illərdə Rusiyanın 46 sənaye mərkəzində həmkarlar ittifaqları yaradılmışdır [8].

XIX əsrin axırlarında Azərbaycanda müxtəlif adlar altında fəaliyyət göstərən, lakin mahiyyətcə qeyri-hökumət təşkilatlarının funksiyasını yerinə yetirən, başqa sözlə, dövlətin görə bilmədiyi fəaliyyəti həyata keçirən, özündə həmkarlar ittifaqlarının özünəməxsus xüsusiyyətlərini daşıyan xeyriyyə cəmiyyətləri müstəsna rol oynamışlar. İmperiyanın ucqar yerlərindən birində yaranmış bu qurumlar statusuna görə hüquqi qüvvəyə malik olmuş, fəaliyyətlərində xalqımızın qarşılıqlı yardım ənənələrini davam etdirən ictimai təşkilatlar olmuşlar. Həmin xeyriyyə cəmiyyətləri el köməkliklərindən fərqli olaraq, öz işlərini Azərbaycanda hüquqi qeydiyyatdan keçmiş, yəni hüquqi sənədlərlə rəsmiləşdirilmiş və dövlət strukturları tərəfindən təsdiq edilmiş nizamnamələr əsasında qururdular. Lakin onlar konkret şəraitdə tədricən xalqın gündəlik iqtisadi problemlərinin həllilə məşğul olmuş, xaraktercə geniş sosial təyinatlı qurumlara çevrilərək hüquqi təşkilatlar kimi fəaliyyət göstərmişlər. Məsələn, əsası 1871-ci ildə Bakıda xalqımızın böyük maarifçisi Həsən bəy Zərdabi və görkəmli mesenat (bu status o dövrdəki Azərbaycan gerçəkliyində xüsusi sosial siyasi mahiyyət kəsb edirdi – müəll.) Hacı Zeynalabdın Tağıyev tərəfindən qoyulmuş ilk “Bakı müsəlman xeyriyyə cəmiyyəti” nəinki ölkəmizdə xeyriyyəçilik hərəkatının bünövrəsini qoymuş, habelə mövcud ictimai şəraitdə Azərbaycanda vətəndaşlıq şüurunun müəyyən inkişaf mərhələsini əks etdirmişdir. Tarixi sənədlər təsdiq edir ki, məhz həmin cəmiyyətin ardınca Azərbaycanda bu tipli qeyri-hökumət təşkilatları xalqımızın sosial-iqtisadi qayğılarının müəyyən qisminin ödənilməsində önəmli işlər görmüşlər [5].

İlk “Bakı müsəlman xeyriyyə cəmiyyəti”nin olduqca mürəkkəb tarixi şəraitdən irəli gələn məşəqqətlər hesabına yarandığını və fəaliyyətə başladığını özünün “Əkinçi” qəzetilə Azərbaycandakı ictimai-iqtisadi və siyasi həyata yeni mənəvi ab-hava gətirən böyük maarifçi lider H.B.Zərdabinin nəsillərə miras qoyub getdiyi əsərlərindən görmək mümkündür. Qeyd edək ki, ilk qeyri-hökumət tipli təşkilatların yaradılması cəmiyyətdə milli şüurun oyanışı, maarifçi ziyalıların siyasi və mədəni cəhətcə təşkilatlanmaya çağırışları dövrünə təsadüf edirdi. Məsələn, Həsən bəy Zərdabi çox çalışırdı ki, “Əkinçi”nin səhifələrində ictimai mərhələlərdən mübahisə açılsın, hər kəs öz mövqeyini bildirsin. “Əkinçi”nin 1876-cı il 6-cı nömrəsində yazılırdı: “Qəzetənin ümdə muradı mübahisədir, aqil şəxslər bir-birilə mübahisə edib işləri xalqa bəyan etsinlər”. Maarifçinin fikrincə, belə bir ictimai

dialoq cəmiyyətin müxtəlif qüvvələrinin milli dirçəliş naminə təşkilatlanmasına yardımçı ola bilər. Bu yolda ilk xeyriyyə cəmiyyətləri mühüm sosial irəliləyiş olmuşlar. Əvvəlki məqama qayıdaraq qeyd edək ki, cəmiyyətin gördüyü işləri əks etdirən sənədlərdən aydın olur ki, bu ilk sanballı qeyri-hökumət təşkilatının idarə heyətinin sədri H.Z.Tağıyev müstəsna rol oynamışdır. 1905-ci ilə aid sənəddə göstərilir ki, həmin qurumun fəxri sədrliyinə Bakı qubernatoru knyaz M.H.Nakaşidzenin arvadı Adeliada Lvovna Lokaşidze seçilmişdir. H.Z.Tağıyevin həyat yoldaşı Sofiya Tağıyeva isə idarə heyətinin fəxri üzvü olmuşdur. Cəmiyyət yoxsul müsəlman ailələrinə paltar, yemək verilməsilə, yaxud kasıb müsəlman uşaqlarının orta və ali tədris müəssisələrində təhsil almağına maddi yardım göstərməklə cəmiyyətdə böyük nüfuz qazanmışdır [3].

Azərbaycanda ilk dəfə 1905-ci il oktyabr ayının 17-də Bakı şəhəri atla sürülən dəmiryolu fəhlələri və qulluqçularının həmkarlar ittifaqı yaradıldı.

XX əsrin əvvəllərində Azərbaycanda həmkarlar ittifaqı təşkilatlarının ilk qeyri-hökumət təşkilatları kimi meydana gəldiyi sosial tarixi şəraitdə cəmiyyətin sosial strukturunda yeni institut formalaşmağa başlayırdı. Həm xeyriyyə cəmiyyətləri, həm də həmkarlar ittifaqları istər sosial xarakterinə, istərsə də funksional istiqamətlərinə görə fərqlənsələr də, mahiyyətcə qeyri-hökumət təşkilatları qismində fəaliyyət göstərmişlər. Müəyyən spesifiklik nəzərə alınsa, bütün ölkələrdə qeyri-hökumət təşkilatlarının tarixi genezisi buna bənzər olmuşdur.

Azərbaycanda tətil hərəkatının gedişində ayrı-ayrı zavodlarda fəhlələrin müvəqqəti komissiyaları, nümayəndələr yığıncaqları və digər təmsilçi orqanlar yaranmışdır. Bu birliklər azlıq təşkil edir, pərakəndə halda fəaliyyət göstərir və bir qayda olaraq, müxtəlif aksiyalar vaxtı yaranırdılar. Çar Rusiyasında hələ 1898-ci ildə Bakı şəhəri uzun sürən iqtisadi depressiya, işsizlik və siyasi sabitsizlik səbəbindən fəhlə iğtişaşlarının, əmək sosial münasibətləri sahəsində sənaye ziddiyyətlərinin kəskinləşdiyi mərkəzlərdən birinə çevrilmişdir. Sosial gərginlik o dərəcəyə çatmışdı ki, hətta hökumət 1902-ci ildə Bakıda fövqəladə vəziyyət tətbiq etmişdi. Rusiya Sosial Demokrat Fəhlə Partiyası (RSDFP) ağır iqtisadi vəziyyəti dəyişdirəcəyi şüarı altında Rusiya fəhlələrini öz ətrafında birləşdirə bilmişdi. Lakin 1903-cü ildə ağır bolşevik və menşevik fraksiyalarına parçalanmış bu partiyaya qarşı ən güclü rəqib – Balaxanıda və Bibi-heybətdə Lev və İlya Şedrinkov qardaşlarının 1904-cü ildə yaratdığı zəhmətkeşlərin müstəqil təşkilatı olmuşdu. Təşkilat proletar kütlələrin iqtisadi vəziyyəti ilə bağlı problemlərin həllinə üstünlük vermişdir [6].

1904-cü il dekabr ayının 13-30-da Bakı fəhlələrinin ümumi tətili olmuşdur.Tətil fəhlə hərəkatı tarixində ilk dəfə olaraq fəhlələrlə neft sənayeçiləri arasında kollektiv müqavilənin imzalanması ilə nəticələnmişdir.

- Gecə işə çıxanlar üçün və axşam növbəsiz işə çıxıb işləyənlər üçün il ərzində 9 saatlıq iş günü müəyyən olunur.

- Bir növbədə işləyən günəmuzd usta və fəhlələr üçün həftədə bir azad gün təyin edilir ki, həmin gün üçün onlara əmək haqqı ödənilmir.

Aylıq əmək haqqı olan fəhlələrə, üç növbədə çalışan fəhlələr istisna olmaqla, əmək haqqından tutulmamaq şərti ilə ayda 4 dəfə olmaqla 24 saatlıq işdən azad edilirlər.

- Daxili nizam-intizama riayət edilməsi haqqında qaydalarda göstərildiyi kimi, iş növbəsinin davamiyyəti bayram və bazar günləri ərəfəsində 8 saat təyin edilir.

Bayram və bazar günləri ərəfəsində işin dayandırılması müdiriyyətin səlahiyyətinə verilir.

- Müntəzəm olaraq gündəlik iş vaxtından artıq işə cəlb olunma ləğv olunur.

- Daima gecə işlərin aparılması xüsusi ştatda olan işçilər tərəfindən aparılır, onların iş vaxtının davamiyyəti 8 saata bərabər olmalıdır.

- 3 növbəli iş rejimi aşağıda adları çəkilən işçilərə şamil edilə bilər: dartayçı; vedrəçi; ocaqçı və yağlayıcı [10].

Qazma işlərini aparan fəhlələrin dəstəsi üçün tədricən 3 növbəli iş rejimi tətbiq edilir; 3 növbəli işlərdə 5 nəfər, 2 növbəli işlərdə isə 6 nəfər işləməlidir.

- Mədən emalatxanalarında imkan daxilində dəstə işlərindən imtina ediləcəkdir.
- Artel işlərdən istifadəsi mümkün olduqda podrat işçilərdən imtina olunacaqdır.
- İş axtaran işçilər üçün qəbul günləri təyin olunur və vakansiya yerlərin olması haqqında elan verilir. Fəhlələrin işə qəbulu, həmin məntəqənin rəhbərliyi tərəfindən həyata keçirilir.
- Bir tornaçıya 1 dəzgahdan artıq baxmaq həvalə edilərsə, hər bir artıq dəzgah üçün ona təcrübəli köməkçi təhkim olunur.
- Müəssisənin müdiriyyəti fəhlə ilə münasibətdə daima nəzakətli olmalıdır.
- Bütün təbəqələr üçün aşağıdakı minumum aylıq əmək haqqı təyin olunur:

| | |
|---|---|
| Qazma fəhlələrin dəstəsi üçün | - 20 rub |
| Dartayçı üçün | - 21 rub |
| Ocaqçılar üçün | - 22 rub |
| Yağlayıcılar üçün | - 21 rub |
| Qara fəhlələr üçün | - 20 rub. |

Mənzil –məişət şəraiti olmayan günəmuzd işləyən fəhlələr üçün günə 70-90 qəp.

kazarma şəraitində işləyənlər üçün – 60-80 qəp.

şagirdlər üçün şərait yaradılmadan – 40 qəp.

Minimal əmək haqqı dedikdə, ən aşağı ödəniş başa düşülməlidir. Bu, o deməkdir ki, dartayçılardan, vedrəçilərdən, ocaqçılardan, yağlayıcılardan, qara fəhlələrdən və şagirdlərdən heç biri yuxarıda qeyd edilən 12-ci bənddə göstərilmiş ödənişlərdən az olmayacaqdır. Misal üçün, hər hansı bir dartayıcı və ya bağlayıcı hal-hazırda 17 rub. aylıq əmək haqqı alırsa, 01 yanvar 1905-ci ildən o, 21 rub.aylıq əmək haqqı alacaqdır [10].

12-ci bənddə göstərilən əmək haqqından çox alan dartayıcılar, ocaqçılar, yağlayıcılar, qara fəhlələr və şagirdlər hal-hazırda aldıqları əmək haqlarının miqdarı dəyişməz saxlanılır.

13. Üç rayon təyin edilir: “Zavod, Bibi-heybət və Balaxanı-Sabunçu-Zabrat”. Bir rayondan digərinə ezamiyyə edildiyi zaman fəhlənin gündəlik əmək haqqının üzərinə yol xərcləri ilə birlikdə 30% əlavə ödəniləcəkdir; rayon daxilində, yaxud bir rayondan digər rayona ezamiyyə gedişi vaxtı-iş vaxtı sayılır.

14. Xəstəlik müddəti ay yarım (45) gün olduğu halda aylıq əmək haqqının məbləği yalnız 50% ödənilir; bu zaman kommunal xərcləri tam şəkildə ödənilir. Fəhlələrin müalicəsi mütləq idarənin hesabından ödənilir. Fəhlələrin təqsiri olmadan boşdayanma vaxtı tam ödənilir.

15. Tətilə çıxan fəhlələrə heç bir ödəniş verilmir.

16. Fəhlələrin əmək haqqının ödənişləri ayda iki dəfə və mütləq iş vaxtı aparılır. (hər ayın 10 və 25 yaxud 5-20-də).

17. Emalatxanalar gigiyena cəhətdən tam yararlı olmalıdır (istilik sistemi, otaqların havasının təmizlənmə sistemi, işıq və s.).

18. Dağlıq qəsəbələrdə gigiyena cəhətdən rahat evlərin tikilməsi məsələsi sahələri və vəsaitin ayrıldığından sonra həll ediləcəkdir.

19. Ev ilə təmin olunmayan fəhlələrə, idarə rəhbərliyi tərəfindən ev pulu aşağıda göstərilən miqdarda ödənilir.

A. <u>Mədən rayonlarında:</u>

| | |
|---|---|
| Ailəvi ustalara ayda | 13 rub. |
| Subaylara ayda | 7 rub. |
| Ailəvi çəkicvuranlara ayda | 6 rub. |
| Subaylara ayda | 3 rub. |

B. <u>Qara və Ağ şəhər ətrafında:</u>

| | |
|---|---|
| Ailəvi ustalara ayda | 8 rub. |

Subaylara ayda 4 rub.
Ailəvi çəkicvuranlara ayda 6 rub.
Subaylara ayda 3 rub [10].

Mədən və zavod rayonlarında: işləyən fəhlələrə ailəvilərə 16 litr, subaylara 8 litr ağ neft verilir, idarə rəhbərliyinin təyinatına əsasən zavod rayonlarında otaqların qurudulması üçün mazut və neft, içməli su isə tələbata əsasən pulsuz və ayrılmış yerlərdə verilir.

Bibi-heybət rayonunda işləyən, Bayıl rayonunda yaşayan fəhlələrə evlərin işıqlandırılması və isitməsi üçün 2 dəfə çox ağ neft verilir.

Mədənlərə və zavodlara kömür verilmir.

20. Hər həftə hamamdan istifadə etmək üçün fəhlələrə pulsuz kontromarkalar ayrılır.

21. Hər bir mədən sahəsində fəhlələrin qidalanması üçün xüsusi otaqlar ayrılmalıdır.

22. Fəhlələrin üst axtarışı ləğv edilir.

23. Fəhlələr üçün haqq-hesab kitabçalar rus dilində çap olunmaqla bərabər, yerli dillərdə də çap olunur [10].

Yuxarıda irəli sürülən əlavə və dəyişikliklər o vaxt müəssisələr üçün mütləq hesab oluna bilər ki, işlər tam istehsal gücündə çərşənbə günündən, yəni 1904-cü ilin dekabr ayının 28-i, səhər saat 6-dan bərpa olunsun.

Bu halda tətil zamanı işə çıxan bütün fəhlələrə, həmçinin 16 dekabr tarixindən işə çıxan fəhlələrə iş başlanana qədər onlara təyin olunmuş əmək haqqının yarısı ödəniləcəkdir.

Əgər işlər 28 dekabr tarixindən bərpa olunmazsa, onda rəhbərlik götürdüyü öhdəçiliklərdən özünü azad hesab edir və bütün işçilər: usta və fəhlələr, eləcə də günəmuzd fəhlələr daxil olmaqla, 16 dekabr tarixindən işdən azad olunmuş hesab olunurlar.

Neft sənayesi fəhlələrinin vahid ittifaqda birləşdirilməsinə daha çox diqqət verilirdi. Azərbaycanda ilk güclü həmkarlar ittifaqı təşkilatı 1906-cı il oktyabr ayının 1-də yaradılmış neft sənayesi fəhlələri həmkarlar ittifaqı olmuşdur. Bu həmkarlar ittifaqının yaradılmasını asanlaşdıran cəhətlərdən biri ondan ibarət idi ki, ittifaq yarananadək sənaye müəssisələrində seçkili zavod və mədən fəhlə komissiyaları fəaliyyət göstərirdi və bu komissiyalar fəhlələri həmkarlar ittifaqlarına cəlb etmək üçün çalışırdılar.

Neft sənayesi fəhlələri həmkarlar ittifaqının Nizamnaməsinin birinci paraqrafında cəmiyyətin üzvlüyünə ancaq fəhlələrin daxil ola bilməsi, Nizamnamənin qeydlərində isə sahibkarlar və mədən-zavod idarəçiliyinin üzvlərinin cəmiyyətin üzvləri sırasına daxil edə bilməməsi qeyd olunmuşdu. Həmkarlar ittifaqı istehsalat prinsipi üzrə qurulurdu. Onun üzvü milliyyətindən və ixtisasından asılı olmayaraq, ittifaqa daxil olarkən 50 qəpik məbləğində üzvlük haqqı ödəyən və bundan əlavə hər ay cəmiyyətinə xeyrinə əmək haqqının 2 fazini keçirən hər bir neftçi-fəhlə ola bilərdi.1908-ci ildən aylıq üzvlük haqqı 2%-dən 1%-ə endirilmişdi.

Neft sənayesi fəhlələri həmkarlar ittifaqı 1907-ci ilin avqustunda özünün mətbu orqanı olan “Qudok” qəzetini buraxmağa başladı. Bu qəzetin cəmi 37 nömrəsi buraxılmışdı. 1908-ci ilin avqustunda isə İttifaq “Bakinski raboçi” qəzetini buraxmağa başladı. Neft sənayesi fəhlələri həmkarlar ittifaqı qazmaçı fəhlələr içərisində mədən-zavod komissiyalarının təşkili sahəsində geniş təbliğat işi aparırdılar. İttifaq tətil etmiş fəhlələrə, ailə başçısını itirmiş fəhlə ailələrinə böyük kömək göstərir, işsizlər arasında əhəmiyyətli iş aparırdı. İttifaq fəhlələrə tibbi xidmətin təşkili sahəsində geniş iş apararaq, xəstəxana açılmasına, tibbi xidmətə vəsaitin artırılmasına, vərəmlə mübarizə komissiyasının təşkilinə, xəsarət almış fəhlələrin müayinəsi üzrə həkim komissiyasının yaradılmasına nail olmuşdu.

Bolşeviklər hesab edirdilər ki, həmkarlar ittifaqları inqilabi fəaliyyətlə məşğul olmalıdırlar. Menşeviklər isə dünyada mövcud olan tred yunionçuluq prinsip və vəzifələrinin həmkarlar ittifaqlarının fəaliyyətində möhkəmlənməsinə nail olmağa çalışırdılar. Bu prinsip həmkarlar ittifaqlarına

yalnız fəhlələrin sosial-iqtisadi problemlərinin həlli ilə məşğul olmağa imkan verirdi. Çar hökuməti isə həmkarlar ittifaqı təşkilatlarını öz nəzarəti altında saxlamaqla onlardan öz məqsədi üçün istifadə etməyə çalışırdı. Çar hökuməti 1906-cı il martın 4-də həmkarlar ittifaqları haqqında xüsusi qanun – “Ticarət və sənaye müəssisələrində çalışan şəxslər və ya bu müəssisələrin sahibləri üçün təsis edilmiş həmkarlar cəmiyyətləri haqqında müvəqqəti qayda” qəbul etmişdi. Bu qanun həmkarlar ittifaqları və cəmiyyətlərə onların nizamnamələri müəssisə rəhbərliyi tərəfindən qeydiyyata alınmaq şərtilə leqal fəaliyyət göstərmək hüququ verirdi. Çar hökuməti bu qanunun vasitəsilə fəhlələri mütləqiyyətə qarşı mübarizədən yayındırmağa, həmkarlar ittifaqlarını bolşeviklərin təsirindən çıxarmağa, onların fəaliyyətini adi qarşılıqlı yardım cəmiyyətlərinin dar çərçivəsi ilə məhdudlaşdırmağa ümid verirdi.

Neft sənayesi fəhlələri həmkarlar ittifaqı ilə yanaşı digər sənaye fəhlələrini birləşdirən həmkarlar ittifaqı təşkilatları da yaranırdı. 1908-ci ildə kontor, zavod və mədən qulluqçuları həmkarlar ittifaqları, eyni zamanda ağac emalı fəhlələri həmkarlar ittifaqı yaranmışdı.

Bu dövrdə Azərbaycanın qəzalarında da həmkarlar ittifaqı təşkilatları fəaliyyət göstərirdi. 1910-cu ildə Astarada dəniz və sahil fəhlələrinin, Lənkəran qəzalarında isə balıq tutanların həmkarlar ittifaqı təşkilatları yarandı.

1911-ci ilin aprelində Neft sənayesi fəhlələri həmkarlar ittifaqının ümumi iclasında yeni idarə heyəti seçildi, F.P.Trofimov İttifaqın sədri, katib A.İ.Dodaqov seçildilər [6].

1912-ci ilin martında Neft sənayesi fəhlələri həmkarlar ittifaqı yeni adla – “Neft sənayesi və ona köməkçi istehsal sahələrinin həmkarlar cəmiyyəti” – öz fəaliyyətini bərpa edib. Bu ittifaq 1914-cü ilin fevralına qədər fəaliyyət göstərə bilər. 1915-ci ilin fevralına qədər fəaliyyət göstərə bilir. 1915-ci ildə nəşriyyatçılar, dərzilər və ticarət-sənaye qulluqçularının həmkarlar ittifaqları fəaliyyətə başlayır.

Birinci dünya müharibəsinin başlanması ilə ictimai həyatın bütün sahələrində olduğu kimi həmkarlar ittifaqı təşkilatlarının fəaliyyətində də durğunluq müşahidə edilir.

Fevral burjua demokratik inqilabının qələbəsindən sonra həmkarlar ittifaqı təşkilatlarının fəaliyyətində yeni canlanma başlandı. Bakıda neft, mədən və zavodların fəhlələri Neft sənayesi fəhlələri həmkarlar ittifaqının bərpa edilməsinə nail olmağa çalışırdılar. Bakı bolşeviklərinin təşəbbüsü ilə Fəhlə deputatları soveti 1917-ci ilin martında Neft sənayesi fəhlələri həmkarlar ittifaqının təşkili üzrə xüsusi komissiya ayırmışdı. 1917-ci ilin aprelində komissiya həmkarlar ittifaqının nizamnamə layihəsini hazırladı. Təşkilat komissiyası neftçi fəhlələrin həmkarlar ittifaqı təşkilatlarına cəlb edilməsi üçün geniş iş aparırdı. Bolşevik mətbuatında bu məsələ ilə əlaqədar geniş təbliğat işləri görülürdü. “Bakinski raboçi” qəzetində dərc edilmiş “Neft sənayesi fəhlələri həmkarlar ittifaqının təşkilinə dair” məqalədə həmkarlar ittifaqının yaradılmasının zəruriliyi sübut edilirdi. Məqalədə obrazlı şəkildə yazılmışdı: “Biz artıq öz təcrübəmizdən bilirik ki, əgər güclü həmkarlar ittifaqımız olmasa, hər hansı kollektiv müqavilə qum üzərində yazı olacaqdır. Bizə neft sənayesində fəhlələrin əksəriyyətini əhatə edən güclü həmkarlar ittifaqı lazımdır” [10].

1917-ci ilin mayında Neft sənayesi fəhlələri həmkarlar ittifaqının təsis yığıncağı keçirildi. Yığıncaqda ittifaqın sədri İ.F.Fioletov seçildi. Bu dövrdə artıq ittifaqın üzvlərinin sayı 4 min nəfərdən çox idi.

Neft sənayesi fəhlələrini həmkarlar ittifaqına daha geniş cəlb etmək məqsədilə ittifaqın rayon şöbələrinin yaradılmasına xüsusi diqqət verilirdi. Neft mədən və müəssisələrini əhatə edən bütün ərazi 10 rayona bölünmüşdü. Neft sənayesi və ona köməkçi istehsalat sahələri fəhlələrinin Bibi-heybət, Qara şəhər, Sabunçu, Balaxanı, Suraxanı, Binəqədi və digər rayon şöbələrinin yaradılması qərara alındı. İttifaqın rayon şöbələrinin yaradılması onun üzvlərinin sayının artmasına müsbət təsir göstərdi. 1917-ci ilin sonunda Neft sənayesi fəhlələri həmkarlar ittifaqı üzvlərinin sayı 30 min nəfərə çatırdı.

Neft sənayesi fəhlələri həmkarlar ittifaqının 1917-ci ilin sentyabrında təşkil etdiyi güclü tətil nəticəsində həmin il oktyabrın 2-də neft sənayeçiləri kollektiv müqavilənin şərtlərini qəbul etdilər. Neftçilərin qələbəsi digər sənaye sahələri fəhlələrini də ruhlandırdı. Mətbəə-litoqrafiya və cildləmə fəhlələri həmkarlar ittifaqının təşkil etdiyi tətillər mətbəə sahiblərini 1917-ci il noyabrın 13-də fəhlələr üçün əlverişli olan kollektiv müqavilələri imzalamağa məcbur etdi. Müqaviləyə görə 8 saatlıq iş günü tətbiq edilir, müəssisələrə fəhlələrin qəbulu yalnız qeydə alınmış və xüsusi qeydiyyat biletləri olan həmkarlar ittifaqları üzvləri sırasından həyata keçirilir, kişilərlə bərabər eyni işi görən qadınların əmək haqqı bərabərləşdirilir, 1 may fəhlə bayramı kimi tanınırdı. Kollektiv müqavilə 1917-ci il oktyabrın 1-dən 1918-ci il oktyabrın 1-dək olan müddətə bağlanmışdı.

Beləliklə, Fevral burjua-demokratik inqilabının qələbəsindən sonra Bakıda xeyli sayda həmkarlar ittifaqı təşkilatları, mədən-zavod və fabrik komitələri meydana gəlmişdi. Neft sənayesi fəhlələri həmkarlar ittifaqında bolşeviklər üstün mövqeyə malik idilərsə, qeyri-sənaye fəhlələrini əhatə edən həmkarlar ittifaqı təşkilatlarında isə menşeviklər güclü təsirə malik idilər. Həmkarlar ittifaqı hərəkatında birliyin olmaması onların zəhmətkeşlərin mənafeləri uğrunda birgə mübarizəsinə əngəl törədirdi [8].

1917-ci il mart ayının 14-də Bakıda ittifaqlararası ilk təşkilat – “Həmkarlar ittifaqlarının Mərkəzi Bürosu” yaradıldı. Burada əsasən qeyri-sənaye sahəsində yaradılan (mətbəə işçiləri, kontorçular, əczaçılar, xidmətçilər, elektriklər, rabitə-teleqraf qulluqçuları, camaşırxana işçiləri, qızıl-gümüş ustaları, bərbərlər, dərzilər, rəngsazlar, səhər xidmətçiləri, ağacemalı işçiləri və dəyirmançılar) həmkarlar ittifaqı təşkilatları birləşmişdi. Tədricən bu büroya sənaye müəssisələrinin həmkarlar ittifaqları təşkilatları da qoşulmağa başlayırdı. 1917-ci il iyun ayında bu büro “Bakı şəhəri və onun rayonlarının həmkarlar ittifaqları Şurası” adlandırıldı [10].

Bolşeviklər bu Şurada rəhbərliyi ələ keçirməyə çox çalışırdılar. Lakin Şuraya əsasən rəhbərlik edən menşevik və eser partiyaları imkan vermirdilər. Bolşeviklər 1918-ci ilin may ayında istədiklərinə nail ola bildilər. Belə ki, mayın 23-də Bakı həmkarlar ittifaqları Şurasının yenidən təşkil olunması ilə bağlı məsələyə baxıldı. Şuranın yeni heyəti seçildi. Şuraya rəhbərlikdə üstünlük bolşeviklərin əlinə keçir. Həmkarlar ittifaqı təşkilatları faktiki olaraq Bakıdan neft, benzin, digər yanacaq növləri və pambığın Sovet Rusiyasına daşınıb aparılmasında bolşeviklərin fəal yardımçıları oldular.

Azərbaycan Xalq Cumhuriyyəti qurulduqdan sonra xalqın sərvətlərinin talan edilməsinin qarşısı alındı. Lakin bolşeviklərin həmkarlar ittifaqları təşkilatlarına təsiri güclü olaraq davam edirdi. Cumhuriyyətin banilərindən olan Cavad bəy Rza bəy oğlu Məlik-Yeqanov Cumhuriyyətin Həmkarlar İttifaqları Təşkilatının yaradıcılarından olmuşdur. O, fəhlə məsələsini bolşevik ideologiyasının inhisarına verənlərdən fərqli olaraq, Azərbaycan Cümhuriyyətinin müstəqilliyi naminə çalışan fəhlələrin təmsilçisi olaraq, Türk Fəhlə Konfransının yaradıcısı olmuş və Mərkəzi Həmkarlar İttifaqının sədri seçilmişdir. Ümumilikdə isə Bakı fəhlələri içərisində qeyri-azərbaycanlılar üstünlük təşkil edirdi. Onların da əksəriyyəti bolşeviklərin tərəfini saxlayırdı.

Gənc Azərbaycan Demokratik Respublikası hökuməti ölkədə sabitliyi saxlamaq üçün bütün diplomatik imkanlarından çevikliklə istifadə edərək, ingilis komandanlığı ilə siyasi kompromisə getməyə məcbur olmuşdu. Bu dövrdə xırda burjua liderlərinin rəhbərlik etdiyi Bakı Fəhlə Konfransının (BFK) hökumətlə barışmaz müxalifətdə olması ADR-in fəaliyyətinə pozucu çətinliklər yaradırdı. 1918-ci il dekabrın 24-də BFK dustaqların buraxılması, mətbuat azadlığı, həmkarlar ittifaqının sərbəstliyi, yığıncaqlar azadlığı şüarları altında tətil keçirdi. Bu xəyanətkar tətildə menşevik Çurayev ADR hökumətinin guya həmkarlar ittifaqlarının azadlığını pozduğu barədə riyakar bəyanat vermiş və qanuni Azərbaycan dövlətilə hesablaşmayaraq ingilis komandanlığından tələb edirdi ki, neft sahibkarlarından və fəhlə konfransı nümayəndələrindən ibarət sazişçi komissiya yaradılsın və kollektiv müqavilə bərpa olunsun. BFK-nın iclasında iştirak edən M.Ə.Rəsulzadə konfransın liderlərinin separatçı mövqeyini qəti pisləmiş və xüsusilə vurğulamışdı ki, fəhlələrin iqtisadi maraqları

ilə bağlı bu problemin həllində səlahiyyətli tərəf ingilis komandanlığı deyil, öz parlamentinə söykənən yeganə qanuni Azərbaycan hökumətidir [10].

Üçgünlük 1918-ci il dekabr tətili Bakı fəhlələrinin qələbəsi ilə başa çatdı. Tətilin “ibrət dərsləri” bu oldu ki, fəhlə kütlələri içərisində bolşeviklərin riyakar siması üzə çıxdı, ingilis komandanlığı isə Bakı proletariatının real gücünü hiss edərək, onun siyası tələblərinə daha ehtiyatlı yanaşmağa başladı. Komandanlıq güzəştə gedərək məhbusları azad etməli olmuşdu. Vəziyyətin mürəkkəb xarakterini real qiymətləndirən Parlament özünün 1918-ci il 25 dekabr tarixli iclasında siyasi məhbuslara amnistiya vermək məqsədilə A.Kardaşev, A.Əfəndiyev, A.Tağıyev, A.Səfikürdski, S.Ağamalıoğlundan ibarət komissiya yaratmalı oldu. Fəhlə tətillərinin yaratdığı mürəkkəb sosial-siyasi şərait elə idi ki, həm ADR hökumətinin, həm BFK-nın tədbirlərində fəhlələrin əmək hüquqları gündəlikdən düşmürdü. Dekabr tətilindən sonra mütəmadi keçirilən fəhlə konfranslarında daha siyasi xarakterli məsələlərin müzakirəsinə yer verirdi. Artıq 1919-cu ilin yanvarında etnik situasiya da mürəkkəbləşmişdi. Belə ki, rus fəhlələri açıq-aşkar kommunistlərə meyil edir, bolşeviklərin konfransında onlar daha çox çıxış edirdi, fəhlələr arasında Müsavat hökumətinin sosial siyasətinə qarşı böhtançı bəyannamələr yayırdılar. Həmin ilin martından kommunistlər konfransın tədbirlərində çoxluq təşkil etməyə başlayır. Artıq konfransın rəyasət heyətində təmsil olunan 10 üzvdən 7-si kommunist idi. 1919-cu il yanvarın 8-də parlament iclasında müsavatçı A.K.Kazımzadənin müsavat fraksiyasının Əmək nazirinə çatdırdığı tələbdə fəhlələrin vəziyyətinin son dərəcə ağır olduğu göstərilir, kollektiv müqavilənin ləğv edilməsi, əmək haqqının aşağı düşməsi xüsusilə vurğulanırdı. Müsavat fraksiyasının bu haqlı iradına Əmək naziri A.Səfikürdski operativ reaksiya verərək, fəhlələrin vəziyyətini yaxşılaşdırmaq üçün hökumətin bütün səyləri göstərəcəyini bəyan etmişdir. O, müttəfiqlərin, komandanlığın, neft sahibkarlarının, bank və fabrik müfəttişliyi nümayəndələrinin iştirakı ilə çağırılmış müşavirədə 1919-cu il yanvarın 1-dən fəhlə və qulluqçuların maaşını artırmaq məqsədilə müəyyən vəsaitin ayrılacağını bəyan etmişdi. Əmək nazirliyi iqtisadiyyatı inkişaf etdirmək təşəbbüsünü bolşevik hay-küyçülərinin, eləcə də menşevik-daşnak millətçilərinin öhdəsinə buraxmamaq üçün özü fəhlə məsələsi üzrə xüsusi müşavirənin təşkilinə başlamışdı. Xüsusi müşavirə əməyin mühafizəsi və fəhlələrin məişət məsələləri ilə bağlı problemləri tez bir zamanda həll etməyi planlaşdırmışdı. Təəssüf ki, həm subyektiv, həm də obyektiv səbəblər, eləcə də bürokratik süründürməçilik üzündən parlament gənc respublikanın siyasi imici üçün müstəsna əhəmiyyət kəsb edən bu sənədi yalnız 1919-cu il martın 19-da təsdiq etdi. Hökumət “fəhlələr məsələsi”lə ciddi məşğul olsa da, əmək haqqının artırılması məqsədilə mümkün daxili vəsait və imkanların axtarışlarında əlindən gələni etsə də, ölkənin iqtisadi vəziyyətində müsbət dəyişikliklərə nail ola bilməmişdi, əksinə, bolşeviklərin təxribatçı səyləri nəticəsində istehsalın tempi aşağı düşür, gündəlik tələbat məhsullarının qiyməti artırdı. Lakin artmaqda olan iqtisadi böhran hökuməti təxirəsalınmaz tədbirlər görməyə vadar etsə də, digər partiya və fraksiyaların parlamentin fəaliyyətini pozmağa yönəlmiş hərəkətləri ölkədə siyasi-iqtisadi böhranı daha da kəskinləşdirirdi. Məsələn, 1919-cu il fevralın 4-də Parlamentdə fəhlə komissiyasının əmək haqqını artırmaq üzrə qanun layihəsi müzakirə edilərkən, sosialistlər bunun fəhlələrin maddi vəziyyətinin yaxşılaşdırılmasında heç bir faydası olmayacağını da israr etmişdilər. Bu məsələdə “İttihad” partiyası da sosialistləri dəstəkləmişdir. Layihəni yalnız “müsavat”çılar bəyənib müdafiə etmişdilər. İttihadçıların bu mövqeyi əslində hökumətə ilk etimadsızlıq təzahürü idi. Hümmətçi – menşeviklər də hökumətin iqtisadi siyasətini birmənalı şəkildə qeyri-qənaətbəxş sayır, üstəlik də israr edirdilər ki, mövcud parlament fəhlə və kəndlilərin mənafelərinin əsl müdafiəçisi deyildir. Buna görə də təsadüfi deyildir ki, ölkədə hökumət böhranı ilə müşayiət olunan ağır iqtisadi çətinliklərdən istifadə edən bolşeviklər Bakı fəhlələri və Zaqafqaziya və Şimali Qafqaz əhalisi ilə vahid cəbhə yaradıb, yerli “əksinqilabi” hökumətləri yıxıb Sovet Rusiyası ilə birləşmək taktikasını seçmişdilər. Bu taktikaya real qüvvə vermək məqsədilə Bakı bolşeviklərinin təşəbbüsü ilə Bakıda

1919-cu il aprelin 27-də Zaqafqaziya, Dağıstan və Zakaspi həmkarlar ittifaqlarının qurultayını keçirmişdilər. Qurultay “proletar diktaturası yolu ilə sosializmə çatmaq” şüarı altında keçmişdi. Beləliklə, həmkarlar ittifaqları tamamilə bolşeviklərin siyasi mübarizə alətinə çevrilmiş oldu. Ona görə də bütün tətillər siyasi şüarlar altında keçirilirdi. Tətillər bütün hallarda ölkənin siyasi sabitliyinə ciddi təsir göstərir, kapital ilə əmək arasında konfliktləri daha da kəskinləşdirirdi. Rusiya ilə ticarət əlaqələrinin kəsilməsi isə Azərbaycanı həm iqtisadi, həm də siyasi cəhətcə gücdən salırdı. Əhalinin yoxsulluğunu siyasi spekulyasiya obyektinə çevirən bolşeviklər müsavatçı həmkarlar ittifaqlarının sosial proqramını gözdən salmaq məqsədilə fəhlələri tez-tez təxribatçı tətillərə təhrik edirdilər. ADR-in antiböhran proqramının həyata keçirilməsinə hər vasitə ilə mane olan bolşeviklər bilərəkdən ümumi tətil elan etmiş, təkcə iqtisadi tələblər (kollektiv müqavilənin bərpası) deyil, həmkarlar ittifaqının funksiyalarına zidd siyasi tələblər (neft məhsullarını Sovet Həştərxanına göndərmək) irəli sürmüşdülər. Bolşevik “liderləri” ümumi Bir May siyasi tətilini keçirməyə nail olsalar da, hökumətin iqtisadi siyasəti əleyhinə aksiya keçirmək niyyətlərini həyata keçirə bilməmişlər. Çox önəmlidir ki, müsavat hökumətinə sadiqliyini nümayiş etdirərək, azərbaycanlılar tətilin hökumət əleyhinə çevrilməsinə mane olmuşdular. Bu bir daha azərbaycanlıların milli-siyasi şüurunun artmasından xəbər verirdi. Lakin parlament də öz növbəsində siyasi tətillərə yol verməmək məqsədilə 1919-cu il mayın 5-də elan etmişdi ki, BFK-nın keçirdiyi tətil iqtisadi tələblərdən uzaq siyasi aksiyalar olub, milli dövlətçiliyə qarşı çevrilmiş tətillərdir. Bu tipli tətillərdə iştirak edənlər həbs ediləcək və ölkə hüdudlarından qovulmaqla cəzalandırılacaqlar. Hökumət siyasi gərginliyi azaltmaq üçün Əmək nazirinə tapşırmışdı ki, sahibkarlarla fəhlələrin birgə görüşündə iqtisadi tələbləri müzakirə etsin. Bunu sosial tərəfdaşlıq yolunda ilk mühüm addım kimi qiymətləndirmək olar [10].

Hökumətin qadağasına baxmayaraq, 1919-cu il mayın 6-da BFK yenidən tətil elan etdi. Azərbaycanlı fəhlələrin tətilin keçirilməsi əleyhinə qəti mübarizəsi hökumətin qətiyyəti, eləcə də ölkədə sabitliyə maraq göstərən ingilis komandanlığı tərəfindən ADR-in siyasətinin dəstəklənməsi dəmiryolçuların tətilini iflasa uğratdı. Hökumət mayın 9-da tətilçilərin 43 fəalını həbs etmişdi. Bunların arasında A.Mikoyan, A.Anaşkin, A.Çurayev və Qurbanov var idi. Dəmir yolu məsələsinə daha çox strateji faktor Cənubi Qafqazda müttəfiq qoşunlarının baş komandanı, general Q.F.Millin əmrində göstərilirdi ki, dəmir yollarının, rabitə yollarının, körpülərin, hərbi sursat anbarlarının təlef edilməsində iştirak edən şəxslər hərbi tribunala veriləcək, ölüm cəzasına məhkum ediləcəklər.

Əmək naziri isə sahibkarlardan fəhlələrin tətillər ərzində iş günlərini ödəməsini tələb etmişdi. 1919-cu il 13 may tətili tam məğlubiyyətə uğradı, baxmayaraq ki, həmin dövrdə bolşeviklərin rəhbərliyi onlara “rəğbət” bəsləyən həmkarlar ittifaqlarını “Bakı şəhəri və onun rayonlarının neft və emal sənayesi və onlara köməkçi sahələrin işçilərinin Birləşmiş ittifaqı”nda birləşdirə bilmişdilər. Maraqlıdır ki, tətilçilər içərisində müsəlman bolşevikləri iştirak etməmişdilər. Tətilin uğursuzluğunda müttəfiq qoşunların baş komandanlığının dəstəyilə yanaşı, BFK-nın daxilində birliyin olmaması da neqativ rol oynamışdır. Üstəlik, tətil başlanmazdan əvvəl gözləmə mövqeyi tutan menşevik-eserlər sonralar ona mənfi münasibət bildirmişlər. Bu siyasi aksiyada bolşeviklər məğlub olsalar da, onlar ADR-in sabitlik proqramını pozmaq siyasətindən heç zaman əl çəkməmişlər. Belə ki, ilk pozucu təşkilati addım olaraq, onlar BFK-nın menşevik rəhbərliyini bolşevik liderləri əvəz etməyə nail olmuşdur. Bu taktiki manevr bolşeviklərə həmkarlar ittifaqını nəzarətə götürmək strategiyasını həyata keçirmək yolunda ciddi addım oldu. Etiraf edilməlidir ki, konkret şəraitdə siyasi-iqtisadi sabitsizlik obyektiv olaraq bolşeviklərin təxribatçı fəaliyyətinə işləyirdi. Cari iqtisadi problemlərin həll edilməməsi, sənaye işçiləri arasında narazılıq bolşeviklərə həmkarlar ittifaqlarından fəhlələrə psixoloji təsir aləti kimi istifadə etməyə imkan yaratmışdı. Digər tərəfdən, hökumətin həmkarlar ittifaqları ilə işləmək sahəsində çevik siyasətinin olmaması bolşeviklərin hökuməti devirməklə bağlı demoqoji təbliğatına psixoloji mühit yaratmışdı. ADR-in sosial bazasının tükənməyə başladığı həmin dövrdə

əvvəlcə çar Rusiyasını, sonralar isə öz qanuni milli dövlətlərini devirmək proqramını səylə həyata keçirməyə çalışan fəhlə komissiyalarının fəaliyyətində öz şüarları ilə həmkarlar ittifaqlarını partiyanın möhkəm dayağına çevirmək siyasətlərini yeritmişlər. Bolşeviklərin bu taktikası bir daha sübut etmişdi ki, onlar həmkarlar ittifaqlarının əsl sosial təyinatından yan keçərək, Azərbaycanın ictimai mühitilə heç bir əlaqəsi olmayan proletar inqilabı ideyalarını təbliğ etməyə, partiyanın hegemon qüvvə olması psixologiyasını kütlələrin beyninə yeritməyə üstünlük vermişlər. Siyasi şüurun çox aşağı səviyyədə olması, BFK-da xırda burjua müxalifətinin zəifləməsi bütövlükdə iqtisadi vəziyyətdə pozitiv irəliləyişlərin olacağına inamsızlıq ona gətirib çıxardı ki, 1919-cu ilin yazında həmkarlar ittifaqları üzərində tam nəzarət bolşeviklərin əlinə keçdi. Təsadüfi deyildir ki, 1919-cu ilin aprelində keçirilmiş Azərbaycan, Dağıstan, Zakaspi Həmkarlar İttifaqlarının qurultayı bolşeviklərin tam üstünlüyü ilə keçmiş, bununla da sosialistlərin son dayağı olan Bakı Həmkarlar İttifaqları Şurasında da bolşeviklər tam hakimiyyətə nail ola bilmişdilər [7].

Bu qurultayda Azərbaycan həmkarlar ittifaqları tamamilə bolşeviklərin platformasına keçdilər. Bu dövrdən başlayaraq, bolşeviklərin təsiri altında olan Azərbaycan həmkarlar ittifaqları bolşeviklərin Rusiyaya qovuşmaq siyasətində alət rolunu oynamağa başladılar. Bolşeviklər həmkarlar ittifaqlarından öz ideyalarını kütlələrin beyninə yeritmək üçün leqal kütləvi tribuna kimi istifadə edir, onların əsl sosial təyinatından uzaqlaşaraq, Kommunist Partiyasının əlində alətə çevrilməsinə nail olurdular.

Bunun qarşısını almaq üçün hökumət bolşeviklərin tam təsiri altında olan Mərkəzi Fəhlə Klubunu bağlamaq üçün dəfələrlə cəhd göstərmişdi. İlk dəfə 1919-cu il dekabrın 9-da MFK-nın binası möhürlənmişdi. Buna cavab olaraq, Fəhlə Konfransının Rəyasət Heyəti etiraz tətilinə çağırışla çıxış etmiş və hökuməti Mərkəzi Fəhlə Klubu binasını açmağa məcbur etmişdi.

Fəhlə sinfinin mənafeyini müdafiə etmək şüarı ilə kommunistlər milli hökumətə qarşı mübarizəni getdikcə gücləndirirdilər. Kommunist təbliğatçılar fəhlələrin öz hüquqları uğrunda mübarizəyə qarşı Daxili İşlər Nazirliyinin mane olması barədə fəhlələr içərisində kampaniya aparırdılar.

Bu vəziyyət parlamentin və hökumətin işinə çox ciddi mənfi təsir göstərirdi. 1919-cu il dekabrın 28-də Əmək və Əkinçilik Naziri Ə.Pepinov həmkarlar ittifaqı təşkilatlarının iştirakı ilə fəhlə məsələsinə dair müşavirə keçirdi. Nazir həmkarlar ittifaqının işlərinə nazirliyin qarışmayacağını bildirərək fəhlələri əmin etdi ki, fəhlə klubuna və fəhlə təşkilatlarına polis basqıları dayandırılacaq, yığıncaq azadlığı məhdudlaşdırılmayacaq və əmək haqqı artırılacaqdır. Nazir fəhlələrdən ona kömək göstərmələrini xahiş etdi.

Respublikanın Daxili İşlər Naziri M.Vəkilov bəyanat verərək, Nazirliyin fəhlələrin öz iqtisadi və hüquqi vəziyyətini yaxşılaşdırmaq uğrunda mübarizəsinə qarışmayacağını bildirdi, eyni zamanda qeyd etdi ki, dövlətə qarşı yönələn bütün çıxışları yatırmaq üçün hər vasitədən istifadə ediləcəkdir.

Buna baxmayaraq, kommunistlər inadkarlıqla mübarizəni davam etdirirdilər. Sovet Rusiyasının hərtərəfli müdaxiləsi ilə vəziyyət günbəgün gərginləşirdi.

1920-ci il aprelin 27-dən 28-nə keçən gecə parlament hakimiyyəti Müvəqqəti İnqilab Komitəsinə təhvil verildi.

Bununla belə qeyd olunmalıdır ki, Azərbaycan Demokratik Respublikasının dövründə həmkarlar ittifaqları milli dirçəliş mühitində bir sosial institut kimi mümkün olan fəaliyyətini göstərmişdir. Ümumiyyətlə, Azərbaycan həmkarlar ittifaqı təşəkkül edərək sosial institut kimi mümkün olan fəaliyyət göstərmişdir. Təşəkkülün ilk illərindən başlayaraq həmkarlar ittifaqları işçilərin iş şəraitinin yaxşılaşması, əmək haqlarının artırılması, sosial müdafiə tədbirlərinin gücləndirilməsi sahəsində əzmlə mübarizə aparmış, gerçəkliyə uygun gələn tələblər irəli sürmüşlər. İlk illərdə əldə olunmuş təcrübə sonrakı inkişaf mərhələlərinə müsbət bəhrəsini vermiş, həmkarlar ittifaqlarının sıralarının möhkəmlənməsinə stimul vermişdir.

**Açar sözlər:** həmkarlar ittifaqları, fəhlələr, muzdlu işçilər, hüquq, mübarizə, xeyriyyə cəmiyyətləri

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009
2. “Həmkarlar ittifaqları haqqında” Azərbaycan Respublikasının Qanunu, Bakı: AHİK, 1999
3. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi.
4. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I.c. / Y.Mahmudovun redaktəsi ilə. Bakı: Lider nəşriyyat, 2004, 440 s.
5. Həsənov V.S., Mehdiyev Ə.B. Azərbaycan həmkarlar ittifaqlarının tarixi. Bakı: Azər SC, 2005, 451 s.
6. Qaraşov H.T. Həmkarlar ittifaqları vətəndaş cəmiyyətinin mühüm sosial mexanizmidir: tarix və müasirlik. Bakı: Elm, 2009, 324 s.
7. Байрамов К.М. Рабочий класс Азербайджана в борьбе за победу Великого Октября. Баку: 1987, 318 с.
8. Башмаков В.И. Профсоюзы как социальный институт. М.: 2001
9. Крестянинов А.Н. Социальная напряженность: роль профсоюзов в ее регулировании. М.: 2003, 227 с.
10. Гусейнов К.А., Найдель М.И. Очерки истории профдвижения в Азербайджане. Баку: 1966, 437 с.

**Гусейн Гарашов**

## ИЗ ИСТОРИИ ФОРМИРОВАНИЯ ПРОФЕССИОНАЛЬНЫХ СОЮЗОВ В АЗЕРБАЙДЖАНЕ

### Резюме

В статье рассматривается история формирования профсоюзов Азербайджана, анализируются события и процессы исследуемого периода. Всесторонне исследуются информации о первичных организациях и сообществах. Выражается отношение к некоторым статьям «Контракта по Мазуту» и деятельности профсоюзов в Азербайджанской Демократической Республике.

**Ключевые слова:** профсоюзы, наемные работники, права, борьба, благотворительные общества

**Husseyn Qarashov**

## FROM THE HİSTORY OF THE FORMATİON OF TRADE UNİONS İN AZERBAİJAN

### Summary

The article looks through the history of formation of Azerbaijan trade unions and analyzes the events and processes of the given period. The information about the first organizations and societies are thoroughly investigated. The approach to some articles regarding “Fuel Contract” and activities of trade unions in the Democratic Republic of Azerbaijan are noted in the article.

**Keywords:** trade unions, hired workers, law, fight, charitable societies

**UOT – 316.34**

**Zeynəddin Şabanov**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, fəl.ü.f.d., dosent**

# HƏMKARLAR İTTİFAQLARININ AZƏRBAYCANDA HÜQUQİ DÖVLƏT QURUCULUĞUNDA ROLU

*Məqalədə Azərbaycanda hüquqi dövlət quruculuğuna həmkarlar ittifaqlarının rolu təhlil olunur. Sosial tərəfdaşlığın subyektləri arasında bağlanmış Baş Kollektiv Sazişin uğurlu nəticələrinə münasibət bildirilir. Hüquqi dövlət quruculuğu istiqamətində həmkarlar ittifaqlarının, o cümlədən Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının da mühüm rol oynadığı önə çəkilərək “Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu”nu nəzərə alaraq bir sıra təkliflər irəli sürülür.*

Müasir dövrdə Azərbaycanda ictimai həyatın bütün sahələrində əsaslı islahatlar aparılır, ölkənin yüksək inkişaf etmiş dövlətlərlə bir sırada olması üçün zəruri tədbirlər həyata keçirilir, dünya standartlarına cavab verən qanunlar və qanunvericilik aktları qəbul edilir, qloballaşma və modernləşmə dövrünün tələblərinə uyğun olan dəyişikliklər yeni siyasətin prioritet istiqamətlərindən birinə çevrilir. Azərbaycan cəmiyyətində sosial sülhə nail olmaq üçün yeni əmək münasibətləri bir daha tərəflərin maraqlarını özündə əks etdirməklə ətraflı işlənir, yeni fikirlər və ideyalarla cilalanaraq insanların mühakiməsinə verilir. Bu münasibətlərin tərəqqisində mühüm və əvəzolunmaz rol isə sosial tərəfdaşlıq tərəfindən reallaşa bilər. Ölkədə demokratik, sivil cəmiyyətin qurulmasında, hüquqi dövlətin bərqərar olmasında, sosial rifah tərzinin təmin olunmasında sosial tərəfdaşlıq münbit şərait yaratmaqla Azərbaycanın dünya birliyinin beynəlxalq strukturlarına inteqrasiyasına stimul verir, yeni determinasiya qaydalarını əsaslandırır. Azad rəqabətə əsaslanan iqtisadi münasibətlərin formalaşmasının sürətləndiyi bir şəraitdə sosial tərəfdaşlıq prinsiplərinin həyata keçirilməsi qanunların qəbulu prosesinə təsirsiz ötüşmür, belə ki, son illər əldə olunmuş uğurların sosial tərəfdaşlıqla bağlılığı inkarolunmaz məsələlərdəndir.

Ölkəmizdə sosial dialoqun təmin olunmasında sosial tərəfdaşlığın subyektləri - Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası məntiqli və düşünülmüş siyasət yeridir, bütün tərəflərin fövqündə duran və onların maraqlarına cavab verən mühüm bir vəzifəni həyata keçirirlər. Bu üçtərəf arasında bağlanmış Baş Sazişin uğurları və əldə olunmuş yüksək nəticələr tərəflər arasındakı münasibətlərin inkişaf edən xətt üzrə getdiyindən məlumat verir.

27 sahə həmkarlar ittifaqı birliyindən 18.610 həmkarlar ittifaqı təşkilatını özündə birləşdirən və üzvlərinin ümumi sayı 1.600.000 nəfəri ötən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası 2014-2015-ci illər üçün də Baş Kollektiv Sazişin həyata keçirilməsi üzrə işləri davam etdirmişdir. Baş Kollektiv Sazişdə əksini tapan əmək, əmək münasibətləri, əhalinin məşğulluğu, əməkhaqqı və əhalinin gəlirləri, təhlükəsizlik və əməyin mühafizəsi, əməkçilərin sosial təminatları üzrə məsələlərin birgə həll edilməsi Tərəflərin maraqlarına cavab verir və onların yerinə yetirilməsi ölkənin sosial stabilliyinin qorunmasında əhəmiyyətli amillərdən biridir. Tərəflər Sazişin prioritet məqsədlərini təşkil edən öhdəliklərin icrasına səylər göstərmiş, müəyyən uğurlu nəticələr əldə etmişlər. Bununla yanaşı, bəzi öhdəliklərin yerinə yetirilməsi hələ də davam etdirilir [7].

Ölkə iqtisadiyyatında islahatların, onun şaxələnməsinə yönəldilmiş kursun davam etdirilməsi yüksək makroiqtisadi göstəricilərin əldə olunmasını və onların Baş Kollektiv Sazişdə nəzərdə tutulan səviyyənin üstələnməsini təmin etməkdədir. Ümumi daxili məhsulun istehsalı 2014-cü il ərzində 2013-cü illə müqayisədə 5,8 faiz artaraq 57,7 milyard manata çatmışdır. Əhalinin hər nəfərinə 6207,3 manatlıq əlavə dəyər istehsal olunmuşdur. Sənaye istehsalı 1,8%, kənd təsərrüfatının ümumi məhsulu 4,9%, nəqliyyatda yük daşınması 3,4%, sərnişin daşınması 8,0%, rabitə xidmətləri 10,7% artmışdır. 2013-cü ildə xarici ölkələrlə 34,7 milyard ABŞ dolları məbləğində ticarət əməliyyatları

aparılmışdır. Əmtəə mübadiləsinin dəyəri 6,3%, o cümlədən ixracın həcmi 5,1%, idxalın həcmi isə 9,1% artmışdır. Əhaliyə istehlak mallarının satışı 9,9%, pullu xidmətlərin həcmi isə 8,2% artmışdır [7].

Sosial tərəfdaşlıq prinsiplərinə əsasən əməkhaqqının artırılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi sahəsində tədbirlər keçirilmiş, insanların rifah halının yaxşılaşdırılması istiqamətində müəyyən irəliləyiş əldə olunmuşdur. Ötən ilin avqust-sentyabr aylarında büdcə təşkilatlarında çalışan bütün işçilərin vəzifə maaşları orta hesabla 10%, minimum əmək haqqının məbləği 12,3% artırılmışdır. Pensiyaçıların təqaüdləri qaldırılmış, pensiyaların baza hissəsi 17,6 faiz artırılmışdur. Minimum əməkhaqqının və pensiyanın səviyyəsi yaşayış minimumunun səviyyəsinə daha da yaxınlaşmışdır [7].

Ölkənin iqtisadi və sosial sahələrində muzdla işləyənlərin orta aylıq əməkhaqqı 2013-cü ilin yanvar-dekabr aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən 6,2% artmışdır. Əhalinin gəlirləri əvvəlki illə müqayisədə 8,0%, hər nəfərə düşən məbləği isə 6,6% artmışdır. Yoxsulluğun səviyyəsi 5,3%-ə enmişdir. 2013-cü ildə iqtisadi əmək fəaliyyəti ilə məşğul əhalinin sayı 4.521,2 min nəfər olmuş, iqtisadi fəal əhalinin 95%-ni təşkil etmişdir. Muzdla işləyənlərin sayı 2012-ci illə müqayisədə 32,4 min nəfər artmış və məşğul olan əhalinin ümumi sayında 1.510,1 min nəfəri və yaxud 33,4%-ni təşkil etmişdir. İşsizliyin səviyyəsi isə 5%-ə düşmüşdür [7].

AHİK və üzv təşkilatları işçilərin layiqli əməyini və yaşayışını təmin edən mühitin yaradılmasına, həmçinin qarşılıqlı əlaqələrin sosial tərəfdaşlıq əsasında inkişaf etdirilməsinə, əmək münasibətlərinin dialoq, kollektiv müqavilələr və sazişlər vasitəsilə tənzimlənməsinə səy göstərmişlər. Həmkarlar ittifaqlarının fəallığı sayəsində ötən il işəgötürənlərlə 13206 kollektiv müqavilə və 121 saziş bağlanmışdır [1].

Hüquqi dövlət quruculuğu yolunda “Həmkarlar ittifaqları haqqında” Qanuna, Əmək Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə edilmiş bir sıra mühüm əlavə və dəyişikliklər müəssisələrdə həmkarlar ittifaqı təşkilatlarının nüfuzunu artırmış, yüzlərlə yeni üzvlərin gəlməsinə şərait yaratmış, minlərlə əməkçinin iş yerini itirməsinin qarşısını almışdır. Bu dəyişikliklər, həmçinin həmkarlar ittifaqı təşkilatlarının fəaliyyətinin güclənməsinə, onların işəgötürənlərdən asılılığının azaldılmasına əsas vermişdir [5, s.17].

Hazırda Azərbaycanda hökumətin, işəgötürənlərin və həmkarlar ittifaqlarının birgə səyi nəticəsində məşğulluğun səmərəliliyinin artmasına və işsizliyin azalmasına nail olunmuşdur. 2003-cü ilin IV rübündən başlayaraq respublikada 1,2 milyondan çox yeni iş yeri yaradılmışdır ki, bunun da təqribən 70%-i daimidir. AHİK-in Azərbaycan Hökuməti və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) ilə hər iki ildən bir bağladığı Baş Kollektiv Sazişdə nəzərdə tutulduğu kimi, son illərdə hökumət ölkədə məşğulluq imkanlarının yaradılması istiqamətində müvafiq tədbirlər həyata keçirmişdir [5, s.24].

Azərbaycanda sosial dialoqu gücləndirmək, onu beynəlxalq normalara uyğunlaşdırmaq məqsədi ilə AHİK-də “Sosial tərəfdaşlıq haqqında” qanun layihəsi hazırlanmışdır. Daimi fəaliyyət göstərən Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın Əsasnaməsinin layihəsi ekspertizadan keçirilmək üçün Beynəlxalq Əmək Təşkilatının Azərbaycandakı nümayəndəliyinə təqdim edilmişdir [4, s.165].

Son illər aparılan iqtisadi islahatlarla əlaqədar əmək qanunvericiliyi təkmilləşdirilir. Həmkarlar ittifaqları islahatların əmək adamının istismarı hesabına həyata keçirilməsinin əleyhinədir və bu, həmkarlar ittifaqlarının prinsipial mövqeyidir. Bu mövqe Əmək Məcəlləsində edilmiş dəyişikliklərdə və əlavələrdə əksini tapmışdır. İndiyədək AHİK tərəfindən Əmək Məcəlləsinə aid verilmiş 60-dan çox rəy və təklifin əksəriyyəti qəbul olunmuşdur. Son beş ildə AHİK-in iştirakı ilə 113 qanunvericilik aktı və normativ sənəd qəbul olunmuşdur [6, s.12].

Son 4-5 il ərzində Azərbaycan Respublikası məhkəmələrində həmkarlar ittifaqı hüquqşünaslarının iştirakı ilə 115 əmək mübahisəsinə baxılmışdır. Bunların 50 faizi işçilərin xeyrinə həll olunmuşdur. Bəzi hallarda isə müəssisənin bağlanmasının qarşısı alınmış, iş yerlərini qoruyub saxlamaq, işçilərin pozulmuş əmək hüquqlarını bərpa etmək mümkün olmuşdur. Bu dövrdə 9 min 974 nəfərə təmənnasız hüquqi yardım göstərilmişdir [7].

Əməyin və işçilərin sağlamlığının mühafizəsinin həmkarlar ittifaqının prioritet vəzifəsidir. AHİK-in və üzv təşkilatların bu sahədə gördükləri işlər ictimai nəzarətin gücləndirilməsinə səbəb olmuşdur. 2008-2012-ci illərdə müəssisə və istehsalatlarda 3,2 mindən artıq müayinə aparılmış, əmək qanunvericiliyinin, həmçinin sənaye, ekologiya və sanitar-gigiyena təhlükəsizliyinə dair qanunvericilik tələblərinin 14,1 mindən artıq pozulması faktı aşkara çıxarılmışdır. Həmkarlar ittifaqı orqanlarında əməyin mühafizəsi, əmək şəraitinin yaxşılaşdırılması, istehsalat zədələnmələri və ətraf mühitin problemləri üzrə 668-ə yaxın məsələ müzakirə edilmişdir. Ümumiyyətlə, son beş ildə həmkarlar ittifaqları əməyin mühafizəsi və işçilərin sağlamlığı məsələləri üzrə 40-dan çox qanunverici və normativ aktın işlənib hazırlanması və təkmilləşdirilməsində, əməyin mühafizəsinə dair Beynəlxalq Əmək Təşkilatının iki konvensiyasının ratifikasiyaya hazırlanmasında iştirak etmişdir. AHİK-in təşəbbüsü və iştirakı ilə hazırlanmış “İstehsalatda bədbəxt hadisə və ya peşə xəstəliyi nəticəsində peşə əmək qabiliyyətinin itirilməsinin icbari sığortası haqqında” qanun Milli Məclisdə qəbul edilmiş və 2011-ci ilin yanvarından qüvvəyə minmişdir. Ötən il yanvarın 27-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, AHİK və ASK tərəfindən təhlükəsiz və sağlam əmək şəraiti üzrə Milli Üçtərəfli Sosial Şura yaradılmışdır [5].

AHİK və üzv təşkilatlar işçilərin layiqli əmək şəraitini, yaşayışını və sərbəst inkişafını təmin edən mühitin yaradılmasına, həmçinin qarşılıqlı əlaqələrin sosial tərəfdaşlıq əsasında inkişaf etdirilməsinə, əmək münasibətlərinin dialoq, kollektiv müqavilələr və sazişlər vasitəsilə tənzimlənməsinə səy göstərmişlər. Həmkarlar ittifaqlarının fəallığı sayəsində təkcə ötən il işəgötürənlərlə 12 min 366 kollektiv müqavilə və 121 saziş bağlanmışdır. Digər qurumlardan fərqli olaraq, müəssisələrdə yaradılmış həmkarlar ittifaqı təşkilatları bilavasitə iş yerində fəaliyyət göstərir və işçilərin problemləri ilə daha yaxından tanışdır. Bu baxımdan Əmək Məcəlləsinin tələblərinin daha çox pozulduğu transmilli şirkətlərin həmkarlar ittifaqlarına qarşı olan münasibətini neytrallaşdırmaq, əməkçilərin təşkilatını qurmaq, kollektiv müqavilə bağlamaq güclü fəaliyyət tələb edir [4, s.234].

Həmkarlar ittifaqları iş yerlərinin açılmasına, işləyən və təhsil alan gənclərin fəallığının təmin edilməsinə, onların rəhbər vəzifələrdə təmsil olunmalarına diqqət yetirir. Son üç ildə Azərbaycanda dövlət qulluğuna qəbul olanların 60%-dən çoxu 30 yaşına çatmamış gənclərdir. Yerli idarəetmə orqanlarında çalışanların 28%-ni, ölkənin həmkarlar ittifaqları üzvlərinin dörddə birini gənclər təşkil edir [7].

Azərbaycan həmkarlar ittifaqlarının ali təhsil ocağının yaradılmasını da vaxtında atılmış düzgün addım kimi qiymətləndirmək olar. Bu gün hamımıza məlumdur ki, həmkarlar ittifaqı işinin təşkili xeyli dərəcədə güclü kadrların hazırlanmasından asılıdır. Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası həmkarlar ittifaqları üçün kadr hazırlığı bazasına çevrilmişdir. Hazırda akademiyada 100-ə yaxın pedaqoqun tədris etdiyi 624 gənc təhsil alır.

Həmkarlar ittifaqlarının müasir kadr siyasəti ilə bağlı əsas vəzifə sosial tərəfdaşlarla bərabər səviyyədə peşəkar dialoq aparmaq qabiliyyəti olan, əmək adamının sosial-iqtisadi maraqlarını müdafiə etməyi bacaran kadr potensialının formalaşması və inkişafı sistemini yaratmaqdan ibarətdir.

Üzv təşkilatların kadr və fəallarının təhsilinin artırılması işi də diqqətdə saxlanılır. Belə ki, son beş ildə 1483 nəfər Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının tədris kurslarında biliyini artırmışdır. 2013-cü ildə isə müvafiq olaraq 417 nəfər üçün 31 kurs və təlimlər təşkil olunub. Kurslarda məqsəd bazar iqtisadiyyatı şəraitində əmək adamlarının maraqlarını müdafiə etməyi bacaran həmkarlar ittifaqı liderləri və mütəxəssisləri hazırlamaqdan ibarətdir [4, s.185].

Azərbaycanda iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı, insan hüquqlarının qorunması, sosial və dövlət gənclər siyasəti, əhalinin həyat səviyyəsinin yüksəldilməsi və s. məsələlər üzrə məruzələrlə cıxış etmək üçün kurslara respublikanın bütün Nazirliklərinin, Dövlət komitələrinin, Əhalinin Baş Məşğulluq Xidmətinin, Azərbaycan İşəgötürənlər (Sahibkarlar) Milli Konfederasiyasının, Psixologiya və Məsləhət Mərkəzinin təçrübəli mütəxəssisləri dəvət olunur.

Kursların təşkilində və aparılmasında həmkarlar ittifaqı təşkilatlarının iş təcrübəsi ilə yerlərdə tanış olmağa xüsusi fikir verilir. Hər bir kurs və seminarın sonunda iştirakçılar arasında sorğu keçirilir. Dinləyicilərin fikirlərinin öyrənilməsi tədris prosesinin təşkilində mühüm rol oynayır.

Akademiyanın I və II kurs tələbələri “Həmkarlar ittifaqı hərəkatının əsasları”, “Sosial tərəfdaşlıq”, “Bazar münasibətləri şəraitində işçilərin sosial müdafiəsi” kimi xüsusi kursları öyrənirlər. Bu məqsədlə Akademiyanın professor-müəllim heyəti müxtəlif dərsliklər, dərs vəsaitləri, metodiki materiallar hazırlamışlar.

Həmkarlar ittifaqlarının, o cümlədən Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Azərbaycanda hüquqi dövlət quruculuğunda əsas rollarından biri də gənclərin fiziki və mənəvi inkişafına şərait yaratmaq, onların imkan və bacarıqlarının reallaşdırılmasına kömək etməkdir. Bu istiqamətdə əsas vəzifələrdən biri də gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsipləri əsasında, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, özünəməxsus adət-ənənələrinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması üçün kompleks tədbirlərin həyata keçirilməsidir.

Cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında gənclərin fəal iştirakının təmin edilməsi, onların yaradıcılıq potensialının ümummilli problemlərin həllinə səfərbər olunması, qadın və kişilərin hüquq bərabərliyinə riayət edilməsi də əsas prioritetlərdən biri olmalıdır.

Qanunvericilik aktlarının, dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi, hüquqi və fiziki şəxslərin gənclərlə iş sahəsində fəaliyyətlərinin əlaqələndirilməsi, gənclərin təhsili, tərbiyəsi, fiziki və mənəvi inkişafı, sağlamlığının qorunması sahəsində tədbirlərin həyata keçirilməsinə də prioritet verilməlidir.

Sahə Həmkarlar ittifaqı RK-in təşəbbüsü ilə yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsi işinin gücləndirilməsi, müasir tərbiyə üsullarının praktiki təcrübədə yoxlanılması və tətbiq olunması üçün ölkənin şəhər və rayonlarında yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsi klublarının yaradılması vaxtı çatmışdır.

Azərbaycanın görkəmli sərkərdələrinin, Vətənin müdafiəsi zamanı şücaət göstərmiş əsgərlərin, Milli Qəhrəmanların gənclər arasında təbliğ edilməsi və vətənpərvərlik mövzusunda əyani vəsaitlərin, bədii əsərlərin yaradılması məqsədilə gənclərdə vətənpərvərlik hisslərini aşılayan bədii ədəbiyyatın nəşr edilməsinə kömək və bədii əsərlərin müsabiqələrinin keçirilməsi də öz töhfəsini verə bilər.

Hüquqi dövlət quruculuğu istiqamətində həmkarlar ittifaqlarının, o cümlədən Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının da mühüm rol oynadığını önə çəkərək Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanununu nəzərə alaraq bu istiqamətdə bir sıra tədbirlərin reallaşmasını məqsədəmüvafiq hesab edirik:

- gənclərin mənəvi-əxlaqi və vətənpərvərlik tərbiyəsi sahəsində Hİ-da keçirilən kütləvi tədbirlərin səmərəliliyinin yüksəldilməsi yolunda gənclərin və gənclər təşkilatlarının vətəndaşlıq, vətənpərvərlik və mənəvi-əxlaqi tərbiyəsi sahəsində layihə və proqramların müsabiqələrinin maliyyələşdirilməsinə və həyata keçirilməsinə kömək göstərilməsi;
- gənclərin azərbaycançılıq və ölkədə fəaliyyət göstərən dini konfessiyalara və multikultural dəyərlərə hörmət, tolerantlıq ruhunda tərbiyə olunması, onların mənəviyyatına mənfi təsir göstərə bilən amillərə qarşı profilaktik tədbirlərin gücləndirilməsi, bu məqsədlə tədris prosesində və əlavə məşğələ saatlarında xüsusi mühazirələrin keçirilməsində gənclərin milli-mənəvi və dini dəyərlərə uyğun tərbiyə olunması işinin təkmilləşdirilməsi, mənəviyyata zidd olan amillərlə mübarizədə yeni üsulların işlənməsi və tətbiq olunması;
- gənclər arasında sağlam həyat tərzinin təbliğ olunması sahəsində tədbirlər həyata keçirən həmkarlar ittifaqlarına, qeyri-hökumət təşkilatlarına hüquqi və metodiki yardımın göstərilməsi üçün gənclər arasında hüquq pozuntularının, narkomanlığın, QİÇS-in və digər zərərli vərdişlərin profilaktikasına dair metodiki vəsaitlərin hazırlanması, nəşr edilməsi, təlim və təkmilləşdirmə kurslarının təşkili;
- gənclər arasında cinayətkarlığın azaldılması, cəzaçəkmə müəssisələrindən azad olunmuş gənclərin sosial problemlərin həll edilməsi, onların sosial mühitə uyğunlaşmalarının təmin edilməsi məqsədilə cəzaçəkmə müəssisələrindən azad olunmuş gənclərin sosial reabilitasiyası sahəsində müvafiq tədbirlərin həyata keçirilməsi;

- tələbələrin və gənc alimlərin elmi biliklərinin yüksəldilməsi, elmin müxtəlif sahələri üzrə son nailiyyətlər barədə məlumatlandırılması və onlar arasında təcrübə mübadiləsinin aparılması üçün tələbələrin və gənc alimlərin elmi-nəzəri və elmi-praktiki konfranslarının keçirilməsinə yardım edilməsi prosesinə dəstək verilməsi;

- gənclərin müasir informasiya texnologiyalarına marağının artırılması, onların bu sahədə bilik səviyyəsinin yüksəldilməsinə xidmət edən təlim kurslarının, yarışların, müsabiqələrin keçirilməsi üçün gənclərin müasir informasiya və kommunikasiya texnologiyaları sahəsində biliklərə yiyələnməsi üçün müvafiq tədbirlərin həyata keçirilməsi;

- xarici ölkələrin qabaqcıl elmi təcrübəsinin mənimsənilməsi, Azərbaycanda elmin inkişafının beynəlxalq səviyyəyə çatdırılması, istedadlı gənclərin bilik səviyyəsinin artırılmasına kömək göstərilməsi üçün istedadlı şagird, tələbə və gənc alimlərin beynəlxalq müsabiqələrdə, elmi konfranslarda, simpozium və seminarlarda iştirakının təşkili;

- ədəbiyyat, incənət, musiqi, heykəltəraşlıq sahəsində istedadlı gənclərə qayğının artırılması üçün gənclərin əsərlərinin reallaşmasına kömək göstərilməsi;

- tələbələrin asudə vaxtının səmərəli təşkil edilməsi, onların yaradıcılıq qabiliyyətinin üzə çıxarılması və inkişaf etdirilməsi üçün tələbə gənclərin bədii-yaradıcılıq festivallarının keçirilməsi üçün müvafiq həmkarlar ittifaqlarında tədbirlərin daha da intensiv davam etdirilməsi;

- qaçqın və məcburi köçkün gənclərin asudə vaxtının səmərəli təşkil edilməsi, onlar arasında yaradıcı gənclərin aşkar edilməsi və qabiliyyətlərinin inkişaf etdirilməsi, gənclər arasında zərərli vərdişlərin aradan qaldırılması üçün qaçqın və məcburi köçkün gənclərin yaradıcılıq günlərinin keçirilməsinə yardımlar edilməsi;

- Gənclərin məşğulluğunun təmin edilməsi sahəsində onların mövsümi və ictimai işlərə cəlb olunmasina dair təkliflərin hazırlanması, zəruri fəaliyyətin həyata keçirilməsi, “Əmək yarmarka”larının təşkilində xüsusi fəallıq göstərmək, gənclər arasında işsizliyin aradan qaldırılmasına diqqət yönəltmək;

- Azərbaycan gənclərinin inkişaf meyillərinin proqnozlaşdırılması, həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılması üçün AHİK-in nəzdində “Sosioloji Tədqiqatlar Mərkəzi”nin yaradılması, “Gənclər və həmkarlar ittifaqları” adlı jurnalın nəşr edilməsi, “Ülfət” qəzetində gənclər üçün xüsusi rubrikanın (“Gəncliyin tribunası”) açılması, “Əmək və sosial münasibətlər” elmi-praktiki jurnalında gənclər üçün xüsusi bölmənin yaradılması;

- gənclərə ailə planlaşdırılması və reproduktiv sağlamlıq sahəsində biliklərin verilməsi, bu sahədə xidmət göstərən mərkəzlərin yaradılması işinin təkmilləşdirilməsi, gənc ailələrin sosial problemlərinin səmərəli həll edilməsi, baş verən proseslərin inkişaf meyillərinin proqnozlaşdırılması üçün gənc ailələrlə bağlı sosioloji-tədqiqat işlərinin aparılması və informasiya bankının yaradılması; (Təəssüflə qeyd etmək lazımdır ki, qarşılıqlı güzəştin olmaması, dialoq mədəniyyətinin lazımi səviyyədə qərar tutmaması nəticəsində son illər gənc ailələr arasında boşanma halları xeyli artmışdır. Statistik göstərcilərə görə hazırda hər 8 nikahdan biri uğursuzluqla nəticələnir (Ötən il 79000 nikahdan 11000 mini dağılıb). Bu boşanmaların səbəblərindən biri də gender bərabərliyi anlayışının gənclər tərəfindən düzgün başa düşülməməsi, onların düzgün maarifləndirilməməsidir).

- gənclərlə işləyən kadrların peşə səviyyəsinin yüksəldilməsi, yeni gənc liderlərin hazırlanması, təşkilat liderləri və tələbələr arasında təcrübə mübadiləsinin aparılmasına şəraitin yaradılması üçün gənclər təşkilatlarının fəalları üçün “Yay təcrübə məktəbləri”nin və düşərgələrin təşkil olunması [2].

Hazırda Baş Kollektiv Sazişin sosial tərəfdaşlıq üzrə öhdəliklərinin əksəriyyəti icra olunur, sosial tərəfdaşlığın imkanlarından daha səmərəli istifadə olunur. Belə ki, sosial-iqtisadi siyasətin işlənməsi və həyata keçirilməsi məsələləri, əhalinin məşğulluğu, miqrasiya və sosial təminat sahəsində milli proqramlar, qanunlar, normativ-hüquqi aktların layihələri sosial tərəfdaşlar tərəfindən razılaşdırılıb birgə müzakirə edilir. Ümumiyyətlə, Azərbaycanda hüquqi dövlət quruculuğunda hər bir vətəndaş öz imkanları səviyyəsində iştirak edərək öz töhfəsini verə bilməlidir.

**Açar sözlər:** hüquqi dövlət quruculuğu, həmkarlar ittifaqları, Baş Kolektiv Saziş, sosial tərəfdaşlıq, sosial-iqisadi siyasət, gənclər siyasəti

**İstifadə edilmiş ədəbiyyat**

1. Baş Kollektiv saziş. Bakı: 2014
2. “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı: 2013
3. “Həmkarlar ittifaqları haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı: 2014
4. Qaraşov H.T. Həmkarlar ittifaqı hərəkatının əsasları. Bakı: Avropa, 2015, 448 s.
5. 2013-2018-ci illər üçün Azərbaycan Həmkarlar İttifaqları Konfedrasiyasının fəaliyyətinin əsas istiqamətləri. Bakı: 2013
6. IV qurultay hesbat məruzəsi. Bakı: 2013
7. www.ulfet.com

**Зейнаддин Шабанов**

**РОЛЬ ПРОФСОЮЗОВ В ФОРМИРОВАНИИ ПРАВОВОГО ГОСУДАРСТВА В АЗЕРБАЙДЖАНЕ**

**Резюме**

В статье анализируется роль профсоюзов в формировании правового государства в Азербайджане. Рассматриваются результаты Генерального соглашения заключенного между субъектами социального партнерства. Разработаны некоторые рекомендации по формированию правового государства, учитывая роль профсоюзов и Азербайджанской Академии Труда и Социальных Отношений, опираясь на «Закон о Молодежной политики Азербайджанской Республики».

**Ключевые слова:** формирования правового государства, профсоюзы, Генеральное соглашение, социальное партнерство, социальная и экономическая политика, молодежная политика

**Zeynaddin Shabanov**

**THE ROLE OF TRADE UNIONS IN FORMING LEGAL STATE IN AZERBAIJAN**

**Summary**

The article analyzes the role of trade unions in forming the legal state in Azerbaijan. The success of the General Agreement concluded between the subjects of social partnership were shown. Advancing the role of trade unions in the formation of the legal state, including the important role of Azerbaijan Academy of Labour and Social Relations paying attention to the “Law of the Azerbaijan Republic on Youth policy” pushed proposals.

**Keywords:** in forming legal states, trade unions, the General Agreement, social partnership, social and economic policy, youth policy

**HUMANİTAR VƏ SOSİAL ELMLƏR BÖLMƏSİ**

**UOT – 101.1**

**Həbib Hüseynov**
**AMEA Fəlsəfə və Hüquq İnstitutu, fəl.ü.f.d.**

# İNFORMASİON CƏMİYYƏT VƏ MÜHƏNDIS TƏFƏKKÜRÜNÜN QARŞILIQLI MÜNASİBƏTİ

*XX əsrin əvvəllərində mühəndis fəaliyyəti bir neçə elmi özündə cəmləşdirərək kompleks şəkil almış və maşınqayırma ilə yanaşı başqa texniki sahələrdə də (elektrotexnika, kimya texnologiyası və başqaları) öz əksini tapmışdır. Texnikanın sürətli inkişafi və bunun nəticəsində ekoloji problemlərin yaranması mühəndis fəaliyyətində əsaslı dəyişikliklərin edilməsi zərurətini yaratmışdır.*

Qloballaşma informasion cəmiyyətin tələblərini ödəməyə qadir, qarşıya çıxan problemləri tez həll etmək imkanı olan, insan həyatının keyfiyyətini yaxşılaşdıran bir sistemdir. Bu sistem həyatın bütün sahələrinə – incəsənətə, iqtisadiyyata, səhiyyəyə və digər sahələrə təsir edir. Qloballaşmanın mahiyyəti – ölkələri birləşdirərək onların bir sistem kimi idarə edilməsini təşkil etməkdir. Əlbəttə, ki, bunun həyatın müasirləşməsində, millətlərin yaxınlaşmasında, milli istehsalın, elmi-texniki tərəqqinin və müasir informasiya texnologiyalarının inkişafında güclü sıçrayış baş verməsində çox böyük əhəmiyyəti var. Digər tərəfdən qloballaşmanın təşkilatçısı, tərəfdarı kimi çıxış edən ABŞ və digər Qərb dövlətləri dünyanın bir çox dövlətlərinin iqtisadiyyatına, mədəniyyətinə, kapital qoyuluşu ilə müdaxilə etmək imkanı əldə edir. Elmi-texniki tərəqqinin inkişafı ilə əlaqədar olaraq informasion cəmiyyət də durmadan inkişaf edir. İnformasion cəmiyyətin inkişafı isə qarşıya yeni-yeni tələblər qoyur.

XX əsrin əvvəllərində mühəndis fəaliyyəti bir neçə elmi özündə cəmləşdirərək kompleks şəkil almış və maşınqayırma ilə yanaşı başqa texniki sahələrdə də (elektrotexnika, kimya texnologiyası və başqaları) öz əksini tapmışdır. Texnikanın sürətli inkişafı və bunun nəticəsində ekoloji problemlərin yaranması mühəndis fəaliyyətində əsaslı dəyişikliklərin edilməsi zərurətini yaratdı ki, bu da ikili oriyentasiyanın meydana gəlməsinə gətirib çıxardı. Yəni mühəndis yeni texniki qurğuların, informasiya texnologiyalarının yaradılması, istehsal olunan malların texniki və konstruktiv parametrlərini nəzərə almaqla yanaşı ekoloji problemləri də nəzərə almalı idi.

O.Toffler yazır ki, XX əsrin 50-ci illərində sənaye özünün yüksək inkişaf zirvəsinə qalxdı. Mühəndis təfəkkürünün inkişafı yeni informasiya texnologiyaların yaranmasını, istehsalatın başqa cür idarə olunmasını, yeni idarəetmə formalarının yaranmasını tələb edirdi. Texniki fəlsəfənin inkişafı nəticəsində ən çətin texniki idarə olunma sahələri, məhz mühəndis təfəkkürünün formaları ilə idarə olunurdu.

Yeni texniki formaların və alətlərin istehsalat sahələrinə tətbiqi yeni istehsal məhsullarının, informasiya texnologiyasının yaranmasına və istehsalatın daha da genişlənməsinə öz təsirini göstərirdi. Əməyin təşkili, yeni əmək formalarının yaranması bilavasitə yeni texniki formaların meydana gəlməsi və təkmilləşməsi ilə bağlıdır. Bu mərhələdə istehsalın yeni üsullarla idarəetmə məsələsi meydana çıxır. O.Tofflerin fikrincə, mühəndis təfəkkürünün inkişafı texnikanın modullaşması yeni informatikanın yaranmasına gətirib çıxardı.

İnformasion cəmiyyətdə əsrin texniki səviyyəsinin belə bir vaxtında mühəndis təfəkkürü texniki fəlsəfə qarşısında yeni vəzifələr qoyur. Texnikanın yüksək səviyyədə inkişafı, təbii qanunların insan tərəfindən tabe olunması, insana ekoloji təsir və insanın informasion əsrdə yaşaması onları yeni informasiya texnologiyaları yaratmağa sövq edir. Artıq texnikanın inkişafının yüksək zirvəsi insanın yeni sivilizasiyaya qədəm qoymasına gətirib çıxarır.

Mühəndis fəaliyyəti hal-hazırda elm sahələrinin, sosiologiya, evristika, psixologiya, kibernetika, pedaqogika və sair elmlərin maraq dairəsindədir. Təsadüfi deyil ki, müasir dövr “texniki”, “in-

dustrial” və “informasiya” dövrü kimi xarakterizə edilir ki, burada da əsas fiqurlardan biri mühəndisdir.

Mühəndis fəaliyyətinin fəlsəfi analizi onun mahiyyətinin tədqiqini nəzərdə tutur. Mühəndis öz təbiətinə görə yaradıcı, texniki mədəniyyətin müəllifi və subyektidir. Hətta ən yüngül funksiyalarla bağlı olan mühəndis belə yaradıcılıqla əlaqədardır. Mühəndis fəaliyyətinin mahiyyətinin digər hissəsi onun aid olduğu reallıqdır. Texniki reallıq həmişə süni xarakter daşıyır. Belə ki, mühəndisin yaratdığı obyektlər öz forma və strukturuna görə təbiilikdən kənardır (məsələn, turbinlər, avtomobillər və s.). Mühəndis fəaliyyətinin inkişafı insanın praktiki gücünü dəfələrlə artırır və ətraf mühitə aktiv müdaxiləsinə səbəb olur [1, s.37].

Beləliklə, mühəndis yaradıcı bir şəxs olmaqla, eyni zamanda süni yeniliklər yaradır və həmin yeniliklərdən istifadə etməklə mövcud reallığa təsir edir.

Mühəndis fəaliyyəti əsasən real və ideal həqiqətlərin vəhdətini təşkil edir. İstənilən texniki fikir və ya ideya üzərində uzun müddətli yaradıcılıq işi aparılır, həmin iş reallıqla uyğunlaşdırılır və praktiki olaraq tətbiq olunur. Texniki avadanlıq, tikinti və sair real həyatın bir hissəsi olur, lakin onun əsasında həmişə bu və ya digər ideyalar mövcuddur. Mühəndis öz fəaliyyətində reallığı əsas tutur, onu öz təfəkküründə canlandırır və eyni zamanda yeni ideyaları praktikada tətbiq edir.

Mühəndis fikri həmişə yeni əsaslar üzərində qurulur və bu fikirlər texniki-tərəqqinin əsasını təşkil edərək, onu yeni formada reallaşdırır. Buna misal olaraq, aviasiyanın inkişafını göstərmək olar. Aviasiyanın inkişafı yeni fikirlər əsasında qurularaq təkmilləşdirilmişdir. Vaxt var idi ki, təyyarə haqqında verilmiş fikirlər tam həyata keçmirdi. Uçuş zamanı təyyarələr deformasiyaya uğrayır, dağılır və bunun nəticəsində insan həyatı təhlükə ilə qarşılaşırdı. Bu təhlükələrin qarşısının alınması mühəndis fəaliyyətində yeni ideyaların verilməsi zərurətini qarşıya qoyurdu. Aparılan elmi tədqiqatlar və yeni fikirlərin irəli sürülməsi göstərdi ki, təyyarələrin uçuşu zamanı mövcud olan təhlükəni aradan götürmək mümkündür və bu sahədə yeni ideyalar işlənib hazırlanmışdır. Beləliklə, bir ideya digər ideyanı əvəz edərək aviasiyada mövcud olan təhlükəni aradan götürdü.

Mühəndis fəaliyyətinin strukturunda müxtəlif məqamlar vardır ki, bu da onun yaratdığı texniki qurğuların keyfiyyətinin yüksəkliyi və tələbata uyğun olmasıdır. Belə ki, Xristian Hüyhens riyazi hesablamaların köməyi ilə sönməyən rəqslərin qanunlarına əsaslanaraq, cəmiyyət tarixində ilk dəfə saatı kəşf etdi. Cəmiyyətin belə bir qurğuya tələbatı olduğuna görə, həmin kəşf sürətlə dünyaya yayıldı.

Mühəndis fəaliyyətinin strukturunun əsas hissələrindən biri də təbii və süninin əlaqəsidir. Belə ki, mühəndis öz fəaliyyətində təbii mühitin bəzi xüsusiyyətlərindən (suyun axması, fotoeffekt hadisəsi, elektrik keçiriciliyi və s.) istifadə edir. İnsan birbaşa təbii qüvvələri özünə tabe edə bilmir. Bunun üçün onun müxtəlif süni yaradılmış qurğulara ehtiyacı vardır. Məsələn, su enerjisindən istifadə edilməsi, su turbinlərinin tikilməsi və tətbiqi olmadan mümkün deyildir.

İstənilən texniki qurğunun elementləri qarşılıqlı əvəz edilmək, kütləvi istehsalata buraxılmaq, təkmilləşdirilmək xüsusiyyətinə malik olmalıdır. Texnikanın inkişafı onun təkmilləşdirilməsi və hissələrin yeniləri ilə əvəz edilməsi olmadan mümkün deyildir. Belə ki, hər bir texniki qurğu bir neçə elementlərin birləşməsindən yaranır və həmin elementlərin təkmilləşməsi ümumən qurğunun inkişafına imkan verir. Bu səbəbdən mühəndis hər hansı texniki qurğunun üzərində işləyərkən “texniki kombinatorikaya” geniş yer verməli və elementlərin qarşılıqlı əvəz edilməsinin mümkünlüyünü əsas vəzifələrdən biri kimi qəbul etməlidir. Bu da süni surətdə yeni texnikanın yaranmasına imkan verir. Məsələn, aviasiya texnikasında müxtəlif elementlərin dəyişilməsi (kombinasiya edilməsi) yeni ideyaların meydana çıxmasına səbəb olur. Bu ideyaların tətbiqi mühəndis fəaliyyətində daha mürəkkəb sistemlərin yaradılmasına və həmin sistemlərin praktik tətbiqinə şərait yaradır [2, s.243].

İnformasion cəmiyyətdə mühəndis təfəkkürü bütünlüklə subyektin xarici azadlığının genişlənməsinə istiqamətlənmişdir və texnika bu azadlığın vasitəsidir. Ekolojiləşməmiş mühəndis fəaliyyəti dağıdıcı xarakterə malikdir. Belə ki, təbiətin ram edilməsinə yönəlmiş texnokratik təfəkkür dövlət siyasəti ilə dəstəkləndiyi halda, ekoloji təfəkkür onun kölgəsində qalırdı. Bizim zəmanəmizdə bunların yerdəyişməsi baş verir. İndi bir harmonik sintez, yəni təbiət elmlərinin bütün nailiyyətlərini

özündə birləşdirən dəyərlər sistemi yaradılmalıdır ki, burada İnsan Dünyaya qarşı qoyulmasın və bu Dünyaya üzvi şəkildə, hissənin bütövə daxil olması kimi daxil olsun.

Ekoloji böhrana gəlincə, bunun aradan qaldırılmasının hələlik bir yolu vardır ki, bu da texnologiyaların təkmilləşdirilməsi, texnikanın ekolojiləşməsidir.

Bir çox mütəxəssislərin rəyinə görə, ekoloji təfəkkür insan dünyagörüşünün ayrılmaz hissəsidir. Ancaq müxtəlif zamanlarda bu təfəkkürün məzmunu və ifadə forması müxtəlif olmuşdur.

Ekoloji təfəkkürün ilk cücərtiləri texnoloji sivilizasiyanın ilk müvəffəqiyyətləri ilə eyni vaxtda əmələ gəlməyə başladı. R.İ.Qirenok yazırdı: "İnsan fəaliyyətinin maşınlaşdırılmasına, enerji təminatına və metallara ehtiyac duyulur. Tullantıların istehsalı artır, ərazi səthinin quruluşu dəyişir, hava çirklənir. Şəhərlər böyüyür. Nəqliyyat təkmilləşir. Bunlar təbiətə qarşı ekoloji təzyiqin artmasıdır. Xarici mühitin süni komponentinin formalaşması J.Buffon, J.J.Russo, sonralar isə R.Maltus, J.Lamark, R.Marş tərəfindən tədqiq edilmişdir. Məhz təbiətlə cəmiyyət arasında yeni əlaqələr yaradıldığına və bu əlaqələrdə insan subyekt, təbiət isə obyekt kimi çıxış etdiyinə görə ekoloji ekoloji təfəkkür formalaşmağa başladı. Əgər insanın onu əhatə edən təbii mühitə uyğunlaşırsa, ekoloji təfəkkürə ehtiyac olmur. Ancaq insan özünün tarixi inkişafı prosesində təbiəti dəyişirsə və sonra da bu dəyişilmiş xarici mühitə uyğunlaşmağa başlayırsa, ekoloji bilik reallığa çevrilir. Hələ XVII əsrin sonunda xarici mühitə əhəmiyyətli dərəcədə təsir edən mexaniki əmək vasitələrinin meydana gəlməsi ilə eyni dövrdə ekoloji təfəkkür formalaşmağa başladı. Ancaq bu bilik nəzəriyyə kimi deyil, hər hansı bir ideologiya kimi yaranmışdır. Elə bu şəkildə ekoloji biliyə Maltusda və Qodvində, daha əvvəl isə Russoda, onun geriyə, təbiətə qayıdan insan konsepsiyasında rast gəlinir" [4, s.13-14].

İnformasiya texnikanın inkişafının mənfi nəticələrini əvvəlcə fəlsəfə və incəsənət dərk etmişdir. Məsələ bunda deyil ki, texnika özü-özlüyündə pisdir. Yer kürəsinin məhdudluğu və insan artımının qeyri-məhdudluğu səbəbindən böhran yarana bilər və yaranmalıdır. Lakin texnika sosiumda və biosferdə bütün prosesləri sürətləndirir. O, bir tərəfdən maddi sərvətlər yaradaraq əhali sayının artmasına şərait yaradır, o biri tərəfdən isə təbiətə antropogen yükü artırır. Bunu qabaqcadan görən Höte yazırdı: "Qalibiyyətlə genişlənən maşınlaşma mənə əzab verir və məni qorxudur. O, yavaş-yavaş yaxınlaşır. Onun yolu artıq müəyyən olunmuşdur. O gələcək və bixəbər üstümüzü alacaqdır" [5].

XX əsrin 50-ci illərindən başlayaraq informasiyanın artdığı şəraitdə ekoloji vəziyyət kəskin pisləşməyə başlamışdır. Ona görə də ekoloji problemlər elmin diqqətini yeni qüvvə ilə özünə cəlb edir. İndi ekoloji problemlərin təbiət elmləri tərəfindən qəti həllinin vaxtı gəlib çatmışdır. Maraqlı cəhət budur ki, təbiətşünaslığın nümayəndəsi olan N.N.Moiseyev meydana gəlmiş problemlərin həlli strategiyasını işləyərkən, V.İ.Vernadski kimi yaranmış vəziyyəti və onun çıxış yollarını fəlsəfi baxım səviyyəsinə qaldırır. O yazır: "texnika və texnologiyanın inkişafından asılı olaraq, ehtiyatlar tükəndikcə və bizim sivilizasiyanın bütün informasion-texnoloji əsaslarının yenidən qurulması nəticəsində ekoloji prinsiplər dəyişəcəkdir. Adamlar bununla razılaşmalı olacaq, öz hərəkətini, arzu və məqsədlərini ekoloji prinsiplərlə ölçüb-biçməli olacaqlar. Hazırda müəyyən bir "ekoloji hökm" əmələ gəlir. Elm bunu formalaşdırmalı və ifadə etməlidir. Adamlar isə bunu qəbul etməlidir. Bax elə bu axırıncı məsələdə biosferanın və insanın dəyişməsində uyğunluğun təmin olunmasının əsas çətinliyini görürəm" [6, s.267].

Elmin və texnikanın tarixi-nəzəri analizi, müasir dövrün ekoloji problemlərinin həllində onların qarşılıqlı təsirinin xüsusiyyətlərinin dərk olunması, elmin, texnikanın inkişafı və mənfi ekoloji nəticələrin aradan qaldırılmasına yönəlmiş mühəndis proqramlarının və elmi-texniki fəaliyyətin proqnozlaşdırılmasının əsasını təşkil edir.

Akademiklər V.P.Kaznaçeyev və A.L.Yaşinin xüsusilə qeyd etdikləri kimi: "Ekoloji təfəkkür - biliyin, mədəniyyətin və tərbiyənin səviyyəsini müəyyən edən amillərdən biridir. Bu səviyyədə hər kəs özünün peşəkar və qeyri-peşəkar fəaliyyətində insanın gələcək inkişafının təmin edilməsi, onun sağlamlığının qorunması və inkişafı üçün daha yaxşı mühitin yaradılması məqsədini güdür"[7,s.46].

Mahiyyət etibarı ilə bütün mühəndis fəaliyyəti texnika ətrafında cəmlənir – texnikanın kəşf olunması və konstruksiyalaşması, proyektləşməsi və hesablanması, tikilməsi və istismar edilməsi, yenidən qurulması və müasirləşdirilməsi bu fəaliyyət növlərinə daxildir. Lakin mühəndis fəaliyyəti-

nin strukturunun heç bir anı elmlə əlaqəsiz reallaşa bilməz. Mühəndis fəaliyyəti öz ilkin mahiyyəti etibarı ilə elmi-texniki və informasion xarakterə malikdir. Onu ideal elmi konstruksiyalardan real texniki konstruksiyalarına keçmə yolu ilə reallaşdırmaq olar. Texnikanı əyaniləşdirilmiş elm kimi xarakterizə etmək mümkündür.

İlk növbədə texnikanın əsasını fundamental təbii elmlərin məcmusu təşkil edir. Adətən, bu cəhət şübhəsiz hesab edilir. Lakin bu, belə deyil. Fundamental təbii və tətbiqi-texniki elmlər mühəndis fəaliyyətində tamamilə bənzərsiz yerlər tuturlar. Onların vəzifələri əhəmiyyətli dərəcədə fərqlənir; belə ki, təbii elmlər daha universal və hərtərəfli xarakter daşıyır, lakin tətbiqi elmlər isə ixtisaslaşdırılmış və aid olduğu texnikaya uyğunlaşdırılmış olur. Nümunə üçün qeyri-üzvi kimya sahəsini götürək. Əsaslı təbiət elmi kimi kimya döyüş sursatı, eləcə də mineral gübrələr istehsalının texnologiyasını idarə edən tətbiqi elmlər üçün ümumnəzəri bazis təşkil edir. Fundamental təbii-elmi biliklər sisteminin dərin inkişafına nail olmamış tətbiqi elmlərdə nəzərə çarpacaq nailiyyətlər əldə etmək mümkün deyil. Texniki yaradıcılığın mənası - təbiətin bu və ya digər qüvvələrini dərk etmək və onları insana qulluq etməyə yönəltməkdən ibarətdir. Lev Davidoviç Landaunun nəzəri izah etdiyi və Pyotr Leonidoviç Kapitsanın kəşf etdiyi heliumun yüksək axıcılıq qabiliyyətinə malik olması nəticədə mühəndis fəaliyyətinin müxtəlif sahələrində sənaye çevrilişinin baş verməsinə səbəb oldu. Təbiətin xüsusiyyətlərindən praktik istifadə etmək üçün elmi təfəkkür ilə onun mahiyyətinə daxil olmaq lazımdır.

Əgər fundamental təbiət elmi təbiət hadisələrini mahiyyət etibarı ilə açıqlayırsa, tətbiqi – texniki elmlər isə tətbiqi hadisələrdən praktik istifadə üçün mümkün yolları tədqiq etməklə məşğul olur. Heç bir əsaslı elm insan tələbatı ilə qoyulmuş suallara cavab verə bilmir. Təbiətin qoyduğu suallara cavab verərkən təbiət elmləri texniki təfəkkürü tətbiqi ideyalar irəli sürməyə sövq edir. Əgər mühəndis texniki biliklərlə yanaşı təbiət elmlərini də yaxşı bilirsə, onda onun yaradıcılıq potensialı qüdrətli olur. Onda o, praktik tələblərə cavab verməyə qadirdir. Sovet mühəndisi P.K.Oşenkov “Həyat və arzu” kitabında aviasiya radiolokasiyasının problemlərinin həlləri prosesini təsvir edir. Bir tərəfdən radiodalğaların mahiyyətinə dərindən müdaxilə, digər tərəfdən radioşüalanmanın xassələrinin maksimal effektli “istismarına” yönəldilmiş zərif texniki təfəkkür bu çətin işdə müvəffəqiyyətin rəhni oldu. Alimin erudisiyası, mühəndis məharəti ilə birləşərək P.K.Oşenkova ən dolaşıq texniki problemlərin parlaq həllinə imkan verdi. Təsadüfi deyil ki, alim gənc nəslə müraciətində onları əsaslı elmlərə aid olan heç bir zərrə qədər biliyi də artıq hesab etməməyə çağırır. P.K.Oşenkovun həyati təcrübəsi tədqiqi biliklərin böyük əhəmiyyətini sübut edir.

Müasir informasiya cəmiyyətinin həyatında mühəndis fəaliyyəti günü-gündən daha da artıq rol oynayır. Elmi biliklərin praktiki istifadəsi probleminin, ixtiraların və elmi-texniki effektivliyinin artırılması mühəndis fəaliyyətini iqtisadiyyatın və müasir mədəniyyətin ön sıralarına çəkir. Hal-hazırda bir çox təhsil müəssisələri xalq təsərrüfatının bütün sahələri üçün müxtəlif profilli mühəndislər hazırlayır. Mühəndis təfəkkürünün inkişafı, ixtisasın imkanları və sərhədlərinin artması, mühəndis fəaliyyətinin, məqsəd və vəzifələrinin informasion cəmiyyətin mədəniyyətində yeni mərhələyə keçməsi zərurətini yaradır. Mühəndis təfəkkürünün inkişafı həm də müasir dövrün qlobal problemlərindən olan ekoloji problemlərin həllinə də müsbət təsir göstərir [3, s.165].

Bazar iqtisadiyyatı inkişaf etmiş cəmiyyət mühəndisdən istehsal olunan malların texniki və konstruktiv parametrlərinə deyil, marketinq, istehlakçının psixologiyası və sosial-iqtisadi faktorların uçotuna oriyentasiyanı da tələb edir.

Mühəndis fəaliyyəti elmi biliklərin süni, texniki sistemlərin, tikililərin, avadanlıqların, maşın və mexanizmlərin və s. yaradılması üçün mütəmadi istifadə edilməsini nəzərdə tutur.

Mühəndis fəaliyyətinin, daha çox iş təcrübəsi, praktiki biliklərə əsaslanan texniki fəaliyyətdən fərqi də məhz bununla izah olunur.

Buna görə də mühəndis fəaliyyəti dedikdə yalnız texniki fəaliyyət ilə məşğul olan mühəndis deyil, eyni zamanda elmi fəaliyyətlə də (məsələn, hər hansı bir texniki sistemin yaradılması üçün indiyə qədər əldə olunan biliklər kifayət etmirsə) məşğul olan mühəndislər də nəzərdə tutulur. Bununla yanaşı bir çox böyük alimlərin ixtiraçılığa, konstruksiyalaşdırmaya, layihələndirməyə müraciət etmələri və elmi fəaliyyətlə yanaşı mühəndis fəaliyyəti ilə məşğul olması faktları olduqca çoxdur.

Buna görə də mühəndis fəaliyyətinə onun məhz kimin tərəfindən (bunun üçün hazırlanmış yüksək ixtisaslı mühəndislər, alimlər və yaxud özbaşına öyrənənlər) həyata keçirilməsindən asılı olmayaraq baxmaq lazımdır.

Mühəndis fəaliyyətinin müasir mərhələdə inkişafı elmi-texniki məsələlərin həllinin sistemli şəkildə həyata keçirilməsi, sosial, humanitar və texniki sahələr kompleksinə müraciətlə xarakterizə olunur. Lakin klassik adlandıra biləcəyimiz elə bir mərhələ də var ki, bu mərhələdə mühəndis fəaliyyəti “təmiz” halda: əvvəlcə ixtiraçılıq, sonralar ona əlavə olmuş layihə-konstruksiyalaşdırma fəaliyyəti və istehsalın təşkili ilə izah edilirdi.

İnformasiya məlumatlandırma texnologiyalarının yüksək dərəcədə inkişaf etməsi və geniş tətbiq sahələrinə malik olması qloballaşdırmanı reallaşdırmaq imkanı yaradır. Kompüterləşmənin geniş yayılması ilə əlaqədar insan fəaliyyətinin bütün sahələrinə təsir etmək mümkündür. Mühəndis hazırlanması da kənarda qalmamışdır. Qloballaşma mühəndis hazırlığına müsbət və ya mənfi təsir göstərə bilir.

**Açar sözlər:** mühəndis təfəkkürü, informasiya cəmiyyəti, elmi-texniki tərəqqi, texniki sistemlər, elmi biliklər

**İstifadə edilmiş ədəbiyyat**

1. Bayramov Ə.S. İnsan fikirləşməyi və danışmağı necə öyrənmişdir. Bakı: Azərnəşr, 1963
2. Xəlilov S.S. Elmi-texniki tərəqqi: bu gün və sabah. Bakı: Azərnəşr, 1988
3. Səmədzadə Ş.Ə. Avtomatlaşdırılmış idarəetmə sistemləri. Bakı: Azərnəşr, 1983
4. Гиренок Р.И. Экология. Цивилизация. Ноосфера. М.: Наука, 1987, 180 с.
5. Гейзенберг В. Шаги за горизонт. М.: Прогресс, 1987, 368 с.
6. Моисеев Н.Н. Алгоритмы развития. М.: Наука, 1987 , 304 с.
7. Экологическая проблема в современной глобалистике. М.: 1985.

**Габиб Гусейнов**

**ВЗАИМОДЕЙСТВИЕ ИНФОРМАЦИОННОГО ОБЩЕСТВА И ИНЖЕНЕРНОГО МЫШЛЕНИЯ**

**Резюме**

В статье анализируется роль информации среди других факторов, влияющих на развитие инженерного мышления. Высказывается отношение к мысли исследователей, занимающихся изучением влияния современных информационно-коммуникационных технологий, научно-технического прогресса на развитие инженерного мышления. Кроме того, автор рассматривает процесс модернизации соответствующих инженерно-технических конструкций в информационном обществе.

**Ключевые слова:** инженерное мышление, информационное общество, научно-технический прогресс, инженерно-технические конструкции, научные знание

**Habib Huseynov**

**INTERACTION OF INFORMATION SOCIETY AND ENGINEERING THOUGHT**

**Summary**

The role of information among other factors, influencing the development of engineering thought is analyzed in the article. The article expresses the attitude to researchers` thought, dealing with the study of influence of modern informative and communicational technologies and scientific technical progress on the development of engineering thought. In addition, the author considers the process of modernization of the given engineering-technical constructions in an informative society.

**Keywords:** engineering thought, informative society, scientific and technical progress, technical systems, scientific knowledge

**UOT – 930.2**

**Ağasəlim Həsənov**
**AMEA Fəlsəfə və Hüquq İnstitutu, fəl.ü.f.d.**

# EKOLOJİ MƏDƏNİYYƏT ANLAYIŞININ SOSİAL-FƏLSƏFİ MƏZMUNUNA DAİR

*Məqalədə ekoloji mədəniyyət problemi sosial-fəlsəfi aspektdə təhlil olunur. Qeyd olunur ki, müasir dövrdə təbiətlə cəmiyyət arasında qarşılıqlı asılılıq əhəmiyyətli dərəcədə artmışdır. Buna görə də hər bir ekoloji problem diqqətdə saxlanılmalıdır. Həmçinin qeyd olunur ki, insan-təbiət münasibətlərini tənzimləyən əvvəlki sosial paradiqma yenisi ilə əvəz olunmaq üzrədir. Əgər əvvəllər mədəniyyət daha çox insanların təbiətdən ayrılması vasitəsi kimi başa düşülürdüsə, indi mədəniyyət təbii mühiti daha adekvat başa düşmək əsasında cəmiyyətlə təbiətin yenidən birləşməsi vasitəsinə çevrilməlidir.*

Müasir dövrdə təbiətlə cəmiyyətin qarşılıqlı münasibəti özünəməxsusluğu ilə fərqlənir. İndi insan təbiətlə münasibətdə daha ehtiyatlı olmalı və ekoloji problemlərə diqqətlə yanaşmalıdır. İnsanın təbiətlə necə rəftar etməsi bilavasitə ekoloji şüurun və mədəniyyətin səviyyəsindən asılıdır. İlk öncə ekoloji mədəniyyət anlayışının məzmununa diqqət yetirək.

Ekoloji mədəniyyət dedikdə müəyyən bir sosial subyektin, məsələn, fərdin, qrupun və ya birliyin öz ətraf mühitinə lokal, milli və qlobal dəyərlər nöqteyi-nəzərindən münasibəti nəzərdə tutulur. Bu münasibət insanın təbiətdən praktiki, məs.: idraki, təsərrüfat və d. istifadəsi əsasında formalaşır, normativ-dəyərlər sistemində əks olunur və sosial subyekt və institutların fəaliyyətində realizə olunur [10, s.136].

Ekoloji mədəniyyət əsasən iki müstəvidə formalaşır: 1) insanın təbiətin və deməli, ətraf mühitin hesabına yaşadığından istehlak və ya dağıdıcı müstəvi və 2) insanın yaşadığı mühiti qurmaq istəyindən irəli gələn yaradıcı, bərpaedici müstəvi. Qeyd edək ki, bunlardan birincisi insanın ekstensiv təsərrüfat və digər fəaliyyətinin geniş vüsət aldığı anomiya və ya müharibə şəraitində üstünlük təşkil edir. İkincisi isə insanın yaşadığı mühitə adaptasiya olunduğu, sosial cəhətdən artıq mənimsədiyi mühiti intensiv istifadəsi zamanı üçün səciyyəvidir. Lakin onu da göstərmək lazımdır ki, gerçəklikdə bu ekoloji və əksekoloji meyillər birgə mövcuddur və hətta bir-biri ilə kəsişirlər də.

İnsanla təbiət arasındakı qarşılıqlı münasibətlər probleminin xronologiyasını, müxtəlif elmi cərəyanların nümayəndələrinin baxışlarını təhlil etdikdə belə bir nəticəyə gəlmək olur ki, antroposentrizmin tənqidi iki mövqedən həyata keçirilmişdir. Bunlardan birincisinə görə, insan əzəli olaraq təbiətə qarşı köklənmişdir və onun məqsədi təbiət üzərində öz hökmranlığını bərqərar etməkdən ibarətdir. İkinci mövqedə isə belə bir fikir əsaslandırılır: antroposentrizm, yəni təbiətin insana tabe olması fikri yanlışdır və onların birgə inkişafı labüddür [10, s.138].

Bu gün üstünlük təşkil edən ekoloji şüurun antroposentrik tipi üçün aşağıdakılar səciyyəvidir: ali dəyər kimi insanın onun mülkiyyəti hesab olunan təbiətə qarşı durması; təbiəti insanın birtərəfli təsir obyekti kimi dərk etmə; onunla qarşılıqlı münasibətlərin motiv və məqsədlərinin praqmatik xarakteri. Antroposentrik ekoloji şüur insanın bütün fəaliyyət sahələrini – təsərrüfat, siyasi, iqtisadi, siyasi, təhsl və s. çox ciddi şəkildə əhatə edir. Təbii ehtiyatların qeyri-bərabər paylanması onların bölüşdürülməsi probleminin güc yolu ilə həlli ehtimalını artırır və hətta yeni dünya müharibəsinə gətirib çıxara bilər. Ekoloji böhranın aradan qaldırılması üçün dünyaya yeni baxış, yeni tip ekoloji şüurun formalaşdırılmasına ehtiyac vardır. Əks təqdirdə həyati resurslar üçün rəqabətin güclənməsi qrup əlaqələrinin qırılması, mənəvi dəyərlərin aşınması ilə nəticələnə bilər.

1990-cı ildə Moskvada keçirilən ətraf mühit və inkişaf problemlərinə həsr olunmuş Qlobal Forumda Yaponiyadan olan məruzəçilərdən biri demişdi: “Ekoloji təhlükə və nüvə təhlükəsi insan üçün bərabər surətdə təhlükəlidir. Onlar arasındakı fərq isə ondan ibarətdir ki, nüvə müharibəsi təhlükəsi hələ də təhlükə olaraq qalır, amma ekoloji təhlükə - reallıqdır” [9, s.156].

Deməli, ekoloji böhranın qarşısını almaq üçün onun sosio-mədəni əsaslarını – ideoloji, mənəvi və davranış praktikasını kökündən dəyişmək lazımdır.

“Ekoloji mədəniyyət” anlayışı elmdə və ictimai-siyasi həyatda XX əsrin ikinci yarısında yaranmışdır. Bu termin elmi dövriyyəyə 1973-cü ildə Sverdlovsk şəhərində “ETT-nin ideya-nəzəri problemləri” adı altında keçirilən konfransda “İnkişaf etmiş sosializmin ekoloji mədəniyyəti” məruzəsi ilə tanınmış Rusiya tədqiqatçısı L.N.Koqan tərəfindən daxil edilmişdir [1, s.5]. Buna baxmayaraq, elmi ədəbiyyatda indiyədək “ekoloji mədəniyyət” anlayışının birmənalı izahı da yoxdur. Səbəb elə “mədəniyyət” kateqoriyasının özünün tərifinin mürəkkəbliyində və birmənalı olmamasındadır. Məslən, amerikalı tədqiqatçı Abraham Mola görə, mədəniyyət anlayışının elmi ədəbiyyatda 500-ə qədər tərifi vardır [7, s.154]. Bunun da səbəbi mədəni hadisələrin çeşidliliyində və əhatəliliyndədir.

Deməli, ekoloji mədəniyyət cəmiyyətin ümumi mədəniyyətinin xüsusi bir seqmenti olaraq cəmiyyətin ətraf mühitlə ahəngdar qarşılıqlı münasibətini əks etdirir, eləcə də onun təbiətə şüurlu münasibəti və təbiəti qoruyub saxlamaqda praktiki iştirakı ilə səciyyələnir. Ekoloji mədəniyyət cəmiyyətin ekoloji istiqamətli dəyərlər sistemini formalaşdırır, ictimai rəyə və sosial subyektlərin davranışına birbaşa təsir göstərir [4].

Azərbaycanda və eləcə də MDB məkanında ekoloji mədəniyyətin tədqiqi struktur-funksionalist mövqedən aparılırsa, qərb ənənəsində fenomenoloji paradiqmaya üstünlük verilir. Belə ki, birinci yanaşma makrosəviyyə perspektivi olaraq cəmiyyətin bütün hissələrini bütövlükdə götürsə də, burada fərdlərin qarşılıqlı münasibətləri, yəni mikrosəviyyə (fenomenoloji yanaşmada olduğu kimi) diqqətdən kənarda qalır, fərd-cəmiyyət və cəmiyyət-fərd, qrup münasibətləri arxa plana keçirilir. Bir sözlə, ekoloji mədəniyyətin tədqiqində həm sistem yanaşma, həm də fərdi aspektlər bir-birini tamamlamalıdır.

Ekoloji mədəniyyətin tədqiqində onun struktur komponentlərini nəzərdən qaçırmaq olmaz.

Bu məqama diqqət yetirən O.N.Yanitski ekoloji mədəniyyətin struktur komponentləri arasında aşağıdakıları göstərir:

1) Dəyərlər komponenti. Mədəniyyət özündə bütöv bir dəyərlər, nizamlayıcılar sistemini birləşdirir ki, bura da ekoloji biliyi, idealları, anlayışları, normaları, qaydaları və s. aid etmək olar;

2) Fəaliyyət komponenti. Məqsədlər, ekoloji fəaliyyətin instrumetarisi, fəallığın təzahürü, özünüreallaşdırma, qiymətləndirmənin meyarları və nəticələri bura daxildir;

3) Şəxsi komponent. İnsanın ekoloji amillərə, proseslərə pozitiv münasibətlər məcmusu, ekoloji davranışın şəxsi modelləri, ekoloji təhsilə tələbat və maraqlar (başqa sözlə, təbiətə emosional münasibət, təbiətin mühafizəsi işinə cəhd və s.) və s. şəxsi komponentin tərkib hissələridir [10, s.141].

Bu komponentlərdən bizim üçün xüsusi əhəmiyyət kəsb edən dəyərlər komponenti üzərində bir qədər dayanaq. Cəmiyyətin dəyərlər sisteminin dəyişilməsi şəxsi prioritetləri nəzərə almadan mümkün deyil və bunun vasitəsilə konkret şəxslərin istiqamətlənməsinə kömək göstərərək onların fəaliyyətini digər istiqamətlərə yönəldir. Talkott Parsonsa görə, sosial birliyin böyük əksəriyyəti tərəfindən bölüşdürülən dəyərlər sistemi insanların fəaliyyətini idarə edir və bununla da müasir sosial həyatın mümkünlüyünü təmin edir [8, s.355]. Tarixən müasir dəyərlər istiqamətinin formalaşması prosesi insanların həyat tərzinin tərəqqisi, texniki vasitələr və onlara müvafiq “cəmiyyət-təbiət” qarşılıqlı münasibət tipinin transformasiyasının nəticəsidir. Bu gün insani dəyərlər bütünlükdə onun maddi nailiyyətləri və cəmiyyətdə qəbul edilmiş imkanlar standartına malik olma ilə ölçülür. İnkişaf nəticəsində sosium qloballaşmanın təsiri altında daha mobil olur, müxtəlif qadağalar aradan götürülür, sərhədlər aşılır, dəyərlər istiqamətinin dəyişilməsi baş verir. Bu proseslərin hamısı qanunauyğun şəkildə baş verir.

Ekoloji mədəniyyətin tərkib hissələrindən biri kimi ekoloji təhsilin məqsədi insanlarda ekoloji biliklər formalaşdırmaq və onları ekoloji etikaya uyğun düzgün davranışı öyrətməkdən ibarətdir. İnsanların şüuruna çatdırmaq üçün tələb olunan materialın strukturu davamlı inkişafa keçidin vəzifələri ilə müəyyənləşir ki, burada daxildir: mövcud olan ekosistemlərin qorunub saxlanılması və zəifləmiş, yaxud yox olmaqda olan ekosistemlərin saxlanılması və bərpası; həddindən artıq istehlakın

dayandırılması və insanların maraqlarını maddi istehlakdan və kapital toplamaqdan təbiətlə qarşılıqlı əlaqəyə istiqamətləndirmək; istehsalın ekologiyalaşdırılması [3, s.36].

Müasir təhsil üçün müasir cəmiyyətin şəxsiyyətin formalaşdırılması üçün tələb olunan artmaqda olan tələbatları ilə kifayət qədər inkişaf etdirilməmiş inkişaf nəzəriyyəsi və ekoloji mədəniyyətin formalaşması konsepsiyası arasında ziddiyyətin kəskinləşməsi səciyyəvidir.

Daha sonra qeyd edək ki, ekoloji tərbiyənin əsasında iki məsələ durur: ekoloji şüur və ekoloji davranış. Təhsilin son məqsədi isə ekoloji dünyagörüşün formalaşdırlması və biosfer prosesləri pozmayan, dərk olunmuş özünüməhdudiyyətə əsaslanan istehlak, təbii mühiti qorumaq üçün antropogen təzyiqin azaldılması, hüquqi normalara riayət etmək istiqamətində fəaliyyət təşkil edir. Lakin tək bir ekoloji təhsil ölkənin davamlı inkişafına keçidini təmin edə bilməz. Məsələyə kompleks, sistemli yanaşma, eləcə də dövlətin maliyyə dəstəyi, ekoloji təhsil və tərbiyənin müasir cəmiyyətin dəyərlər sisteminə daxil edilməsi tələb olunur.

Beləliklə, ekoloji tərbiyə ətraf mühitə təsir sahəsində sistematik biliklərin, bacarıqların öyrənilməsi prosesi və nəticəsidir. Ekoloji tərbiyə ekoloji mədəniyyətin, ətraf mühitə sistemli və məqsədyönlü, şüurlu və mənəvi təsirin  ayrılmaz hissəsi kimi çıxış edir. O, insanların şüuruna, baxışlarına və təsəvvürlərinə təsir yolu ilə təşkil olunur. Ekoloji maarifləndirmə insanları ekoloji bilik və bacarıqları yaymaq və istifadə etməklə onları mənəvi tərbiyə etməyin üsulu kimi çıxış edir.

Bu gün ekoloji tərbiyənin formalaşdırılmasına, bu sahədə maariflənməyə və təhsilə tam məsuliyyətlə yanaşma, hətta bu sahədə sosium-təbiət bütövlüyünün özününizamlaması məsələsinin konseptual yanaşma kimi ortalığa qoyulması aktual bir məsələyə çevrilmişdir. Buna misal olaraq Azərbaycanda 7 may 2014-cü il tarixdə Bilik Fondunun yaradılmasını qeyd etmək olar. Burada məqsəd ekoloji maarifləndirmə işlərinin həyata keçirilməsi və bu sahədə dövlətlə cəmiyyətin birgə fəaliyyətinin təşkil olumasıdır.

Bu gün dünyada formalaşan yeni makroekologiyaya Azərbaycan da cəlb olunmuşdur. Bunun mahiyyəti bir tərəfdən maliyyə, əmtəə, enerji, informasiya, insan və digər resursların ölkələrə axını, digər tərəfdənsə yerli ekologiyanın, ekosistemin təbii və mədəni müxtəlifliyuinin tarazlığının qorunub saxlanılmasıdır. Bu həm də qloballaşma şəraitində sosial ekologiya qarşısında duran mühüm nəzəri problemlərdən biridir [10, s.139].

Dünyanın daim artan əhalisinin (bu gün 6 milyarddan 2050-ci ildə 11 milyardadək) tələbatları çoxaldıqca təbii ehtiyatların azalması baş verir ki, bu da inteqrasiya və qloballaşma prosesləri üçün müəyyən çətinliklər törədir. Başqa sözlə, XX əsrin sonlarından başlayaraq texnika və texnologiyaların inkişafında hədsiz artımın nəticəsi olan ekoloji şüur cəmiyyətlə təbiət arasında yeni problemlər yaratmış, ekologiyanın çirklənməsini və təbii ehtiyatların tükənməsini artıq qlobal səviyyəyə çatdırmışdır [6, s.13].

Beləliklə, ekoloji mədəniyyətin ənənələrdən, normalardan, dəyərlərdən, davranış nümunələrindən ibarət mənəvi təcrübə kimi başa düşülməsi onun kompleks elm, ümumelmi metod və müəyyən bir dünyagörüş olması haqqında fikir söyləməyə əsas verir.

Ekoloji mədəniyyət həm də insanların təbiətə və bir-birinə təbiətlə əlaqəli münasibətində ictimai maddi-texniki münasibətlərin məcmusu kimi başa düşülə bilər ki, bu münasibətlər insanların həyatının yenidən bərpası və təşkili prosesini əhatə edir [5, s.5].

Qeyd edək ki, ekoloji mədəniyyət cəmiyyətin əsas sosial institutlarının fəaliyyəti nəticəsində yaranır və təkrar istehsal olunur. Bu sosial institutlar arasında dövləti, ailəni, ekoloji təhsil sistemini, dini-mənəvi tərbiyə və maarifləndirmə institutlarını, kütləvi informasiya vasitələrini göstərmək olar ki, onların da bir çoxunun bu gün Azərbaycan cəmiyyətində rolu sosiumun obyektiv sosial-ekoloji maraq və tələbatlarına uyğun deyildir. İnsanların ekoloji təhlükəsizlik sahəsində gözləntilərinin reallığa uyğun gəlməməsi cəmiyyətdə ekoloji aspektdə sosial gərginliyi artıra bilər [6, s.17].

İnsan-təbiət sisteminin antaqonistliyi tarixi inkişafın bir qanunauyğunluğu kimi formalaşmışdır. Başqa sözlə, tarixi tərəqqi nəticəsində bəşəriyyət elə bir mərhələyə qədəm qoymuşdur ki, bu vaxt onun elmi-texniki, sosio-mədəni və sosio-təbii mühitdə mövcudluğu inqilabi dəyişikliklər ol-

madan labüd şəkildə onun bioloji və universal sosial varlıq kimi məhvinə gətirib çıxarır. Doğrudan da, bu gün insanın özünün unikal bir varlıq kimi mövcudluğu böyük bir təhlükə altındadır.

Rusiyalı tədqiqatçı E.V.Girusova görə, bütünlükdə qlobal problemləri insanın mövcudluğu nöqteyi-nəzərindən üç əsasda qruplaşdırmaq olar: "insan-texnika", "insan-mədəniyyət" və "insan-təbiət". Bu sistemlərin hər birində də bəşəriyyət üçün mövcud təhlükə özünəməxsus şəkildə özünü büruzə verir. Belə ki, "insan-texnika" sistemində bəşəriyyətin nüvə silahı və ya hər hansı bir texnogen qəza nəticəsində məhvi təhlükəsi mövcuddur. Eyni zamanda texnikanın təkmilləşdirilməsi nəticəsində onun gələcək inkişaf yolu haqqında proqnoz vermək də olduqca çətindir. İnkişafın müasir mərhələsində xarici aləmin təsiri insanın irsiyyətində cəmlənərək gələcək nəsillərə ötürülür. Qərb alimlərinin fikrincə, təbiətin onun qanunlarının pozulmasına görə "cəza tədbirləri" özünü əhalinin səhhətində 25-30%-dək göstərir. Bu meyilin güclənməsi isə hətti bəşər övladının nəslinin kəsilməsinə gətirib çıxara bilər [2, s.74-75].

Deməli, bəşəriyyət onun üçün buraxılmış qısa zaman kəsiyində artıq öyrəşdiyi həyat tərzindən, ictimai münasibətlər sistemindən imtina etməli, həyat tərzində əsaslı dəyişikliklər etməlidir.

Bəşəriyyətə insan fəaliyyətinin hansısa bir sferasında və ya cəmiyyətdə inqilabi dəyişikliklər tələb edən yeni keyfiyytin meydana gəlməsi ilə əlaqədar çoxlu misallar tanışdır. Məsələn, elmdə XX əsrin əvvələrində bu, təbiət elmlərində və xüsusən fizikada böhranın yaranması, istehsal üçün elmi-texniki inqilab, ictimai inkişaf üçünsə - sosial münasibətlərin kökündən dəyişilməsidir.

Böhran şəraitində bəşəriyyətin bütün mütərəqqi qüvvələri birləşir və yaranmış ziddiyyət öz həllini tapır. Düzdür, heç vaxt gözlənilən dəyişikliklərin miqyası ümumplanet, qlobal kateqoriyalarla ölçülməmişdir və heç vaxt keyfiyyət dəyişikliklərinin labüdlüyü bütövlükdə ictimai sistemi əhatə etməmişdir. Eyni zamanda tarixi misallar ictimai tərəqqinin potensial inkişaf potensiallarını axtarmağa sövq edir [2, s.77].

Bəs onda bəşəriyyətin sağ qalmaq üçün nə kimi rezervləri, ehtiyatları var? Hansı qüvvələr bəşəriyyətə onun daha da inkişaf etməsi üçün mənbə rolunda çıxış edə bilər?

İlk növbədə bura bəşəriyyətin ümummədəni potensialını və cəmiyyətin inkişaf səviyyəsini aid etmək olar. Sonuncunu kapitalist inkişaf mərhələsinin məhsulu saysaq səhv etmərik. Özündən əvvəlki feodalizm quruluşundan daha mütərəqqi quruluş olan kapitalizm cəmiyyətin istehsal qüvvələrinin inkişafına güclü təkan vermiş, ölkələr arasında bütün sərhədləri özünəməxsus şəkildə pozmuş, bəşəriyyəti birləşdirərək ümumdünya təsərrüfat sistemi yaratmışdır. Bu proseslər qlobal məsələlərin həlli üçün obyektiv əsasa çevrilə bilər.

İstehsalın inkişafı elmin tərəqqisinə və elmin istehsalla birləşməsinə səbəb oldu. Məlum olduğu kimi, ETİ dövründə elm bilavasitə istehsal qüvvəsinə çevrilir, əvvəllər görünməmiş imkanlar əldə edir. Bu isə öz növbəsində elmin bəşəriyyətin tərəqqisi üçün məsuliyyətinin artması ilə müşayiət olunur.

Bəşəriyyətin xilasının potensial vasitələrinə eyni zamanda humanist fəlsəfəni də aid etmək olar. Bəşər tarixinin böhranlı dövrlərində fəlsəfənin əhəmiyyəti artır: fəlsəfə insanın dəyər-məna ölçüsünü əhatə etməyə, onun mövcudluğunun vahidliyini qiymətləndirməyə qadirdir. Müasir dövr üçün səciyyəvi olan fundamental və hər şeyi əhatə edən dəyişikliklər təkcə istehsalın və texnikanın inkişafı ilə deyil, həm də baş verən proseslərin adekvat fəlsəfi refleksiyası ilə təmin edilir. Məhz indi qlobal böhran hadisələrinin mahiyyəti və səbəbləri, ictimai inkişafın humanist, ümummədəni meyarları ilə bağlı məsələlər bütün kəskinliyi ilə qoyulur. Bu gün müasir dünyada insana öz qüvvəsini toplamağa və həyat üçün təhlükəli şəraitin aradan qaldırılması üçün pozitiv və optimist mədəni-qurucu mövqeyinin əsaslandırılmasına daha çox ehtiyac duyulur.

**Açar sözlər**: ekoloji mədəniyyət anlayışı, sosial paradiqma, sosial subyekt, lokal, milli və qlobal dəyərlər, seqment

**İstifadə edilmiş ədəbiyyat**

1. Бахарев В.В. Экологическая культура социума как система: автореф. …дис. канд. соц. наук. – Саранск: 2000, 42 с.

2. Гирусов Э.В. Экологическая культура как высшая форма гуманизма // Философия и общество, 2009, № 4, с. 74-80
3. Данилов В.И. Экологическое воспитание – ответ на экологический вызов // Экологическая культура и образование: опыт России и Беларуси. М.: 2000, с.29-40
4. Environmentally Sustainable Economic Development: Building on Brundtland. UNESCO 1991. 100 p.http://www.nasledie.ru
5. Зверев И.Д. Охрана природы и экологическое воспитание // Филосоофские науки. 1991, №5, с.3-10
6. Марар О.И. Экологическая культура в современном российском обществе: Автореф. дис. …докт. соц. наук. Москва, 2012, 42 с.
7. Моль А. Социодинамика культуры. М.: 1972, 332 с.
8. Парсонс Т. Система координат действия и общая теория систем действия: культура, личность и место социальных систем // Американская социологическая мысль. М.: 1996, с.462-478
9. Сузуки Д. Мы находимся в состоянии войны. М.: 1990, с.154-167
10. Яницкий О.Н. Экологическая Культура России XX Века: Очерк Социокультурной Динамики. История и современность, № 1, март 2005, с.136-161

**Агаселим Гасанов**

## К СОЦИАЛЬНО-ФИЛОСОФСКОМУ СОДЕРЖАНИЮ ПОНЯТИЯ ЭКОЛОГИЧЕСКОЙ КУЛЬТУРЫ

### Резюме

В статье анализируется проблема экологической культуры в социально-философском аспекте. Отмечается, что в современный период в значительной степени увеличилась взаимозависимость между природой и обществом. Поэтому, каждая экологическая проблема должна находиться в центре внимания. Так же, отмечается, что прежняя социальная парадигма регулирования отношений человек-природа, на пороге замены новой. Если ранее культура больше понималась как средство отделения людей от природы, сейчас, на основе более адекватного понимания природной среды, культура должна превратиться в средство повторного объединения общества и природы.

**Ключевые слова**: экологическая культура, социальная парадигма, социальный субъект, локальные, национальные и глобальные ценности, сегмент

**Agasalim Hasanov**

## SOCIAL AND PHILOSOPHICAL CONTENTOF CONCEPT OF ECOLOGICAL CULTURE

### Summary

The problem of ecological culture from social and philosophical point of view is analyzed in the article. It is noted that in modern period interdependence between the nature and society has considerably increased. Therefore, every ecological problem has to be the focus of attention. Also, in the article it is noted that previous social paradigm of regulations of people-nature relations is about to be replaced with a new one. If before the culture was understood as a means of isolation of people from the nature now on the base of more adequate understanding of environment, the culture must turn into the means of repeated union of society and nature.

**Keywords:** concept of ecological culture, social paradigm, social subject, local, national and global values, segment

**UOT – 316.6**

**Sədaqət Məmmədova**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**

# İDARƏETMƏNİN SOSİOLOGİYASI CƏMİYYƏTİN ELMİ İDARƏ OLUNMASINI SƏCİYYƏLƏNDİRƏN SAHƏ KİMİ

*Məqalədə müasir inkişaf mərhələsində cəmiyyətin elmi idarə olunmasında idarəetmə sosiologiyasının müxtəlif aspektləri araşdırılır. Cəmiyyətin təşkilati quruluşu, sosial strukturun formalaşması, idarəetmə sosiologiyasının struktur-funksional analizi tədqiqat obyekti kimi təhlilə cəlb olunur. Tədqiqatın daha dərindən aparılması və ictimaiyyətin bu obyektlər haqqında ətraflı biliklərə malik olmasının əhəmiyyəti vurğulanır. Cəmiyyətlərin mövcudluq səciyyəsinin birbaşa idarəetmə ilə əlaqədar olduğu təhlil edilir. Fikrimizcə, cəmiyyətin ehtiyatlar sistemi, tələb və təklifləri, imkanları ciddi prinsiplər əsasında idarə edilməlidir.*

İnsan cəmiyyətinə hətta kiçik bir müşahidə zamanı onun məzmunca müxtəlif formalarda və sayca müxtəlif həcmlərdə idarə olunmasını görə bilərik. Hələ qədim zamanlardan insan icmaları mütəşəkkilliyin üstünlüyünü dərk etmişlər və onun daha səmərəli təşkil olunması, qorunub saxlanması üçün daim mübarizə aparmışlar. XX əsrin əvvəllərində idarəetməyə xüsusi diqqət yetirən bəzi görkəmli şəxsiyyətlər cəmiyyətin ümumi vəziyyətini “kəfkirli saata” bənzədirdilər. Kəfkirin hərəkət etdiyi orbitin bir tərəfində “mütəşəkkilik”, digər tərəfində isə “sərbəstlik” (və ya anarxiya) yerləşir. Kəfkir mütəşəkkilliyə yaxınlaşaraq onun ən yüksək zirvəsinə çatdıqdan sonra sanki mərkəzdənqaçma qüvvələri onu yenidən sərbəstliyə doğru aparır. Bu proses digər tərəflə nisbətdə yenidən təkrar olunur [1, s.126].

Mütəşəkkilliyin üstünlüyü tarixdə danılmaz faktdır. Az sayda yaxşı təşkil olunmuş silahlı qüvvələrin ondan qat-qat çox olan dağınıq qoşunlar üzərində qələbələri buna əyani sübutdur.

Çağdaş dövrdə cəmiyyətin öyrənilməsi, onun idarə olunmasının səmərəli təşkili ən vacib məsələlərdəndir. Bu kontekstdə **“idarəetmənin sosiologiyası”** mühüm sahə kimi sosiologiya elminin ümumi inkişafı ilə sıx əlaqədardır. Bəzi tanınmış sosioloqlar bir sıra hallarda sosiologiya elmini çox əsaslı formada idarəetmənin bir vasitəsi adlandırırlar. Bütün təşkilati strukturlarda sosiologiyanın bir üsul kimi idarəetmədə tətbiqi çağdaş şəraitdə ən vacib şərtlərdən biri kimi qiymətləndirilir. Bu səbəbdən idarəetmənin sosiologiyası cəmiyyətin şüurlu, elmi idarə olunmasını səciyyələndirən sahələrdəndir. Cəmiyyətin təşkilati quruluşu, sosial strukturunun formalaşması, struktur-funksional təhlili idarəetmənin sosiologiyasının əsas tədqiqat obyektləridirlər. Buna görə də həmin obyektlərin tədqiqinin genişləndirilməsi, onun əsaslarının cəmiyyətin hər bir üzvünə çatdırılması çox vacibdir [2, s.324].

Təşkilati quruluşun, təşkilatçılığın mahiyyəti də məhz insanların birgə səylərindən səmərəli istifadə olunmasındadır. Müxtəlif fərdlərdən ibarət qrupun birgə fəaliyyətinin nəticəsi, həmin fərdlərin bütün şəxsi keyfiyyətlərinə baxmayaraq, ayrı-ayrılıqdakı fəaliyyətlərindən artıq olacaqdır. Ayrı-ayrı fərdlərin səylərinin əlaqələndirilməsi və istiqamətləndirilməsi təşkilatlanmanın əsas xüsusiyyətlərindən biridir.

Sözsüz ki, çağdaş dövrdə cəmiyyətdəki proseslərin mürəkkəbləşməsi və inkişafı, cəmiyyət üzvləri araşında əmək bölgüsünün diversifikasiyası onun bütün sahələrinin əlaqələndirilmiş və bir vəhdət yaradan fəaliyyətini tələb edir. Bu halda idarəetmə sisteminin sosioloji təhlilinə nəzər salmaq yerinə düşərdi. Məsələn, dövlət idarəetmə sistemi bütün idarəetmə orqanlarının və struktur ün-

sürlərinin vahid bir mexanizm kimi əlaqəli işləməsini tələb edir. Burada rəhbərlik amili idarəetmə sahəsində xüsusi əhəmiyyət kəsb edən əmək prosesi kimi ən vacib şərtlərdən biridir.

Cəmiyyətlərin mövcudluq səciyyəsi birbaşa idarəetmə ilə əlaqədardır. Çünki hər bir fərdin və ya qrupun fəaliyyətinin nizamlanması, qaydaya salınması, nəticə etibarilə insanların idarəetmə prosesinə cəlb olunmasıdır.

Əgər bu entropiya halında sistemləşdirici, və ya təsiredici subyektlərin sistemini təşkil edən, təsirə məruz qalan obyektlə münasibətlər prosesidirsə, onda bu ümumilikdə canlı və cansız təbiətin, ictimai həyatın bütün hadisələrinə xas olan bir prosesdir. Bu səbəbdən bəzi tədqiqatçılar idarəetmənin 3 əsas növünü ayırır: a) cansız təbiətin idarə edilməsi. Məsələn, maşın, texnoloji idarəetmə; b) canlı təbiətin, orqanizmin idarə edilməsi. Məsələn, təbiətdə obyektiv formada fizioloji, biokimyəvi və biofiziki idarəetmə; v) şüurlu, sosial idarəetmə - cəmiyyətin idarə edilməsi. Burada hər bir idarəetmə növü öz növbəsində müxtəlif sahələrə bölünür. Məsələn, sosial idarəetməyə daxil edilir: cəmiyyətin siyasi, sosial-iqtisadi münasibətlərin idarə olunmasını, dövlət idarəetmə sistemini, dövlətlə qeyri-dövlət qurumlarının münasibətlərinin idarə edilməsi və s. Bununla belə idarəetmə sistemini üç iri sahəyə bölmək olar: siyasi idarəetmə, iqtisadi idarəetmə və vətəndaş cəmiyyəti idarəçiliyi [3, s.44].

Bildiyimiz kimi istənilən cəmiyyətin ontoloji vəziyyətini cəmiyyət üzvlərinin maddi tələbatlarının təmin edilməsi üçün müvafiq nemətlərin əldə etmələri təşkil edir. Ona görə də bilavasitə maddi nemətlər istehsalı və onun idarəedilməsi ən vacib məsələlərdən biridir. Bu səbəbdən də sosial-iqtisadi münasibətlərin idarəedilməsi bu elmin obyekti olaraq, istər maddi nemətlər yaradan ayrı-ayrı bölmələri, istərsə də bütün cəmiyyəti öyrənir və nəzərdən keçirir. Bu, idarəolunan sistemin planauyğun və ardıcıl fəaliyyətini əhatə edir. Həmin fəaliyyət nəticəsində idarəetmənin obyekti olan cəmiyyətin bütün sahələrinin optimal inkişafı həyata keçirilir.

İdarəetmənin konkret obyektləri aşağıdakılardan ibarətdir: ayrı-ayrı bölmələr və təşkilatlar, konkret sosial-iqtisadi fəaliyyət sahələri, bütövlükdə cəmiyyət və cəmiyyətdə baş verən siyasi, ideoloji, sosial-iqtisadi və hüquqi proseslər [5, s.146].

Ümumiyyətlə, cəmiyyətin ehtiyatlar sistemi, tələb və təklifləri, imkanları ciddi prinsiplər əsasında idarə edilməlidir. Belə olan halda iqtisadi fəaliyyətin bütün sahələrinin mütənasib və səmərəli inkişafı təmin edilir. Bu baxımdan mövcud idarəetmə sisteminin daha da təkmilləşdirilməsi sosial-iqtisadi inkişafın sürətləndirilməsinin mühüm amilidir. Burada ən başlıca məsələlərdən biri elmi idarəetmənin mühüm vasitəsi olan riyazi-iqtisadi hesablamalar əsasında inkişaf xəttinin proqnozlaşdırılması və onun metodlarının daha da təkmilləşdirilməsindən ibarətdir. Bu, birinci növbədə proqnozlaşdırılmanın özünün elmi səviyyəsinin yüksəldilməsini tələb edir. Proqnozlaşdırılmanın elmi səviyyəsinin yüksəldilməsi əsasən aşağıdakı paradiqmalar çərçivəsində nəzərə alınmalıdır:

a) cəmiyyətin retrospektiv və perspektiv tələbatlarının dəqiq ölçülərinin nəzərə alınması;

b) ölkənin iqtisadi, elmi-texniki imkanları və resurslarının artan xətt üzrə proqnozunun aparılması;

c) iqtisadi inkişafla bağlı qəbul edilmiş və qəbul olunması gözlənilən müxtəlif səpkili qərarların hərtərəfli təhlil edilməsi və onların müxtəlif variantlarının müasir tələblərə strateji maraqlar çərçivəsində qiymətləndirilməsi;

d) iqtisadi fəaliyyət və proqnoz hesablamalarının bilavasitə cari müddət və perspektiv dövr üçün bir-birinə qarşılıqlı təsirinin, habelə nəticələrinin müəyyən edilməsi [5, s.147].

Bu məsələlərin təhlilində milli-strateji təfəkkürün formalaşması vacibdir. Burada resursların və sosial tələbatların səmərəli idarəedilməsinin uzunmüddətli proqnozlaşdırılması metodlarının təkmilləşdirilməsi və bu proqnozlaşdırma formasında eyni zamanda elmi-texniki tərəqqinin proqnozunun idarəetmə vasitələrinə onsuz da zəruri olan tələbatın proqnozlaşdırılması, müvafiq idarəetmə

sistemlərinin yerləşdirilməsi, xammal resurslarnın, habelə demoqrafik proqnozun və s.-in işlənib hazırlanması, onun dekadalıq, aylıq, rüblük, yarımillik, illik, beşillik və uzunmüddətli növləri ilə əlaqələndirilməsi, bir sözlə, proqnozlaşdırmanın fasiləsizliyinin təmin edilməsi ən başlıca məsələdir. Elmi idarəetmədə ən vacib məsələlərdən biri də cəmiyyətin müxtəlif sahələrində istifadə olunan statistik göstəricilərin düzgün və obyektiv formada reallığı əks etdirməsi səviyyəsində təkmilləşdirilməsidir.

Proqnozlaşdırma və idarəetmə prosesində müvafiq implekativ normativlərdən geniş istifadə olunması vacib problemlərdən biridir. Planlaşdırmanın normativ metodlarından geniş istifadə olunmalıdır. Bununla əlaqədar, son zamanlar ölkə iqtisadiyyatının, istehsal vasitələrinə tələbatın müəyyən edilməsi, xammal, material, yanacaq və elektrik enerjisinə qənaət edilməsi, avadanlıqlardan, maşın və mexanizmlərdən istifadə normativlərinin müəyyən edilməsi metodlarında xeyli pozitiv irəliləyişlər olmuşdur. Bu da öz növbəsində iqtisadi fəaliyyətin məqsədyönlü təşkili, materiallardan istifadə sahəsində nəzarətin güclənməsi sayəsində mümkün olmuşdur. Yeni normativlər əvvəllər baş verən israfçılıq və saxtakarlıqların qarşısını qətiyyətlə almaqdadır.

Maddi ehtiyatlar və cəmiyyətin sosial-iqtisadi tələbatlarının idarəedilməsi ilk növbədə milli iqtisadiyyatın idarə edilməsinin təkmilləşdirilməsilə əlaqədardır. Bunun əsas istiqamətləri aşağıdakılardan ibarətdir: a) iqtisadi, idarəetmə məsələlərinə sistem, kompleks halında yanaşma; b) sosial iqtisadi məsələlərə, idarəetmə prosesinə proqram halında yanaşma; c) idarəetməyə məqsədli yanaşma; d) uzunmüddətli strateji yanaşma qaydası; e) idarəetmənin təkmilləşdirilməsinin təşkilati formalarına planauyğun yanaşma [4, s.109].

Bütün yuxarıda qeyd olunanlar iqtisadiyyatın idarə edilməsinin təkmilləşdirilməsində aşağıdakı konkret istiqamətlərin diqqətdən kənarda saxlanılmasına bəraət qazandırmamalıdır. Bunlar: a) idarəetmənin konkret plan-iqtisad mexanizminin təkmilləşdirilməsi; b) idarəetmənin təşkiletmə mexanizminin, təşkilat formalarının təkmilləşdirilməsi; c) kadr probleminin günün tələbləri səviyyəsində həll olunması [6, s.26].

Cəmiyyətin zəruri tələbatını ödəyən təsərrüfat sisteminin idarə edilməsi məsələlərinə gəldikdə isə müəyyən vəzifələrin həll olunması çox vacibdir. Cəmiyyətdə idarəetmə prosesi universal xarakter daşıyır və müəyyən kooperasiya əlaqələri şəraitində baş verir. Məlumdur ki, cəmiyyətdə baş verən ictimai münasibətlərin aşağıdakı növləri vardır: iqtisadi, ideoloji, hüquqi, etik, psixoloji və s. Bu münasibətlər içərisində iqtisadi münasibətlər başlıca yer tutur. Lakin bu heç də digər münasibətlərin idarəetmə üçün əhəmiyyətsiz olduğuna dəlalət etmir.

Hər hansı bir cəmiyyətdə formalaşan iqtisadi idarəetmə münasibətləri eynicinsli olmur. Bu münasibətlər ilkin münasibətlərdən, habelə ikinci, üçüncü dərəcəli münasibətlərdən, ilkin olmayan iqtisadi idarəetmə münasibətlərindən ibarətdir. Bu müddəa idarəetmə münasibətlərini düzgün dərk etmək üçün çıxış nöqtəsi rolunu oynamalıdır. İdarəetmə münasibətləri maddi məzmuna malikdir. İdarəetmənin iqtisadi funksiyası istehsalın öz mahiyyətindən irəli gəlir, əmək bölgüsü və əmək kooperasiyası ilə müəyyən edilir. Bu mənada idarəetmə və bu sahədə baş verən münasibətlər maddi istehsalın daxili məzmununu təşkil edir. Deməli, istehsal münasibətləri idarəetmə münasibətlərinin müəyyən edən başlıca şərtdir. Bununla belə idarəemə münasibətləri heç də istehsal münasibətlərinin passiv nəticəsi deyil. İdarəetmə münasibətləri də istehsal münasibətlərinə əks təsir göstərə bilir. Cəmiyyətə yabançı olan mənfi halların, inkişafdan durğunluq meyillərinin, inflyasiyalar, inhisarlaşma və s. neqativ halların baş verməsi xeyli dərəcədə idarəetmə münasibətlərində, kadr siyasətində baş verən ciddi nöqsanlardan irəli gəlmişdir [7, s.325].

İdarəetmə münasibətləri mürəkkəb, kompleks münasibətlər sistemindən ibarətdir. O, statik halda deyil, dinamik halda olan münasibətlər silsiləsini, əhatə edir, müxtəlif idarəetmə təsirlərinin nəticəsində, birgə fəaliyyətin təşkil edilməsi prosesində, gedişində meydana çıxır. Bu baxımdan ida-

rəetmə münasibətləri bir tərəfdən istehsal münasibətlərinin tərkib hissəsi kimi, digər tərəfdən isə onun təzəhür forması kimi özünü göstərir. Bununla belə idarəetmə münasibətləri iqtisadi, maddi münasibətlərlə yanaşı, bu sahədə baş verən siyasi, hüquqi, sosioloji-psixoloji münasibətlər forması ilə də əlaqədardır. İdarəetmə münasibətlərinin aşağıdakı tipləri vardır: a) idarəedən sistem (idarəetmə subyekti) ilə idarəolunan (idarəetmə obyekti) sistem arasındakı münasibət; b) idarəedən sistemin daxilində baş verən münasibətlər [8, s.154]. İdarəetmə mərhələlərində müəssisə idarə aparatı ilə onun sexləri, müəssisə ilə istehsal birliyi, onlarla nazirlik arasında baş verən münasibətləri buna misal gətirmək olar. İdarəetmə münasibətləri, həmçinin şəxsiyyətlərarası, sistemlərarası, qarışıq, qrup, fərdi münasibətlərə ayrılır. Şəxsiyyətlərarası münasibətlər fərdi və qruplararası münasibətlərdən ibarətdir. Məsələn, fəhlə ilə usta, briqadir, usta ilə sex rəisi arasındakı münasibət fərdi münasibətlərdir. Müəssisənin idarəetmə orqanları, vəsilələri, şöbələri arasındakı münasibətlər, müəssisənin hər hansı şöbəsi ilə birlik və ya nazirliyin şöbəsi arasındakı əlaqədən irəli gələn münasibətlər qruplararası münasibətlərdir.

İqtisadi, sosial sistemlər və onların yarım sistemləri arasındakı münasibətlər, məsələn, deyək ki, cəmiyyətlə müəssisə, nazirliklə birlik, habelə, ümumi təkrar istehsalın müxtəlif fazaları arasındakı münasibətlər sistemlərarası münasibətlərə aiddir. Qarışıq sistemlərə misal olaraq cəmiyyətlə işçilər, işçilərlə müəssisələr, ümumi istehsalın idarə edilməsinin sosial, maddi-texniki tərəfləri, aspektləri, əlaqələri, onların doğurduğu münasibətləri göstərmək olar. Ona görə də iqtisadi sistemdə insan münasibətləri ilə yanaşı insan-maşın sisteminin öyrənilməsi, bununla əlaqədar olaraq, idarəetmənin bir subyekti olmaq etibarilə insan amilinin fəallaşdırılması, burada iqtisadi şərtlərlə yanaşı texniki, texnoloji, psixofizioloji, ergonomik amillərin nəzərə alınması son dərəcə vacibdir [9. s.125]. Məsələnin bu cür qoyuluşu birinci növbədə çağdaş elmi-texniki tərəqqinin keyfiyyətcə inqilabi xarakterindən, tələblərindən irəli gəlir.

İdarəetmə prosesində baş verən şəxsiyyətlərarası münasibətlər eyni və müxtəlif vəzifəli adamlar arasındakı münasibətlər halında olur. Məsələn, icraçı ilə icraçı, rəhbərlə rəhbər arasındakı münasibətlər belə münasibətlərdəndir [10, s.254].

Bundan başqa, idarəetmə münasibətləri iqtisadiyyatın hər hansı bir sahədaxili, regiondaxili, ərazi, sahələrarası, regionlararası, ərazi-sahə münasibətləri formasında da olur. Hüquqi-terminoloji izahda çoz zaman bunu fiziki və ya hüquqi şəxslərarası münasibətlər kimi də qeyd etmək olar. Yuxarıda göstərilən münasibətlər formasında yalnız iqtisadi, sosial münasibətlər deyil, təsərrüfat quruculuğu ilə əlaqədar olaraq həm də istehsal, texniki, texnoloji məsələlər, problemlər də meydana çıxa bilər [10, s.241]. Lakin bu tipli problemlər texniki sistemlərin idarəedilməsinə daha çox uyğun gəlir. Bununla belə, istehsal proseslərinin təşkili, əlaqələndirilməsi baxımından həmin tipli məsələlər “İctimai istehsalın idarə edilməsinin əsasları” deyilən tədris kursu üçün də əhəmiyyətsiz deyildir.

Çağdaş dövrdə yeni tipli iqtisadi təfəkkürün formalaşması və inkişafına böyük əhəmiyyət vermək lazımdır. Kitab, elm pərəstişkarlığı hər bir tələbənin - gələcək mütəxəssisin həyatının ayrılmaz bir hissəsi olmalıdır. Elmə, kitaba belə ciddi, yüksək səviyyədə yanaşılması yeni tipli iqtisadi təfəkkürün inkişafına mühüm stimul kimi təsir göstərir. Bu baxımdan idarəetmə elmi qarşısında da yeni-yeni vəzifələr durur. Başqa elm sahələri kimi bu elm də dünyagörüşün yaranmasında fəal rol oynamalıdır. Çünki bu elmin problemləri, müddəaları müasir dövrdə ön plana keçmişdir.

İdarəetmə münasibətləri inzibati-hüquqi, təşkilati, psixoloji tipli münasibətlər kimi də təzahür edir. İdarəetmə münasibətlərinin məzmunu və xarakteri hər bir tarixi inkişaf dövrünün qanunları, prinsipləri ilə müəyyən olunur. Sosial ədalət prinsipinin həyata keçiirilməsində idarəetmə münasibətləri mühüm rol oynayır.

**Açar sözlər:** idarəetmə sosiologiyası, idarəetmə münasibətləri, təşkilati quruluş, resurslar, sosial tələbatlar, iqtisadi idarəetmə

**İstifadə edilmiş ədəbiyyat**

1. Abbasov Ə.F. İdarəetmənin sineretik fəlsəfəsi: yeni dialoq naminə. Bakı: 2006
2. Azərbaycan cəmiyyəti transformasiya şəraitində. Bakı: TS, 2008
3. Axundov M.Ə. Strateji idarəetmə. Bakı: Çaşıoğlu, 2001
4. Əliyev T.Ə. Menecment. Bakı: 2013
5. Quliyev T.Q. İdarəetmənin əsasları. Bakı: 2012
6. Məmmədov S., Abutalıbov R. və b. İdarəetmənin əsasları. Bakı: 2009
7. Атаманчук Г. В. Общая теория управления. М.: 2014
8. Афанасьев В.Г. Научное управление обществом. М.: 2013
9. Вейлл Питер. Искусство менеджмента. М.: 2012
10. Гурней Б. Введение в науку управления. М.: 2011

**Садагят Мамедова**

## СОЦИОЛОГИЯ УПРАВЛЕНИЯ КАК ОТРАСЛЬ, ХАРАКТЕРИЗУЮЩАЯ НАУЧНОЕ УПРАВЛЕНИЕ ОБЩЕСТВОМ

### Резюме

В статье анализируются различные аспекты социологии управления в научном управлении обществом на современном этапе развития, отражаются различные мнения авторов. Организационная структура общества, формирование социальной структуры, структурно – функциональный анализ социологии управления рассматриваются как основные объекты исследования. Отмечается необходимость более углубленного исследования и доведения до общественности информации о сущности этих объектов.

**Ключевые слова:** социология управления, управленческие отношения, организационная структура, ресурсы, социальные потребности, экономическое управление

**Sadaqat Mammadova**

## SOCIOLOGY OF MANAGEMENT AS A FIELD OF KNOWLEDGE CHARACTERIZING THE SCIENTIFIC MANAGEMENT OVER SOCIETY

### Summary

The different aspects of the management of sociology in the scientific management over society based on modern level of development are analyzed in the article. The various opinions of the author are shown in the article too. Organizational structure of society, forming of social structure, structurally-functional analyze of the management of sociology are considered as the main objects of investigation. It is also mentioned about the necessity of more profound investigation and carrying up to the public the information about the essence of those objects.

**Keywords:** the sociology of management, management relations, organizational structure, resources, social requirements, economic management

**UOT – 342.4**

**Maya Abdullayeva**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**

# SOSİAL SİYASƏT VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ

*Məqalədə hazırda Azərbaycan Respublikasında aparılan sosial siyasət və onun xalqın rifahının yaxşılaşmasını əks etdirən nəticələrindən bəhs olunur. Bu sahədə son illərdə qəbul edilmiş qanun və normativ aktlara münasibət bildirilir. Bu qanunların qəbulu zamanı beynəlxalq standartların nəzərə alınmasının vacibliyi qeyd olunur. Bildirilir ki, sosial siyasətə - demoqrafiya, əhalinin məşğulluğu, əmək bazarı, səhiyyə, təhsil, mədəniyyət və s. göstəricilər daxildir. İctimai təhlükəsizliyin təmin olunması, cinayətkarlığın aradan qaldırılması, ekologiyanın yaxşılaşdırılması, insan hüquqlarının təmin olunması da sosial göstəricilərə aiddir.*

Sosial siyasət bütün ölkələrdə dövlət siyasətinin əsasını təşkil edir. Dövlətin sosial siyasətinin mahiyyəti – cəmiyyətin təbəqələri arasında münasibətlərin gözlənilməsindən ibarətdir.

Sosial siyasətə - demoqrafiya, əhalinin məşğulluğu, əmək bazarı, səhiyyə, təhsil, mədəniyyət və s. göstəricilər daxildir. İctimai təhlükəsizliyin təmin olunması, cinayətkarlığın aradan qaldırılması, ekologiyanın yaxşılaşdırılması, insan hüquqlarının təmin olunması da sosial göstəricilərə aiddir.

Sosial problemlərin həllində dövlətin rolu böyükdür və üzərinə düşən vəzifələri yerinə yetirir:

- Ölkədə qayda-qanunu formalaşdırmaq;
- Daxili və xarici təhlükəsizliyi təmin etmək;
- Sosial sahələri inkişaf etdirmək;
- Cəmiyyətin aztəminatlı üzvlərinin əmək hüququnu qorumaq, sosial müdafiəsini təmin etmək [2].

Bu məsələlərin həlli əhalinin həyat səviyyəsinin yüksəldilməsinə, qiymət əmsalının stabilliyinin qorunmasına, məşğulluq səviyyəsinin təmin olunmasına və sosial təminat sisteminin ədalətli olmasına imkan verir.

Azərbaycan Respublikasının Konstitusiyasında göstərilir ki, Azərbaycan Respublikası – müstəqil dövlət olub, siyasətini vətəndaşların hərtərəfli inkişafına istiqamətləndirilmişdir [1].

Cəmiyyətin inkişafı üçün iqtisadi və sosial siyasətlər arasında bir bağlılıq vardır: iqtisadi siyasət insanların maddi və mənəvi həyat səviyyəsinin yüksəldilməsinə, sosial siyasət isə əhalinin müxtəlif sosial tələbatının ödənilməsinə xidmət edir.

Dövlətin sosial siyasəti elə formalaşmışdır ki, o, öz kapitalına görə əhalinin gəlirlərinin artmasını təmin edir və əhalinin sosial müdafiəsi mexanizmini yaradır.

Azərbaycanda son dövrlərdən başlayaraq dövlət sosialyönümlü tədbirlərin həyata keçirilməsinə diqqət artmışdır. Təqaüdçülərin fərdi uçotunun aparılması, sosial sığorta fondlarının yaradılması, aztəminatlı ailələrin aşkara çıxarılması, ünvanlı sosial yardımların verilməsi, pensiyaların artırılması buna misaldır.

Sosial müdafiə - insanların yaşayış yerlərindən, dinindən, dilindən, milliyyətindən, yaşından asılı olmayaraq, onların sosial-iqtisadi hüquqlarının təminatı üzrə dövlətin həyata keçirdiyi siyasətdir. İnsanların hər şeydən əvvəl dövlətin himayəsinə ehtiyacı vardır.

Sosial müdafiə - həyat səviyyəsi sahəsində hüquq və zəmanətlərin (əmək və istirahət hüquqları, uşaqların tərbiyəsi, ailə başçısını itirməyə, xəstəliyə, qocalığa görə sosial təminat hüquqları, işsizlikdən müdafiə, sağlamlığın mühafizəsi, təhsil, mənzil və s. hüquqlar) təmin olunması üzrə müvafiq dövlət siyasətidir.

Dövlətin sosial müdafiə resursları dövlət büdcəsindən, sığorta ödənişlərindən və xüsusi vəsaitlər hesabına formalaşır. Sosial müdafiənin aşağıdakı istiqamətləri vardır:

- Əhali gəlirlərinin indeksləşdirilməsi (əmək haqqı, pensiya, müavinətlər, təqaüdlər);
- Minimal standartlar və normativlərin köməyi ilə sosial sahələrin tənzimlənməsi (təhsil, səhiyyə, mənzil);
- İmtiyazların və güzəştlərin verilməsi (müharibə iştirakçıları, əlillər üçün pulsuz və güzəştli dərmanlar);

- Məcburi sosial sığorta (cəmiyyətin işləyən üzvlərinə aid edilir və bu prosesdə dövlət, sahibkar və işçi iştirak edir. Əsas vəzifəsi əmək haqqı və əmək qabiliyyətinin itirilməsi halında minimal həyat səviyyəsinin saxlanılmasıdır);
- Sosial təminat - əmək qabiliyyətini itirmiş şəxslərin (ahıl və qocalar, əlillər, ailə başçısını itirən uşaqlar) saxlanılmasına yönəldilmişdir [2].

Vətəndaşlarının əmək hüquqlarının qorunması, məşğulluq, əhalinin sosial müdafiəsi, əmək qanunvericiliyinin təkmilləşdirilməsi, işçilərin maddi, sosial, mənəvi tələbatlarının ödənilməsi ölkədə aparılan iqtisadi siyasətin əsas istiqamətlərini təşkil edir.

Azərbaycan Respublikası prezidentinin 2009-cu il 14 aprel tarixli fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət proqramı”, 2008-ci il 15 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş “2008-2015-ci illərdə Azərbaycan Respublikasında “Yoxsulluğun azaldılması və davamlı inkişafı üzrə Dövlət proqramı” [3], 2007-ci il 15 may tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının məşğulluq strategiyasının həyata keçirilməsi üzrə Dövlət proqramları” (2007-2010-cu illər) əhalinin sosial rifahının gücləndirilməsinə, yoxsulluğun azaldılmasına, məşğulluğun artırılmasına, insan potensialının qorunmasına və inkişaf etdirilməsinə xidmət edir.

“Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının” (2006-2015-ci illər) 2006-2010-cu illəri əhatə edən birinci mərhələsinin icrası olaraq işsizlik səviyyəsinin azaldılmasına, əhali təbəqəsinin sosial müdafiəsinin gücləndirilməsinə nail olunmuş, əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşdırılması sahəsində müvafiq tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasının məşğulluq strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı əhalinin məşğulluğu sahəsində dövlət siyasətinin ardıcıllığını təmin edərək, Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının (2006-2015-ci illər)” ikinci mərhələsinin reallaşdırılmasına yönəlmişdir. Adı çəkilən Dövlət Proqramlarının məqsəd və vəzifələrinin bir neçəsinin adını çəkmək yerinə düşərdi:

- ölkədə makroiqtisadi sabitlik, ədalətli rəqabət;
- neft ixracından əldə olunan gəlirlərin bir hissəsinin insan amilinin inkişafına istiqamətləndirilməsi;
- işsizlərin sosial müdafiəsinin təmin edilməsi;
- işçilərin həyat səviyyəsinin təmin etmək məqsədilə minimum əmək haqqının artırılması;
- əmək qanunvericiliyinə riayət;
- müasir tələblərə cavab verən əmək şəraiti və əməyin ödənilməsi;
- miqrasiya proseslərinin təkmilləşdirilməsi, gənclərin miqrasiya səviyyəsinin azaldılması;
- fasiləsiz peşə təhsili sisteminin təkmilləşdirilməsi, yeni təhsilalma formalarının (distant, modul tədris və s.) tətbiqi;
- müasir tələblərə cavab verən təhsil proqramlarının hazırlanması;
- insanların normal yaşamalarını təmin edən imkanların müəyyənləşdirilməsi;
- qadınlar və gənclərin məşğulluğunun təmin edilməsi;
- sosial müdafiəyə ehtiyacı olan əhali qrupları üçün iş yerlərinin yaradılması, mərhələli şəkildə müavinətlərin məbləğinin artırılması [5] və s.

Dövlət Proqramlarının yerinə yetirilməsinə maliyyə dəstəyi dövlət büdcəsi vəsaitindən və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər mənbələr hesabına təşkil edilir.

Azərbaycanda əlilliyi olan şəxslərin maddi və mənəvi tələbatının ödənilməsində dövlət siyasətinin formalaşması və inkişaf etdirilməsi ötən əsrin 90-cı illərindən başlanılmışdır.

“Əlilliyin və uşaqların sağlamlıq imkanlarının məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının qanunu” əlillər və sağlamlıq imkanları məhdud uşaqlar haqqında dövlət siyasətini müəyyən edir .

Azərbaycan Respublikasında əlillər və sağlamlıq imkanları məhdud olan uşaqlar BMT-nin Baş Məclisinin qəbul etdiyi əlillərin hüquq Bəyannaməsində, Azərbaycan Respublikası Konstitusi-

yasında və başqa qanunvericilik aktlarında onların sosial-iqtisadi, şəxsi hüquq və azadlıqlarını təmin edir, əlillər və sağlamlığı məhdud olan uşaqlar barəsində ayrı-seçkiliyi qadağan edir.

Dövlət əlilliyin, uşaqların imkanları məhdudluğunun qarşısının alınması məqsədilə sağlam həyat tərzinin təbliğini təmin edir. Əlilliyin, uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması sahəsində dövlət ehtiyaclarının ödənilməsi üçün hüquqi, iqtisadi, sosial şərait yaradır. Son altı ayda (14.07.2014-cü ilin məlumatına əsasən) əlilliyi olan şəxslər 10 mindən çox reabilitasiya vasitəsilə protez-ortopedik məmulatla təmin edilib. Sağlamlıq imkanları məhdud olan 86 uşaq Latviyaya Yurmala şəhərindəki "Vaivari" bərpa mərkəzinə göndərilmişdir [8, s.168].

Ümumtəhsil məktəblərində oxumaq imkanı olmayan, sağlamlıq imkanları məhdud uşaqların təhsili valideynlərinin arzusu ilə ev şəraitində təşkil olunduğundan müvafiq icra hakimiyyəti orqanları onlar üçün şərait yaradırlar. Bununla yanaşı evdə təhsilə cəlb edilmiş sağlamlıq imkanları məhdud uşağın valideynlərdən birinə və ya onu əvəz edən şəxsə Azərbaycan Respublikası Qanunvericiliyi ilə müəyən edilmiş qaydada maddi təminat və güzəştlər verilir.

Əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara dövlət maddi, sosial və tibbi təminatı ödənclər (pensiyalar, müavinətlər, birdəfəlik ödənclər) verməklə bərabər avtomobillər, kreslo-arabalar, protez-ortopediya məmulatı, xüsusi profilli mətbu nəşrlər, səsgücləndirən aparatlar, məişət və ticarət xidmətləri ilə təmin edir. Bundan başqa müharibə əlillərinə və onlara bərabər tutulan şəxslərə müvafiq icra hakimiyyəti orqanı tərəfindən mənzil, kommunal xidmətindən istifadə haqqını ödəmək üçün müavinət verilir. Əmək və istirahət evində yaşayan əlillərin, sağlamlıq imkanları məhdud uşaqların pensiyası tam məbləğdə ödənilir. Öz hüquqlarını qorumaq, qarşılıqlı yardım və xidmət göstərmək məqsədilə əlillər və sağlamlıq imkanları məhdud uşaqlar və onları təmsil edən şəxslər Azərbaycan Reaspublikasının qanunvericiliyində müəyyən edilən qaydada ictimai təşkilatlar fondlar yaratmaq hüququna malikdirlər. Əlilərin və sağlamlıq imkanları məhdud uşaqların ictimai təşkilatlarının məcburi dövlət sosial sığortasına cəlb olunması "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının qanunu ilə tənzimlənir. Əlillərin və sağlamlıq imkanı məhdud uşaqların ictimai təşkilatları mədəni-kütləvi, idman klubları, mədəniyyət evləri, kitabxanalar və s. yerləşən binalar üçün icarə haqqını ödəməkdən azad edilirlər [7, s.61].

Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin müdafiəsilə əlaqədar əlil olmuş şəxslər, şəhid ailələri 2014-cü ildə 4278 mənzillə təmin olunmuş və 2014-2018-ci illər ərzində mərhələlərlə mənzil və ya fərdi evlə təmin edilməsi üçün tədbirlər planı hazırlanmışdır.

2014-cü ilin birinci yarısında aztəminatlı əhalinin sosial iqtisadi problemlərinin həlli, yaşayış səviyyəsinin qaldırılması və sosial yardımların ünvanlığının təmin edilməsi sahəsində ciddi addımlar atılmışdır. 128.000 ailənin 560.000 nəfər üzvünə ünvanlı sosial yardım verilmişdir. Əhalinin, xüsusilə də çoxuşaqlı qadınların və əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının qanununa əsasən çoxuşaqlı qadınların 18 yaşına çatmamış 6340 nəfər uşağına sosial müavinət verilmişdir [12, s.117].

Bir sıra dövlət təlim-tərbiyə müəssisələrində (valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün uşaq evləri, internat məktəbləri, atılmış uşaqlar üçün körpələr evi və s.) valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş, eləcə də xüsusi ehtiyacı olan uşaqlar dövlət himayəsində yaşayır, təhsil, təlim, tərbiyə alırlar. Yuxarıda adlarını qeyd etdiyim təlim-tərbiyə müəssisələrində 21.000 nəfərə yaxın uşaq vardır. Azərbaycan Reaspublikasının qoşulduğu BMT-nin "Uşaq hüquqlarına dair" konvensiyasına əsasən ailə uşağın sağlam inkişafı və cəmiyyətə inteqrasiyası üçün ən uyğun mühitdir. Konvensiyaya əsasən dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi, bu uşaqların hüquqlarının qorunması daim diqqət mərkəzində olmalı,uşaqları qəbul edən ailələrə sosial yardım edilməlidir.

İqtisadiyyatın inkişafı, sosial sahələrə diqqətin artırılması məqsədilə həyata keçirilən tədbirlər nəticəsində yeni iş yerlərinin açılması, adambaşına düşən gəlirin artması, əhalinin sosial vəziyyətinin yaxşılaşmasına zəmin yaratmışdır. Uşaqların qayğısına qalmaq, maddi cəhətdən çətinlik çəkən ailələrə müvafiq yardımın göstərilməsi, uşaqların ailələrə verilməsi, onların hüquqlarının qorunmasını təmin edən qanunvericilik bazasının təkmilləşdirilməsi zərurətdir. Bu baxımdan Azərbaycan Respublikasında qəbul edilmiş bir sıra proqramlar,o cümlədən "Dövlət müəssisələrindən uşaqların

ailələrə verilməsi və alternativ dövlət proqramı (2006-2015-ci ilər)” müsbət nəticələrin əldə edilməsinə yönəlmişdir [6].

Proqramın əsas məqsədi uşaq evləri və internat tipli uşaq müəsisələrinin sayının azaldılması, dövlət uşaq müəssisələrinin uşaqlar üçün ailə əsaslı sosial xidmət mərkəzinə çevrilməsi, alternativ sosial xidmətlər sisiteminin (qəyyumluq, himayədarlıq, tərbiyə edilmək üçün himayədar ailəyə verilmə və s.) yaradılmasıdır.

Valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, habelə onların ararsından 23 yaşınadək olan şəxslərin sosial müdafiəsi qanunvericilik, Azərbaycan Reaspublikasının Konstitusiyası, digər normativ hüquqi aktlar və Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr vasitəsilə həyata keçirilir.

Bütün tədris müəssisələrində təhsil alan, valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş uşaqlar təhsil müəssisəsini bitirənədək tam dövlət təminatına götürülürlər və dövlət büdcəsinin vəsaiti hesabına müalicə-profilaktika, tibbi xidmət, sanatoriya-kurort müalicəsi və s. müvafiq icra hakimiyyəti orqanı tərəfindən təmin edilirlər. Bu qəbildən olan uşaqlara yaşayış sahəsi, fərdi ev tikintisi üçün torpaq sahələri ayrılır və qaytarılmayan ssuda verilir. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar dövlət əmlakının özəlləşdirilməsi zamanı aldıqları paylar üzərində vərəsəlik hüququna malikdirlər.

Yetkinlik yaşına çatmayanların və çətin vəziyyətdə yaşayan ailələrin hüquqlarının müdafiəsi üzrə xüsusi komissiyalar yaradılır. Bu məqsədlə həmçinin yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələri yaradılır. Komissiyalar çətin vəziyətdə yaşayan ailələri aşkar edir və onların uşaqlarının təhsil və tərbiyəsinə kömək edirlər.

Gənclərin işləri üzrə bir sıra qurumlar yetkinlik yaşına çatmayanlara ödənişsiz sosial, hüquqi və digər xidmətlər göstərirlər.

Azərbaycan Respublikasının vətəndaşları müəyyən olunmuş şərtlərlə aylıq və birdəfəlik müavinət almaq hüququna malikdirlər. Bu “Sosial müavinətlər haqqında” Azərbaycan Reaspublikasının qanunu, Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının tərəfdar çıxdığı Beynəlxalq müqavilələr və digər qanunvericilik aktları əsasında tənzimlənir. Müavinətlər dövlət qulluğunda işlədiyinə, əlilliyə, ailə başçısını itirməyə, uşağa qulluğa görə təyin edilir, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş bəzi kateqoriyadan olan şəxslər kommunal, nəqliyyat və digər xidmətlərdən azad olunurlar [8, s.171].

Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası, Azərbaycan Respublikasının Konstitusiyası, “Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi və digər normativ hüquqi aktlarla tənzimlənir. Sosial tədbirlərin həyata keçirilməsində bələdiyyələr, fiziki şəxslər, qeyri-hökumət təşkilatlarının nümayəndələri könüllülük əsasında iştirak edirlər.

Beynəlxalq səviyyədə inkişaf etmiş ölkələrin hüquq sistemlərinin əsasını insan münasibətləri, təminat hüquqları və insanın həyatının qorunması funksiyaları təşkil edir. Sosial ədalət, təminatla bağlı çoxsaylı konvensiyalar mövcuddur: sosial adaptasiya mərkəzi yaratmaq, daimi yaşayış yeri olmayan şəxsləri müvəqqəti yaşayış yeri ilə təmin etmək, təhsil almalarına şərait yaratmaq, sosial adaptasiyaya ehtiyacı olan şəxslərə birdəfəlik müavinət vermək, şəxsiyyəti təsdiq edən lazımi sənədlərlə təmin etmək, tibbi yardım və s. [9, s.121].

Cəza çəkmədən azad edilmiş şəxslərin sosial adaptasiyası tədbirlərinin maliyyələşdirilməsi dövlət büdcəsinin vəsaiti hesabına da həyata keçirilə bilər. Sosial adaptasiya tədbirləri bələdiyyə, fiziki və hüquqi şəxslərin ianələri, eləcə də, qanunvericilikdə qadağan olunmayan digər vəsaitlər hesabına həyata keçirilə bilər.

İnsan həyatının yaxşılaşdırılması beynəlxalq normalarda öz əksini tapmışdır. Azərbaycan Respublikası 1992-ci il may ayından Beynəlxalq Əmək Təşkiltatının (BƏT) üzvüdür. Azərbaycan Respublikası ilə BƏT arasında əmək münasibətləri, məşğulluq, əməyin təhlükəsizliyi, mühafizəsi, qanunvericiliyin təkmilləşdirilməsi sahəsində fəal əlaqələr yaradılmışdır. 2002-ci ildən etibarən Rusiya, Qazaxstan, Belarus və Ukraynadan sonra Azərbaycanda da BƏT-in nümayəndəliyi açılmışdır. Azərbaycan Respublikası BƏT-in bir sıra Konvensiyasına qoşulmuş, beynəlxalq standartlara cavab verən əmək qanunvericiliyini qəbul etmişdir.

Azərbaycan Respublikası Beynəlxalq Əmək Təşkilatı, Birləşmiş Millətlər Təşkilatının inkişaf proqramları, Dünya Bankı, Beynəlxalq Miqrasiya Təşkilatı, Birləşmiş Millətlər Təşkilatının Əhali,

Uşaq fondları, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı, Avropa İttifaqının Tasis proqramı və s. qurumlarla əməkdaşlıq edir. Bu əməkdaşlıq əmək, məşğulluq, əmək miqrasiyası, sosial müdafiə, əlillərin reabilitasiyası və digər sahələrin inkişafına şərait yaradır. Respublikamız insan hüquqları sahəsində bir sıra beynəlxalq müqavilələrə və konvensiyalara qoşulmuşdur: 1998-ci ildə Birləşmiş Millətlər Təşkilatının “Bütün əmək miqrantlarının və onların ailə üzvlərinin hüquqlarının qorunması”, 2008-ci ildə BMT-nin “Əlilliyi olan şəxslərin hüquqlarına dair” konvensiyalar və müxtəlif illərədə BƏT-in əmək və məşğulluğa dair insan hüquqlarını əhatə edən 8 təməledici və 4 prioritet konvensiyalar buna misaldır. Azərbaycan dövləti ümumilikdə 57 konvensiya ratifikasiya etmişdir. Sosial-iqtisadi hüquqların müdafiəsi sahəsində beynəlxalq təcrübəyə əsasən, Azərbaycanda da Avropa standartlaına uyğun həyata keçirir [5].

Azərbaycan Respublikası 2001-ci ildən Avropa Şurasının üzvüdür. 6 yanvar 2004-cü il tarixli qanuna əsasən Avropa Şurası çərçivəsində qəbul edilmiş “Yenidən baxılmış Avropa Sosial Xartiyası” dövlətimiz tərəfindən ratifikasiya edilmişdir [6].

Avropa Şurasının MİSCEO layihəsi (Avropa Şurasının Sosial Müdafiə üzrə Birgə İnformasiya Sistemi) çərçivəsində Azərbaycan hökuməti sosial müdafiə sahəsində görülən işlər haqqında məlumatlar hazırlayır və müntəzəm olaraq Avropa Şurasına təqdim edir.

Avropa Şurasının “Əlilliyi olan insanların hüquqlarının” qorunması 2006-2015-ci illər ərzində əlilliyi olan şəxslərin həyat səviyyəsinin yaxşılaşdırılması üzrə Avropa Şurasının Tədbirlər Planının yerinə yetirilməsi istiqamətində bu təşkilatla əməkdaşlığı həyata keçirilir [4].

Dünyanın ən nüfuzlu maliyyə qurumlarından biri olan Dünya Bankı ilə Azərbaycan 1999-cu ildən əməkdaşlıq edir. 2005-2010-cu illərdə əməkdaşlıq nəticəsində “Pensiya və Sosial Təminat” layihəsi həyata keçirilmişdir. Layihənin əsas məqsədi Azərbaycanda Sosial islahatların icrasına dəstək verməkdən ibarətdir.

Azərbaycan dünya iqtisadi sisteminə inteqrasiya yolu ilə irəliləyir. Azərbaycanın mükəmməl iqtisadi inkişafı regionların sosial-iqtisadi yüksəlişini təmin edir. İqtisadiyyatda müşahidə olunan sabit artım ölkənin sosialyönümlü inkişafını təmin etmiş, həyat səviyyəsinin yüksəlməsi və məşğulluğun artırılması üçün əlverişli şərait yaratmışdır. Respublika əhalisinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsində xeyli işlər görülmüşdür. Bazar iqtisadiyyatı şəraitində sahibkarlığın inkişaf etdirilməsi, əlverişli işgüzar mühitin yaradılması əmək bazarı və məşğulluq sahəsində irıliləyiş əldə etməyə imkan yaratmışdır [9, s.217].

Əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə 2005-ci il 26 oktyabrda “Azərbaycan Respublikasının məşğulluq strategiyası” (2006-2015-ci illər) haqqında qanun qəbul edilmişdir. Dövlət əmək bazarında mövcud vəziyyəti nəzərə almaqla işsiz vətəndaşların sosial müdafiəsinin təmin edilməsində müəyyən işlər görmüşdür. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müntəzəm olaraq “Əmək yarmarkaları” təşkil edilmişdir.

Ölkəmizdə təhsil sahəsində bir sıra islahatlar keçirilmişdir. 1999-cu ildə “Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı” təsdiq edilmişdir. Proqrama uyğun olaraq bir sıra təhsil müəssisələri öz fəaliyyətlərini özünüidarəetmə prinsipi əsasında qurmuş, təhsilin keyfiyyətini yaxşılaşdırmaq məqsədi ilə yanaşı, qeyri-dövlət təhsil müəssisələrinin şəbəkəsi də inkişaf etmişdir.

Dövlətin təhsilə diqqəti nəticəsində təhsil sektorunun ayrı-ayrı sahələri üzrə 16 dövlət (2011-ci il məlumatına əsasən) proqramı təsdiq olunmuş və həyata keçirilmişdir.

2009-cu il 5 sentyabrda ölkədə “Təhsil haqqında qanun” və 2009-cu il 22 mayda “2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı” təsdiq edilmişdir. “Yeniləşən Azərbaycan – yeni məktəb” layihəsi çərçivəsində ayrı-ayrı regionlarda 100-ə yaxın yeni məktəb binası tikilmiş və əsaslı təmir işləri aparılmışdır. Bu gün Azərbaycanlı gənclər dövlət xətti ilə xarici ölkələrin aparıcı universitetlərində ölkəmiz üçün zəruri ixtisaslara yiyələnirlər [13, s.244].

Dövlət proqramının məqsədi - ölkənin ali təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiya proseslərinin sürətləndirilməsi, ali təhsilin Boloniya prinsiplərinə uyğun qurulması, yüksək hazırlıqlı kadrlara tələbatın ödənilməsi, əhaliyə müasir standartlar səviyyəsində ali təhsil almaq imkanı yaradan ali təhsil sisteminin formalaşmasıdır.

Dövlət siyasətinin əsas istiqamətlərindən biri də, mədəniyyət ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, tarixi-mədəni irsin qorunub saxlanılmasıdır.

6 oktyabr 2008-ci ildə “Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı” qəbul edilmişdir.

Bu gün Azərbaycanda 3993 kütləvi kitabxana, 2750 klub müəssisəsi, 226 muzey, 28 peşəkar teatr, 4 filarmoniya, 6 musiqi kollektivi, 2 konsert zalı və 365 mədəniyyət və istirahət parkı əhaliyə xidmət göstərir [10, s.58].

Mədəniyyət və incəsənət xadimlərinin sosial müdafiəsi məqsədilə yaradıcı şəxslər təltiflərə, fəxri adlara, xüsusi təqaüdlərə layiq görülmüşdür.

Ölkədə sosial yönümlü siyasətin həyata keçirilməsi səhiyyənin inkişaf etdirilməsinə və əhalinin sağlamlığının qorunması problemlərinin həll edilməsinə mkan yaradır.

1997-ci ildə “Əhalinin sağlamlığının qorunması” haqqında Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Qanunda əhalinin bir sıra təbəqələrinə taqaüdçülərə, maddi imkansızlara pulsuz tibbi yardım, vətəndaşların sağlamlığına vurulan ziyanın ödənilməsi, hüquqa zidd hərəkətlər nəticəsində zərər çəkmiş vətəndaşlara tibbi yardım göstərilməsi üzrə xərclərin ödənilməsi və s. mühüm məsələlər öz əksini tapmışdır. 1 fevral 2000-ci ildən Səhiyyə Nazirliyinin dövlət büdcəsindən maliyyələşən tibb müəsissələri əhaliyə pulsuz xidmət göstərirlər.

Əhalinin sosial müdafiəsi daim dövlətin diqqət mərkəzindədir. 2001-ci il iyulun 17-də “Azərbaycan Respublikasında Pensiya İslahatı Konspsiyası” təsdiq edilmişdir. 2001-ci ildən başlayaraq “Vətəndaşların pensiya təminatı” haqqında və “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının qanunlarına əlavələr və dəyişikliklər edilmişdir. Pensiyaların növ və tərkibində dəyişikliklər edilmiş, sosial pensiyalar sosial müavinətlərlə əvəz olunmuşdur.

Aztəminatlı əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə 2007-ci ildən başlayaraq hər il əmək pensiyalarının baza hissəsi və sosial müaviətlərin məbləği artırılmışdır. Pensiyanın sığorta hissəsi isə inflyasiya səviyyəsinə uyğun indeksləşdirilir. Müavinətlər uşağın doğulmasına görə, radiasiya qəzası nəticəsində əlil olmuş şəxslərin müalicəsinə, penitensiar xidmətdən azad olanlara, həyatını itirmiş insanların dəfni üçün verilir [11, s.128].

Azərbaycan Respublikasının “Ünvanlı sosial yardım haqqında” qanununa uyğun olaraq 2006-cı il iyul ayının 1-dən başlayaraq aztəminatlı ailələrə dövlət tərəfindən ünvanlı sosial yardım verilir.

İnsanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqın istifadəsi məsələləri ölkədə aparılan sosial iqtisadi islahatların tərkib hissələrindən biridir. Azərbaycan Respublikası ekologiyaya dair 30 qanun qəbul etmiş, təbiətdən istifadə ilə bağlı beynəlxalq konvensiya və razılaşmalara qoşulmuşdur [13, s.51].

Azərbaycanda ən böyük layihələrdən biri Oğuz-Qəbələ-Bakı su kəməridir. Bu kəmərin fəaliyyəti nəticəsində Bakı şəhərinin əhalisi Ümumdünya Səhiyyə Təşkilatının standartlarına cavab verən təmiz və keyfiyyətli su ilə təmin olunmuşdur.

Sosial iqtisadi siyasət demoqrafik proseslərə də müsbət təsirini göstərmişdir. Bu özünü daha çox təbii artımda göstərir. Statistik hesablamalara görə hər bir qadına orta hesabla 2-3 uşaq düşür və ölkədə əhali təkrar istehsal olunur.

Onu da qeyd etmək lazımdır ki, yuxarıda qeyd etdiyim nailiyyətlərlə yanaşı, sosial-iqtisadi sahədə bir sıra nöqsanlar da mövcuddur.

Respublika ərazisinin 80%-i normal həyat fəaliyəti və kənd təsərrüfatı istehsalı üçün yararlıdır. Respublika hökuməti tərəfindən regionların sosial-iqtisadi inkişafı, yoxsulluq səviyyəsinin aşağı salınması, minimal əməkhaqqının qaldırılması üzrə müxtəlif proqramlar əhalinin inkişafında mühüm rol oynayır. Buna baxmayaraq, demoqrafik siyasətin iqtisadi tədbirlərinin çatışmazlığı və ya məhdudluğu (gənc ailələrin qurulması və uşaqların anadan olması zamanı verilən müavinətlərin və müxtəif imtiyazların aşağı səviyyəsi, uşaqların saylarından asılı olaraq, onların qeyri-qənaətbəxş diferensiasiyası; gənc ailələrdə ciddi yaşayış problemlərinin olması və s.) dövlətin respublikadakı demoqrafiya problemlərinə diqqətinin artırılması zəruriliyini təsdiqləyir [14, s.79].

Vahid məqsədə çatmaq üçün dövlətin, əhalinin, elmi ictimaiyyətin, sahibkarların, investorların səylərini birləşdirmək, əhalinin həyat səviyyəsini yüksəltmək lazımdır.

**Açar sözlər:** reabilitasiya, ortopedik, inteqrasiya, alternativ proflaktika, penitensiar

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: 2011
2. Azərbaycan Respublikasının Sosial Təminat Qanunvericiliyi. (Normativ hüquqi aktlar toplusu) Bakı: Qanun, 2007
3. “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”
4. “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”nın həyata keçirilməsi üzrə Tədbirlər Planı (2008-2010)
5. “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqram”nın həyata keçirilməsi üzrə Tədbirlər Planı (2011-2015)
6. Yenidən baxılmış Avropa Sosial Xartiyası. Bakı: 2004
7. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi. Dərslik. Bakı: İqtisad Universiteti Nəşriyyatı, 2012, 508 s.
8. Əsgərova R. Azərbaycanda Pensiya Təminatı. Bakı: Elm, 2007
9. Əlirzayev Ə.Q. Sosial sahələrin idarə edilməsi. Bakı: 2012
10. Əlirzayev Ə.Q. Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı: İqtisad Universiteti Nəşriyyatı, 2010, 326 s.
11. Əliyeva R. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: 2012
12. Əyyubov V.S. Milli iqtisadiyyatın tənzimlənməsi. Mingəçevir: Avropa, 2014, 350 s.
13. İsmayılzadə Ə. İnsan resurslarının idarə edilməsi və sosial inkişafı. Bakı: İqtisad Universiteti Nəşriyyatı, 2011, 480 s.
14. Məmmədli O.Q, İsmayılov M.İ., İsmayılov F.İ. Milli iqtisadiyyatın tənzimlənməsi. Bakı: MBM, 2014, 624 s.

**Майя Абдуллаева**

## СОЦИАЛЬНАЯ ПОЛИТИКА И СОЦИАЛЬНАЯ ЗАЩИТА

### Резюме

В статье рассматривается проводимая в настоящее время в Азербайджанской Республике социальная политика и её результаты, отражающие улучшение благосостояния народа. Автор выражает отношение к принятым в последнее время в этой области законом и нормативном документам. Отличается необходимость учёта международных стандартов в процессе принятия этих законов.

**Ключевые слова:** социальная обеспечение, социальная защита, закон, нормативные акты, международные стандарты

**Maya Abdullayeva**

## THE SOCIAL POLICY AND SOCIAL PROTECTION

### Summary

The article deals with social politics carried out in Azerbaijan Republic and its results of improving the well-being of the people. It also regards for the regulations and recently adopted laws. During these adopted laws it is noted importance of international standards.

**Keywords:** social security, social protection, law, regulations, international standards

**UOT – 32.019**

**İlham Soltanov**
**AMEA Fəlsəfə və Hüquq İnstitutu**

# LİBERALİZM İDEOLOGİYA VƏ SİYASİ DOKTRİNA KİMİ

*Məqalədə liberalizmin ideya-siyasi cərəyan kimi təşəkkülü, inkişafı və mahiyyəti barədə danışılır. Bildirilir ki, liberalizmdə insan hüquqları və demokratik dəyərlərlə yanaşı, maarifçiliyə də diqqət yetirir. Liberalizmin dövlətin idarə olunmsındakı pozitiv aspektləri təhlil edilir. Eyni zamanda neoliberalizm və onun digər ideologiyalarla müqayisəli təhlili aparılır.*

Siyasi ideologiya kimi liberalizm maarifçiliyin məhsuludur. Liberalizm ilk olaraq maarifçiliyə reaksiya kimi meydana çıxsa da, sonradan onun məntiqi davamına çevrilmişdir. İki əsrdən çox müddət ərzində bu cərəyan əhəmiyyətli dəyişikliyə uğramışdır. Lakin özlüyündə liberalizm siyasi proqramını çox dərəcədə yeniləşdirsə də, əslində öz əsas ideya əsaslarını qoruyub saxlamışdır.

Bu gün liberalizm bir-birinin ardınca uğurlar əldə edir. Lakin XIX əsrin sonu-XX əsrin əvvəllərində liberalizm “ölüm ayağında” olmuşdur. Çünki bu zaman sosializm və kommunizm idealları liberalizmin nüfuzuna ciddi zərbə vurmuşdu. Bütün bu uğursuzluqlara baxmayaraq, liberalizm nəinki yaşadı, habelə öz təsirini genişləndirə bildi. “Azadlıq haqqında. Dünya liberal fikrinin antologiyası (XX əsrin I yarısı)” adlı kitabda liberalizm nəzəriyyəsinin yeniləşməsi, müasir dövrün tələblərinə cavab verməsi, sosializm və kommunizm təhlükəsinə qarşı mübarizəsi tarixi və s. öz əksini tapmışdır. Antologiyada Emil Faqenin “Liberalizm” (1902), Leonard Qobxausun “Liberalizm” (1911), Qvido de Rujeronun “Avropa liberalizminin tarixi” (1927), J.M.Keynsin, B.Kroçenin, D.Dyuinin, F.Hayekin əsərləri özünəməxsus yer tutur. Fransız tədqiqatçısı E.Faqe adı çəkilən əsərində bildirir ki, insan “anadan qul doğulur” və sonra öz təbii hüquqları uğrunda mübarizəyə atılır. İngilis tədqiqatçısı L.Qobxaus liberalizm ideyalarına və bu cərəyanın tarixinə diqqət ayırdıqdan sonra onun mahiyyətinin ətraflı izahını verir. Antologiyada liberal nəzəriyyəyə dair ən dəyərli əsərlərdən biri isə Q.Rujeronun kitabıdır [3, s.34].

“Amerikan Ensiklopediyası”nda (1976) göstərilir ki, “Liberalizm müasir dünyanın ən önəmli siyasi doktrinasıdır. Demokratiya və millətçilik – hər ikisi liberal düşüncənin məhsuludur. Sosializm və kommunizm, geniş mənada, liberalizmə qarşı olsa da, liberal düşüncələrdən yaranmış doktrinalardır. XIX əsr liberal millətçilik dövrüdür. Lakin millətçilik XX əsrdə liberal xətdən uzaqlaşaraq, faşizmi doğurmuşdur. Liberalizm tarixində despotizmə qarşı öz həyatlarını fəda etmiş insanların əfsanəvi mübarizəsi əsas yer tutur. Avropa tarixində liberalizm qaranlıq dünyaya qarşı modern dövrün mübarizəsini əks etdirir” [13, s.156].

Liberalizmə fəlsəfi-ideoloji və siyasi aspektlərdən baxmaq lazımdır: tarixi fəlsəfi təlim kimi, ideologiya kimi, yəni sosial qüvvələri silahlandırmaq üçün əsaslandırılmış proqram kimi, habelə liberal partiyaları və qrupları özündə birləşdirən kütləvi təşkilati hərəkat kimi. Əgər klassik liberalizmin tarixinə dair əsərlərin məzmununu ümumiləşdirsək, belə nəticəyə gəlmək olar ki, liberalizm bütöv sosial hərəkat kimi çıxış edir və aşağıdakı xarakterik üstünlükləri vardır: iqtisadiyyatda – sənaye kapitalizmi və iqtisadi azadlıq; sosial münasibətlərdə – orta sinfin maraqlarının üstün tutulması; siyasətdə – parlamentli demokratiya; əxlaq sahəsində – fərdiyyətçilik; milli məsələdə – millətçilik (milli dövlətçiliyin prioritet tutulması mənasında). Məhz bu baxımdan liberalizmin tərifi nəzəri-lüğət cəhətdən deyil, hər şeydən əvvəl, tarixi aspektdən verilir. Çünki söhbət erkən burjua inqilabları dövründən başlayaraq müasir dövrədək davam edən spesifik tarixi hərəkatdan gedir. Bu mənada, müasir liberalizm sosial manevrlər vasitəsilə ictimai sabitliyin qorunub saxlanmasına, bazar təsərrüfatının dövlət tərəfindən tənzimlənməsinə yönəldilmiş islahatçı ideya-siyasi cərəyan kimi səciyyələnir [12, s.45].

Cəmiyyətin idarə edilməsinin liberal üsulu hər bir fərdin siyasi və iqtisadi hüquqlarının tanınması üzərində qurulan sosial münasibətlərin müəyyən prinsiplərinə əsaslanır. Bu hüquqlar aşağıda-

kılardır: özünə hökumət seçmək və onu dəyişmək; siyasi partiyalara üzv olmaq; öz rəyini, zövq və baxışlarını yazılı və şifahi şəkildə bildirmək hüququ; işlə təmin olunmaq və ondan çıxmaq hüququ; azad ticarət hüququ; azad sahibkarlıqla məşğul olmaq, yəni pul qazanmaq və onu xərcləmək hüququ və s. Lakin bütün bu hüquqlar müəyyən hədd daxilində, qanunların fəaliyyəti ilə məhdudlaşdırılan çərçivə daxilində olmalı, normal sivilizasiyalı insanların təbii tələbatlarının təkmilləşməsi kimi başa düşülməlidir.

Müasir liberallar azadlığın izahını maarifçilik irsi əsasında verirlər. Əgər antik azadlıq dövlət hakimiyyətində iştirak etmək kimi başa düşülürsə, müasir azadlıq (erkən burjua) dövlət hakimiyyətindən azad olmaq kimi anlaşılır. Azadlıq insanın fərdi muxtariyyəti, seçmək hüququ deməkdir, daha yaxşı həyat səviyyəsini təmin edən, yetkin, effektli cəmiyyət üçün inkişaf yolunun seçilməsi deməkdir.

Ümumiyyətlə, liberalizm həmişə istənilən inhisarın - həm mənəvi, həm iqtisadi və həm də siyasi inhisarın əleyhinə olmuşdur. Bütün dövrlərdə liberalizm ictimai fikrin ən yaxşısını özünə götürmüşdür. Liberalizmin ümumfəlsəfi əsası fransız maarifçiləri tərəfindən işlənib-hazırlanmış rasionalist və təbii-hüquqi prinsiplərdir. Bu prinsiplər aşağıdakılardır: 1. Hakimiyyət allahdan gəlmir, o, insanlar arasında bağlanmış müqaviləyə əsaslanır, 2. İctimai sistem bütün insanların rifahına xidmət etməli və əqləuyğun olmalıdır, 3. Azadlıq insanın anadangəlmə hüququ olmalıdır [1, s.84].

Tarixən köhnəlmiş, vaxtı keçmiş qaydalar aradan qaldırıldığı zaman xalq mütərəqqi ideologiyanı dərhal qəbul edir. İlk əvvəllər bu cür ideologiyanın qəbul edilməsi sadəcə olaraq köhnə baxışların inkarı kimi ifadə olunur. Həyata keçirilən ilk tədbirlər sırasında humanist ideyaların reallaşdırılması da tələb olunur. Lakin müasir xarici gerçəklik göstərir ki, tez qəbul edilib, mənimsənilən liberal şüarların heç də hamısı həyata keçirilməmişdir. Onda təbii olaraq belə bir sual ortaya çıxır ki, görəsən nəzəriyyə ilə praktikanın uyğun gəlməməsinin səbəbi nədir? Bu çətinliklər, əvvələn, hakim dairələrin sinfi mənafelərinin müdafiəsində liberal dəyərlərin məhdudluğu ilə izah edilir. İkincisi, liberalizmin ideya əsaslarının təkamülü prosesində deformasiyaya məruz qalması ilə bağlıdır. Üçüncüsü, təşkilati formaların ideoloji məzmuna heç də həmişə uyğun gəlməməsi ilə; dördüncüsü, liberalizmdə digər dünyagörüşlərin sistemləri ilə kompromisə meyilliliklə izah olunur. Beşincisi, bu həm də liberalizm fəlsəfəsindəki ziddiyyətlə bağlıdır [2, s.118]. Belə ki, bu fəlsəfə fərdiliyə ikimənalı – şəxsiyyətin özünüifadəsi və insanın iqtisadi müstəqilliyi kimi baxır.

Liberalizm siyasi ideologiyadır, yoxsa dövlətin tarixi ənənəsi və ya fəlsəfi nəzəriyyəsidir? Liberallar özlərinin şəxsiyyətin azadlığına, fərdiyyətçiliyə, xüsusi mülkiyyətə sadiqliyi ilə sosial və iqtisadi bərabərliyə cəhd göstərməsi arasındakı ziddiyyəti aradan qaldırmağa nail ola bilərlərmi?

Klassik liberalizm ideyası XVIII əsrin ikinci yarısında və XIX əsrin əvvəllərində siyasi-fəlsəfi fikrin böyük nümayəndəsi V.Humboldtun "Dövlətin yaranması haqqında fikir" əsərində öz əksini tapmışdır. Ənənəvi liberalizm ideologiyasının mərkəzində şəxsiyyət və onun hüquqları durur. Lakin XX əsrin 30-40-cı illərindən etibarən liberalizmdə ciddi dəyişikliklər müşahidə edilmişdir. Liberal dəyərlərin qorunması və təmin edilməsində dövlətin və ictimaiyyətin roluna diqqət artan sürətlə genişlənərək neoliberalizmdə total məna alır. Müəyyən mənada liberalizm ilə konservatizmin çulğalaşması baş verir ki, buna da "konservativ liberalizm" deyirlər. Bu daxili cərəyanın təməl müddəaları əsas liberal dəyərlərin reallaşmasında dövlətin total roluna istinad və dövlətin fəaliyyətində sosial yönümlü ideyalara üstünlük verməkdir [4, s.162].

Liberalizmin tarixinə diqqət yetirdikdə görmək olur ki, təxminən 1900-cü ildə "liberal" termininin mahiyyətində dəyişiklik olmuşdur. O zaman böyük dövləti müdafiə etmək, azad bazarı məhdudlaşdırmaq və onun üzərində nəzarət qoymaq tərəfdarları özlərini liberallar adlandırırdılar. Bu səbəbdən bu gün şəxsi azadlıqlar, azad bazar və məhdud hakimiyyət fəlsəfəsi, yəni Lokkun, Smitin və Ceffersonun fəlsəfəsi klassik liberalizm adlanır. Müasir liberalizm dəyişən gərginliyin təsiri altında klassik liberal irsin uzunmüddətli təkamülünün nəticəsidir [5, s.143].

Liberalizm heç də inkişafının bütün mərhələlərində yekcins ideologiya təsiri bağışlamamışdır, onda daim müxtəlif ideya-siyasi cərəyanlar bir-birilə mübarizə aparmış və indi də aparmaqdadır. Müasir dövrdə liberalizmdə bu qarşıdurmanın ifadəsi onda iki istiqamətin olması ilə müəyyən olunur. Bu istiqamətlərdən birinin kökü klassik dövrə gedib çıxır. Belə ki, ilk dövrdə liberalizm əsas

gücünü fərdin iqtisadi azadlığının əldə edilməsinə yönəltmişdi və bu bazar münasibətləri çərçivəsində dövlətdən asılı olmayan azad sahibkarlığın yaranması ilə nəticələnmişdi. Liberalizmin ikinci istiqaməti isə XX əsrin birinci onilliyində İngiltərədə, bir qədər sonra isə Rusiyada təzahür etmişdir. Bu, əvvəl İngiltərədə Lloyd Corcun, sonra isə Rusiyada Stolıpinin sinfi ziddiyyətləri aradan qaldırmağa yönəldilmiş və dövlət siyasəti kimi həyata keçirdikləri islahatlarda ifadə olunmuşdur.

Əlbəttə, liberalizmin tarixi perspektivlərinin müəyyən edilməsində sənaye cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsi mütləq nəzərə alınmalıdır. Məhz bu dövlətlərdə hazırda mövcud olan ideologiyalar içərisində liberalizm təkcə təşkilati siyasi qüvvə kimi deyil (liberalizmin qarşıya qoyduğu məqsədlərin çoxusu artıq reallaşmışdır: vətəndaş cəmiyyətinin əsasları yaradılmış, parlamentarizm tətbiq edilmiş, hakimiyyətin həm dövlət, həm də federal səviyyədə bölgüsünün liberal prinsipi həyata keçirilmişdir), habelə etos kimi (mədəniyyətin ümumiləşdirilmiş səciyyəsi kimi), nüfuzlu sosial fəlsəfə kimi yer tutur. İngilis politoloqu E.Arblaster belə hesab edir ki, “bu gün Qərbdə ənənəvi mühafizəkar və yaxud inqilabi-sosialist dünyagörüşü deyil, liberal dünyagörüşü hökmranlıq edir” [5, s.147].

Liberal-demokratiya ideyalarının məşhurlaşdırılmasını və onun Qərb dünyasında geniş yayılmasını şərtləndirən hadisələrin saf-çürük edilməsinə ehtiyac olduğunu nəzərə alaraq, həmin fenomenin səbəblərini təhlil edək:

*Birincisi,* Qərbin siyasi partiyalarının əksəriyyəti öz proqramlarına liberal ideologiyada ilk dəfə işlənib hazırlanmış müddəaları daxil edirlər. Bu müddəalar aşağıdakılardır: iqtisadi sahədə bazar münasibətlərinin əsası kimi azad rəqabət, sosial-siyasi sahədə – hüquqi dövlət, özünüidarəetmə, şəxsiyyətin azadlığı, söz, mətbuat azadlığı, siyasi seçki hüququ, azlıqda qalan xalqların dilinə, etiqadına və adət-ənənələrinə hörmət etmək və s.

*İkincisi,* liberalizmin yaşamaq qabiliyyətinin artması onun iqtisadi siyasətinin dinamikasında əks olunur. Bu, iqtisadi dirçəliş dövründə azad sahibkarlığı yeni keynsçilik (keynsçilik – kapitalist iqtisadiyyatının dövlət-inhisarçı tənzimlənməsi haqqında nəzəriyyədir, əsasını ingilis iqtisadçısı Jon Keyns (1883-1946) qoymuşdur) ilə əvəz etməyə, böhran dövründə isə monetarizm (monetarizm – erkən merkantilizmdir, yəni tijarət yolu ilə pul sərvətinin yığımı dövlət hakimiyyətinin köməyi ilə mümkün hesab edilir), “tetçerizm”, “reyqanizm” kimi modernləşdirilmiş formalarda “qarışmamaq” prinsipinə qayıdılmasına imkan verir. Liberalizm əgər humanitar ritorikada “sol” mənasını verirsə, dar iqtisadi mənada “sağ” ideologiya hesab olunur [11, s.215].

*Üçüncüsü,* inkişaf etmiş kapitalist ölkələrində (ABŞ, Almaniya, Böyük Britaniya və b.) hakimiyyətə yeni mühafizəkar qüvvələrin gəlməsi klassik liberalizm müddəalarının əksəriyyətinin yeni mühafizəkar ideyalarda öz əksini tapmış şərhi ilə müşayiət olunur.

*Dördüncüsü,* zəhmətkeşlərin yeni mühafizəkar metodlara qarşı çıxması realist düşünən hakim dairələrin tez dəyişə bilən ideya-siyasi alternativlərin işlənib hazırlanması zəruriliyini dərk etməsinə gətirib çıxarır. İdeoloqların əksər hissəsi bunun əsasını liberal layihələrdə, müddəalarda görür.

*Beşincisi,* liberalizmin ideya-nəzəri müddəalarının aktuallaşması onun XX əsrin 70-80-ci illərdəki siyasi böhranı ilə bağlıdır. Məhz bu böhran göstərdi ki, liberallar praktikada öz humanist konsepsiyası və şüarlarını tam həyata keçirə bilmədilər. Bu da həmin ideologiyaya yenidən baxılmasını zəruri etmişdir. Yenidən bərpa edilmiş liberalizm indi ideya cəhətdən sosializmə əks-qüvvə kimi özünü göstərir. Z.Bjezinski 1970-ci ildə Nyu-Yorkda çapdan çıxmış “İki əsr arasında. Texnotron erada amerikan qaydaları” kitabında göstərir ki, iki ictimai sistem arasındakı mübarizənin nəticəsi iki əsas dünyagörüşünün – liberalizm və kommunizmin taleyindən çox asılıdır

*Altıncısı,* liberalizm ideyalarının sosial-demokrat ideologiyasına daxil olması, “leyborist liberalizminin” əmələ gəlməsi tələb edir ki, sosial-demokratlar və liberallar qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi zərurətini dərk etsinlər.

*Yeddicisi,* liberalizmin bir çox müddəaları (dövlət və bazarın sintezi, fərdlərin bazar imkanları, hüquqi dövlət ideyası) artıq sosializm sistemindən qopub-ayrılmış Macarıstan, Polşa, Çexiya, Slovakiya, Bolqarıstan və keçmiş Sovet İttifaqının müstəqillik əldə etmiş respublikalarında [11, s. 218], o cümlədən Azərbaycanda tətbiq edilərək istifadə olunur.

Bəşəriyyətin tərəqqisi və liberal dəyərlər bir-birindən ayrılmazdır. Tarix sübut etmişdir ki, iqtisadi çiçəklənmə, sosial ədalət və şəxsiyyətin azadlığı liberal məzmun aldıqda daha həyati olur. Daxildə sabitliyə nail olmağa cəhd göstərən liberallar xarici siyasətdə liberal-demokratiya dəyərləri üzərində qurulan dünya nizamının yaradılmasına tərəfdar çıxır. Liberalların baxışlarına görə bu cür dünya nizamı sülhə təminat olur. Onların qənaətincə, iki liberal cəmiyyət bir-birilə heç vaxt vuruşmaq məqsədini güdmür.

Liberalların fikrincə, müasir şəraitdə başqa ölkələrdə (o cümlədən, totalitar diktatdan azad olmuş) demokratiyanın yaranması daha çox dərəcədə demokratik idarəetmə fomalarının qarşılıqlı təsiri yolu ilə həyata keçirilməlidir. Bu mənada, bir ölkədəki demokratiyanın başqa ölkəyə “diffuziya” etməsi şəraitin “diffuziya” etməsinə çevrilir. Bu isə suverenlik, insan hüquqlarının qorunması, plüralizm, cəmiyyətin bütün üzvlərinin mənafelərinin harmoniyası, hökumət seçkilərinin dövriliyi, müstəmləkə sisteminin dağılmasının müdafiə edilməsi, tərksilah və b. kimi hüquqi normalar və siyasi ideyalara uyğun demokratikləşmədir [7, s.97].

Demokratiya və insan hüquqlarının dünyada geniş yayılmasında ən böyük xidmət ABŞ-a məxsusdur. II Dünya müharibəsindən sonra siyasətə demokratiya dalğasında gələn “liberallar” (“idealistlər”) hökumətdən təkidlə tələb etdilər ki, ölkədə və xaricdə insan hüquqları məsələsi ilə bağlı öz öhdəliklərini yerinə yetirsin. “Realistlər” isə bu zaman liberallara qarşı çıxaraq göstərirdilər ki, insan hüquqları hər hansı bir dövlətin daxili işi, onun inkişafı ilə bağlı məsələdir. 70-ci illərdən başlayaraq xarici siyasətdə ABŞ Konqresi insan hüquqları məsələsinə xüsusi diqqət yetirməyə başladı. Liberalların təsirilə Nümayəndələr palatasında bir neçə qərar qəbul edildi və insan hüquqları “ABŞ xarici siyasətinin prinsipial məqsədi” kimi götürüldü. Konqres azadlığı boğan ölkələrə hərbi köməyi, maliyyə və ərzaq yardımını qadağan etdi. Bundan əlavə, ABŞ-ın Beynəlxaq Valyuta Fondu və Beynəlxalq Bankdakı nümayəndələrinə insan hüquqlarının pozulmasında günahkar olan hökumətlərə kredit verilməsinə qarşı çıxmaq tövsiyə olunurdu. Konqres öz qərarı ilə Dövlət Departamentində insan hüquqları üzrə büro yaratdı və tapşırdı ki, dünyanın ayrı-ayrı ölkələrindəki hüquq pozuntularına dair illik hesabat hazırlasın. Konqres hüquq pozuntuları dedikdə “fiziki işgəncələr, kobud, qeyri-insani və təhqiramiz rəftar, yaxud cəza; ittihamnamə olmadan uzun müddət həbsdə saxlama, qeyri-qanuni tutub saxlama nəticəsində insanın yoxa çıxması, yaxud insanın yaşamaq hüququnun və şəxsi təhlükəsiziyinin cinayətkarcasına pozulması ilə bağlı digər hallar” nəzərdə tutur [9, s.32].

Əvvəldə qeyd edildiyi kimi, feodal rejimlər əleyhinə mübarizədə yaranmış liberalizm, yəni dövlətin, iqtisadiyyatın və siyasi münasibətlərin formalaşması nəzəriyyəsi indi bütün dünyanı bürümüş siyasi hərəkata çevrilmişdir. Liberal mövqe hər bir insanın həyati imkanlarının genişlənməsinə istiqamətlənmiş siyasi fəaliyyət mövqeyidir. Liberal siyasət şəxsiyyətə öz inkişafı üçün zəruri meydan açmaq qabiliyyətinə malikdir. Bu cür siyasət fərdin hərtərəfli inkişafını məhdudlaşdıran bürokratik və totalitar mövcudluğu qətiyyətlə inkar edir. Bu mənada, müasir şəraitdə liberal olmaq hakimiyyətə və dövlətin məsul postlarına antikonstitusiya cəhdləri ilə gəlməyin əleyhinə olmaq deməkdir. Buna görə də liberallar hakimiyyətə yalnız parlament yolu ilə gəlməyi qəbul edir.

Liberalların fikrincə, liberalizmin inkişaf tarixinin təhlili göstərir ki, bəşəriyyəti gələcək bəlalardan qurtara biləcək yeganə ideya-siyasi cərəyan varsa, o da liberalizm cərəyanıdır. Bəzi siyasətçilər isə liberalizmi məcazi mənada, yəni ictimai həyatda mənfi təzahürlərə qarşı fəal mübarizə apara bilməmək, prinsipsiz, sazişçilik mənasında başa düşür [8, s.172].

Bəşəriyyətin tərəqqisi və liberal dəyərlər bir-birindən ayrılmazdır. Tarix sübut etmişdir ki, iqtisadi çiçəklənmə, sosial ədalət və şəxsiyyətin azadlığı liberal məzmun aldıqda daha həyati olur. Daxildə sabitliyə nail olmağa cəhd göstərən liberallar xarici siyasətdə liberal-demokratiya dəyərləri üzərində qurulan dünya nizamının yaradılmasına tərəfdar çıxır. Liberalların baxışlarına görə bu cür dünya nizamı sülhə təminat olur. Onların qənaətincə, iki liberal cəmiyyət bir-birilə heç vaxt vuruşmaq məqsədini güdmür.

*Liberalizm millətçiliklə sıx bağlıdır.* Ümumiyyətlə, millətçilik ideologiyasının Avropadan dünyaya yayıldığı güman edilir. Bəziləri Avropada millətçi baxışların 1648-ci il Vesfaliya sülhündən, hətta ondan da əvvəl başlandığını söyləyirlər. Vesfaliya sülhü Avropada 30 illik müharibəyə

son qoyan və “Müqəddəs Roma imperiyası”nın (962-1805) İsveç və Fransa ilə bağladığı sülh müqaviləsi idi. Vestfaliya sülhünün qərarı ərazi dəyişikliklərinə, dini münasibətlərə və imperiyanın siyasi quruluşuna aid idi. Bu müqavilə nəticəsində Habsburqlar imperiyası xeyli ərazi itirərək zəifləmiş, Habsburqların vahid katolik imperiya yaratmaq cəhdləri iflasa uğramış, İsveçrə və Hollandiya respublikaları müstəqilliyə nail olmuşdular [6, s.107].

Milli dövlətlərin formalaşması, milli birliyin möhkəmlənməsi prosesi tarix səhnəsinə siyasi həyatda mühüm rol oynayan millətçi ideologiyaların çıxması ilə müşayiət olunmuşdur. Millətçiliklə liberalizm arasında əlaqənin olduğunu söyləyənlər isə millətçilik cərəyanının başlanğıcını 1789-cu il Böyük Fransa inqilabı ilə bağlayırlar. Əlbəttə, *liberal millətçilik monarxiyaya və imperializmə bir reaksiya olaraq yaranmış, mürtəce, mühafizəkar cərəyan kimi yox, müdafiə məqsədli cərəyan kimi ortaya çıxmışdır.* Sözsüz ki, liberalizm və millətçilik arasındakı əlaqə siyasi ədəbiyyatda ayrıca bir müzakirə mövzusudur. Bəzi tədqiqatçılar Avropada millətçi cərəyanların bir liberal doktrina şəklində ortaya çıxdığı və sonradan yayıldığı fikrini irəli sürür.

Qeyd etmək lazımdır ki, liberal ideologiyanın məhsulu olan Fransız inqilabının (1789-1794) liberal prinsiplərlə bağlılığı qısa dövrə aiddir. Bu dövrdə “İnsan və vətəndaş hüquqları Bəyannaməsi” (1789) qəbul edilmişdir. ABŞ-ın “İstiqlaliyyət Bəyannaməsi” (1776) nümunəsində hazırlanmış bu “Bəyannamə” millilik prinsipinin üstün olduğunu elan etmişdi. “Bəyannamə”yə görə, ali hakimiyyətin mənbəyi xalq və millət hesab olunurdu. Bu ifadə mütləqiyyətin ləğvi demək idi, lakin konstitusiyalı monarxiyanın saxlanmasına yol verirdi. Burada millət müəyyən psixologiya və şüura malik olan insanların tarixən yaranmış sosial-iqtisadi və mənəvi birliyi, dövləti təşkil edən vətəndaşların sosial cəmiyyəti kimi başa düşülür. “Bəyannamə”nin birinci maddəsində deyilirdi ki, “insanlar azad və hüquqca bərabər doğulurlar”. Bütün vətəndaşlar şəxsən və ya nümayəndələrinin vasitəsilə qanunların qəbul edilməsində iştirak etmək hüququ əldə edirdi. Lakin inqilabın sonuncu ilində – qanlı yakobin diktaturası dövründə (1793-1794) liberal prinsiplərdən uzaqlaşma baş verdi. İnqilabdan sonrakı illərdə də liberal prinsiplərdən uzaqlaşma davam etdi. Xarici ölkələrin (Avstriya, Prussiya, İngiltərə) müdaxiləsini dəf etdikdən sonra Fransanı qəsbkarlıq müharibələri aparmağa, qonşu torpaqların ərazisini qəsb etməyə çağıranların sayı artdı. Böyük Fransa inqilabı Avropada mütləqiyyətə və feodalizmə ən güclü zərbə endirsə də, liberal prinsiplərdən uzaqlaşma B.Napolenun imperiyasının yaranmasına, həmin imperiyanın Avropanı işğal etmək xəyalına və nəticədə böyük məğlubiyyətinə gətirib çıxarmışdır. Bu səbəbdən, millətçiliklə liberalizm arasında paralellik olduğunu irəli sürənlər liberal millətçiliklə Yakobin və Bonapartçı “milli mənafe – milli birlik” baxışlarını bir-birindən kəskin fərqləndirirlər [10, s.43].

Əlbəttə, millətçilik monarxiyaya və imperializmə bir reaksiya olaraq yaranmış, mürtəce, mühafizəkar cərəyan kimi yox, müdafiə məqsədli cərəyan kimi ortaya çıxmışdır. Doğrudan da, liberalizmin azadlıq təməlinin məntiqi kökləri anti-imperializmə gedib çıxır. XVIII və XIX əsrlər Avropasında Habsburqlar imperiyası, Rusiya imperiyası kimi monarxiyalarla yanaşı milli müstəqillikləri əllərindən alınmış və başqa dövlətlərin işğalı altında olan Polşa, Macarıstan, Çexiya, qismən də İtaliya kimi geniş ərazilər var idi. Liberalizmlə millətçilik arasında əlaqənin olduğunu bildirənlər Avropanın bu mənzərəsinə uyğun olaraq fikirlərini əsaslandırmalıdır.

B.Napoleonun 1815-ci ildəki son məğlubiyyəti ilə liberal millətçiliyin 1789-cu il idealizminin təkrar canlandığını irəli sürənlər liberal millətçiliyə “yurdsevərlik, sədaqət, fədakarlıq, alicənablıq duyğuları ilə yanaşı müstəqillik, insan haqları, xalqların öz müqəddəratını təyin etmək hüququ, sülhsevərlik və bəşərilik prinsiplərinə əsaslanan bir toplum şüuru” kimi tərif verirlər. Bu tərifdə, insan haqları və xalqların öz müqəddəratını təyin etmək hüququ ilə yanaşı, *sülhsevərlik və bəşərilik* prinsiplərinin öz əksini tapması *liberal millətçiliyin antiimperialist xarakterini göstərir*.

Liberal millətçilik ABŞ vətəndaş müharibəsinə (1861-1865) də öz təsirini göstərmişdir. Bu millətçilik liberalizmin müstəqillik bayrağını gəzdirmiş şimallıların quldarlığın hələ də qaldığı cənub ştatlarına qarşı qanlı, çətin bir mübarizəsinə səbəb olmuşdur. Belə ki, XIX əsrin ortalarında ABŞ-ın cənub ştatlarında hələ də mövcud olan quldarlıq ölkənin siyasi və sosial-iqtisadi inkişafında əngələ çevrilmişdi. Məhz vətəndaş müharibəsinin gedişində quldarlığın ləğv edildiyi elan olundu. Vətəndaş müharibəsi başa çatandan sonra isə Konqres zəncilərin vətəndaşlıq hüquqları haqqında qanun qəbul etdi, zəncilər ağlarla bərabər mülki və siyasi hüquqlardılar, dərisinin rəngindən asılı ol-

mayaraq kişi cinsindən olan amerikalılara seçki hüququ verilməsi haqqında düzəliş qüvvəyə mindi.

XIX əsrin II yarısında *İtaliya və Almaniyanın birləşdrilməsi uğrunda mübarizə milli birlik uğrunda mübarizə çərçivəsində millətçilik cərəyanının mahiyyətini dəyişdirir*, daha doğrusu, *liberal prinsiplərdən uzaqlaşma* baş verir. Çünki bu zaman *millətçilik cərəyanı imperialist və şovinist bir mahiyyət kəsb edir*. Sözsüz ki, İtaliyada Viktor İmmanuel, Almaniyada Bismark dövründəki millətçilik cərəyanının liberal millətçiliklə əlaqəsi yoxdur. Avropanın 1870-ci il hadisələri zamanı liberal anti-millətçiliyin yerini imperialist görüşlər tutur, bu zaman millətçilik imperializmin vasitəçisinə çevrilir. Bütün bunların ardınca I Dünya müharibəsi, sonra isə millətçiliyi özünə bayraq edən İtaliya, Almaniya və İspaniya faşizmi gəlir. Məhz faşizm və marksizm dünyanın mənzərəsini dəyişmək imkanlarına malik olan və kütləvi surətdə yayılan "total" ideologiyalar kimi ortaya çıxır. Vahid siyasi sistem, rejim yuqoslavları, çex və slovakları, keçmiş sovetlər birliyi xalqını homogen edə bilmədi. Sovet imperiyasında yaşayan qeyri-rus xalqlarının 50%-i sovet hakimiyyətini özlərinə yad olan imperiya hakimiyyəti hesab edirdi. XX əsrin 80-ci illərin sonu-90-cı illərin əvvəllərində keçmiş sovet ittifaqında yaşayan ayrı-ayrı millətlərin qardaşlığı haqqında kosmopolitik arzular puç oldu. Avropada hakim xalqlar digərlərini assimilyasiya edə bilmədi. Eyni zamanda, kommunist və faşist rejimləri uzunömürlü ola bilmədi [6, s.114].

Millətçilik ideologiyasının əsasını özünü etnik birlik kimi dərk edən insanların ümumi mənafe və tələbatlarının reallaşmasına xidmət göstərən siyasi dəyərlər, norma və prinsiplər təşkil edir. Bu ideologiya millətin, xalqın özünü vahid tam kimi dərk etməsini, hər bir fərddə onun etnosa mənsubiyyəti hissinin meydana gəlməsi və güclənməsini şərtləndirməklə ictimai tərəqqini sürətləndirən təsirli sosial-psixoloji, mənəvi-emosional amil rolunu oynayır.

İdeya-siyasi cərəyanlar bir-birindən, hər şeydən əvvəl, öz prinsipləri ilə fərqlənir. Məsələn, liberalizmin əsas prinsipləri vətəndaşların hüquq bərabərliyi, dövlətin müqavilə əsaslarında təşkilindən ibarətdir. "Yeni liberalizm" (neoliberalizm) ideologiyasının ümumfəlsəfi əsasında şəxsiyyətin qrup, sinfi, dini və digər mülahizələrdən azadlığı, insanın ən ali sərvət kimi dəyərləndirilməsi, habelə kosmopolitizm, humanizm, fərdiyyətçilik kimi prinsiplər durur. Siyasi sahədə – liberalizm antik siyasi mədəniyyətdə formalaşmış xalq hakimiyyəti, şəxsiyyətin siyasi azadlıqları və hüquqlarının tanınması ideyalarına əsaslanır. Liberalizmə görə şəxsiyyətin mənəvi cəhətdən azad olması onu cəmiyyət qarşısında mənəvi məsuliyyətdən azad edə bilməz. Hüquqi dövlət şəxsiyyətin azadlığı ilə onun sosial məsuliyyətinin vəhdəti zəminində bərqərar ola bilər.

Liberalizm ideologiyasının əsasını təşkil edən fərdiyyətçilik, azadlıq və iqtisadi sərbəstlik yalnız Qərb cəmiyyətlərinə xas düşüncə tərzi deyildir. Tarixin bütün mərhələlərində və dünyanın hər yerində insanlar bu düşüncələrə sahib olmuşlar. Son üç əsr ərzində Qərb təfəkkürü bəşəriyyətin tarixi ərzində mövcud olmuş bu düşüncələri sistemləşdirmişdir. Demokratik hüquqi dövlət, yəni insan hüquqlarının və azadlıqlarının qorunduğu dövlət modeli məhz liberal ideoloji əsasda ortaya çıxmışdır [6, s.116].

Qeyd etmək lazımdır ki, liberalizm dəyərlərinə biz islam dinində də rast gəlirik. K.Berzeg yazır: "İslam dinində "qul haqqı" anlayışı vardır. Bu anlayışa görə başqasına zülm etmək, zülmə göz yummaq haramdır. Qul haqqına sahib olma anlayışına görə qadınla kişi, müsəlmanla qeyri-müsəlman bərabərdir. İslamın qul haqqı anlayışı ilə liberalizmin insan haqları və azadlıqları arasında paralellik vardır. İslama görə mülkə sahib olmaq qanuni, miras isə halal sayılır. İslam müsəlmanı çalışmağa, qazanmağa, varlı olmağa sövq edir. Liberalizmin mülkiyyətə sahib olmaq prinsipi də İslamla uzlaşır" [7, s.124].

Lakin həm İslam dinini ön plana çəkənlər, həm də ateist mövqedən çıxış edənlər İslam dininin Qərb demokratiyası ilə, liberalizmlə, insan haqları prinsipləri ilə əlaqəsi olmadığını irəli sürürlər. Lakin hər iki mövqedən çıxış edənlər yanlış təsəvvürdədirlər. Çünki liberalizmin insanın maddi və mənəvi varlığını üstün tutan, insanı yüksəldən, onun ağlına güvənən fərdiyyətçilik prinsipləri İslamın insana verdiyi qiymətlə oxşardır. Belə ki, İslam əqidəsinə görə insan azad bir iradənin daşıyıcısıdır. Allah insanı yaradarkən ona iradə vermiş və hərəkətlərində sərbəst buraxmışdır. İslam dinində məcburiyyət yoxdur. Hər bir kəsin etiqadına, inamına başqası müdaxilə edə bilməz. İslam dininin bu yanaşması da liberalizmin azadlıq prinsipi ilə uyğun gəlir.

**Açar sözlər:** liberalizm, siyasət, demokratiya, doktrina, ideologiya, cəmiyyət

**İstifadə edilmiş ədəbiyyat**

1. Əliyev Q. Çağdaş demokratik proseslərin bəzi fəlsəfi problemləri. Bakı: Təbib, 1997, 129 s.
2. Xəlilov S. Fəlsəfədən siyasətə. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1998, 340 s.
3. Josef E. Stiqliz., Qloballaşma və onun doğurduğu narazılıqlar / İngilis dilindən tərcümə. Bakı: Xəzri Ekspress MMC, 2004, 317 s.
4. Kərimov Y. Demokratiya: bəşəriyyətin bu günü və gələcəyi. Bakı: 2009, 387 s.
5. Maykl Parenti. Seçilmişlər üçün demokratiya. Bakı: 2008, 512 s.
6. Anthony Giddens. Üçüncü yol-Sosyal Demokrasinin Yeniden Dirilişi. Türkçesi Mehmet Özay. İstanbul: 2000, 174 s.
7. Kazım Berzeg. Liberalizm Demokrasi Kapikulu Gelenegi, Ankara: 2000, 184 s.
8. Leslie Nolmes., Post kommunizm. Türkçesi: Yavuz Alogan. İstanbul: Mavi Ada Ada Yayınları, 2000, 648 s.
9. Арон Р. Демократия и тоталитаризм / Пер. с. фр. М.: Текст, 1993, 303 с.
10. Бжезинский З. Большой провал. Агония коммунизма. Квитессенция: философский альманах. М.: Мысль, 1990, 298 с.
11. Кейнс Дж.М. Избранные произведения / Пер. с. англ. М.: Наука, 1993, 624 с.
12. Шапиро И. Демократия и гражданское общество // Политические исследования, 1992, №4, с.43-50.
13. Элдерн Т., Артер Д. Условия достижения консенсуса // Политология вчера и сегодня. М.: 1990, с.154-163.

**Илхам Солтанов**

**ЛИБЕРАЛИЗМ КАК ИДЕОЛОГИЯ И ПОЛИТИЧЕСКАЯ ДОКТРИНА**

**РЕЗЮМЕ**

В статье анализируется сущность, формирование и развитие либерализма. Отмечается связь либерализма с правами человека и демократическими ценностями, а также уделяется внимание связи с просвещением. Анализируются позитивные аспекты использования либерализма в государственном управлении в период современности. Проводится сравнительный анализ неолиберализма с другими идеологиями, препятствующие развитию общества. Так же, отмечается значительная роль неолиберализма, как идеологии создающая возможность для развития прав человека и демократических ценностей.

**Ключевые слова:** либерализм, политика, демократия, доктрина, идеология, общество

**Ilham Soltanov**

**LIBERALISM AS AN IDEOLOGY AND POLITICAL DOCTRINE**

**Summary**

Formation, development and essence of liberalism are analyzed in the article. The connection of liberalism with human rights and democratic values is noted, and also the great attention is paid to communication with education. The positive aspects of use of liberalism in state management at modern time are analyzed. Neoliberalism is compared with other ideologies impeding the society development. The significant role of neoliberalism as ideologies creating opportuniy for development of human rights and democratic values is also indicated in the article.

**Keywords:** liberalism, politics, democracy, doctrine, ideology, society

**UOT – 316.16**

**Elşən Allahverdiyev**
**AMEA Fəlsəfə və Hüquq İnstitutu**

## SİVİLİZASİYA VƏ SOSİAL NORMALAR

*Məqalədə sivilizasiya və mədəniyyət anlayışları müqayisəli təhlil olunur, sosial normalara münasibət bildirilir. Sivilizasiya anlayışının mahiyyətinə baxışların müxtəlif olduğu qeyd olunur. Əsas fərqləndirici cəhət bundan ibarətdir ki, filosofların bir qismi cəmiyyətin inkişafinda sivilizasiya mərhələləri ilə mədəniyyət mərhələlərini bir-birindən ayırmışlar, digər qismi isə sivilizasiya ilə mədəniyyətin eyni vaxtda yaranması və mövcud olması üzərində israr etmişlər. Məqalədə eyni zamanda sosial normaların yayılmasında kollektiv hərəkat, oyunlar, nümunələr, adət və ənənələrin əhəmiyyəti təhlil olunur. Müəllifin fikrincə, dinlərarası dialoq və əməkdaşlıq prosesi sivilizasiyalararası dialoq və əməkdaşlıqda böyük əhəmiyyət kəsb edir.*

Cəmiyyət tam bir təşkildir, onun ayrı-ayrı sferaları təkrarolunmazdır, özünəməxsus tarixə və mədəniyyətə malikdir. Deməli, sosial yarıları bir araya gətirən bütöv sistem yaradan amillər mövcuddur. Müasir fəlsəfədə cəmiyyətin bütövlüyü və tamlığı sivilizasiya və mədəniyyət anlayışları vasitəsilə xarakterizə olunur.

Sivilizasiya (latın dilində vətəndaşlıq, dövlətçilik mənasını verir) müxtəlif mənalarda işlənilir. Birincisi, bəşəriyyətin inkişafının xüsusi tarixi mərhələsi kimi. Yəni barbarlıqdan sonra siniflərin, dövlətin, şəhərlərin yaranması və yazılı dilin yaranması ilə xarakterizə olunan mərhələ. Deməli, müasir ədəbiyyatda sivilizasiya barbarlığın antitezi kimi işlənilir. İkincisi, sivilizasiya anlayışı bütün mədəniyyətlərin bütövlüyü, birliyi, onların ümumbəşəri vəhdəti mənasında başa düşülür. Üçüncüsü, “maddi mədəniyyətin” sinonimi kimi. Nəhayət, dördüncüsü, tarixi prosesin vəhdətinin səciyyəsi kimi işlənilir.

Bu anlayış ictimai sərvətin inkişafı ilə tarixi mərhələləri qiymətləndirmək üçün bir meyar kimi çıxış edir. Bu halda cəmiyyətin inkişafı “sivillik”, “sivilizasiyanın ümumi səviyyəsi”, “sivilizasiyanın aralıq mərhələləri” anlayışları vasitəsilə xarakterizə olunur.

Sivilizasiya anlayışının mahiyyətinə baxışlar müxtəlif olmuşdur. Əsas fərqləndirici cəhət bundan ibarətdir ki, filosofların bir qismi cəmiyyətin inkişafında sivilizasiya mərhələləri ilə mədəniyyət mərhələlərini bir-birindən ayırmışlar, digər qismi isə sivilizasiya ilə mədəniyyətin eyni vaxtda yaranması və mövcud olması üzərində israr etmişlər. Bundan əlavə, bir qisim müəlliflər sivilizasiya ilə mədəniyyəti eyniləşdirir, digərləri isə onları bir-birindən ayırırlar. Bəziləri sivilizasiyanın əvvəl, mədəniyyətin isə sonra yarandığını, digərləri isə əksinə, mədəniyyətin sivilizasiyadan əvvəl meydana gəldiyini israr edir [6, s.246].

Bunların hamısı sivilizasiyaya texniki-mexaniki ünsürlərin, amillərin səltənəti kimi baxırlar. Demək olar ki, müəlliflər sivilizasiyanı ictimai münasibətlərin və institutların təşəkkülünün keyfiyyətcə müəyyən sintezləşdirici forması hesab edirlər. Hər bir sivilizasiyanın mahiyyətini istehsalın bazası, sosial, iqtisadi, siyasi və insanların digər ictimai əhəmiyyət kəsb edən fəaliyyəti təşkil edir. Sivilizasiya tarixən zəruri sferadır, ictimai həyatın saxlanılması və təkrar istehsalı üsuludur. Sivilizasiyada ictimai normalar sistemi ayrı-ayrı fərdlərin və sosial qrupların cəmiyyətin iqtisadi, siyasi, sosial, mənəvi yarımsistemlərində fəaliyyətini və münasibətlərini tənzimləyir.

Sivilizasiyada predmetli və sosial texnologiyalarla bağlı olan normalar mühüm əhəmiyyət daşıyır. Bunlar hakimiyyət, idarəetmə, tərbiyəni və məişəti təşkil etməkdən, xüsusilə də istehsal texnologiyalarından ibarətdir [7, s.276].

Sivilizasiya insanların həyatı mövcudluğunun xarakterini və istiqamətini, onların sosiallığını müəyyən edir. Sosial normaların əhəmiyyəti bunların ötürülməsinin müvafiq üsullarının formalaşmasını zəruri edir. Hər bir sivilizasiya sosial normalarda ifadəsini tapan kodlaşdırma, mühafizə et-

mək, sosial təcrübəni yaymaq sistemini yaratmışdır. Sosial normaların yayılmasında kollektiv hərəkat, oyunlar, nümunələr, adət və ənənələr bir vasitə kimi çox əhəmiyyətlidir. Ancaq bu işdə çox böyük əhəmiyyətə insanlar arasında ünsiyyət vasitəsi olan dil malikdir. Dil informasiyanı ötürən insani davranışları idarə edən xüsusi sosial vasitədir. Hər bir xalqın, onun mədəniyyətinin tarixi onun dilinin tarixindən ayrılmazdır. Dilin lüğət tərkibi xalqın düşüncəsində hansı predmet və hadisənin əsas yer tutduğunu ifadə edir. Mənəvi mədəniyyətin amili kimi dil onunla birlikdə inkişaf edir, lakin xüsusi hadisə olaraq mədəniyyətdən nisbi müstəqilliyə malikdir, öz daxili qanunauyğunluqları ilə inkişaf edir [4, s.176].

Sosial normaların saxlanılması və onlardan istifadə etməyin təminatlarından biri cəza sistemi, eləcə də kollektiv şüurun forması və sosial institutlara malik olan dindir. Din, kilsə, məscid sivilizasiyaya xüsusi mənəvi sima vermişdir. Sivilizasiyanın birləşdirici başlanğıcı ali hakimiyyət və onun bütün sistemidir. Müxtəlif sivilizasiyalar dövlət hakimiyyətinin fərqləndirici sistemini yaratmışdır: *teokratik, nəsli, hüquqi, siyasi.*

Universal norma sistemlərini təhlil edərək, onların insanların davranışlarında, ictimai münasibətlərin tənzimlənməsində iştirakını araşdıraraq sivilizasiyaların müxtəlifliyi barədə fikir söyləmək olar. Onlar bir-birindən birincisi, hakim dini və dünyagörüşü durumlarının xüsusiyyətinə və onların siyasi, sosial və mədəni proseslərdə tutduqları yerə görə; ikincisi, texniki-iqtisadi inkişafın səviyyəsinə görə; üçüncüsü, iqtisadi və sosial proseslərin sürətinə və eləcə də onların mənbəyinin xarakterinə görə fərqlənirlər.

Sivilizasiyanın hər bir tipi siyasi sistemin özünəməxsus xüsusiyyəti və hüquq qaydalarının xarakterinə görə səciyyələnir.

Ədəbiyyatda iki tipdə sivilizasiya şərh olunur: Avropa sivilizasiyası və qeyri-Avropa sivilizasiyası. Qeyri-Avropa sivilizasiyası təxminən 21 qrupu təşkil edir. Bunlardan bir çoxu təkrarolunmazdır, özünəməxsusdur. Lakin ümumi tipoloji xüsusiyyətlərə də malikdirlər. Bu sivilizasiyalar ənənəvi olub, Avropa sivilizasiyasından çox əvvəl yaranmışlar. Ənənəvi cəmiyyətlər çox ləng inkişaf edir, mövcud həyat tərzini yüz, hətta minilliklərlə təkrar istehsal edir. Qeyri-Avropa sivilizasiyasının təkamülü arakəsmələrlə baş verir, dövri püskürmələrlə dövlət özünəməxsus olan institutlar və normalarla birlikdə ya güclənir, ya da zəifləyir. Ənənəvi sivilizasiyanın xarakterik cəhəti despotik hakimiyyət, təbəələrin hüquqsuzluğu, icma strukturu, şəxsiyyətin ifadəsizliyi, hüququn inkişaf etməməsi, fərdin alçaldılmasıdır. Bu cür cəmiyyətin məhvi sivilizasiyanın özünün tipini dəyişdirmir, sosial varislik mexanizminə ötürülür. Mənəvi-ruhi sferada ənənəvi sivilizasiyalarda dini-mifoloji təsəvvürlər hakimdir. Onu da deyək ki, ilk elmi bilik formaları mövcud fəaliyyət formalarına uyğun yaradılmış və şərh edilmişdir [7, s.84].

Avropa sivilizasiyası Avropada təxminən XV-XVII əsrlərdə formalaşmışdır. Bu sivilizasiyanın sələfi antik mədəniyyət və Avropa xristianlığı olmuşdur. Bu zəmin intibah dövründə texniki sivilizasiyanın dərin mentalitetini və mədəniyyətini yaratdı, bu sonuncular isə insanlar arasında sosial əlaqələri kökündən dəyişdirdi. Bu sivilizasiya hüquqi dövlətlərin təşəkkülünə, şəxsiyyətin ictimai həyatın mərkəzinə çəkilməsinə, onun təşəbbüskarlığının, müstəqilliyinin qərarlaşmasına əsaslanır. Sivilizasiyada insanın özünün yaratdığı sosial və siyasi strukturlardan özgələşməsinin aradan qaldırılması meyli açıq-aydın ifadə olunur. Texnogen sivilizasiyanın mühüm cəhətlərindən biri insanlar arasında ünsiyyətin intensivliyi və səmərəli kommunikasiya vasitələrinin formalaşmasıdır.

“Avropa” və “qeyri-Avropa” sivilizasiya tipləri anlayışı özündə ümumi, mühüm, nəsli əlamətləri əks etdirir. Avropa və qeyri-Avropa sivilizasiya tiplərindən əlavə bəşəriyyətin tarixində keçmişdə və indidə mövcud olan yetərli sivilizasiyalar da vardır.

Məsələn, Qərbi, Şərqi və Cənubi Şərqi Avropa ölkələri, eləcə də ABŞ və Kanada Avropa sivilizasiyasına daxil olsalar da, mədəniyyətlərinin xarakterinə görə çox fərqlənirlər.

Yaranma və məhvolma zamanına görə müasir və ölmüş sivilizasiyalar bir-birindən ayrılır. A.Toynibinin təsnifatına görə, hazırda Qərbi-xristian, pravoslav, İslam, İnduist, Uzaq Şərq sivilizasiyaları mövcuddur. Fəlsəfi ədəbiyyatda iqtisadi inkişafın əsas mərhələlərini xarakterizə edən məhsuldar qüvvələrin inkişaf səviyyəsini əsas götürərək belə bir bölgü aparılır: sivilizasiyadan əvvəl ar-

xaik, ənənəvi və ya ibtidai cəmiyyət; aqrar-sənətkarlıq sivilizasiyası; industrial, sənaye sivilizasiyası; nəhayət, müasir postindustrial və ya informasiya sivilizasiyası [7, s.34].

Sosial-siyasi həyatın xarakterinə görə ənənəvi, liberal sivilizasiyanın aralıq tipləri ayrılır. Ənənəvi sivilizasiya barbarlığın aradan qaldırılması ilə əlaqədar olan ictimai həyatın ilk başlanğıc formasıdır. Bu, böyük olmayan lokal birliklərdən təşkil olunur və icma dəyərlərinin hökmranlığına əsaslanır. Bunlara aqrar-sənətkarlıq istehsalı və texnologiyası, hakimiyyətin despotik formada təşkili və s. xasdır. Bu hakimiyyət peşəkar olmayan, lakin geniş yayılmış bürokratiyaya əsaslanır.

Liberal və ya Qərb sivilizasiyası mədəni və siyasi plüralizm və cəmiyyətin başlıca dəyəri olan hüquqi sistemlə xarakterizə olunur. Onun kökləri xüsusi mülkiyyətin və azad bazarın hakim olduğu antik sivilizasiyaya qədər gedib çıxır [4, s.183].

Xüsusi mülkiyyət və bazar həyata hüquqi prinsiplər sistemini gətirmişdir ki, fərdin, mülkiyyətçinin təminatı həyata keçirilmiş, şəxsiyyətin azadlığı və özünü ifadə etməsi prinsipi üstünlük əldə etmişdir.

Aralıq və ya keçid sivilizasiya tipi nəhəng qurğuların, kanalların yaranması zərurətindən əmələ gəlir (məsələn, Çin səddi). Bu halda ənənələrə və dəyərlərə görə bir-birindən fərqlənən lokal birliklər mexaniki olaraq birləşir. Bunların inteqrasiyası formal xarakterdə olur və kifayət qədər mürəkkəb qaydalar və ictimai təşkilolma formaları ilə həyata keçirilir. Çox hallarda cəmiyyətin konsolidasiyası dövlət tərəfindən, həm də başlıca olaraq güc tətbiq etməklə həyata keçirilir. Deməli, nəticədə şəxsiyyətin deyil, dövlətin tələbatı ödənilir. Bax buradan da keçid sivilizasiyalarında nihilizm hakim olur.

Sivilizasiya tarixi təcrübənin mühafizə olunması və nəsillər arasında varisliyin təmin edilməsidir. Bəs sivilizasiyalar nə üçün məhv olublar? Bu ona görə baş verib ki, sivilizasiya normaları ziddiyyətlidir. Bunlardan bir qismi tərəqqiyə xidmət edir, yaradıcı, quruculuq funksiyasını icra edir, digər qismi müxtəlif səbəblər üzündən dağıdıcı fəaliyyət göstərir. Sivilizasiya sosial həyatın bütün təzahürlərini özündə birləşdirir, istər mədəni, istər mədəniyyətdən kənar nə varsa hamısını. Sözsüzdür ki, cəmiyyət inkişaf etdikcə onun hazırladığı normalar köhnəlir. Bu normalar dəyişən həyat şəraiti ilə ziddiyyətə girir və mövcud sosiumun mövcudluğuna birbaşa təhlükə yaradır. Normalar özlüyündə cəmiyyətin saxlanmasına təminat vermir, onlar elə insanların formalaşmasını nəzərdə tutur ki, bu normaları rəhbər tutsunlar və onları öz fəaliyyətlərində həyata keçirsinlər. Beləliklə də, sivilizasiyanın mühüm struktur ünsürünü mədəniyyət təşkil edir [4, s.370].

N.A.Berdyayev göstərirdi ki, sivilizasiya sosiallaşma prosesidir. O, sosial kollektiv prosesdir. Mədəniyyət isə fərdi, dərinliklərə gedən prosesdir. Onun fikrincə, sivilizasiya böyük dərəcədə obyektivləşmə və sosiallaşmadır, mədəniyyət isə daha çox şəxsləşmə və ruhilikdir [6, s.285].

Aydındır ki, XX əsrin 80-90-cı illərindən başlayaraq Qərb sivilizasiyasının hüdudları genişlənmişdir. Bu sivilizasiyanın tərkibinə Şərqi Avropa ölkələri ya daxil olmuşlar, ya da daxil olmaq üzrədirlər. Qərbi Avropasayağı modernləşmə ilə Qərbi Avropa sivilizasiyasına daxil olmaq eyni proses deyildir. Məsələn, Türkiyə ilə Yaponiyanı "modernləşmiş" ölkələr hesab etmək olar. Lakin bu ölkələr Qərbin həyat tərzlərinin elementlərini, ictimai münasibətlərini, texnikasını və texnologiyasını nə qədər mənimsəsələr də, onlar Qərb sivilizasiyasının tərkib hissəsi ola bilməz. Bu ölkələr belə bir məqsədi heç qarşılarına da qoymurlar.

Müasir dünyada baş verən hadisələrin dərk edilməsi baxımından sivilizasiyaların tarixi prosesdəki yeri və rolu ilə bağlı məsələlərin böyük aktuallıq kəsb etməsi o gerçəklikdən irəli gəlir ki, ikiqütblü ideoloji mübarizənin aradan qalxdığı bir dövrdə beynəlxalq münasibətlərin qurulması daha çox sivilizasion identikliyin müəyyənləşməsi istiqamətində baş verir. Bu da olduqca təbii və anlaşılandır. Belə ki, sosialist düşərgəsinin dağılmasından sonra dünyada baş verən qloballaşma prosesinin doğurduğu fəsadlar bütün aktuallığı ilə ortaya çıxdı. Bir çox tanınmış mütəxəssislərin tədqiqatlarından aydın oldu ki, müasir tarixi prosesdə qloballaşma adı altında cərəyan edən ümumdünyəvi fenomenin təzahürü əksər hallarda qeyri-qərb sosiomədəni super-sistemlərin özünəməxsus mədəniyyətlərinin vesternləşdirilməsinə yönələn ekspansionist fəaliyyətdən başqa bir şey deyildir. Dünyanın Qərb modelinə uyğun şəkildə mədəni homogenizasiyaya uğradılması təmayülü özünü

açıq şəkildə ictimai həyatın müxtəlif sahələrində büruzə verməkdədir. Bu işdə, xüsusən Qərb sivilizasiyasının maraqlarını təmsil edən bəzi qlobal qeyri-hökumət təşkilatlarının və ilk növbədə TMK-ların (transmilli korporasiyaların) fəaliyyəti daha təsirli və təhlükəli səciyyə daşımaqdadır [5, s.19].

Sivilizasiya anlayışına dair müxtəlif mövqe və yanaşmalara diqqət etdikdə məlum olur ki, bu anlayış elmi-fəlsəfi ədəbiyyatda daha çox mədəni inkişafın müəyyən hissəsini və yaxud səviyyəsini ifadə etmək üçün istifadə olunur. Halbuki, müasir fəlsəfi təlimlərdə sivilizasiya ilə mədəniyyətin münasibətləri birmənalı izah edilmir. Belə ki, onları tam eyniləşdirən, habelə birini digərinə qarşı qoyan baxışlar fərqləndirilə bilər. Tədqiqatçı Q.Q.Danileviskinin qeyd etdiyi kimi, “Onun (sivilizasiyanın) müxtəlif anlamlarını hər hansı şəkildə birləşdirmək istəsək, onda məntiq baxımından tarazlaşdırılmış bir kateqoriyadan daha çox intuitiv xarakterli bir obraz əldə etmiş olarıq” [6, s.135]. Lakin belə yanaşmanın özü də sivilizasiyanın “müəyyən bir reallıq – müəyyən məkan və zaman çərçivələrində insanların maddi və mənəvi həyatlarının tamlığı” olduğunu inkar etmir [2, s.87].

Müasir dövrdə amerikalı tədqiqatçı Samuel Hantinqtonun sivilizasiyaya verdiyi tərifinə diqqət yetirsək görərik ki, ona görə “Sivilizasiya insanların ali mədəni birliyi və mədəni identiklikliyinin ən geniş səviyyəsi olub, insanları başqa bioloji varlıqlardan fərqləndirir”. Sivilizasiyanı müəyyən edən ümumi obyektiv elementlərə gəldikdə isə o, buraya: dili, tarixi, dini, cəmiyyətdəki ənənələri, sosial institutları, eləcə də insanların özlərini subyektiv identifikasiya etmək qabiliyyətlərini də aid etmişdir. S.Hantinqton öz fikirlərində F.Braudelə əsaslanaraq qeyd etmişdir ki, “İmperiyalar yaranıb məhv olsalar da, hakimiyyətlər bir-birini əvəz etsələr də, sivilizasiyalar yaşayıb siyasi, sosial, iqtisadi və hətta ideoloji təlatümlərə sinə gərirlər”. S.Hantinqtona görə müasir dövrdə mövcud olan bütün sivilizasiyalar təxminən min il bundan əvvəl meydana gəlmiş və ya Latın Amerikasında olduğu kimi buradakı sivilizasiyalar artıq tarix səhnəsində mövcud olmuş sivilizasiyaların “törəmə”ləridir. Sivilizasiyanı siyasi deyil, məhz mədəni varlıq hesab edən S.Hantinqtonun fikrincə, bunu müxtəlif sivilizasiyalarda və ya eyni bir sivilizasiya çərçivəsində müxtəlif siyasi quruluşların mövcud olması ilə də əsaslandırmaq olar [2, s.11].

XX əsr yapon filosofu X.Nakamura da “Şərq” və “Qərb” anlayışlarının ciddi elmi kateqoriyalardan daha çox metaforalar olduğunu iddia etmişdir. O, sivilizasiyaların inkişaf tarixlərindən gətirdiyi faktlar əsasında planetimizin ayrı-ayrı regionlarında müxtəlif tarixi dövrlərdə varlıq haqqında oxşar konsepsiyaların, analoji intellektual problemlərin və bunlara münasibətdə yaxın metodoloji variantların mövcud olduğunu vurğulayırdı [1, s.111]. X.Nakamura, Şərq və Qərb mədəniyyətlərinin inkişaf prosesində bir-birilə təmasda olduqlarını qeyd edərək, heç bir məqamın yalnız bunlardan birinə müstəsna və əbədi səciyyə kimi şamil edilməsinin tərəfdarı olmadığını dəfələrlə diqqətə çatdırmışdır.

Dinlərarası dialoqun real praktikası və burada qazanılan uğurlar bəzi sivilizasiyalararası dialoqun təkmilləşdirilməsi üçün müsbət nümunə hesab oluna bilər. Sivilizasiyalararası münasibətlərin digər sahələrində olduğu kimi, bu prosesin də tarixən həm əleyhdarları, həm də tərəfdarları çox olmuşdur. Belə ki, dinlərarası dialoq və əməkdaşlığa qarşı çıxanlar onu Qərbin Şərqə, xüsusən də müsəlman Şərqinə qarşı “yeni bir istismarçılıq siyasətinin yürüdülməsi” kimi qələmə verirlər [1, s.187]. Əlbəttə, keçmişdə olduğu kimi, müasir dövrdə də dinlərarası dialoq və əməkdaşlıq sahəsində belə məqamlara rast gəlmək mümkündür. Lakin unutmaq olmaz ki, dinlərarası dialoq və əməkdaşlıq prosesi sivilizasiyalararası dialoq və əməkdaşlığında böyük əhəmiyyət kəsb edir. Həm də nəzərdə tutulmalıdır, indi bu proses zəmanəmizin xarakterindən irəli gələn yeni keyfiyyətdə təzahür edir. Amma bütün bunlara baxmayaraq, ədəbiyyatda müxtəlif dinlər arasındakı mövcud fərqlər bəzən həmişə olduğundan daha çox qabardılmaqdadır. Halbuki yalnız dini təsəvvürlərin müqayisəli təhlili və onlardakı oxşar cəhətlərin üzə çıxarılması əsasında dinlərarası dialoq və əməkdaşlıq prosesinin indiki vəziyyətini və gələcək inkişaf perspektivlərini müəyyən etmək mümkündür. Ümumilikdə götürdükdə, tarixilik baxımından sivilizasiyalar dünya dinləri meydana çıxdıqdan daha əvvəl mövcud olduqlarından, bəşər tarixində birinci tərəflər arasında yer almış fərqlər və ziddiyfətlərdə təkcə dinin günahlandırılması doğru olmazdı. Bunu həm də ondan görmək olar ki, hətta sivilizasiyaların mövcud olduğu “...sonrakı tarixi dövrlərdə dünya dinləri meydana çıxdıqdan sonra (sivilizasi-

yalar) dini məzmun daşımağa, xristian və islam sivilizasiyası adlandırılmağa başlanmışdır” [1, s.38]. Odur ki, dini dünyagörüşdə sivilizasiyalararası dialoq və əməkdaşlığa münasibəti aydınlaşdırmaq üçün müvafiq dini dünyagörüşü tipinin mahiyyətindən çıxış etmək daha doğru olardı. Dinlərarası ziddiyyətləri qabartmaq niyyətində olanlar bu məqamı nəzərə almır, dinlərin müxtəlifliyini əsas inancların məzmunları ilə deyil, dinlərin stili, yaxud da ki, ruhu ilə əlaqələndirməyə cəhd göstərirlər ki, bu yanlışdır.

Türk tədqiqatçısı Əhməd Qurucanın “İslamda dialoq və tolerantlıq” kitabından oxuyuruq ki, “Dini sahədə dialoq həm bir dinə mənsub qrupların, həm də fərqli dinlərə mənsub insanların inanc və düşüncələrini bir-birlərinə məcburi və ya qeyri-etik yollarla qəbul etdirmə təşəbbüsündə olmadan, ortaq məsələlər ətrafında tolerant şəraitdə danışa bilməsi, müzakirə edə bilməsi və əməkdaşlıq qura bilməsi deməkdir” [3, s.184]. Buradan göründüyü kimi, dini sahədə dialoq həm bir dini sistem daxilində, həm də müxtəlif (burada yalnız monoteist dünyagörüşlü) dinlərarası baş verən bir prosesdir. Deməli, ünsiyyətqurma metodu kimi dini dünyagörüş daşıyıcılarının həm daxili, həm də xarici münasibətlər sistemində dialoq və əməkdaşlığa ehtiyacları qaçılmaz zərurətdir.

**Açar sözlər:** sivilizasiya, mədəniyyət, sosial normalar, dialoq, tolerantlıq

**İstifadə edilmiş ədəbiyat**

1. Əsədova N. Sivilzasiya və tarixi proses // Elmi əsərlər, №2, 2010, 194 s.
2. Hüseynov H.B. Şərq-Qərb münasibətlərində qloballaşma: ideoloji-siyasi mübarizə anlamında. Bakı: Səda, 2008, 334 s.
3. Kurucan A. İslamda dialoq və tolerantlıq. Tərc. ed. Q.Ocaqlı, Xəzər Nəşriyyatı, 2008, 18 s.
4. Ulusel R. Qloballaşma və demokratiya. Bakı: 2008
5. Zeynalov Ş. Müasir Şərq-Qərb münasibətləri kontekstində sivilizasiyaların dialoqu və əməkdaşlığı (dini -fəlsəfi aspekt): f.d. ...diss. avtoref, Bakı, 2014, 19 s.
6. Барулин В.С. Социальная философия: Учебник. М.: ФАИР-ПРЕСС, 2000, 560 с.
7. Хантингтон С. Столкновение цивилизации. М.: АСТ, 2006, 571 с.

**Эльшан Аллахвердиев**

**ЦИВИЛИЗАЦИЯ И СОЦИАЛЬНЫЕ НОРМЫ**

**Reзюме**

В статье анализируется понятие цивилизация и культура, отношения и социальные нормы. В распространении социальных норм анализируется важность коллективных действий, игр, примеры, обычаи и традиции. По мнению автора, процесс межрелигиозного диалога и сотрудничества между цивилизациями имеет большое значение для диалога и сотрудничества.

**Ключевые слова:** цивилизация, культура, социальные нормы, диалог, толерантность

**Elshan Allahverdiyev**

**CIVILIZATION AND SOCIAL NORMS**

**Summary**

The concept of civilization and culture, also relations and social norms are given in the article. The importance of collective actions, games, examples, customs and traditions are analyzed in spreading of social norms. According to the author, the process of inter-religious dialogue and cooperation between civilisations is of great importance for the dialogue and cooperation.

**Keywords:** civilization, culture, social norms, dialogue, tolerance

**УДК – 34.009**

**Самир Мамедов**
**НАНА Институт Философии и Права, д.ф.ист.**

# ЧАША В СИМВОЛИЗМЕ ГОСУДАРСТВЕННОСТИ И ПРАВА В ДРЕВНЕТЮРКСКИХ ТРАДИЦИЯХ

*В статье на основе исторических фактов, археологических материалов и эпигрофических данных исследуется чаша тюркской государственной символики и атрибутов. Автор предполагает, что найденные в древне тюркской мавзолее различные предметы так в отдельности, так и в целом носят символическое значение. Так, чаша является символом святости, мудрости, власти, однако прежде всего, является символом мудрого и знающего человека, выбранного великим Танры.*

История тюркской государственности уходит своими корнями вглубь тысячелетий. Тюрки создавали свои государства ещё в глубокой древности, эти государства отличались своеобразием государственного устройства и разработанностью государственного механизма. Особенно выделялась военная сфера, как основа государства, поскольку государства эти были военно-феодальными. Была создана и своя атрибутика и символика, как материальное воплощение существовавших в то время представлений об окружающем мире, созданным великим Танры.

Изучение истории азербайджанской тюркской государственной символики и атрибутов государственной власти и права, уходящей к древним шумерам, маннейцам, скифам и хуннам даёт возможность раскрыть значение некоторых символов государственности и права и, в частности, значение символизма чаши.

Так, у древних хуннов существовал ритуал заключения международных договоров, в котором обязательными были несколько составных элементов, важнейшим из которых являлась чаша. В 47 г. до н.э. между государством Хунну и империей Хань (Китаем) был заключен международный договор, сопровождавшийся специальным ритуалом, который как видно из китайского источника, состоял в следующем: «Чан, Мын (представители китайской стороны – С.М.), Шаньюй (Хуннский Танрыкут – глава государства – С.М.) и его старейшины взошли на Хуннускую гору по восточную сторону реки Но-Шуй и закололи белую лошадь. Шаньюй взял дорожный меч, и конец его омочил в вино; это клятвенное вино пили из головного черепа Юечжыского государя, убитого Лаошан Шаньюем» [9, к. 1, с.92]. Подобные ритуалы при заключении договоров существовали и у скифов. Геродот следующим образом описывает у них аналогичный обряд заключения договора: «Клятвенные договоры с кем бы то ни было Скифы совершают так: в большую глиняную чашу наливают вина и примешивают к нему кровь договаривающихся, сделав укол шилом или небольшой надрез ножом на теле, затем погружают в чашу меч, стрелы, секиру и дротик. По совершении этого обряда они долго молятся, а затем пьют смесь как сами договаривающиеся, так и достойнейшие из присутствующих» [12, с.29-30].

При заключении вышеуказанного договора фигурирует чаша, сделанная из черепа Юечжыского правителя, из которого пили т.н. «клятвенное вино». Показательно, что вино или иную жидкость, пили не из простого или, скажем, какого-то драгоценного сосуда, а именно из черепа злейшего врага хуннов, убитого хуннским каганом Лаошаном после долгой и кровопролитной борьбы. Тем самым демонстрировалась военная мощь государственности хуннов, способных побеждать в войнах и строго наказывать своих врагов. Кроме того, символизм использования чаши заключался ещё и в том, что хунны стремились показать, какая участь может ожидать тех, кто не будет соблюдать условий заключенного договора. Из-

готовление из головы убитых злейших врагов чаши для питья, является также древним военным обычаем, известный ещё со времен скифов, описанный Геродотом [12, с.28]. Показанные Геродотом скифские военные обычаи пролития крови и отрезания головы находят некоторые созвучные элементы и в эпосе «Китаби - Деде Коркут» [4, с.54]. Кроме того, указанный скифский обычай созвучен с хуннским военным обычаем, засвидетельствованным в китайских источниках (Щизцы, Цяньханьшу): «Кто в сражении отрубит голову неприятелю, тот получает в награду кубок вина, и ему же предоставляется все полученное в добычу…» [9, к. 1, с.50].

Подобная практика изготовления чаши из головы сильного врага была, по-видимому, довольно распространенным военным обычаем. Известно, что русский князь Святослав был убит на днепровских порогах печенегами и печенежский князь изготовил из головы Святослава чашу для пиров. Русский исследователь Э.А.Грантовский, со ссылкой на А.С.Лаппо-Данилевского показывает, что, выпивание крови, отрезание головы убитого врага и изготовление из его черепа чаши, было распространено не только у скифов, но и у многих европейских народов, в том числе и у латышей, литовцев, немцев, галлов и др. [13, с.72]. В чем смысл этого обряда? На наш взгляд, этот распространенный с глубокой древности обычай отрезания головы побежденного врага символизировал собой не только итог победы над врагом, но и играл огромное моральное значение, особенно во время боя, если к тому же погибший воин являлся военачальником или багатуром (богатырём). Голова – это символ жизни, поэтому её физическое отделение от тела являет собой не только физическую смерть, но и смерть во всех её отношениях, в том числе и символическом. Не случайно, у азербайджанцев и русских в разных формах существует пожелание: «başın sağ olsun», т.е. «Да будет цела твоя голова», в которую облекается выражение не только физического здравствования, но и общего благополучия, удачи и успеха.

Вернемся к заключению договоров у хуннов. Следует отметить, что подтверждение заключенного договора каким-либо символическим образом в правовой практике человечества наблюдалось ещё с древнейших времен у самых разных народов. В истории права такой феномен называется формализмом права, когда оно тесно связано с религией, обрядностью и символикой, а также с традициями и условностями старых обычаев.

Необходимо отметить, что использование символизма у многих народов древности, вообще было развито именно на государственном уровне. Языком символов пользовались и при ведении войн и при заключении мира и можно сказать, что в целом, символика сопровождала правовые обычаи древних народов.

Чаша, как предмет, имеющий конкретное ритуально-государственное значение был известен ещё за несколько тысяч лет назад до нашей эры в самых различных цивилизациях. Полагаем, что именно ритуального характера чаши обнаружены в самых различных уголках мира: базальтовые чаши галусского периода из Бир Абу-Матар (Палестина, II половина IV тысячелетия), черно-красная керамика, принесенная прищельцами из Закавказья из Хирбет-Керака (Палестина, II половина III тысячелетия до н.э.), из Тепе-Гисара (Юго-Восточный Иран, около 3000 г. до н.э.) и другие [10, с. 119, 159, 321, 322, 325, и др.].

По-видимому, символика чаши была связана и с победой над покоренными народами, победоносные цари держали её в руках, когда покоренные изъявляли свою покорность. На черном обелиске ассирийского царя Салманасара III (859-824 гг. до н.э.) изображена сцена выражения покорности ассирийскому царю израильского царя Охозии (по другим данным Ииуя). Ассирийский царь при этом держит в руках чашу, которая на наш взгляд, символизирует победу ассирийской военной мощи и государственности, здесь чаша - символ победы, власти и государственности [21, с. 64-65].

О религиозно-культовом характере чаши в контексте её как символа государственности и атрибута государственной власти свидетельствует и факт отражения её в Библии. Так, пророк Иосиф, будучи государственным чиновником очень высокого ранга в Древнем Египте,

имел серебряную «гадательную» чашу, которая была затем подложена его братьям [8, Быт., гл. 44, ст. 2-5]. Кстати, гадание было широко распространено в Древнем Мире, гадали не только по жидкости, налитой в чашу, но и по внутренностям животных, по полету птиц, гадали также растолковывая значение снов. Тот же пророк Иосиф был наделен даром растолковывать сны. В чаше же, гадание происходило по-разному. Так, в древней Месопотамии предсказатель-бару наливал масло в чашу с водой, держа её на коленях, это делалось для того, чтобы угадать волю божества в отношении государства или частного лица. Перемещение масляной пленки относительно поверхности воды или кромки чаши могло предсказать царю мир, процветание, войну или восстание; частному лицу это могло предвещать прибавление семейства, процветание или наоборот [10, с.168]. Хунны также придавали большое значение гаданиям, которые осуществлялись служителями тюркского религиозного культа – гамами, которые занимали видное место в системе государственного управления. В китайском источнике сообщается, что хунны: «предпринимают дела, смотря по положению звезд и луны. К полнолунию идут на войну, при ущербе луны отступают» [9, к. 1, с. 50]. Упоминание о чаши имеется и в аятах Корана: «И будут обходить их с сосудами из серебра и кубками хрусталя – хрусталя серебряного, который размеряли они мерой. Будут поить там чашей…» *76:15-17* [16, с. 371].

Чаша как символ государственного или общеплеменного характера фигурирует и в археологическом материале древнетюркских погребений. Чаша, при этом как правило, серебряная, в других случаях золотая или отделанная золотом, однако, имеются также чаши глиняные, керамические, иногда деревянные. Встречаются чаши, на которых выгравирована надпись, указывающая её принадлежность. Конечно же, речь не идет о бытовой посуде, среди которых есть, кстати, и чаша и которые в большом количестве встречаются среди древних захоронений различного типа. Мы говорим о чаше, которая как нам представляется, являлась атрибутом государственной власти, и которая также может указать место усопшего в социальной и государственной иерархии того или иного тюркского государства. В скифских курганах причерноморских степей также обнаруживаются чаши: курганы Чертмлыка и Солохи, Чмыревой могилы и Огуза, Керченского и Таманского полуостровов, нижнего Подонья и Прикубанья, кургана Куль-Оба близ Керчи, и в Херсонских курганах. Устойчивое повторение в курганах и других погребениях такого предмета как чаши, как правило, серебряной на широком пространстве от Причерноморья и до монгольских степей не может не свидетельствовать о том, что речь идет об одном и том же атрибуте, имеющего конкретное символическое значение. Да и остальные предметы, такие как стрелы, мечи и другие виды оружия и вооружения, как думается, не просто так были положены в могилу, а являлись символами государственного, религиозного характера, а также посредством их обозначался социальный статус и положение в иерархии государственного (или племенного) управления захороненного человека. Исходя из этой посылки, нам представляется, что обнаруженные в результате археологических раскопок предметы оружия и утвари, одежды и украшений в древнетюркских захоронениях следует рассматривать в их совокупности, в символическом понимании, как атрибуты государственной власти и права. Так, отделанная золотом деревянная чаша, с изображениями рыбы, обнаруженная в погребении знатного скифа, а также бронзовая чаша на массивном поддоне, железный меч и миниатюрная серебряная чаша другие предметы, обнаруженные в другом скифском кургане у с. Архангельская слобода в Приднепровье дают основание полагать именно о символическом назначении этих и других предметов в их определённом сочетании, совокупности [19, с.147]. В раскопанном поселении Гырлартепе у села Гырлар Ахсуинского района Азербайджанской Республики в грунтовом погребении, наряду с серебряной чашей, поставленной, кстати, перед лицом покойного, были обнаружены и различные образцы оружия: железная трехлопастная стрела, наконечник копья, нож, кинжал, меч и другие предметы. Азербайджанский ученый Ф.Османов в связи с этим отмечает, что «значительное количество оружия и богатый погребальный инвентарь

свидетельствует о высоком социальном положении погребённого, который скорее всего был военачальником или храбрым воином» [22, с.30].

В некоторых случаях надписи на чаше дают определенную информацию об усопшем более конкретно. Так, на обнаруженном в 1970 г. в 50 км от г. Алма-Аты (Казахстан) близ поселка Есик погребении, датируемого несколькими тысячелетиями до нашей эры, наряду с множеством других предметов была обнаружена серебряная чаша, на которой тюркскими рунами была выгравирована надпись, которая была прочитана исследователями следующим образом: «Сын хана умер в 23 года. Да будет здравствовать (по азерб. звучит «başı sağ olsun») народ Есик» [6, к. 1, с.41-42].

Чаша – это немаловажный элемент и тюркских погребальных статуй. На древнетюркских поминальных памятниках на территории Монголии обнаружены каменные изваяния мужских фигур, в том числе и воинов, которые в правой руке, либо обеими руками держат чашу (памятники Хонгиогийн Хох Хошуу, Дагда Хушот, Нарийн Хоолой, Булганский аймак, горы Хангая (VIII в.), поминальный памятник в урочище Ихе Асхет (VIII в.), каменные изваяния в Баян-Ульгийском аймаке (VIII-IX вв.), Архангайском аймаке (Их-Тамир-сомон, VIII в.), в урочище Нарийт (Хурумты, VIII в.), Дзабханском аймаке (урочище Яруу, VIII в.), Гоби-Алтайском аймаке (урочище Суминден, VIII в.), Убсунурском аймаке (Хиргиз сомон, VIII в.), и др.) [23, 18, 17]. Сама чаша на этих изображениях, как правило, небольших размеров. Так, например, именно такая чаша изображена на статуе мужчины со шлемом из погребального комплекса озера Худу-нур (VIII в.): он держит её за основание в правой руке, левая же опущена вдоль туловища. На Кошо-Цайдамских памятниках, недалеко от знаменитого памятника Кюль-тегину также имеется чаша в виде огромного гранитного куба, который, по мнению известного тюрколога Г.Кляшторного, не что иное, как жертвенник, в верхней части которого проделано углубление. Каменные изваяния скифского времени в Причерноморье также представляют интерес в этом отношении: на некоторых из них, наряду с предметами одежды и вооружения имеются также ритоны. Чаша – один из непременных элементов каменных статуй в Великой Степи – половецких «каменных баб» - в стране тюрков Дешт-и-Кипчаке, нашедший отражение и на могильных камнях. Российский ученый Аджи Мурад в наборе из погребения кипчакского воина указывает и чашу [7, с.228]. Среди обнаруженных (возле сел. Степанцминда, ныне Казбеги, Грузия) в Терском ущелье комплекса бронзовых скульптур привлекает внимание «изображение прикованного мужчины крепкого сложения, стоящего чуть согнув колени. На голове у него надет шлем. Лицо обрамлено густой бородой. Мужчина опоясан широким поясом, на нем обувь с низкими голенищами. Правой рукой он поднес ко рту сосуд. Вокруг пояса мужчина обвязан толстой и прочной цепью, состоящей из двадцати восьми звеньев» [24, с.49].

После распространения ислама в Азербайджане тема чаши как определенного символа, тесно связанного с религией, как атрибута государственной власти не исчезла. Так, в средние века тема чаши нашла своё отражение и в произведениях великого Низами Гянджеви. Здесь чаша фигурирует именно в таком значении – это символ святости и атрибут права. Вот что он пишет в одном из своих произведений (в нашем переводе на русский с азербайджанского языка):

Ей, виночерпий, отгони сон от головы моей,
Я влюблен, наполни чашу чистым (правильным) вином,
чья вода как текущее серебро,
что все четыре мазхаба признали дозволенным. [5, с.243].

О чаше, как о предмете-атрибуте, принадлежащим великим персидским правителям древности: Фиридуну, Кейхосрову, Джамшиду и другим Низами пишет в ряде других бейтов. Например, он отмечает золотую чашу, оставленную на память Джамшидом и Фиридуном [5, с.410].

Таким образом, в этих и других бейтах Низами обозначает чашу во-первых, как символ святости, во-вторых, чаша кроме того, как бы символизирует судьбу не только самого человека, её владельца, но и судьбу государства, возглавляемого этим правителем, поэтому чаша – это символ и атрибут государственности и права. Чаша - непременный атрибут правителя, выражение его власти и содержанием чаши, коей является сама власть, по мысли Низами, должна быть истинная религия – ислам, которая признана всеми четырьмя мазхабами, т.е. фактически под чашей правителя у Низами понимается власть в государстве, основанная на исламе и которая должна быть управляема по законам шариата. Кроме того, есть и другой смысл в этом бейте, который можно раскрыть, комментируя высказывание мусульманского философа и поэта XV века Деде Омара Ровшани. В своей «Книге о бедности» Ровшани пишет, что те, кто испили чашу Господа, узнали тайну и её сохранили, идут по верной дороге Аллаха, т.е. он пишет о людях, которые на основе религиозных знаний, приобщились к великой Божественной тайне, им была дарована мудрость и они стали близкими к Аллаху [20, с.367]. И Низами, и спустя три века после него Ровшани пишут о чаше как об атрибуте человека, который на основе религиозных знаний, одобренных мазхабами (У Низами) стал близким к Богу. Чаша в произведениях средневековых авторов – это атрибут и символ избранного Богом человека, который пришел к этому на основе дарованных ему знаний и мудрости. Вот как отмечено об этом в Коране (в переводе В.Пороховой):

Он мудростью дарит того, кого захочет,-
И тот, кому дарована она,
Получит всеобъемлющие блага,
Но осознают это те,
Кто обладает разуменьем. *2:269*

И видят те, кому даровано познанье,
Что Господом открытое тебе
Есть Истина, ведущая на путь
Могучего и достославного Владыки. *34:6* [15, с. 64, 447].

Следует отметить, что в древнетюркских государствах первоначально беки, а в последующем и гамы считались именно людьми, наделенными тайными знаниями и мудростью. В древнетюркских традициях не каждый человек мог быть избран гамом, им мог быть лишь избранный свыше. Болгарский исследователь Мирча Элиаде пишет, что по воззрениям древних, Господь уведомлял будущего гама об избрании его и благословлении на этой стезе, когда тот спал, или же был в болезненном состоянии или в иных ситуациях [20, с.78].

Интересно также само содержание чаши – так называемое «клятвенное вино», которое пили участники церемониала. Очень показательно, что и сейчас у азербайджанцев «поклялся», «дал клятву» - называется «and icdi» и переводится не просто как «клятва», «обещать», но и как «выпил торжественное обещание, обет, клятву» [14, с. 19, с.123]. Кстати, термин «анда» у средневековых тюрков и монголов – означает побратима, который поклявшись, должен быть преданным своему собрату. В самом древнем монгольском источнике «Сокровенное сказание» (1240 г.) так сказано об этом: «…закон побратимства состоит в том, что анды, названные братья, - как одна душа, никогда не оставляя, спасают друг друга в смертельной опасности». В знак побратимства анды также обмениваются поясами [14, с.305-306].

В Музее истории Азербайджана хранятся так называемые «чаши покаяния и обета» - «товба габы» (азерб.) из частной коллекции Шахида Хабибуллаева [3, с.19]. Чаши из меди, размерами 13,5x27,5, 16x29,5, по форме напоминают тюркские аналоги как обнаруженные в ходе археологических раскопок, так и отраженные на статуях. Их не следует путать с суфий-

скими «кешкюлями» («висячая на руке чаша» - чаша подаяния) и шафаданами («миски сорока желаний» - для оккультных и магических ритуалов), кстати, также хранящимися в Музее истории Азербайджана [3, с.21, 23]. На чаше арабской вязью, по всей видимости, чеканены айяты из Корана. «Товба» - по арабски «покаяние, обет», в Коране имеется сура с таким названием. Тюркский обряд покаяния и обета, связанный с чашей, с приходом ислама трансформировался в исламский, и как видно, также некоторое время был связан с чашей. Так, «товба» по исламскому праву в ряде случаев применялся к виновному лицу. Суть его состояла в том, что за совершение ряда преступлений, в том числе и тяжких, виновный при полном раскаянии в совершенном преступлении и даче им клятвы именем Аллаха о несовершении подобного преступления впредь, получал либо полное прощение, либо предусмотренное наказание заменялось другим, гораздо более легким наказанием. Кстати, некоторые элементы товбы отражены и в ныне действующем азербайджанском уголовном законодательстве и, как представляется, являются непосредственным продолжением гуманистических начал в азербайджанских уголовно - правовых традициях. Так, в ст. 72 и 82 УК Азербайджанской Республики предусмотрено освобождение лица от уголовной ответственности в связи с его деятельным раскаянием в предусмотренных законом случаях.

Таким образом, чаша, первоначально как религиозно-правовой символ с созданием государства стал символом государственности и права, верховной власти, военной мощи государства и жречества и был общепринят в тюркском мире, но и не только у тюрков. Кроме того, чаша являлась непременным атрибутом правителей тюркских государств, в которых религия занимала важнейшее место как в древности, так и в средние века. В позднее средневековье при заключении международных договоров чашу, конечно, уже не использовали, но государственно-религиозный символизм её все ещё оставался в сознании людей, трансформировавшись в такой элемент исламской атрибутики как «товба габы» (азерб.), т.е. «чаши покаяния и обета».

**Ключевые слова:** чаша, государство, символ, право, история, традиция, скиф, древний, контракт

**Использованная литература**

1. Allahverdiyeva Ş. Dədə Ömər Rövşəni. // Dirçəliş. XX əsr. Azərbaycan Dövlət quruculuğu və beynəlxalq münasibətlər institutunun elmi nəşri. 110-111/2007, 360-369.
2. Azərbaycan dilinin izahlı lüğəti. I cild. A-Z. A.Axundovun redaktəsi ilə. Bakı: Çıraq, 452 s.
3. Həbibullayev Ş. Şəxsi kollegiya. Bakı: 2012.
4. Kitabi-Dədə Qorqud. Azərbaycan ədəbiyyatı inciləri. Bakı: Yazıçı, 1987, s. 23-168.
5. Nizami. Lirika. Sirlər xəzinəsi. Şərəfnamə. Tərtib edənlər: Xəlil Rza, Abdulla Şaiq. Bakı: Yazıçı, 1988, 629 s.
6. Yüzdək Rafiq. Türkün qızıl kitabı. 1, 2, 3 kitab. Bakı: Yazıçı, 1996, 144 s.; 1997, 236 s.; 1996, 244 s.
7. Аджи Мурад. Европа, тюрки, Великая Степь. М.: Мысль, 1998, 334 с.
8. Библия. Книги Священного Писания Ветхого и Нового Завета. Russian Orthodox Bible. United Bible Societies, 1991.
9. Бичурин Н.Я. Собрание сведений о народах, обитавших в Средней Азии в древние времена. Т.I, М-Л.: 1950, 380 с.; Т.II, М-Л., 1950, 333 с.
10. Брентьес Бурхард. От Шанидара до Аккада. М.: Наука, 1976, 359 с.
11. Гасанов З. Царские скифы. Этноязыковая идентификация «Царских скифов» и древних огузов. New York: Liberti Publishing House, 2002, 486 с.
12. Геродот. История. Латышев В.В. Известия древних писателей о Скифии и Кавказе. / Т.1, выпуск 1-й, Санкт-Петербург: 1893, с. 4-57

13. Грантовский Э.А. О некоторых материалах по общественному строю скифов. «Родственники» и «друзья». Кавказ и Средняя Азия в древности и в средневековье. (История и культура). Под ред. Б.А. Литвинского. М.: 1981, с. 59-79
14. Козин С.А. Сокровенное сказание. Монгольская хроника 1240 г. Т. 1. М-Л.: изд-во АН СССР, 1941, 199 с.
15. Коран. Перевод смыслов и комментарии Валерии Пороховой. Четвертое издание дополненное и переработанное. 1997, 797 с.
16. Коран. Пер. И.Ю. Крачковского. М.: НПО «Вектор СП», 1991, 396 с.
17. Кляшторный С.Г. История Центральной Азии и памятники рунического письма. Отечественные исследования. Азиатика. С-Пб.: 2003, 560 с.
18. Кляшторный С.Г., Султанов Т.И. Государства и народы евразийских степей. Древность и средневековье. С-П.: Петербургское востоковедение, 2004, 368 с.
19. Лесков А.М. Курганы: находки, проблемы. Л.: Наука, 1981, 168 с. с илл.
20. Мирча Элиаде. Шаманизм. Архаические техники экстаза. Пер. с англ. К.: София, 2000, 480 с.
21. Саггс Х. Вавилон и Ассирия. М.: Цетрполиграф, 2004, 234 с.
22. Халилов Д.А. Материальная культура Кавказской Албании. (IV в. до н.э. – III в. н.э.). Баку: Элм, 1985.
23. Худяков Ю.С. Древнетюркские поминальные памятники на территории Монголии. // Древние культуры Монголии. Новосибирск: Наука, 1985, с.177-179.
24. Чиковани М.Я. Народный грузинский эпос о прикованном Амирани. М.: Наука, 1966, 327

**Samir Məmmədov**

## QƏDİM TÜRK ƏNƏNƏLƏRİNDƏ DÖVLƏTÇİLİK VƏ HÜQUQ SİMVOLİZMİNDƏ CAM

### Xülasə

Məqalədə konkret tarixi faktlar, arxeoloji materiallar və epiqrafik məlumatlar əsasında qədim və orta əsr türk dövlətlərinin hüquq ənənələrində yer almış camın dövlətçilik rəmzi kimi təyinatı və mənası araşdırılır. Müəllif belə bir fərziyə irəli sürür ki, qədim türk məqbərələrində aşkar olunmuş müxtəlif əşyalar həm ayrı-ayrılıqda, həm də bütövlükdə müəyyən simvolik məna daşımışdır. Belə ki, cam müqəddəslik, müdriklik, hakimiyyət və dövlət başçısının rəmzi olmuş, lakin ilk növbədə cam - Tanrı tərəfindən seçilmiş müdrik və bilikli insanın rəmzi olmuşdur.

**Açar sözlər:** cam, dövlət, rəmz, hüquq, tarix, ənənə, skif, qədim, müqavilə

**Samir Mammadov**

## BOWL IN THE SYMBOLISM OF STATEHOOD AND LAW IN ANCIENT TRADITIONS

### Summary

The assignment of a bowl as a symbol of state system and its meaning in law traditions of Turkish power in the middle ages are investigated in the article based on historical facts, archeological materials and epigraphic data. The author states that the various things found in acient Turkish mausoleum had some symbolic meanings both separately and on the whole. So, the bowl became a symbol of holiness, wisdom, power and the head of state, but first of all the bowl became the symbol of the knowledgeable and wise person chosen by God.

**Keywords:** bowl, state, symbol, law, history, tradition, scythian, ancient, contarct

**UOT – 32.01**

**Üzeyir Şəfiyev**
**Bakı Dövlət Universiteti, sos.ü.f.d., dosent**
**Daxil Vəliyev**
**Bakı Dövlət Universiteti, fəl.ü.f.d.**

# AZƏRBAYCANÇILIQ İDEYASININ MƏNBƏLƏRİ HAQQINDA

*Məqalədə azərbaycançılıq ideologiyasının meydana gəlməsi, onun kökləri barədə araşdırma aparılır. Müəlliflər “azərbaycançılıq” sözünün etimologiyasını tədqiq edərək bu fikrə gəlirlər ki, bu ideya haqqında qədim mənbələrdə də müxtəlif fikirlər mövcud olmuşdur. Azərbaycan vətəndaşlarının (etnogenetik prosesdə iştirak etmiş toplumların təmsilçiləri) dil, din, irqi, genetik, fizioloji, mənəvi psixoloji baxımdan qohumlaşması, tarixi tale, həyat tərzi identikliyi, Azərbaycan sakinlərinin etnofuziya, etnoslararası inteqrasiya, etnokonvergensiya prosesini yaşadıqları zəmanətini verir. Qeyd olunur ki, ölkənin inkişafı üçün azərbaycançılıq ideyasının inkişaf etdirilməsi zəruridir.*

XX əsrin sonu XXI əsrin əvvəli təkcə sabiq sovet məkanı üçün deyil, dünya evi üçün geo-siyasi və etnososial-siyasi sifariş zəminində köklənən milli müəyyənlik, etnosentirizm erası kimi də dəyərləndirilə bilər. Qurulmaqda olan yeni dünya inteqrasiyaya, özünütəşkilə bütün səviyyələrdə gedən differensiasiya prosesi, xaos olmadan üz tuta bilməzdi. Çünki dünya nizamı elə ilk zühur şəraitini də xaosdan tapıb.

Bütöv dünyada, o cümlədən keçmiş sosialist məkanında gedən bu proseslərdən Azərbaycanı uzaq təsəvvür etmək mümkünsüzdür. Azərbaycan qısa zaman kəsiyində tarixin o sərt sınaqlarından üzü ağ çıxdı. Hərçənd ölkəmizdə azərbaycanlının etnik müəyyənliyi, etnik kimliyi ilə bağlı tarix boyu, xüsusilə də söhbət açdığımız dövrdən bəri mübahisələr, fərqli mövqe toqquşmaları özünü qabarıq şəkildə göstərməkdədir. Eyni fikir ayrılığı Azərbaycan sözünün etimoloji mənasından başlamış Azərbaycanın dövlət dili, azərbaycanlının etnonimi (özünüadlandırma), Azərbaycanda yaşayan toplumun aborgenliyi, avtoxtonluğu və s. haqqında gedən söhbətlər zamanı da ortaya çıxır.

Qeyd olunan məqamlarla bağlı nəinki xarici müəlliflərin, eləcə də Azərbaycan tədqiqatçılarının mövqeləri bir sıra hallarda bir-birini inkar edir. Mübahisə doğuran məsələlərdən biri Azərbaycan sözünün fars, türk və s. mənşəli olması ilə əlaqədardır. Əski və müasir dövrün bir sıra müəllifləri, o cümlədən Straqbon, Müqəddəsi, Yaqut Həməvi, E.Xersfeld, M.Ştrek və başqaları Azərbaycan sözünün sələfi sayılan Atropatenanı Kiçik Midiya çarı Atropatın adı ilə bağlayırlar. M.Azərlu, T.Musəvi, Z.Jampolski Atropatena sözünü İran dilli sayır və bildirirlər ki, bu sözün tərkibindəki “pat” sözü başçı, cənab mənasını verir [1, s.82]. XVII əsr müəllifi ibn Xələfət-ət Təbrizi Azərbaycan sözünün lak sözü olduğunu və mənasını “ADR”- yüksəklik, “beyqan”-zadəgan (burada zadəganların uca yeri) demək olduğunu vurğulayır. İbn - Əl-Mükkəfaya görə Azərbaycan adını Azərbaz ibn İran əl-Əsvad ibn Sam ibn Nuhun adından götürmüşdür. Azərbaycan sözünü Azərbaz ibn Bayvarastın adı ilə bağlayanlar da vardır [2, s.165]. Bu adın pəhləvi dilində olmasını iddia edənlər bildirirlər ki, Azər pəhləvi dilində od, bayqan isə qoruqçu mənasını verir (od qoruqçusu, odlar ölkəsi). Azərbaycan sözünün aşağıda qeyd edəcəyimiz ilkin və hazırkı səslənməsinə yaxın şəkli üzərində dayanan tədqiqatçılar da az deyil. Belə ki, onlar bu sözün latınlarda “Atropatena”, erməni dilli qaynaqlarda Adrbayqan, ərəb və fars qaynaqlarında “Adrebedaqan”, “Azərbayqan” şəklində olmasını bildirirlər. Əgər belədirsə, onda tanınmış tədqiqatçı M.Seyidov belə bir nəticə çıxarmaqda haqlıdır ki, “Azərbaycan” sözü ilk əvvəl Azərbayqan şəklində olub ki, o, yuxarıda qeyd edilən dillərdə təsvir olunduğu şəkildə səslənib və yazılırmış.

Bir qrup tədqiqatçılar, o cümlədən V.K.Kelmakov düzgün olaraq bildirir ki, sözlərin etimologiyası ilə bəzən etnoqraf və tarixçilər məşğul olduğundan onların sözün mənşəyi haqqında fikirləri

sözlərin təsadüfi forma oxşarlığı üzərində qurulur. Elə həmin müəllif Azərbaycan sözünün tərkibindəki ar//ər hissəsinin türk dilindən ayırmağa cəhd edənlərə etiraz etmişdir.

Azərbaycan sözünü oğuzlarla bağlayan Fəzlullah Rəşidəddin “Cami ət-təvarix” əsərində, Hüseyin Xələf oğlu Bürhan isə “Burhane-qate” əsərində Oğuz xanın bu ölkəni tutan zaman onun əmri ilə əsgərlərinin ətəklərində daşıdıqları tökmə torpaqlar hesabına ucaltdıqları təpəni Azərbaycan adlandırması bildirilir (Azər-uca, bayqan - əyanlar mənasında).

Nəhayət “Azərbaycan sözü M.Seyidovun israr etdiyi anlamda daha diqqətçəkən və qəbuledilləndir. Müəllif B.B.Bartolda, S.Y.Malova, habelə “Gültəkin”, “Tonyuquq” abidələrinə istinadən Azərbaycan sözünün açılışını verir [5, s.19]. Məlumdur ki, akademik V.V.Bartold “Az”ları Türkeş qəbilə birləşməsinə bağlayır. S.Y.Malov isə “Gültəkin” və “Tonyuquq abidələrinə istinadən “Az”ı xalq kimi və yer adı kimi qeyd edir. S.Y.Malov “Gültəkin” abidəsinin 23-24-cü xəttindən belə bir sitat gətirir:... Çöldi Az ari bultym. Ozum Az yirim, any bil “(yəni “Az çöllərində Az ər (kişi) tapdım. Bil mənim yerim azdır”). M.Seyidov Azəri Günəş antropomorfik tanrısının adı olduğunu, sonralar Az qəbiləsindən olan ər bəy, xan kimi işləndiyini qeyd edir.

Mübahisəli mövzulardan biri də Azərbaycan sakinlərinin, xüsusilə də türklərin avtoxtonluğu, aborgenliyi ilə bağlıdır. Bu məsələ ilə əlaqədar da tədqiqatçılar arasında ziddiyətli fikirlər çoxdur. e. ə. 64 - b. e. 24-cü illər arasında yaşamış yunan coğrafiyaşünası və tarixçisi Strabonun “Coğrafiya”sının XI kitabı indiki Azərbaycan ərazisində qədim dövlətlər kimi tanınan Albaniya (Azərbaycanın şimal hissəsi) və Atropatenanın (Azərbaycanın cənub hissəsi) tarixi- etnoqrafik xəritəsi haqqında müəyyən mənzərə yaradır. Müəllifə görə, Albaniyada 26 dildə danışan müxtəlif tayfalar vardır. Əvvələr bu tayfalar hər biri ayrı-ayrılıqda idarə olunsa da, artıq onların hamısı üçün bir hökmdar var idi. Buranın əhalisi gözəl və hündür boy idi. 100-ə qədər say onlara məlum idi. Onlar üçün dəqiq ölçü və çəki məlum deyildi. Bu ölkədə bəzi zəhərli hörümçəklər var ki, onlar adamı sancanda adam gülə-gülə ölür, bəzi hörümçəklərin sancması isə adamı həlak olan qohumlarının qüssəsindən ağlaya-ağlaya ölməyə məcbur edir. Albanlar yaşlılara hörmət edir, albanlarda ölənin dərdini çəkmək, onu yada salmaq şərəfsizlik sayılırdı. Mərhumla birlikdə bütün əmlakını basdırırdılar. Buna görə də onlar ata malından məhrum olub kasıb yaşayırdılar...

b. e. I yüzilliyinin Albaniyası haqqında roma alimi və dövlət xadimi Böyük Plini “Təbiət tarixi” əsərində Nikeyli İsiqondan belə bir sitat verir. “Albaniyada alagözlü adamlar doğulur ki, uşaqlıq çağından çal olurlar və gecələr gündüzdən daha yaxşı görürlər. Plini bu əsərdə Albaniyada skif tayfası olan udinlərin, kaspilərin, rəvayətə görə, Yasondan yaranan albanların yaşadığını vurğulayır. Digər müəllif Dionisi Perieqetin verdiyi məlumata görə Kaspi dənizi mənsəbinə yaxın skiflər, hunlar, kaspilər, albanlar və kadusilər qeyd olunan ardıcıllıqla yerləşmişlər.

Azərbaycana müxtəlif irqi antropoloji əlamətlərə malik tayfa, toplumlarının nüfuzu ölkə əhalisinin irqi-fiziki portretlərində rəngarənglik üçün əsas olmuşdur. Bu gün ağ (Avropa) irqin xəzər (kaspi) tipinə aid olunan azərbaycanlıların sələfləri haqqında Həmdullah Qəzvini (XIII əsr) “Nüzhətül-qülub” əsərində yazırdı: Burada yaşayan adamların rəngi ağ, kökcə xətaidir və görkəmcə gözəldirlər... “Digər orta əsr müəllifi Əl İstəhri isə “Kniqa putey i qosudarstv” əsərində azərbaycanlının etnogenezisində rolu olan xəzərlər haqqında belə qeyd edir:” Onlar əsasən qara saçlı olub iki cürdür: bir qismi qara rəngli, digər qismi ağ və gözəldirlər... “Sonralar Ə.Hüseynzadə də bu reallığı nəzərə alaraq özünün “Türklər kimdir və kimlərdən ibarətdir” əsərində yazacaqdı:” tarix səhnəsinə çıxandan bəri türklər cinsən və lisanən müxtəlif təsirata məruz olmuşlardır: Asiya qitəsinin şərqində mancur, moğol və çinlilərlə, qərbində isə irqi qafqazdan olan əqvami-ariya və samiyə ilə, hindi, irani, slav, çərkəz, kürd, ərəb və s. nəsillərlə qarışmış olduqlarından bu gün hər tərəfdən qayət müxtəlif bir qövvümdür”.

Aven Fest Rufi “Yer kürəsinin təsviri” əsərində xəzər (kaspi) sahili əhalisi haqqında yazır: “burada albanlar, kadusilər, hirkanlar, mardlar və atropatenlər yaşayırlar”.

Azərbaycanın aborgenləri, onların xarakteri və məşğulliyyəti ilə bağlı ərəb dilli qaynaqlar da dəyərli məlumat verir. Bu baxımdan VIII-IX əsrlərdə yaşamış Əbu Məhəmməd Əbdülməlik ibn Hişamın” Himyar hökmdarları barədə taclar kitabı” nda V ərəb xəlifəsi I Müaviyənin müşaviri olmuş

Übeyid ibn Şəriyyə Əl-Cürhuminin verdiyi məlumat xüsusi əhəmiyyət kəsb edir. Müaviyə Azərbaycan haqqında öz müşavirindən: “Sən allah, Azərbaycanla əlaqəniz, təlaşınız, xatirəniz nədir?” deyə soruşduqda o, “ora türk torpağıdır. Onlar oraya cəmləşərək bir-birilə qarışmış və təkmilləşmişlər” cavabını vermişdir. Qeyd etmək yerinə düşər ki, ərəblər Azərbaycanı işğal edərkən buraya çoxlu sayda ərəb köçü oldu. Onlar Azərbaycanın müxtəlif bölgələrində özlərinə yurd salaraq yerli əhali ilə qaynayıb qarışdılar. Bu gün də Azərbaycanda bir neçə ərəb toponimləri qalmışdır. Ölkəmizdəki “Ərəbşalbaş”, “Ərəblər” və s. yer və yurd adları bu qəbildəndir. X əsrin ərəb müəllifi Əl-Yaqubi Azərbaycan əhalisi haqqında yazır: Azərbaycan və onun ətraf şəhərlərinin əhalisi farslar, azərilər və əski cavidanilərin qarışığıdır [5, s.50].

Azərbaycanda avtoxton, aborgen türk, türk-dilli və qeyri türkdilli tayfa və xalqlarla yanaşı gəlmə türklər və qeyri-türklər də azərbaycanlı millətinin etnogenezisində fəal iştirak etmişdir.

Azərbaycanın 600 il İran və ərəb işğalı altında olması, monqol-tatar basqısına məruz qalması Azərbaycanda gedən etnogenetik prosesə təsirsiz qala bilməzdi.

Qeyri türklərdən fərqli olaraq türklərin Azərbaycana gəlişini bir neçə dalğası olmuşdur. Bu da etnogenetik prosesdə türklərin müəyyənedici faktora çevrilməsini tam təmin etmişdir.

Azərbaycan tarixinə müsbət yanaşmada daha çox qısqanclıq və xəsisliyə, bir çox hallarda isə saxtalaşdırmağa farsdilli (irandilli) mənbələrdə rast gəlirik. Bu, xüsusilə də etnik müəyyənlik üçün əsas parametr sayılan dilimizə münasibətdə özünü göstərir. Cəmaləddin Fəqih, Seyid Əhməd Kəsrəvi, Nəsrullah Fəlsəfi, Rəhimzadə Səfəvi kimi İran alimləri bu və digər şəkildə azərbaycanlıların dil tarixini və bütövlükdə etnik tarixini saxtalaşdırmağa çalışmışlar. Cəmaləddin Fəqihi Azərbaycanın Səlcuqlar dövrü haqqında yazır:”Səlcuqlar türk dilini Azərbaycana gətirmədilər. Çünki onların rəsmi dili fars dili idi. Onlar İranda türk dilindən heç bir əsər qoymadılar” [3, s.141].

Seyid Əhməd Kəsrəvi Səlcuqlar dövründə azərbaycanlıların dilinin azəri dili (fars, İran mənşəli dil) olduğunu türk dilinin isə təzə gəlmiş türklərin dili olduğunu qeyd edir. Daha sonra o, Yaqut Həməvinin Əs-Səmaninin “Kitab əl-Ənsab” əsərindən gətirdiyi iqtibasda buraxdığı yanlışlıqdan öz məqsədi üçün istifadə etməyə tələsir. Məlumdur ki, Yaqut Həməvi həmin iqtibasda Xətib Təbrizinin öz həmyerlisi ilə Azərbicidəcə danışdım cümləsini azəri dilində danışdım kimi qeyd etmişdir.

Digər bir İran müəllifi Nəsrullah Fəlsəfi iddia edir ki, XVI əsrin sonu XVII əsrin əvvəllərinə qədər Azərbaycan əhalisinin əsas dili Azərbaycan (türk) dili deyil, azəri dilidir [5, s.156].

Rəhimzadə Səfəvi adlı İran müəllifi daha məntiqsiz və gülünc üsullarla azəri dilinin öz yerini türk dilinə güzəştə getməsini izah edir. O göstərir ki, XVI əsrdə yayılan vəba xəstəliyi ilə Osmanlı-Səfəvi müharibələri azəri dilində danışan tayfaları məhv etmiş, o vaxtdan başlayaraq türk dilli tayfalar Azərbaycana axışmışlar.

Bəzən bir qisim Azərbaycan müəlliflərinin əsərlərində də azəri dili ilə Azərbaycan dili ekvivalent kimi, eyni dil kimi verilir [3, s.23]. Sübut etməyə ehtiyac yoxdur ki, azəri dili İran dili ailəsinə daxildirsə, Azərbaycan dili Altay dil ailəsi türk qrupunun oğuz qoluna mənsubdur. Bir sıra tarixi mənbələrdə birmənalı olaraq qeyd olunur ki, III-IV əsrlərdə bəzi türkdilli tayfalar Azərbaycanda yerləşdikdən sonra azəri dili türk-Azərbaycan dili tərəfindən sıxışdırılıb çıxarıldı. Hətta bunun səbəbləri haqqında İran alimi N.Nateq yazırdı: Azəri dili dini dil deyildi ki, dini münasibətlər onun davamlılığını saxlasın, o, siyasi, elmi və ədəbi dil deyil ki, üstün dil olsun, hakim sinfin də dili deyildi ki, bu sinif onun mövcudluğunu qorusun. Tədqiqatçılardan V.P.Müller azəri dilinə talış dilini varis sayır. S.Onullahi isə Xalxal ərazisində bir neçə kəndin azəri dilində danışdığını qeyd edir.

S.Onullahi adı çəkilən məqaləsində azəri dilindən “Qədavü bəla taçinəm” (Qadanı, balanı alım), “Bibəbəki çeşmət can dəhəm” (Gözünün bəbəyindən ötrü can verərəm) və. s misallar gətirməklə Azərbaycan dili ilə bu dil arasındakı fərqləri göstərir.

Tədqiqatçılardan İ.P.Petruşevski, V.V.Bortold, səyyahlardan Yan Botist Taverinye Səfəvilər dövründə Azərbaycan (türk) dilinin Azərbaycanda geniş yayıldığını qeyd edirlər.

XVII əsrdə İranda olmuş Enqelbert Kempfer də qeyd edirdi ki, Səfəvilər sülaləsinin ana dili olan türk dili (Azərbaycan) İran sarayında geniş yayılmış dildir. Bu dil ölkə əhalisinin adi danışıq dilindən seçilir. Türk dili saraydan tutmuş yüksək rütbəli mötəbər şəxslərin evlərinə kimi yayılmış,

şahın hörmətini qazanmaq istəyən hər kəs bu dildə danışır. İndi iş o yerə çatmışdır ki, başı bədəninə dəyərli olan hər kəs üçün bu dili bilməmək suç sayılır.

Bir qədər sonrakı dövrdə (1836) yazılmış “Obozrenie Rosiyki vladeniy za Kavkazom v stapiçestkom, etpoçistkom, topoqrafiçestkom i finansovom otneşiəx” əsərində də Azərbaycan dili haqqında dəyərli fikirlər demişdir. Kitabın 3-cü hissəsinin müəllifi V.Leqkobıtov əsərin 78-79 səhifəsində yazır:” Şirvanda hakim olan türkmən dili bütün Azərbaycanda yayılmışdır və bizlərdə adət üzrə o, tatar dili adlandırılır: o türk dili ilə o qədər yaxındır ki, hər iki xalq bir-birini başa düşə bilir. Bu dil Zaqafqaziyada türki adlanır. O, ərəb və fars sözləri ilə zəngilləşmişdir. Əgər onun öyrənməyin asan olduğunu əlavə etsək, bu dilin orada Avropada fransız dili kimi geniş işlənməsi təəccüblü görünməz.” Analoji fikir A.A.Besdujev-Marlinski, M.J.Lermontov tərəfindən deyilmiş, fars dilinin güclü təsirinə məruz qalan tatar (Azərbaycan türk) dilinin Asiyada, Zaqafqaziyada “beynalxalq” dil olması vurğulanmışdır. Azərbaycan (türk) dilində diqqət çəkən fars təsiri ölkəmizin ərazisində fars dilli tayfaların və sülalənin gəlişi ilə izah olunmalıdır. Bu təsirin nisbi uğurlu effektinin bir səbəbi onunla bağlı idi ki, M.Ə.Rəsulzadənin təbirincə desək, əsrlər boyu İranın siyasi elitasında türklər dominat olduğundan bura əhalisi özlərini yad toplumun məhkumu saymaması, eyni dinə qulluq göstərdikləri, birgə yaşamaları, çəkdiyi ağırlığı öz cinsindən gördüyü üçün məhkum kimi özlərini hiss etməməsilə bağlı idisə, digər səbəbi məlum dövr üçün fars dilinin, hətta qonşu ölkələrdəki nüfuzu ilə (iş o yerə gəlib çatmışdı ki, Süleyman Qanuni Sədi lisanında yazmağı şərəf sayırdı, Sultan Səlim farsca şeirlər yazır, az qalırdı ki, onu dövlət dili elan etsin) bağlı idi. Lakin çox keçmədi ki, Azərbaycan poeziyasında fars dili öz yerini Azərbaycan dilinə verdi. Bu dalğanın poeziyada M.Fizuli dəvəti ilə başladığını və onu həm də M.Füzulinin şeirdə türkü uğrunda üsyanı kimi dəyərləndirmək olar.

Ol səbəbdən farsi ləfzilə çoxdur nəzmi kim,
Nəzmi nazik türk ləfzilə ikən düşvar olur.
Bəndə Tovfiq olsa, bu düşvari asan eylərəm.
Növbahar olğac dikəndən bərgi-gül izhar olur.

Məlumdur ki, Füzuli əvvəlcə fars, sonra Azərbaycan türk şivəsi, Bağdadın Osmanlı basqınına məruz qalması ilə Osmanlı türk şivəsində yazmışdır.

İndi Əfzələddin Xaqani və Zülfüqar Şirvanidən gətirəcəyimiz misallar Rəhimzadə Səfəvi dediyinin əksi olaraq türk (Azərbaycan) dilinin yerli əhalinin dili kimi çoxdan mövcudluğunu təsdiqləyir. Əfzələddin Xaqani:

Məra dər parsi fohşi ke quyənd
Be torki cərxeşan quyəd ke “sənsən”.

(Yəni mənə farsca söyüş versələr, çərxifələk onlara türk dilində deyər ki, sənsən)

Zülfiqar Şirvani:

Ta bovəd zekre xor əndər loğəte tazi şəms.
Ta bovəd name məh əndər soxəne torki ay.

Yəni (xor sözü ərəb dilində şəms olduğu kimi, mah türkcə (Azərbaycan) aydır.

Ancaq vəziyyət Rəhimzadə Səfəvinin dediyi kimi olsaydı, onda bəs yerli türklər, türkdilli tayfalar, habelə IV əsrin əvvəllərində Azərbaycana gələn türklər (hun, sabir, xəzər, qıpçaqlar) harada idilər və hansı dildə danışırdılar?!. Məlumdur ki, Azərbaycana şimaldan adı çəkilən tayfalar, cənubdan fars və ərəblər, sonralar yenə də Səlcuq türkləri, monqol tayfaları, daha sonra yenə də iranlılar və türklər axışmış və ölkə əhalisinin irqi-antropoloji, dil və psixoloji, deməli, mədəni-mənəvi dəyərlərinə ciddi təsir göstərmişdir. Bu təsir ölkənin şimalı ilə cənubunda fərqli şəkildə özünü göstərmişdir. Belə ki, Azərbaycanın cənub əhalisi (Manna, Atropatena) əgər iki dəfə dil dəyişməsinə məruz qalmışdısa da, şimali Azərbaycan bir dəfə bu vəziyyəti yaşamalı olmuşdu. Qeyd etməliyik ki, Azərbaycanın hər iki tayında III-IV əsrlərdən başlamış XI-XIII əsrlərə qədər ictimai-siyasi həyatda alban, türk, azəri, ərəb, fars dilləri rəqabət aparmış, XI-XIII əsrlərdən isə türk dili dominantlığı ələ keçirmiş, digər dillərlə əməkdaşlıq sayəsində zənginləşərək təkmilləşmişdir. Hərçənd bu gün də Azərbaycanın şimalı ilə cənubunda etnogenetik proseslərin nəticəsi başqa şəkildə özünü göstərir. Ölkə-

nin şimalında azərbaycanlı etnonimi bərkiməkdədirsə, cənubda yaşayan soydaşlarımız özlərini türk, təkə türkmən, qaşqay və s. adlandırırlar. Azərbaycanın birləşəcəyi təqdirdə də bu tipli uyarsızlıqlar və sterotip toqquşmaları ehtimalı vardır. Bu həm siyasi millət (həmçinin sosial-iqtisadi, siyasi resurslar uğrunda vasitə rolunda çıxış edən millət anlayışı), həm də etnoqrafik millət identikliyi məsələlərinin aydınlaşdırılması zamanı özünü göstərə bilər.

XVII-XVIII əsrlərdə bir çox tədqiqatçıların qeyd etdiyi kimi Azərbaycan dilinin fonetika, qrammatika və leksikasında stabilləşmə baş verir. Təsadüfi deyildir ki, S.Vurğun, “Vaqif haqqında” məqaləsində Vaqifin ərəb və fars sözlərindən dilimizi təmizləmək sahəsində xidmətlərdən geniş bəhs edir. Heç şübhəsiz ki, Vaqifin bu sahədəki xidmətləri böyükdür. Lakin Vaqif şeiri nə qədər silkinsə də, əsrlərlə Azərbaycan dilinin (türk) iliyinə işləmiş ərəb və fars sözlərindən yaxa qurtara bilməmişdi.

Bir sıra Azərbaycan müəllifləri haqlı olaraq qeyd edirlər ki, XVIII əsrdə Azərbaycan xalqının formalaşması əsasən başa çatmış, bu gün də bu proses təkmilləşir. Fikrimizcə, azərbaycanlının formalaşmasının belə uzun bir dövrü əhatə etməsi, hər şeydən əvvəl, ölkəmizin permanent keçidlər dövrü yaşaması və Azərbaycan adlı polietnik qazana hər keçid zamanı yeni cəlmələrin əlavə olunmasıdır.

### Azərbaycançılıq: mənbələri və tərkib hissələri

**Azərbaycanda millətin** adı (etnonim) ilə bağlı da mübahisəli məqamlar çoxdur. M.Ə.Rəsulzadə “Əsrimizin Səyavuşu” adlı əsərində yazırdı ki, indiki Azərbaycan əhalisinin türkmü, yoxsa farsmı olması çox zaman münaqişəli olub, insanlarına, folkloruna, aşıq dastanlarına, çoban türkülərinə, ənənələrinə baxanlar türk, rəsmi yazılarına baxanlar fars deyə qəbul etmişdir. Qeyd edək ki, azərbaycanlılara fars deməyin başqa səbəbi də var. Belə ki, orta əsrlərdə avropalılar Şərqdə “firənglər” adlandırıldığı kimi şərq xalqları, o cümlədən Azərbaycan avropalıların gözündə vaxtı ilə böyük dövlət sayılır, İranın təbəələri kimi tanınmış və şərti olaraq fars adlandırılmışlar. Azərbaycanlıların bir müddət tatar adlanması da oxşar presedentlə bağlıdır. Bu barədə Ə.Hüseynzadə yuxarıda göstərilən əsərinin 8, 9, 36 və 37-ci səhifələrində qeyd edir ki, belə məsələlərdəki səhvlərə başlıca slavlar səbəb olmuşdur. Onlar Çingiz qoşununun çox hissəsinin türk olduğunu anlamışdılar. Halbuki, fəth olunan ərazinin əhaliyi-turaniyəsi zatən minilqədim türk idi. O, sonra davam edərək yazırdı. Türklər, monqollar, tatarlar yoxdur. IX əsr Çin salnaməçilərinə görə, tatar qeyri-çin əqvamları deməkdir. Bu adı monqollara çinlilər verib. Tatarlar monqol cinsinə mənsub olduğundan türk irqinin deyil, monqol irqinin bir qoludur. Çingizlərə, Teymurlara monqol-tatar adını vermək düzgün olmadığını bildirən Əli bəy Hüseynzadə Teymura istinadən yazırdı: “Biz mülki-turan, Əmiri-Türküstanıq, biz ki türk oğlu türkük.

Bəzən Azərbaycan sözünü etnonim kimi, həm də dil adı kimi işlənməsini İ.V.Stalinin adi ilə bağlayırlar. Bu yanaşma da düzgün sayıla bilməz. Azərbaycan sözü ərazi adı halında qeyd edildiyi kimi daha yaşlıdır. Ancaq o, etnonim kimi XVIII-əsrin axırlarından bəri, daha müəyyən şəkildə isə XIX əsrdən etibarən işlənmişdi. XIX əsrin 60-cı illərindən başlayaraq rus və əcnəbi nəşrlərin səhifələrində artıq Azərbaycan, azərbaycanca sözlərinə rast gəlmək çətin deyildir. Bu baxımdan 1860-cı il Əbdul Həsən Vəzirovun Peterburq nəşri olan “Azərbaycan tatar dili dərsliyi”, 1867-ci ildə Adolf Berjenin Leypsiqdə nəşr etdirdiyi “Kafkaz və Azərbaycanın məşhur şairlərinin şeirlər toplusu”nu qeyd etmək olar.

Bəzən də Azərbaycançılığın M.Ə.Rəsulzadədən başlandığını iddia edirlər. M.Ə.Rəsulzadə özü Azərbaycan qayəsinin “Dünya müharibəsi ilə Rusiya inqilabının təsiri ilə baş qaldırdığını” bildirir. Ancaq qeyd etməliyik ki, Azərbaycançılıq nəinki rişə şəklində, daha da dəymiş şəkildə Rusiya inqilabı və dünya müharibəsindən qabaq, XIX əsrdə Azərbaycan ziyalıları tərəfindən qaldırılmışdı. Hələ XIX əsrin 80-cı illərində çıxan “Kəşkül”qəzetində Cəlal Ünsüzadə nəşr işləri üzrə Kafkaz Baş idarəsinə “Azərbaycan” adlı qəzet çıxarmaq üçün icazə almaq məqsədilə müraciət etmiş və onu aşağıdakı şəkildə əsaslandırmışdır. Zaqafqaziyanın yerli müsəlman əhalisi Azərbaycan dilində danışır, onlar ancaq krım və kazan tatarlarının başa düşdüyü tatar dilini başa düşmür, fars və ərəb dilində isə gəlmə əhalinin çox az bir qismi anlayır. 1891-ci ildə “Kaspi” qəzetində (№93) Məhəmməd Ağa

Şaxtaxtlının “Zaqafqaziya müsəlmanları necə adlanmalıdır” məqaləsi çap olundu. Orada yazılırdı ki, Zaqafqaziyada müsəlman əhalini “tatar” adlandırmaq düzgün deyildir. Çünki Zaqafqaziya türkləri ilə tatarlar arasında dil, adət-ənənə baxımından köklü fərq vardır. Buradakı müsəlman əhalisinin dili-Osmanlı, Səlcuq, Azərbaycan kimi başlıca dialektləri olan türk dili ailəsinə aiddir. Zaqafqaziya türkləri artıq çoxdandır ki, fars deyillər. Fars və türk dili arasında çox kəskin fərq vardır. Yaxşı olardı ki, Zaqafqaziya müsəlmanları azərbaycanlı, onların dili isə Azərbaycan dili adlansın.

1899-cu ildə N. Nərimanov “Türk-Azərbaycan dilinin qısa qrammatika və sintaksisi” kitabında haqlı olaraq Azərbaycan dilinin özünəməxsusluğundan, onun digər türk dillərindən fərqindən söz açır.

Nəhayət, M.Ə.Rəsulzadənin təbirincə desək, Dünya müharibəsi və Rusiya inqilabının təsiri ilə Azərbaycançılıq daha çox siyasi-ictimai müstəvidə fakt olaraq ortaya qoyulmuşdu. 1917-ci ilin aprelində Bakıda Qafqaz müsəlmanlarının qurultayında, Moskvada isə Rusiya müsəlmanlarının qurultayında Rusiyanı Federativ şəkildə qurmaq, Azərbaycana da onun tərkibində muxtariyyat almaq təklifi səsləndi. 1918-ci ilin mayın 28-də ADR-in yaranması Azərbaycançılığın artıq dönməz qələbəsi idi. Sonraki illərdə də bu mübarizə davam etdi. XI ordunun Azərbaycanı tutmasına baxmayaraq N.Nərimanov “Müstəqil Sovet Azərbaycanı” şüarı ilə çıxış etdi. Bu tipli mübarizələrin nəticəsi olaraq Azərbaycan Sovet Sosialist Respublikası quruldu. 1937, 1978, 1995-ci illər konstitusiyalarında Azərbaycan vətəndaşları azərbaycanlı adlandırıldı.

Bu gün də Azərbaycanda millətin adının (etnonim) bu şəkildə (azərbaycanlı) mövcud olmasına münasibət birmənalı deyildir. Bu cür adlandırma ilə razılaşmayanlar mövqelərini onunla əsaslandırırlar ki, ölkənin adı ilə millət adlandırıla bilməz. Millətimizin adı türk adlandırılmalıdır və. s. Qeyd etməliyik ki, etnik identiklik (müəyyənlik) məsələsinə klassik yanaşma ilə müasir yanaşma arasında köklü fərqlər vardır. Orta əsrlərdə, hətta yeni dövrün əvvəllərində etnik kimlik anlayışı bu gün başa düşülən və mövcud olan etnik kimlik anlayışından həm məzmunca, həm də həcmcə çox dardır. Əvvəllər etnik müəyyənllik əcdadlardan miras qalmış, irs - soy əlaqələrinə, irqi fizonomik parametrə, dəyişməz etnik sərhədlərə söykənən paradiqma ilə izah olunur, millət daha çox əvvəlcədən təyin edilmiş və statik hadisə kimi qəbul olunurdu. Bu cür yanaşma sahibləri daha çox etnoqrafik millət anlayışını qəbul edir və etnogenetik prosesdə etnoparsıyasıyanı (millətin bir neçə millətlərə bölünməsi: slavyanlardan ruslar, ukraynlar və belarusların yaranması kimi), etnofuziyanı (mədəni və dil baxımından bir neçə xalqın vahid xalq şəklində qarışaraq birləşməsi (şərqi slavyan tayfaları rusları yaratdığı kimi), etnogenetik miqrasiyanı (xalqların qohumluğa əsaslanmayan vahid etnos halında birləşməsi (Şimali Amerika milləti, latın Amerikası milləti və s. kimi) nəzərə almırlar. Belə düşünənlər həmçinin nəzərə almırlar ki, millət də insan kimi hetrogen (müxtəlif) başlanğıclardan yaranır, inkişaf və tənəzüll edir, ölür. Habelə insanlarda yeddi arxadönən (şəcərə) olduğu kimi, millətdə də analoji şəcərə vardır. L.Qumilyev bu məsələyə toxunaraq qeyd edir ki, hər bir etnos minbir yüz il yaşadıqdan sonra abskurasiya (qocalma və sonda ölməyə) fazasını yaşamalı olur. Yeni millət yüz otuz-yüz altmış ilə yaranır, iki yüz-üç yüz il yüksəliş dövrünü, üç yüz il böhran ərəfəsi dövrünü, iki yüz il böhran dövrü yaşayır və ölür. Yeni dövrdən başlayaraq xüsusi ilə də daha yaxın yüz illiklərdə etnik kimlik, eyni zamanda resursların qazanılmasında, habelə maraqların reallaşdırılmasında bir vasitəyə çevrilmiş, hardasa məhz bu zərurətdən insanlar onun ömür müddətinin ədəbliyində maraqlı olmuşlar. Yəni etnik mənsubluq insanlara mənəvi təsdiq, sosial məmnunluqdan daha çox, həm də siyasi-iqtisadi, sosial və s. mənfəət üçün, mənəvi emosional, psixoloji bağlılıqla deyil, rasional seçimlə (bu və digər etnosun nümayəndəsi kimi özünü təqdim etmək sərf edir, yoxsa yox?! Yaxud öz xeyrinə rəqibi hansısa millətə mənsub olması “damğası” ilə damğalamaqla onu siyasi, iqtisadi və. s. resursdan məhrum etmək) keçiləsi mümkün olan tramplin kimi lazım olmağa başladı. Və demək olar ki, əksər milli etnik münaqişələrin agenti kimi çıxış edir. Dünyanın bir sıra ölkələrində etnik müəyyənlik determinantları bir-birindən fərqlənir. 1970-ci il Luizyana qanununa görə Amerikada bir damla qan prinsipi (32\1 qan tərkibi olan başqa millət, habelə qara sayılır), Braziliyada saç, üz cizgiləri, dərinin rəngi, hindlilərdə 16\1-dən 2\1-dək qan ölçüləri əsas götürülürdü və. s. Qanların qarışması nəticəsində 8\1 ağ, 4\1 qara, 8\1 hindi, 4\1 çinli sayılanlar da vardır. Yaxud fizionomiya-

sında müxtəlif başlanğıcları birləşdirən insanların etnik kimliklərinin təyinatında da problemli situasiya mümkündür.

Azərbaycanda bəzən etnik kimlik məsələsini "haralısan" arxetipi ilə, əraziyə görə də "həll" etməyə çalışanlar tapılır. Bu daha çox resurslar uğrunda çarpışma zamanı özünü göstərir. Hesab edirik ki, bu da anormal bir haldır. Çünki ölkəmizin elə bir rayonu yoxdur ki, orada ancaq bir millət şəriksiz sakin olsun və o həmin ərazidə əsrlər boyu onlarla kompakt halda yaşayan tayfa və xalqlarla qaynayıb qarışmasın. Fikrimizcə, tarixi sınaqlardan üzü ağ çıxmış, təkcə taleyi, həyat tərzi psixolojisi və mədəniyyətləri ilə qohum olmayıb, türk (əksər) və qeyri-türk toplumların qan qohumluğuna əsaslanan izdivacdan doğan azərbaycanlı etno-sosial orqanizmi ancaq siyasi millət olmayıb, həm də etnoqtafik millətdir. Yuxarıda sadaladığımız və haqqında söz açdığımız mənbələrdə göstərildiyi, müəlliflərin qeyd etdiyi kimi Azərbaycan yarı süni, yarı təbii şəkildə yaranmış polietnik bir qazan olmuşdur. Bu qazana biz əridici, birləşdirici tiyan da deyə bilərik ki, onda heç də tayfa və xalqların əriyərək çıxdaş olması deyil, onların əsrlər boyu qaynayıb qarışaraq bu gün dünya arenasına böyük töhfələrlə özünü təqdim edən azərbaycanlı millətinin ərsəyə gəlməsinin şahidi oluruq. Azərbaycanlı əksər türk çoxluğu ilə (yerli və gəlmə) qeyri-türklərin (gəlmə və yerli) tarixi izdivacından törəndiyi üçün bu gün azərbaycanlının dil, din, mənəvi-psixoloji, irqi-fizoloji əlamətlərini, mentalitet və arxetiplərində də hər iki başlanğıcın təmsilçiliyini görmək çətin olmadığı kimi, bu fakt təəccüb də doğurmamalıdır. Elə buna işarə edərək M.Ə.Rəsulzadə "Əsrimizin Səyavuşu" əsərində yazırdı: "Bəzən iki ayrı soydan olan mədəniyyətlərin iştirakı o qədər sıx olur ki, xətti-zatında iki mədəniyyətdən bir mədəniyyət, iki millətdən bir millət nümunəsi meydana gəlir. Türklük, ərəblik, farslıq müştərək bir mədəniyyət nümunəsi meydana gətirmişdir". "Azərbaycanlılar öz mənliklərini, çox mühüm xarakterlərini itirsələr də, bəzi xüsusiyyətlər qazanmışdırlar. Nəticədə türklərin məşhur mətanətilə farslığın məşhur tezbirləşməsini özündə toplamışdır".

Rəsulzadə gəldiyi qənaəti Firdovsinin "Şahnamə"sində cərəyan edən hadisələr və personaj taleləri asasında təqdim edir. Belə ki, Firdovsi qeyd edirdi ki, qanı iki millətdən olan qəhrəmanlar mütləq bu iki millətin sahib olduğu kimi düşünüb, bir fikir və hiddət bəslərlər. O, Səyavuşun (anası türk, atası fars), Söhrabın (o da həmçinin), Makedoniyalı İskəndərin (anası rum, atası fars) yaşadıqları həyatları, uğrunda çarpışdıqları amallarının timsalında irəli sürdüyü bu tezisi əsaslanmağa çalışır.

Tarixən fars, müsəlman, türk, tatar və. s adlarla tanıdılan xalqımızı öz yazılarında haqlı olaraq azərbaycanli kimi qeyd edən və kredosunda israrlı olan Rəsulzadə daha sonra yazırdı: "sazlarında "Kərəmi", tarlarında "Şahnaz" çalınıb, dağlarında bayatı, bağlarında təsnif oxunur. Bütün bunlar böyük dalğalar halında Xəzər dənizinin qüzeyindən və güneyindən gələn türk boylarının X əsrdən etibarən Anadoluda olduğu kimi Azərbaycanda da Səyavuş yaradılışında bir cəmiyyətin, bir xalqın varlığını isbat etməzmi"?

Azərbacançılığın ölkənin ictimai siyasi həyatında bir fakt olduğunu qeyd edərkən M.Ə.Rəsulzadə öz fikirini belə izah edirdi: "Azərbaycan dövri-istiqlalına bolşeviklər "Mösavat dövrü" deyirlər, fəqət xalq bu dövrə Azərbaycan dövrü deyir. Xalqın düşüncəsində Azərbaycan nəinki coğrafi mənadan ziyadə fikir və əməl şəklində təcəssüm ediyor. İstiqlal xaricində onun üçün bir Azərbaycan yoxdur" [4, s.4].

Lakin Sovet metropolyası Azərbaycanın istiqlalına son qoydu. Sovet imperiyası adlı bir sistem dağıldıqdan sonra periferiyalarda, o cümlədən müstəqillik qazanan Azərbaycanda da sonsuz bölünmə (bölgələr, tayfa və. s) prosesi başladığı anda mübaliğəsiz demək olar ki, dövlətimizi təhdid edən bu təhlükədən təcrübəli siyasi xadim H.Əliyev məhz milli həmrəylik, bütövlük, milli dövlətçilik, vətənçilik iksirini özündə ehtiva edən Azərbaycançılıq idiealogiyası ilə xilas etdi. Azərbaycanın dünənki və bu günkü tarixi ilə tanışlıq, hadisə və prosesləri tarixi-müqayisəli, analoji müqayisəli yanaşma ilə təhliletmə bacarığı peşəkar dövlət adamı olan H.Əliyevə bu seçimində böyükköməklik etdi. Həmin dövr üçün bu yeganə düzgün yol, uğurlu tapıntı idi.

Bəzi Azərbaycan müəlliflərinin millətimizin adını Azərbaycan türkü, Azərbaycanda yaşayan digər etnik toplumları da öz adı ilə adlandırmaq lazımdır, niyə əksəriyyət təşkil edən türklər öz adı

ilə deyil, azərbaycanlı kimi, azlıqlar isə öz adları ilə çağırılır və s. kimi narahatçılıq doğuran sualları da başadüşüləndir. Qeyd etməliyik ki, Azərbaycanda yaşayan türklər, kürdlər, talışlar, ləzgilər, tatlar və s. etnik toplumlar artıq çoxdan İran, Türkiyə, Dağıstan və s. ölkələrdə yaşayan eyni adlı toplumlardan prinsipial fərqlərlə ayrılır. Bu isə həmin toplumların, habelə başqa tayfa və xalqların iştirakı ilə ölkəmizdə getmiş xalqın etnogenetik inkişaf prosesində Azərbaycan kimi polietnik qazanda həmin toplumların, şübhəsiz ki, əksər türk çoxluğunun hesabına və xeyrinə qaynayıb-qarışaraq vahid azərbaycanlı millətinin yaranması ilə baqlıdır. Məqsədəuyğundur ki, əksər türklər kimi ləzgi, talış, kürd və s. adlarla tanıtdırılan Azərbaycan vətəndaşlarının pasportlarının milliyyət qrafasında azərbaycanlı yazılsın. Bu ada, həm də Azərbaycan vətəndaşlarının (etnogenetik prosesdə iştirak etmiş toplumların təmsilçiləri) dil, din, irqi, genetik, fizioloji, mənəvi psixoloji baxımdan qohumlaşması, tarixi tale, həyat tərzi identikliyi, Azərbaycan sakinlərinin etnofuziya, etnoslararası inteqrasiya, etnokonvergensiya prosesini yaşadıqları zəmanət verir.

**Açar sözlər:** Azərbaycan, azərbaycançılıq, tarix, ideologiya, milli mənbələr

**İstifadə edilmiş ədəbiyyat**

1. ASE, XXX c. Bakı: 1974
2. Azərbaycan xalqının soy kökünü düşünərkən. Bakı: 1989
3. Azərbaycan tarixi və mədəniyyətinin burjua saxtalaşdırıcılarına qarşı. S.Onullahi: İran burjua alimlərinin əsərlərində Azərbaycan dili tarixinin saxtalaşdırılması. Bakı: 1978, 141 s.
4. Rəsulzadə M.Ə. Azərbaycan Cümhurriyyəti. Bakı: 1990
5. Сумбатзаде А. Азербайджанцы. Етногенез и формирование народа. Баку: Элм, 1990

**Узеир Шафиев**
**Дахил Велиев**

## ОБ ИСТОЧНИКАХ НАЦИОНАЛЬНОГО СОЗНАНИЯ

### Резюме

В статье анализируются источники национального самосознания. На азербайджанском, русском, арабском, персидском источниках исследовали этимологию этого слова. Согласно древним источникам есть некоторые идеи, связанные со словом азербайджанство. По мнению авторов нужно развивать идею азербайджанство.

**Ключевые слова:** Азербайджан, азербайджанство, история, идеология, национальные источники

**Uzeyir Shafiyev**
**Dakhil Valiyev**

## ABOUT THE SOURCES OF NATIONAL CONSCIOUSNESS

### Summary

The sources of national self-consciousness are analyzed in the article. The etymology of Azerbaijan word is investigated in Azeri, Russian, Arabic and Persian sources. There are some ideas about the word of Azerbaijanism in ancient sources. According to the ancient sources there are some ideas connected with the word Azerbaijan. To the authors` opinion the idea Azerbaijan should be developed.

**Keywords:** Azerbaijan, Azerbaijanism, history, ideology, national sources

**UOT – 342.4**

**Kamal Hacıyev**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**

## AZƏRBAYCANDA SOSİAL DÖVLƏT QURUCULUĞUNUN MƏRHƏLƏLƏRİ

*Məqalədə bildirilir ki, Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra cəmiyyətimizin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçmişdir. Azərbaycanda həyata keçirilən sosial-iqtisadi dəyişikliklərin məqsədi sosial yönümlü bazar iqtisadiyyatına əsaslanan sosial baxımdan təmin olunmuş bir dövlət qurmaqdır. Məqalədə dünya təcrübəsindən, son dövrlər ölkədə həyata keçirilmiş sosial-iqtisadi islahatlar nəticəsində sosial dövlət quruculuğunun mərhələlərindən və yeni Azərbaycan modelinin yaradılıb həyata keçirilməsindən ətraflı bəhs edilir.*

Cəmiyyət insanların birgə yaşayışının, tarixi sabit bir forması olmaqla onun daxili quruluşu, strukturudur ki, o da keyfiyyətcə bölünərək biri-biri ilə qarşılıqlı fəaliyyətdə olan qurumlardır. Onların fəaliyyətlərini müşahidə etmək, izləmək, başa düşmək də olur ki, o da aktiv fəaliyyətdə ictimai praktikadır.

Bu ictimai praktikada sosial vəziyyəti formalaşdıran şərtlər isə əsasən sosial dövlətə xas olan şərtlərdir ki, bunlara da ictimai quruluş, cəmiyyətdə hakimiyyət, təsərrüfatda hakimiyyət, iqtisadi şərait, sosial və iqtisadi təhlükədən müdafiə və ekoloji təhlükəsizlik daxildir.

Dövlətin sosial siyasətində isə - onun vətəndaşlarının sosial hüquqlarını ödəməyi öhdəsinə götürüb onları təmin etmək durur - bunlara da əsas diqqət yetirdikdə aşağıdakı sahələrə istiqamətlər yönəlməlidir: sosial-əmək münasibətlərinə, sosial-mədəni kompleks sahəyə və demoqrafiya, miqrasiya proseslərinə [9, s.35]. Bu sahələr üzrə sosial siyasətin idarə sistemi isə aşağıdakı prinsiplərə - məqsədyönlülüyə, təsirliliyə, çoxvariantlılığa, kompleksliliyə, tabeçiliyə, fasiləsizlik və dövlət orqanları, yerli özünüidarəetmə orqanları ilə əhali arasındakı qarşılıqlı məsuliyyət bərabərliyinə əsaslanmalıdır.

Sosial dövlət quruculuğunda vətəndaş cəmiyyətinin çox böyük rolu vardır. Belə ki, vətəndaş cəmiyyəti, çoxsaylı ədəbiyyatlara istinadən deyə bilərik ki, onun mahiyyəti iki formada, yaxud yanaşma mövqeyinə görə şərh edilir. Birinci mövqe əsasən, vətəndaş cəmiyyəti – xüsusi tip cəmiyyət olaraq insan hüquq və azadlıqlarını təmin edir və bu səbəbdən də sivil cəmiyyət sayılır [2, s.65]. Digər tərəfdən isə "vətəndaş cəmiyyəti" məfhumu altında dövlətin müdaxiləsi və tənzimlənməsindən kənar olan hakimiyyət, xarici əlaqə, struktur və institutlar nəzərdə tutulur. Tarixə nəzər salsaq, birinci mövqeyin, əsasən, vətəndaş cəmiyyətinin bir ideya və fenomen kimi təşəkkül dövrünə təsadüf etdiyini görərik. Bu, Qərbi Avropada hakim olan kapitalist münasibətləri sayəsində siyasət və iqtisadiyyat arasında ziddiyyətlərin kəskinləşməsi dövrünə təsadüf edir.

A.Tokvilin "Amerikada demokratiya haqqında" əsərindən sonra ikinci mövqe genişlənərək inkişaf etmişdir. A.Tokvilin vətəndaş cəmiyyəti ilə əlaqədar nəzəriyyəsi C.Lokkun nəzəriyyəsini üstələməyə başlamışdır. Bunu şəxsin dövlətdən asılılığının azalması, dövlətin vətəndaş cəmiyyətinə müdaxiləsinin məhdudlaşdırılması, cəmiyyətin sosial quruluşunun mürəkkəbləşməsi, cəmiyyətdə üfüqi sosial münasibətlərin möhkəmlənməsi və yeni sosial təşkilat və hərəkatların yaranması ilə izah etmək olar. A.Tokvilin vətəndaş cəmiyyəti ilə əlaqədar şərhinin həm pozitiv, həm də neqativ cəhətləri vardır ki, bunların da pozitiv cəhətlər sırasında birincisi cəmiyyətin və onun sosial quruluşunun inkişaf prosesidir, ikincisi vətəndaş cəmiyyətinin, xüsusi hadisə kimi hüquqi dövlətdən və siyasi demokratiyadan məzmun-mahiyyətcə fərqli fenomen kimi araşdırılmasıdır, üçüncüsü dövlət hakimiyyəti və vətəndaş cəmiyyəti arasındakı münasibətlərin önə çəkilərək dəqiqləşdirilməsidir və dördüncüsü, vətəndaş cəmiyyətinin anlaşılmasında onun dövlətə qarşı qoyulmasından deyil, hakimiyyət münasibətlərinin müəyyən təşkilatlanma üsulundan çıxış etməsidir, neqativ cəhətlərə görə isə XX və XXI əsrlərdə baş vermiş geosiyasi prosesləri izah etmək çətinləşir və tarixi baxımdan müəyyən məhdudiyyətlər vardır ki, burada da münaqişəli vəziyyətlərdə dövlət-cəmiyyət münasibətlərində baş verən mürəkkəbliyə təsir edə bilmir.

Qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, hər iki şərh və mövqe bir-birini tamamlayan fikirlər baxımından sinergetik qarşılıqlı əlaqədə (postneoklassik epistemologiya müstəvisində) istifadə olunmalıdır [2, s.66].

Buradan belə aydın olur ki, həqiqi vətəndaş cəmiyyətinin məğzini dövlət, xalq və millətin suverenliyinin əsasında duran fərdin suverenliyi təşkil edir. Çünki vətəndaş cəmiyyəti fərdin suverenliyini ən yüksək səviyyədə qəbul edərkən, zəruri məhdudiyyətlərin olmasını inkar etmir. Bu zəruri məhdudiyyətlər məhz elə həqiqi vətəndaş cəmiyyətinin bərqərar olmasının şərtlərindən irəli gəlir. Fərdin suverenliyinin hüdudları qanuna uyğun olaraq müəyyən edilməli, dövlətin təhlükəsizlik əsaslarının möhkəmlənməsi və inkişafı məqsədini güdməlidir. Ümumiyyətlə, tarixi faktların göstərdiyi kimi demokratiya, insan hüquqları, hüquqi dövlət, vətəndaş cəmiyyəti kimi fenomenlər qarşılıqlı əlaqədə dövlətin sosial siyasətini formlaşdırır və bir-birini şərtləndirir. Bunu ondan görmək olar ki, əsas fərdi azadlıqlar məhz hüquqi dövlət və demokratik vətəndaş cəmiyyəti şəraitində öz həqiqi mənasını tapır, ictimai sistemin sonrakı təkmilləşməsində mühüm şərtlərdən biri kimi çıxış edir. Sosial dövlətin formalaşmasında vətəndaş cəmiyyətin başlıca cəhətlərindən biri də odur ki, cəmiyyətin bir sistem kimi idarə olunmasında ağırlıq yalnız subordinasiya (şaquli) əlaqələrin üzərinə düşmür, ağırlığın böyük hissəsi koordinasiya (üfiqi) əlaqələrin üzərinə düşür [6, s.64]. Bu, eyni zamanda dövlətin də sosial siyasətinin bir siyasi institut kimi fəaliyyətini daha səmərəli edir.

Nəhayət, sosial dövlət quruculuğunun ən aktual məsələlərindən və vəzifələrindən ailə, məktəb, ali təhsil müəssisəsi, iş kollektivi və digər sosial institutların fəaliyyətində, ümumiyyətlə, bütün bu istiqamətlərdə şəxsin sosiallaşmasında rolunun olmasıdır.

Dünya ölkələrinin tairixinə nəzər salsaq onların müəyyən prinsiplərə söykənən idarəetmə fəlsəfəsi sayəsində sosial, iqtisadi, elmi-texniki və texnoloji cəhətdən tədricən inkişaf etdiyini görərik [7, s.12]. Bunlar sırasında ən əsas sosial siyasətin əsas konsepsiyalarını rəhbər tutaraq bu siyasətdə olanlar cəmiyyətin sosial inkişafının strateji məqsəd və vəzifələrini, bütün təbəqələr üçün sosial məkanı formalaşdıran qanunvericilik sisteminin yaradılması, sosial sahələrin dövlət və digər subyektlər tərəfindən maliyyələşdirilməsinin və vahid sosial infrastruktur, vahid kadr və məlumat-informasiya şəbəkələrinin yaradılmasının həyata keçirilməsidir. Bu isə ümumilikdə sosial siyasətin fəaliyyət sistemi kimi qiymətləndirilir.

Tarixi mənbələrə əsasən, dünyada əsasən Qərb ölkələrində sosial siyasətin həyata keçirilmə istiqamətləri iki əsas istiqamət birinci sakral-paternalist, ikincisi isə liberal formalarda həyata keçirilir.

Sakral-paternalist istiqamətində - strukturların fəaliyyətinə, liberal istiqamətdə isə sosial demokratik, korporativ və liberal fəaliyyətlərə üstünlük verilir [8, s.56].

Qərb ölkələrinin əksəriyyətində sosial siyasətin tətbiq edilən fəaliyyət modelləri, əsasən, Skandinaviya, Danimarka, İsveç, Finlandiya kimi dövlətlərdə, sosial-demokratik model yəni solçu fəhlə partiyalarının ittifaqlarının müəyyənləşdirdiyi fəaliyyət modeli isə Avstriya, Fransa və Almaniya kimi dövlətlərdə əmək fəaliyyətinin növlərinə əsasən yardım-sığorta sistemi üzrə fəaliyyət modeli bəzən bu "qitə" modeli kimi tətbiq edilir [9, s.94]. Liberal fəaliyyət modelində isə anqlo-sakson ölkələri olan İngiltərə, İrlandiyada həyata keçirilir ki, bunun da əsasını aşağı təbəqələrə zəruri dövlət dəstəyinin nəzərdə tutulması təşkil edir.

Sosial siyasətdə ictimai münasibətlərdə sosial siyasətin həyata keçirilməsi durur ki, burada da dövlətin tarixi inkişafı sayəsində bu və ya digər xalqın həyatında dövlətçiliyin yerinə yetirilməsinin konkret tarixi forması dayanır. Belə ki, dövlətdə hakimiyyətin dövlətçilik adlanan idarəetməsi tətbiq edilir – bu da tarixi inkişaf sayəsində əldə edilmiş siyasi münasibətlərin mədəni səviyyəsinin elə bir formasıdır ki, xalqların və millətlərin sosial, siyasi, iqtisadi, mədəni, mənəvi yaşayışının təsirli şəkildə təmin olunmasıdır. Sosial dövlətdə isə ictimai münasibətlərdə sosial siyasətin aşağıdakı problemləri öz əksini sosial perspektivlər, sosial məqsədlər, sosial imkanlar və sosial risklər kimi sahələrdə tapır.

Sosial siyasətin həyata keçirilməsinin qarşısında duran mühüm məsələlərindən biri də sosial siyasət subyektlərinin sosial və iqtisadi təhlükəsizliklərinin təmin edilməsidir.

Sosial təhlükəsizlik – cəmiyyətin bütövlükdə optimal təhlükəsizlik səviyyəsinin müəyyən edilməsidir ki, buraya da əsasən sosial sistemə təhlükənin olmaması, təhlükələrə qarşı müdafiə ehti-

yatının olması, təhlükədən qorunmaq üçün güc, bacarıq və müəyyən vasitələrin olmasıdır [8, s.294]. Sosial təhlükəsizliyin subyektləri qismində dövlətin vətəndaşlar, cəmiyyətin idarə olunmasında xüsusi rolu olan qanunverici, icra, məhkəmə orqanları, yerli hakimiyyət və yerli özünü idarəetmə orqanları, siyasi partiya, ictimai birliklər və hərəkatlar çıxış edirlər. Sosial təhlükəsizliyin obyektləri qismində isə dövlət, cəmiyyət və onların təşkil etdikləri, institutlar fəaliyyət göstərirlər.

Sosial dövlətdə sosial təhlükəsizliyə olan təhlükə isə əsasən şəxsiyyətə, sosial qruplara müəyyən təsir göstərir ki, bunları da xarakterizə edən səbəblər bunlardır, dövlətin və siyasi liderlərinin buraxdıqları səhvlər, dövlət və cəmiyyət daxilindəki milli ziddiyyətlər, mərkəz ilə regionlar arası münaqişələr, dini və etnik zəmində yaranan qarşıdurmalar, siyasi ekstermizm və terrorizm, şəxsiyyətin hüququnun pozulmasına gətirib çıxaran qanun pozuntuları, cəmiyyətdə və ölkə daxilindəki kriminogen vəziyyətin pisləşməsi, əhalinin sağlamlığının pisləşməsi, ekoloji bəlalar, narkomaniya və alkoqolizm, ölkədə əmələ gələn demoqrafik vəziyyət və etnoslara qarşı yaranan təhlükə [8, s.294]. Dövlətin sosial siyasətinin tələblərindən biri də iqtisadi təhlükəsizliyin mümkünlüyüdür. Bu o zaman baş verir ki, dövlət müstəqil şəkildə kənardan təzyiq olmadan özünün iqtisadi inkişafının yolunu və formasını müəyyən edə bilsin.

İqtisadi təhlükəsizliyin təmini və qarantı, cəmiyyətdə uzunmüddətli milli məqsədlərə çatmaq üçün yüksək ictimai razılaşmanın olması və bunun vasitəsi ilə də xalqın əksəriyyətinin müdafiə etdiyi sosial və iqtisadi inkişafa nail olmaqdır. İqtisadi təhlükəsizliyin hüquqi qarantı ondan ibarətdir ki, dövlətin sosial və siyasi quruluşundan asılı olmayaraq iqtisadi həyatın inkişaf yollarını seçməkdə, dövlətin təbii ehtiyatlar üzərində suverenliyini, onun potensialını, cəmiyyət üzvləri arasında qarşılıqlı əməkdaşlığı və iqtisadi, maliyyə, elmi-texniki eləcə də digər münasibətin mövcudluğunu təmin etmək [8, s.235].

Sosial dövlətin siyasətin həyata keçirilməsi zamanı ümdə məsələlərdən biri də sosial siyasətin subyektlərinin sosial və iqtisadi təhlükəsizliklərinin təminidir.

Bu sosial siyasət subyektləri əsasən sosial transformasiya vəziyyətində yaranır ki, onun da əsası xarici və daxili təsirlər nəticəsində sosial strukturun dəyişməsidir. Bu struktur dəyişmələrdən biri təkamül – yəni genişlənmə, sıraların yenidən qurulması kimi, digəri isə revolyusiya – inqilabi dəyişmə, dönüş forması kimi baş verir [8, s.105].

Sosial transformasiya, qrupların, təbəqələrin yenidən formalaşması və dəyişməsi nəticəsində yaranır ki, onlar da biri-birindən bu şəkildə fərqlənir, hakimiyyət və mülkiyyət formalarına görə, peşə vəziyyətlərinə görə, iqtisadiyyat bölgüsünə görə - yəni dövlət, istehsalat, kənd təsərrüfatı və qeyri-dövlət təşkilatları kimi, gəlir səviyyəsinə görə və mühüm dəyərlərə görə. Ümumi sosial transformasiya nəticəsində dörd təbəqələşmə yaranması mövcuddur. Bunlar Ali təbəqə - siyasi və iqtisadi elita, iri və orta sahibkarlar, direktorlar korpusu, ali bürokratiya, orta təbəqə - xırda sahibkarlar, biznes-peşə sahibləri, ziyalılar, mütəxəssislər, baza təbəqə isə - yarım ziyalılar, ticarət və servis peşələri, ixtisaslı fəhlə və kəndlilər, aşağı təbəqə isə texniki fəhlələr, ixtisası olmayan insanlar, lümpenlərdir. Dövlətin sosial siyasətinin həyata keçirilməsini qeyd olunan bütün sferalar üçün həyata keçirilməsi mexanizmləri aşağıdakı istiqamətlər üzrə aparılır. Sosial siyasətin xüsusiyyətlərini və konseptual inkişaf istiqamətlərini dövlətin bütün sahələr üzrə fəaliyyət dairəsinin tənzimlənməsinin meyarı kimi qəbul edilir. Sosial dövlətdə bazar iqtisadiyyatının formalaşması, inteqrasiyası, rəqabət və xarici iqtisadi əlaqələr intensivləşməsi şəraiti dövlətin inkişaf istiqamətlərini formalaşdırır [8, s.42]. Çünki dövlətin sosial siyasəti cəmiyyətin maddi həyat səviyyəsində qarant mexanizmi rolunu oynayır. Bunun üçün də minimum yaşayış səviyyəsi sosial müdafiə məqsədləri üçün indeksləşdirmə mexanizminə uyğun, müvafiq qanunlarla tənzimlənməlidir. Ən əsası insanların sağlamlığının və həyat fəaliyyətinin minimum səviyyəsi üçün zəruri olan ərzaq, qeyri-ərzaq malları və xidmətlərin elmi normalar əsasında müəyyən edilən, istehlak səbəti müəyyən edilməlidir. Burada sosial siyasətin həyata keçirilməsi mexanizmləri tətbiq olunarkən həyat səviyyəsinin yüksəldilməsi dövlətin potensial imkanlarını inkişaf etdirməkdən ötrü ölkə iqtisadiyyatının üç əsas mərhələsinə diqqət istiqamətlənməlidir. Bunlardan birincisi “iqtisadi sabitləşmə”, ikincisi “iqtisadi tərəqqi” və üçüncüsü isə “geniş təkrar istehsalın” həyata keçirilməsidir ki, bu fəaliyyətlərin də əsasını iqtisadi nəzəriyyənin tələbləri olan, istehsal, bölüm, mübadilə və istehlak fəaliyyəti təşkil edir.

Dövlətin sosial siyasətinin formalaşmasının və onun həyata keçirilməsinin ən fundamental təminatından biri də onun sosial müdafiəsidir. Dünya tarixində sosial müdafiə sisteminin bəzi məqamlarına nəzər yetiridikdə görərik ki, hələ e. ə. 1750-ci ildə qədim Babilistanda kodların kasıblara, imkansız insanlara qayğı göstərmək, xeyirxahlıq göstərmək məqsədi ilə sosial müdafiə prinsiplərindən istifadə olunmuşdır. Bu prinsiplərin həyata keçirilməsi sonrakı dövrlər üçün təkmilləşərək həvəsləndirmə, yəni ayrı-ayrı qruplara dövlət tədbirləri vasitəsilə, ərizəçilik – yəni yazılı müraciətlə və Paternalist – ehtiyacı olanlara dövlət qayğısı vasitəsi ilə baş vermişdir. Ümumilikdə, dünya dövlətləri sosial müdafiə sistemini iki əsas model sayəsində həyata keçirilir ki, bunlardan da birincisi sosial demokratik təmayüllü – yəni ölkə gəlirlərinin ümumiləşdirilməsində dövlətin əsas rolunun olmasındadır, ikincisi isə Neoliberal – burada isə dövlətin ümumilikdə sosial-iqtisadi proseslərə cuzi müdaxiləsinin nəzərdə tutulmasıdır. Dövlətin sosial siyasətinin həyata keçirilməsi də onun sosial müdafiə sisteminin tətbiqi olan bu modellərin iki əsas maddi və mənəvi sahələr üzrə yerinə yetirilməsi formaları, xüsusilə mühüm əhəmiyyət kəsb edir ki, bunlar da əsasən baza standartları və proqramların əsasında müəyyən edilən və təmin edilən sosial zəmanətlərdir, əhalinin gəlir və xərclərinin nizamlanmasıdır [8, s.59]. Sosial sığorta sisteminin düzgün təşkilidir, sosial yardım, sosial xidmət və məqsədyönlü sosial proqramların vaxtında, işlənib hazırlanıb, səmərəli tətbiq olunmasıdır. Bütün bu sosial müdafiə sisteminə daxil olan sosial fəaliyyətdə əməyin istiqamətləri isə sosial nəzarətdən, sosial reablitasiyadan, sosial inteqrasiyadan, sosial reinteqrasiyadan, dövlətin sosial xidmət fəaliyyətindən, bələdiyyələrin sosial xidmət fəaliyyətindən və qeyri-hökumət təşkilatlarının xidmət fəaliyyətindən asılıdır [8, s.306].

Müasir dövrdə sosial həyatın mürəkkəbləşməsi, kütləviliyin hakim əlamətə çevrilməsi, habelə sosial siyasətin həyata keçirilmə mexanizmi, üsul vasitələrinin böyük inkişafı, düşüncə və siyasi diskussiyaların əhatə dairəsinin genişlənməsidir. Bu isə insanların ümumi bir məsələ haqqında öz qənaətlərini formalaşdırdıqları zaman cəmiyyətdə hakim olan ideologiyanın təsiri altına düşür. Bütün bunlara əsasən dövlətin sosial siyasətinin formalaşmasına təsir edən bir neçə ünsürlər də vardır ki, bunlardan da əsasları olaraq hüquqi və siyasi institutlardır. Fərdlərin və qrupların qənaətlərini ifadə etmələrinə imkan yaradan hüquqi və siyasi mühitin varlığı sosial dövlət siyasətində prinsipial şərtdir.

Hüquqi mühiti konstitusiya və qanunlar, siyasi mühiti isə hakimiyyəti əldə saxlayan siyasi institutlar və onların ümumi təşkilat forması olan dövlət müəyyənləşdirir [5]. Dövlətin sosial siyasətinin formalaşmasında mühüm yerlərdən birini də mədəniyyət sahəsi tutur. Mədəniyyət isə öz növbəsində ictimai xarakter daşıyır və cəmiyyəti təşkil edən müxtəlif qruplar və fərdlər tərəfindən yaradılır və bölüşür. Mədəniyyət cəmiyyətlə bərabər siyasi həyata da təsir göstərir. Siyasi mədəniyyət siyasi sistemin iştirakçıları arasındakı mövcud münasibətlərdə təzahür edən fərdi mövqe və meyarlar əsasında formalaşır. Beləliklə, dövlətin sosial siyasətinin prioritet istiqamətlərindən biri kimi siyasi mədəniyyət insanın bir qrupa aid olmasını dərk etməsi (identifikasiya), fərdin siyasi iştirakçılığı (sosiallaşması) və siyasi subyektlərin qarşılıqlı əlaqəsi (kommunikasiya) kimi funksiyaları ilə sosial siyasətin formalaşmasında özünəməxsus rol oynayır.

Hər bir ölkənin yeniliyə doğru transformasiyası, dövlətçilik, iqtisadiyyat, sosial həyat, hüquqi nizamlanma baxımından rekonstruksiyası, bir qayda olaraq, mədəniyyətlə səciyyələnir və bu danılmaz həqiqət mütləq nəzərə alınmalıdır. Dövlətin sosial siyasətinin həyata keçirilməsinin mühüm mərhələləri isə özünü sosial infrastrukturlu sahələrdə həyata keçirilməsidir ki, bunlara da qeyd olunan sahələri təhsil, elm, səhiyyə, mədəniyyət və vətəndaşların sosial müdafiəsi eyni zamanda sosial sahəyə yönəldilən iqtisadi fəaliyyəti göstərmək olar. Bu da hər bir insanın maraq və tələbinə uyğun seçim aparmaq imkanı ilə müəyyənləşir. Sosial siyasətli dövlətlərdə bu proses üç əsas mərhələyə aid edilir [7, s.39, 40]. Birinci mərhələ qeyri-istehsal sahəsidir, buraya da ölkə üzrə doğum, sağlamlıq, tərbiyə, savadlanma, sosial müdafiə, fiziki və mədəni tərbiyədir, ikinci bölüm sahəsi maddi nemətlərin istehsalı və onların istifadəsinin nizamlanmasıdır, üçüncü istehlak sahəsidir ki, hansıki insanların əmək fəaliyyəti zamanı meydana çıxan iqtisadi və sosial münasibətlərdir ki, bunun da nəticəsində ölkənin maddi nemətlər potensialı yaranır. Hər üç proses zamanın tələblərinə müvafiq sosial islahatların həyata keçirilməsi üçün tətbiq edilən prinsiplər, açıqlıq, aşkarlıq, real informasiya bazasının formalaşması, vahidlik və məqsədə uyğunluqdur ki, bütün bunların da Azərbaycan dövləti-

nin sosial siyasət əsasları öz hüquqi əsasını bu illər ərzində Azərbaycanın 20 ildən artıq müddətə sosial dövlət quruculuğu sahəsində əldə etdiyi zəngin təcrübə analoji inkişaf yoluna yeni qədəm qoymuş digər ölkələr üçün model rolunu oynaya bilər. Bu modelin unikallığı məhz ondan ibarətdir ki, yeni mülkiyyət formalarının yaranmasına, sahibkarlığın daha sürətli inkişafına yönəlmiş kompleks tədbirlər sistemi əhalinin sosial baxımdan nisbətən zəif təbəqəsinin maraqlarını inkar etmir. Ümummilli lider H.Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hazırlanaraq ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası da sosial məsələlərin həllini dövlətin ali məqsədi kimi ön plana çəkmişdir. Bu ali sənəddə sosial dövlət konsepsiyası öz əksini tapmış, Azərbaycan dövlətinin hər bir vətəndaşının rifahının yüksəldilməsinin, onun sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin qayğısına qaldığı bəyan edilmişdir. Əsas Qanunda təsbit edilmiş sosial normalar bazar münasibətləri şəraitində sosial dövlət konsepsiyasının reallaşdırılmasının fundamental normativ-hüquqi bazasının yaradılmasına səbəb olmuşdur və ilk növbədə onu bilmək lazımdır ki, Azərbaycan Respublikasının yeni müstəqil Konstitusiyasının layihəsi 1995-ci ilin yazında Ulu öndər Azərbaycan Respublikası Prezidentinin H.Əliyevin təşəbbüsü ilə hazırlanmışdır və o 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsinin nəticələri nəşr edildiyi andan qüvvəyə minmişdir. Konstitusiyalı quruluşun əsaslarını möhkəmləndirərək, Azərbaycan Respublikası Konstitusiyası – Azərbaycan – Respublika idarəetmə formasına malik, unitar, demokratik, hüquqi, dünyəvi dövlət kimi müəyyən edilmişdir. Konstitusiya özündə ümumi bəşəri dəyərləri təsbit etməklə bütün prinsiplərlə birlikdə sosial siyasət prinsipini insanın layiqli həyatını və sərbəst inkişafını təmin edən şəraitin yaranması istiqamətlərinin formalaşmasını müəyyən etmişdir. Bu isə özünü əyani olaraq dövlətin iqtisadi və sosial inkişafı meyarı kimi hər bir nəfərin həyat səviyyəsini yüksəltmək və bu sahədə respublikanın potensial imkanlarının inkişaf edilməsində özünü göstərir. Məlumdur ki, dövlətin sosial əsasları kimi ailəni, dini, sosial inkişafı xüsusi ilə qeyd etmək lazımdır. Konstitusiyanın 16 maddəsində sosial inkişaf və dövlət haqqında göstərilir ki, Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalır. Azərbaycan dövləti mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruyur. Bunların hər biri ayrı-ayrı maddələrdə öz əksini tapıb: hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ (m.40), hər kəs tarixi mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarixi və mədəniyyət abidələrini qorumasıdır.

Dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görür, sanitariya-epidemiologiya sağlamlığa təminat verir, tibbi sığortanın müxtəlif növləri üçün təhlükə törədən faktları və halları gizlədən vəzifəli şəxslər qanun əsasında məsuliyyətə cəlb edilirlər (m.41).

Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Maddi vəziyyətdən asılı olmayaraq istedadlı şəxslərin təhsilini davam etdirməsinə dövlət zəmanət verir (m.42).

Dövlətin sosial siyasətinin əsaslarından biri də ailədir. Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir. Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlət himayəsindədir. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir (m.17).

Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Bütün dini etiqatlar qanun qarşısında bərabərdir. İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin yayılması və təbliği qadağandır. Dövlət təhsil sistemi dünyəvi xarakter daşıyır (m.18).

Respublikanın sosial-iqtisadi inkişafının əsas meyarı əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması və hər bir nəfərin həyat səviyyəsini yüksəldilməsi və bunun üçün respublikanın potensial imkanlarının olmasıdır. Bu məqsədlərə nail olmaq üçün isə ölkə iqtisadiyyatını inkişaf etdirib bütün tələbatları ödəmək lazımdır. Ümumilikdə, bu tələblərinin yerinə yetirilməsinə diqqət yetirdikdə Azərbaycan iqtisadiyyatının müstəqillik qazandıqdan sonrakı dövrünü 3 mərhələyə “iqtisadi sabitləşmə”, “tərəqqi” və “geniş təkrar istehsalı” mərhələlərinə bölmək olar. Birinci mərhələdə iqtisadiyyatın tənəzzülünü dayandırmaq və əhalinin həyat səviyyəsinin sabitləşməsinə nail olmaq və inflyasiyanı tənzimləmək dururdu.

Ulu öndər H.Əliyevin hakimiyyətə qayıdışı məhz bu prosesin vaxtında və layiqincə yerinə yetirilməsinə imkan yaratmışdır. İkinci tərəqqi mərhələsində isə iqtisadi və sosial inkişafın əsas göstəricilərini müntəzəm olaraq tənzimləyən hüquqi mexanizmlər sisteminin yaradılaraq mükəmməl formalaşması baş vermişdir ki, bu da dövlətin bütün fəaliyyət sahələrində vahid məkanda qanunvericilik sisteminin təkmilləşdirilib islahatlar aparılmasına, maddi texniki bazanın yaradılmasına insan kapitalının inkişaf etdirilməsinə, yəni kadr potensialının formalaşmasına və məlumat-informasiya bazasının yaradılmasına nail olunmuşdur.

Üçüncü geniş təkrar istehsalı mərhələsi isə sosial dövlət siyasətinin həyata keçirilməsinin ən mühüm optimal variantı kimi istehsal sahələrinə, xalq təsərrüfatının yeni sahələrinə sosial və mədəni sferanın mühüm infrastrukturların yeniləşməsi və inkişafı sahələrinə yönəldilməsi təşkil edilmişdir. Bu zaman dövlət maddi həyat səviyyəsində qarant mexanizmi rolunu oynamışdır. Bu məqsədlə dövlət minimum yaşayış səviyyəsi sosial müdafiə məqsədlərini həyata keçirən indeksləşdirmə mexanizminə uyğun qanunvericilik bazası yaratmış və həyata keçirilməsinə müvəffəq olmuşdur. Bütün qeyd olunanların əyani sübutu kimi ölkədə Ulu öndər H.Əliyevin yaratdığı sosial siyasətin həyata keçirilməsinə daimi yorulmaz fəaliyyəti ilə nail olan ölkə prezidenti cənab İ.Əliyevin rəhbərliyi dövrünü göstərmək olar.

İnnovasiya sisteminin əsas məqsədi əhalinin həyat səviyyəsinin və həyatın keyfiyyətinin artırılması üçün dinamik iqtisadi inkişafın obyektiv ilkin şərtlərini yaratmaqdır. Hökumət insan kapitalının təkrar istehsalı probleminə böyük diqqət yetirir, bu kapital investisiya resursu və istehsalın əsas amili hesab edilir. Bütün bunlar ölkə iqtisadiyyatında yeni istiqamətlərdir. Bu proseslər texniki, texnoloji və sosial yeniləşmənin, yəni yeni kreativ sinfin formalaşmasının təsiri altında baş verir [2, s. 86, 87].

Azərbaycan kreativ iqtisadiyyatın yaradılması ilə paralel olaraq başqa dövlətlərin daxili işlərlə qarışmamağa əsaslanan “yumşaq güc” konsepsiyasını da formalaşdırmağa başlayıb. Bu konsepsiya Azərbaycan xalqının tarixinin, mədəniyyətinin, talerantlığının, onun potensialının hərtərəfli nümayiş etdirilməsi yolu ilə milli maraqların təbliği ideyasına əsaslanır, bununla da beynəlxalq arenada dövlətimizə etimad artır. Başqa amillərlə yanaşı, ölkənin imicini inkişaf etdirən turizm, mədəniyyət və idman kimi spesifik sahələrin maddi bazasının sürətli inkişafı bu konsepsiyanın tərkib hissəsidir. Azərbaycanda Beynəlxalq Humanitar Forumun, Mədəniyyətlərarası Dialoq üzrə Dünya Forumunun, Dovos İqtisadi Forumunun, “Eurovision-2012” mahnı müsabiqəsinin, 2015-ci ildə birinci Avropa Oyunlarının, 2016-cı ildə “Formula-1” avtoyürüşlərin, 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarının və 2020-ci ildə futbol üzrə Avropa çempionatı matçlarının keçirilməsi – bütün bunlar Azərbaycanın sosial-iqtisadi həyatının müxtəlif sahələrində qazandığı böyük nailiyyətlərin beynəlxalq strukturlar tərəfindən etiraf edilməsi və qiymətləndirilməsi deməkdir [4, s.2].

Bunlardan dövrün tələbinə uyğun olan Azərbaycan regionlarının sosial-iqtisadi inkişaf konsepsiya və proqramlarının qəbul edilib yerinə yetirilməsini nümunə kimi göstərmək olar. Bunlarla bərabər Konstitusiyanın müvafiq maddələrini təhlil edərkən dövlətin mövqeyinin aşağıdakılardan ibarət olduğu müəyyən olunur:

- Hər kəs özünün istehsal və yaradıcılıq potensialı üzərində müstəsna sərəncam vermək hüququna malikdir. Hər kəs bu potensialından könüllü surətdə istifadə edə bilər. Heç kəs məcburi əməyə cəlb edilə bilməz. Əməyə icbari cəlb edilmə yalnız qanunvericilikdə müəyyən edilən hallarda yol verilə bilər.
- Dövlət hər kəsin əmək hüquqlarının təmin edilməsini özünün pozitiv öhdəliyi kimi bəyan edir. Hər kəsin öz istehsal və yaradıcılıq potensialından istifadə etməsi üçün dövlət səyləri həyata keçirməlidir. Əgər dövlət belə bir şəraiti tam yarada bilmirsə, onda ölkədəki sosial-iqtisadi şərait nəzərə alınmaqla işsizlərə müavinətlər verilməlidir [5].

Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında mühüm əhəmiyyət kəsb edən istiqamətlərdən biri də “İnsan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması” istiqamətidir [4, s.1]. Təqdim olunan tədqiqat sənədində həmin istiqamətin əmək münasibətlərinə aid olan hissəsi təhlil edilir. Konsepsiyada əmək münasibətlərinə və məşğulluq məsələlərinə dair nəzərdə tutulan əsas tədbirlər aşağıdakılardır:

- İşləyən vətəndaşların layiqli həyat səviyyəsini təmin etmək məqsədi ilə iqtisadiyyatın inkişafından asılı olaraq minimum əmək haqqı məbləğinin tədricən minimum yaşayış standartlarına və Avropa ölkələrində müəyyən edilmiş normativə -orta aylıq əmək haqqının 60 faizi məbləğinə çatdırılması istiqamətində tədbirlər;

- əhalinin ümumi gəlirlərində əməyin ödənilməsi payının artırılması üçün işlərin davam etdirilməsi;

- İşləyən vətəndaşların təhlükəsiz və sağlam əmək şəraitinin təmin edilməsi sahəsində işlərin gücləndirilməsi, əməyin mühafizəsi və əmək şəraitinin yaxşılaşdırılması üzrə Dövlət Proqramı hazırlanması;

- Əmək və məşğulluq sahəsində milli informasiya sisteminin yaradılması, əmək bazarında yaranan vəziyyətin monitorinqi və təhlili sisteminin qurulması;

- Qeyri-formal məşğulluğun qarşısının alınması üzrə ciddi tədbirlərin görülməsi;

- əlilliyi olan şəxslərin bacarıq və qabiliyyətlərinin inkişaf etdirilməsi, onlar üçün məşğulluq imkanlarının artırılması məqsədi ilə sosial və peşə reablitasiya müəssisələrinin sayının artırılması;

- əmək miqrasiyası proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətində beynəlxalq əməkdaşlığın davam etdirilməsi, ölkə vətəndaşlarının əməkçi miqrantlar qismində xarici ölkələrə göndərilməsi işinin beynəlxalq təcrübəyə uyğun tənzimlənməsinin təmin olunması.

Tədqiqat sənədində ölkənin əmək bazarı üzrə məşğulluq göstəriciləri, məşğulluğun təmin olunmasına yönələn dövlət siyasəti, məşğulluğun təmin olunmasında, o cümlədən ayrı-ayrı kateqoriyalardan olan şəxslərin, o cümlədən qadınların, gənclərin, əlilliyi olan şəxslərin məşğulluğunun təmin olunmasında mövcud olan problemlər göstərilmişdir.

Sonrakı fəsillərdə əmək miqrasiyası problemləri və onun tənzimlənməsində mövcud olan problemlər əks olunur.

Sənəddə daha sonra, əməyin ödəniş sisteminin vəziyyəti, o cümlədən orta əmək haqqı, minimum əmək haqqı və işsizlik müavinətləri ilə bağlı vəziyyət təhlil edilmişdir.

Sənədin sonrakı fəslində əməyin mühafizəsi və texniki təhlükəsizliyin təmin edilməsi istiqamətində qanunvericilik, istehsalatda bədbəxt hadisə və peşə xəstəlikləri hallarından icbari sığorta sisteminin tətbiqi problemləri, əməyin mühafizəsinə dövlət nəzarəti sahəsində problemlər və idarəetmə problemlərinin, həmçinin istehsalatda bədbəxt hadisə və peşə xəstəliklərini doğuran səbəblərin təhlili verilir.

Sonuncu fəsildə əmək bazarının yüksək ixtisaslı kadrlarla və ixtisaslı fəhlə qüvvəsi ilə təmin olunmasında təhsilin rolu və texniki peşə təhsili ilə bağlı problemlər və əmək və məşğulluq sahəsində milli informasiya sisteminin yaradılması istiqamətində qanunvericilik və onun tətbiqinə yönələn fəaliyyətlər əhatə olunmuşdur.

Sənədin sonunda əmək bazarında və məşğulluq sahəsində dövlət siyasətinin təkmilləşdirilməsi, əmək münasibətlərinin müasir tələblərə uyğunlaşdırılması, məşğulluğun təmin edilməsi, o cümlədən qadınların, gənclərin, əlilliyi olan şəxslərin əmək bazarına çıxışının asanlaşdırılması, kadr hazırlığı, əməyin mühafizəsinin təmin olunması, sosial tərəfdaşlığın inkişafı ilə bağlı tövsiyyələr daxil edilmişdir.

Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı üçün bu günə qədər üç dövrü əhatə edən proqram qəbul edilmişdir.

2004-cü ildə birinci proqramın qəbul edilməsi tarixi hadisə idi. Bu proqram qəbul edilərkən nəzərdə tutulmuşdu ki, 600 min iş yeri yaradılacaq, lakin bu dövrdə - 5 il ərzində ondan daha çox iş yeri yaradılmışdır. Baxmayaraq respublikanın maliyyə resursları zəif idi, valyuta ehtiyatları çox məhdud idi, iqtisadiyyat çoxşahəli deyildi və neftdən gələn gəlirlər ölkə büdcəsinə çatmamışdır [4]. Bütün bunlara baxmayaraq ölkə rəhbərliyinin düşünülmüş siyasəti nəticəsində və xalqın böyük dəstəyi sayəsində birinci proqram uğurla başa çatdı və ikinci proqram qəbul edildi. İkinci proqram qəbul edilərkən təbii ki, Azərbaycan artıq ayaqda möhkəm dayanmışdır və 2009-cu ildə proqramın icrası ilə heç bir problemin olmadığı məlum olmuş gəlirlərin daxil olmasına görə proqram artıqlaması ilə icra edilmişdir. Üçüncü proqram 2014-2018-ci illərdə nəzərdə tutulan sosial-iqtisadi inkişaf Dövlət Proqramının 2018-ci ilə qədər icrası nəzərdə tutulmuşdur. Baxmayaraq ki, dünyada və regionda gedən xoşagəlməz proseslər mənzərəni dəyişib daxili və xarici təsirlər vasitəsilə özünü biruzə

verməyə çalışır, dövlət bütün bu sınaqlardan uğurla çıxmağa hazırlıq nümayiş etdirir. Belə ki, ölkə rəhbərliyi vaxtında bütün tədbirləri görür, heç vaxt xarici və daxili hansısa quruma xoş gəlmək üçün addımlar atmır. Azərbaycan xalqının maraqları qorunur və ölkə inamla sosial, iqtisadi, mədəni, maliyyə problemlərinin həllinin yerinə yetirilməsində, dövlət qurumları və bütün cəmiyyət səfərbər edilmişdir. Əminliklə qeyd etmək lazımdır ki, üçüncü sosial-iqtisadi inkişaf Dövlət Proqramının icrasına da nail olunacaqdır. Buna əsas isə 2004-cü ilə qədər olan əməli fəaliyyətə nəzər saldıqda görünür ki, son 11 ildə Azərbaycan dünya miqyasında iqtisadi və sosial baxımdan ən sürətlə inkişaf edən ölkə olmuşdur. 2004-cü ildən bu günə qədər ÜDM- 3,4 dəfə artmışdır ki, bu da dünyada rekord göstəricidir. Sənaye istehsalı 2,7 dəfə artmışdır. On bir il ərzində ölkə iqtisadiyyatına 180 milyard dollar investisiya qoyulmuşdur. 2004-cü ildə bizim valyuta ehtiyatlarımız 1,8 milyard dollar idisə, bu gün 50 milyard dollardan çoxdur. İş yerlərinin sayı 1 milyon 360 minə qədər çatdırılmışdır. Bunlardan isə 1 milyonu daimi iş yerləridir. İşsizliklə bağlı aparılan gündəlik tədbirlər nəticəsində işsizlik 5%, yoxsulluq səviyyəsi də 5% olmuşdur. Bütün bunların əsasında dünyanın aparıcı kredit reytinq agentlikləri Azərbaycanın suveren reytinqlərini artırmışlar. Davos Dünya iqtisadi Forumu ölkəmizi iqtisadi sahədə rəqabət qabiliyyətliyinə görə 38-ci yerə layiq görmüşdür. Bu isə əsas makroiqtisadi göstəricidir ki, iqtisadiyyatın inkişaf tempini müəyyən edən bütün dünyada vahid və əsas göstəricidir ki, bunun da əsasını mənsubiyyətindən asılı olmayaraq ölkə ərazisində fəaliyyət göstərən müəssisələrin maddi və xidmət sahələrinin məhsullarının ümumi dəyəri təşkil edir. Sosial sistemin maliyyələşməsinə daxil olan dövlətin sosial siyasətə qiymət verilmə üç aspektindən biridir. Sosial bölmənin maliyyələşməsinin ikinci aspekti isə mikroiqtisadi təsirlilikdir ki, burada da dövlət vəsaitlərin bütün proqramlar arasında pul yardımı, tibbi xidməti, təhsil, məşğulluq, kadr hazırlığı üzrə proqramların yerinə yetirilməsidir, onu da dövlət qəbul etdiyi bütün sosial iqtisadi Dövlət Proqramlarının icrası ilə həyata keçirir. Üçüncü sosial sistemin maliyyələşdirilməsinin üçüncü aspekti isə təsirliliyin həvəsləndirilməsidir, burada əhalinin əmək fəallığına mane olmamaq üçün sosial təminatların müvafiq şəkildə bölünməsinə dövlət siyasətinin həyata keçirilməsi durur.

Dövlət siyasətinin sosial bölümünə bu üç aspektdə maliyyə ayrılmasına iqtisadi amillər imkan yaratmışdır. Nəzərə alınmalıdır ki, ciddi iqtisadi islahatlar ciddi sosial siyasətlə tamamlanır. Ona görə də dövlət siyasət mərhələlərinin həyata keçirilməsində sosial sahəni prioritet sahə kimi götürmüşdür.

Dövlət sosial siyasətinin ölkədə həyata keçirilməsinə gəldikdə, sosial islahatların təməlində güclü iqtisadiyyatın dayandığı görünür. Məsələn, 2004-cü ildə orta aylıq əmək haqqı 100 dollar idisə, hazırda bu, 422 dollardır. Orta aylıq pensiya 24 dollar idisə, hazırda 221 dollardır. Azərbaycanda sosial infrastruktur layihələri son on bir ildə uğurla icra edilməkdədir. Bunlardan 2900 məktəb binası, 560 tibb ocağı tikilmiş və ya təmir edilmişdir. Regionlarda 41 olimpiya mərkəzi və 30 gənclər mərkəzi yaradılmışdır. Bütün bunlar dövlətin sosial siyasətinin günün tələbinə müvafiq səmərəli surətdə həyata keçirilməsinin sosial infrastruktura qoyulan vəsaitin və ayrılan diqqətin açıq təzahürüdür [4, s.3]. Azərbaycanda diqqət cəlb edən sahələrdən biri də bu illər ərzində sosial cəhətdən ən ağır vəziyyətdə olan soydaşlarımıza, məcburi köçkünlərə daima qayğı ilə yanaşılmasıdır. Son on bir il ərzində 84 qəsəbə yaradılmış, hazırda 210 min köçkün yeni, özəl evlərlə, mənzillə təmin edilmişdir. Onların problemlərinin həlli üçün Dövlət Neft Fondundan kifayət qədər vəsaitin ayrılması nəzərdə tutulmuşdur.

Dövlətin sosial siyasətinin prioritet istiqamətlərindən biri də bu illər ərzində bütün əsas tarixi, mədəni, dini abidələrin əsaslı şəkildə bərpası və yenilərinin tikilməsidir. Teatrlar, muzeylər – bu sahələrə də bütün respublika ərazisində böyük diqqət göstərilir. Bu, ölkənin tarixidir, mədəniyyətidir. Bunların gələcək nəsillər üçün qorunması dövlətin sosial siyasətinin əsas vəzifələrindən biridir. Bütün bu məqsədyönlü görülən işlər sosial siyasətdə ictimai münasibətlərin sosial perspektiv problemlərinin, sosial məqsədlərin və sosial imkanların konkret həyata keçirilməsinə xidmət edir ki, bu da Azərbaycanın davamlı, uzunmüddətli inkişafının təmini üçün konseptual proqramlarda nəzərdə tutulub.

Bütün bu dövlətin sosial siyasətin həyata keçirilmə mərhələlərində Azərbaycan cəmiyyəti aktiv fəaliyyətdə həmişə öz milli köklərinə bağlı olmuşdur və gənc nəsli də bu ruhda tərbiyə etməyə çalışır [3, s.281]. Çünki dünyada bu gün qloballaşma prosesi gedir. Sadəcə olaraq bəzi ölkələr qlo-

ballaşma prosesi altında öz təsir dairələrini genişləndirmək, xalqları bir növ öz milli köklərindən ayırmaq, tarixi bağları qırmaq istəyirlər. Bunun təməlində dayanan məqsəd indiki qloballaşma və inteqrasiya prosesinin həyata keçirilməsində dünyanın yeni inkişaf modelinin tətbiqi kimi qələmə verilməsidir. Etiraf etmək olar ki, onun bəzi müsbət məqamları olması ilə bərabər eyni zamanda açıq-aydın görünür ki, bu siyasətlə böyük dairəyə hakim olmaq, təsir imkanlarını genişləndirmək istəyi xalqları öz köklərindən ayırmaq, öz əcdadlarını unutdurmaq, amorf vəziyyəti yaradaraq bir kütləyə çevirmək, istədikləri istiqamətlərə yönəltmək mümkünlüyünü yaratmaqdır [3, s.309].

Lakin Azərbaycan bu gün müasir inkişaf edən, öz köklərinə sıx bağlı olan dövlət və cəmiyyətdir. Ölkə prezidenti cənab İ.Əliyevin dönməz və qətiyyətli rəhbərliyi və iradəsi sayəsində Azərbaycan dövləti həmişə belə olmuş, olacaq və olmalıdır. Ölkənin müstəqil həyatı üçün bu, əsas şərtdir.

Azərbaycanda sosial dövlət quruculuğunun mərhələləri dövründə infrastruktur layihələrə də böyük diqqət göstərilmişdir. Digər infrastruktur sahələr kimi son 11 il ərzində 23 modul elektrik stansiyası tikilmiş, 64 min müəssisə yaradılmışdır. Bütün şəhərlərdə qazlaşma yüz faiz səviyyəsindədir, bu illər ərzində 10 min kilometr yol çəkilmiş, 340 körpü və tunel tikilmişdir. Bakı-Tbilisi-Qars kimi beynəlxalq strateji əhəmiyyət daşıyan layihə Azərbaycanın təşəbbüsü ilə başlanmışdır. Bölgələrdə 6 aeroport (4-ü beynəlxalq aeroport) tikilmişdir, Heydər Əliyev beynəlxalq aeroportunun yeni terminal binası istismara verilmişdir. Bu infrastruktur layihələr arasında içməli su layihələri də prioritet xarakter daşıyır və son illərdə bu sahəyə böyük diqqət göstərilir. Bütün şəhərlərdə Dünya səhiyyə Təşkilatlarının standartlarına uyğun içməli su 24 saat təmin edilməsi nəzərdə tutulmuşdur. Oğuz-Qəbələ-Bakı su kəməri çəkilmişdir.

İnfrastruktur layihələr arasında meliorasiya layihələri də böyük önəm daşıyır. Şəmkirçay və Taxtakörpü su anbarları, kanallar inşa olunmuşdur.

Enerji layihələrinə gəldikdə isə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilis-Ərzurum, TANAP, TAP, “Şahdəniz”, “Cənub” qaz dəhlizi – bu layihələr regionun Avropanın enerji xəritəsini dəyişir. Bu layihələr son 9 il ərzində icra edilib. Bakı-Ceyhan 2006-cı ildə istifadəyə verilmişdir, dəhliz yaradılmışdır və bu gün o dəhliz xidmət göstərir [4, s.2].

Məhz bunların nəticəsidir ki, son illərdə Azərbaycan iqtisadiyyatının sürətli inkişafı infrastruktur layihələrin 2004-2008, 2009-2013 və 2014-2018-ci illərdə sosial-iqtisadi inkişaf Dövlət Proqramlarının icrası həyata keçirilmiş və keçirilərək Azərbaycan vətəndaşlarının həyat şəraitinin yüksəldilməsinə xidmət etmiş və edəcəkdir. Bu gün Azərbaycan sosial dövlət quruculuğu yolunu inamla davam etdirir. Sosial dövlət quruculuğunun yaradılması ideyası son on ildə Azərbaycanın inkişaf məntiqinə uyğundur. Onun üçün bu dövlət quruculuğunda əsas yeri postsənaye (informasiya) cəmiyyəti tutur. Bu cəmiyyət elə bir cəmiyyətdir ki, onun iqtisadiyyatında innovasiya sektoru, ona xas olan yüksək məhsuldarlıqlı sənaye, sosial-iqtisadi fəaliyyətin bütün formalarında zəruri biliklər bazası, ümumi daxili məhsuldar yüksək keyfiyyətli innovasiya xidmətlərinin payının yüksək olması, bütün fəaliyyət növlərinə rəqabət qabiliyyəti üstünlük təşkil edir.

Bu isə real işlərlə məşğul olmağın bariz nümunəsidir, bütün dünya modelləri cəmində təməli ulu öndər H.Əliyev tərəfindən hazırlanıb qoyulmuş fəaliyyət proqramı kimi qəbul edilən Azərbaycan modelidir. Bu model haqqında hərtərəfli açıqlamanı isə 27 yanvar 2015-ci ildə Prezident İlham Əliyev regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət proqramının icrasının birincü ilinin yekunlarına həsr olunan konfransında çıxışı zamanı ölkə ictimaiyyətinə bir daha bəyan etmişdir [4].

Beləliklə, nəticə etibarı ilə Azərbaycan Respublikasında yaranmış mövcud vəziyyətə diqqət yetirdikdə, dünyanın qabaqcıl ölkələrinin demokratik prinsiplərə söykənən idarəetmə fəlsəfəsi ilə bərabər ölkədə sosial dövlət quruculuğu mərhələlərin sosial, iqtisadi, elmi-texniki və texnoloji cəhətdən inkişaf etdiyini görərik. Çünki Azərbaycan dövləti sosial dövlət quruculuğu istiqamətində qanunun aliliyini, insan hüquqlarının təmin olunmasını, yaxşı idarəetmənin təşkili, azad bazar iqtisadiyyatını, hakimiyyət bölgüsünü, vətəndaş cəmiyyəti, vətəndaş fəallığı, azad seçkilər, qeyri-hökümət təşkilatlarının ictimai həyatda məhsuldar rolu və s. faktorlarla özünü göstərir. Müasir demokratiyanın atributları olan bu faktorlar cəmiyyətdə insan hüquqlarının ən yüksək səviyyədə təmin edilməsi və müdafiə olunması üçün tam zəmin yaradır.

Bu qeyd olunan hallarda ən başlıca məsələ isə ondan ibarətdir ki, insanların özünüifadəsi və özünü təsdiqi üçün yol açılsın və şərait yaradılsın, onların cəmiyyətdə bərabərhüquqlu iştirakına imkan verilsin, hər bir konkret şəxsin iradə azadlığı, seçib-seçilmək hüququ qorunsun. Vacibdir ki, xalq öz siyasi hakimiyyətini formalaşdıra bilsin və milli elitanın transformasiyasında söz sahibi olsun, yeni nəslin, gənclərin sosiumda fəal və yaradıcı iştirakına perspektivlər açılsın, “sosial liftlərin” qanun və ədalət çərçivəsində etibarlı fəaliyyətinə zəminlər və mexanizmlər yaradılsın[8, s.135]. Bu məsələlərdə subyektiv, tərəfli, peşəkarlıq, qabiliyyət, istedad yüksək dəyərləndirilməlidir. Məhz belə olarsa, prezident dəfələrlə vurğuladığı kimi, biz neft kapitalını insan kapitalına çevirə bilərik. Bu isə Azərbaycanda sosial dövlət quruculuğunun əsas istiqamətlərindən biri olan kadr təminatının yerinə yetirilməsidir.

Azərbaycanda sosial dövlət quruculuğu mərhələlərinin digər vacib istiqamətlərindən biri də cəmiyyətin iqtisadi həyat sahəsinin optimal təşkilidir ki, bu da əsasən insan hüquqlarının lazımınca təmin olunmasıdır, yəni hüququ və etik normalar, ədalət prinsipi, mənəviyyat tələbləri çərçivəsində idarə olunmasının həyata keçirilməsidir [7, s.63].

Sosial dövlət quruculuğunun mühüm atributlarından biri də iqtisadi azadlıq mövcudluğudur. Bu isə o deməkdir ki, dövlət xarici güc və amillərindən asılı olmayaraq öz xalqı üçün layiqli yaşayışını təmin edə bilsin. Məhz ölkə rəhbərliyinin davamlı və düzgün sosial siyasətinin nəticəsidir ki, ölkənin iqtisadi azadlığı şəraitində azad iqtisadiyyat, yəni fəaliyyəti kənar qüvvələrin təsirinə məruz qalmayan, hüquq normaları çərçivəsində iqtisadi qanunlarla tənzimlənən, bazarın tələblərinə uyğun fəaliyyət göstərən, sağlam və sərbəst rəqabətə əsaslanan iqtisadiyyat formalaşmışdır [9, s.85].

Azərbaycanda sosial dövlət quruculuğunun mərhələlərinin inkişaf perspektivləri eyni zamanda xeyli dərəcədə vətəndaş mədəniyyətinin, özünü necə göstərməsindən, iqtisadi, siyasi və sosial-mədəni atmosferi necə əhatə etməsindən asılıdır. Vətəndaş mədəniyyəti və vətəndaş cəmiyyəti üçün ictimai passivlik, insanların laqeydliyi, yaxud onların xırda-subyektiv xarakterli mənfəətdarlıq hislərinin üstün gəlməsi xüsusi tip ictimai riskə yol açır ki, onun da nəticəsində həm demokratik institutların, həm də sosial və iqtisadi institutların fəaliyyətinə ciddi ziyan yetirilir. Sözsüz ki, burada sosial dövlət quruculuğu mərhələlərindən olan vahid kütləvi informasiya və məlumat bazasının formalaşdırılması vasitələrinin üzərinə də böyük məsuliyyət düşür.

Ölkədə real həyata nəzər salarkən KİV-i və məlumat bazasının formalaşdırılması üçün qarşıya qoyduğu məqsədin həyata keçirilməsi üçün mühüm tədbirlər həyata keçirilmişdir [2, s.157]. Bunlardan ilk öncə Azərbaycanda yüksək texnologiyaların tətbiqinə və ölkə kosmik sənayesinin yaradılmasını qeyd etmək olar. Belə ki, Respublika Prezidenti İ.Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması 2013-cü ilin ölkədə “informasiya kommunikasiya texnologiyaları ili” elan edilməsi, bu sahənin inkişafında dövlət səviyyəsində göstərilən diqqətin əyani sübutunu göstərmək olar. Ölkədə həm də 2008-ci ildə “Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peykinin orbitə çıxarılması”nı, 2009-cu ildə kosmik sənayenin yaradılmasını və onun inkişafı üzrə dövlət proqramının təsdiq edilməsini, bunların ardınca 2010-cu ildə “Air kosmos” ASC-təsis olunmasını nümunə kimi göstərmək olar. Aşkarlığın və vətəndaşlara göstərilən xidmətlərin səmərəliliyinin artırılması sahəsində son islahatlardan biri Prezidentin ideyası əsasında yaradılmış “ASAN” xidmətdir. Bu xidmət sosial infrastrukturların nadir innovasiyalı və korrupsiyadan uzaq sistem kimi Qərbi Avropa ölkələrində Azərbaycanın nümunəsi kimi göstərilir. Bunu BMT inkişaf Proqramının rəhbəri Helen Klark Azərbaycanda səfərdə olarkən başqa ölkələri Azərbaycandan nümunə götürməyi tövsiyə etmişdir [4].

Bu baxımdan, tale Azərbaycan xalqı üçün gözəl gələcək hazırlayıb. Bu gələcəyi bütün varlığı ilə öz xalqına xidmət edən Prezident İlham Əliyevsiz təsəvvür etmək qeyri-mümkündür. 2003-cü ilin payızında ölkənin ən birinci vəzifəsində Heydər Əliyevi əvəz edən İlham Əliyev hərtərəfli düşünülmüş fəaliyyət strategiyasını daha da zənginləşdirib. Onun quruculuq sərhədlərini ilbəil genişləndirən nəhəng islahatlar proqramının xalqa faydası göz qabağındadır. Bu proqram Azərbaycanın beynəlxalq birlikdə mövqeyini möhkəmləndirməyə imkan verir. Azərbaycanın regionda lider imicinin möhkəmlənməsi bir daha təsdiq edir ki, Prezident sosial-iqtisadi inkişafda sarsıntılarsız və itkilərsiz böyük sıçrayış etməyə imkan vermiş universal uğur formulu tapıb. Azərbaycanda “cazibə

mərkəzi” var. Onun mahiyyəti Prezident İlham Əliyevin irəli sürdüyü “milli ideyadır”. Milli həmrəylik bu ideya ətrafında cərəyan edir.

**Açar sözlər:** vətəndaş cəmiyyəti, sosial dövlət, inteqrasiya, sakral-paternalist, sosial-demokratik, liberal, transformasiya, neoliberal

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: 2009
2. Abbasov Ə.F. İnsan haqları və ictimai rəy. Bakı: Təknur, 2013, 218 s.
3. Abdallı H.İ., Şabanov Z.M. Qadın: ailədə, siyasətdə, təhsildə, dində, ədəbiyyatda. Bakı: Avropa, 2013, 332 s.
4. Azərbaycan qəzeti, 27 yanvar 2015
5. Əsgərov Z.A. Konstitusiya hüququ. Bakı: 2005
6. Mahmudov M.Ə., Şabanov Z.M., Ələkbərov F.Q. İdarəetmə nəzəriyyəsi. Bakı: Elm və təhsil, 2012, 344 s.
7. Nağıyev F.T. Konstitusiya hüququ. Bakı: Qanun, 2011, 240 s.
8. Zeynalov R. Sosial dövlətin əsasları. Bakı: 3 saylı Bakı mətbəəsi, 2012, 312 s.
9. Гриценко Н.Н., Шариков Ф.И. Основы социального государства. М.: 2004, 240 с.
10. Социальное государство: краткий словарь справочник. М.: АТиСО, 2002

**Камал Гаджиев**

## ЭТАПЫ СТРОИТЕЛЬСТВА СОЦИАЛЬНОГО ГОСУДАРСТВА В АЗЕРБАЙДЖАНЕ

**Резюме**

После восстановления своей независимости Азербайджанская Республика выбрала свой путь развития: строительство в нашем обществе демократического, правового, светского государства. Цель проводимых в Азербайджане социально-экономических реформ построить социально направленное, основанное на рыночной экономике, социально обеспеченное государство. В статье подробно говорится о мировом опыте, о социально-экономических реформах, проводимых в стране в последние годы, о стадиях государственного строительства и о создании и претворении в жизнь новой Азербайджанской модели.

**Ключевые слова:** гражданское общество, социальное государство, интеграция, сакрально-патерналистская, социально-демократическая, либеральная, трансформация, неолиберальная

**Kamal Hajiyev**

## PHASES OF BUILDING A SOCIAL STATE IN AZERBAIJAN

**Summary**

After regaining its independence Azerbaijan Republic chose its own way of development: establishment of democratic legal and secular state in our society. The goal of conducted social and economic reforms in Azerbaijan is to establish socially provided state based on market economics. The article says about world experience, social and economic reforms recently conducted in the country about the phases of state building and about the creation and realization of new Azerbaijan model.

**Keywords:** civil society, social state, integration, social-democratic, liberal, transformation, neoliberal

## İQTİSADİYYAT VƏ İDARƏETMƏ BÖLMƏSİ

**UOT – 330.1**

**Шагин Касумов**
**Азербайджанская Академия Труда и Социальных Отношений, д.ф.э.**

# ПРОБЛЕМЫ ОРГАНИЗАЦИИ СИСТЕМЫ ГОСУДАРСТВЕННОГО ФИНАНСОВОГО КОНТРОЛЯ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

*В статье исследуется роль государства в системе управления, состояние финансового контроля, в частности, исследуется роль Счетной Палаты. Рассматриваются функции и права Счетной Палаты. Отмечается ведущая роль органов Государственного контроля АР. В статье нашло отражение пути совершенствования деятельности контролирующих органов, основные проблемы государственного финансового контроля.*

Современный этап развития Азербайджанской Республики характеризуется тенденциями укрепления государственной власти, повышением роли государства в системе управления экономикой, усилением борьбы с коррупцией и правонарушениями в экономической сфере. В этой связи объективно возрастает значение и роль финансового контроля в системе государственного управления.

Текущее состояние государственного финансового контроля (ГФК) в стране нельзя считать удовлетворительным. Уровень сбора налогов, хотя и растет, однако в последнее время, изменение цен на углеводороды, приведёт к уменьшению доходов бюджета.

Большой ущерб казне наносят нарушения при совершении экспортно-импортных операций, распределении и использовании валютных средств, подлежащих перечислению в бюджет. Слабость системы государственного контроля над правонарушениями в банковской сфере приводит к «отмыванию» преступно нажитых капиталов и, в первую очередь, через банки, использующие высокие технологии. Список таких правонарушений можно продолжить бесконечно, благо что подобной информации в опубликованных в печати отчётах контролирующих органов, предостаточно.

В настоящее время в Азербайджанской Республике функционирует множество контролирующих и надзирающих органов различной ведомственной подчинённости, имеющих свои территориальные подразделения. К этому следует добавить контролирующие органы районных и городских администраций исполнительной власти. Определённые контрольные функции выполняют и органы местного самоуправления. При этом отсутствует чёткая регламентация функций полномочий различных контролирущих органов, кроме конституционно и законодательно установленных для Счётной Палаты Азербайджанской Республики.

В то же время в стране действует более 30 законов и постановлений, в которых в той или иной мере регулируется контрольная и надзорная деятельность. Контроль проникает, по существу, во все сферы экономики, затрагивает интересы миллионов людей, предприятий и организаций. Однако сориентироваться в компетенции и полномочиях контролирующих органов стало весьма затруднительно. Это не позволяет субъектам экономических отношений эффективно использовать их для защиты прав и законных интересов, противостоять злоупотреблениям и порой неквалифицированным, ошибочным действиям работников контролирующих органов.

В настоящее время Государственный контроль осуществляется следующими контролирующими органами: Счётной Палатой АР и контрольно-счётными органами исполнительной власти, Службой государственного финансового контроля при министерстве Финансов АР. Государственным казначейским агентством, Контрольным управлением Президента АР, Центральным Банком АР, министерством Налогов АР, Государственным таможенным комитетом АР, Государственными внебюджетными фондами.

Внутриведомственный контроль выполняется контрольно-ревизионными службами министерств и ведомств. Важная роль в обеспечении государственного финансового контроля отводится органам муниципальных образований и местного самоуправления [6].

Субъекты ГФК, в соответствии с установленным законодательством АР, осуществляют свою деятельность на основе Конституции АР, указов и распоряжений Президента АР и Правительства АР.

Указ Президента АР «О мерах по совершенствованию системы государственного финансового контроля в АР» от 07.01.1999 г. установил, что в АР «финансовый контроль» должен обеспечивать контроль за исполнением государственного бюджета и бюджета государственных внебюджетных фондов, организацией денежного обращения, использованием кредитных ресурсов, состоянием государственного внутреннего и внешнего долга, государственных резервов, предоставлением финансовых и налоговых льгот и преимуществ [2].

Ведущим органом государственного финансового контроля АР является Счётная Палата АР. Статус, функции и права Счётной Палаты были определены Конституцией АР и указом Президента АР от 06.1999 г. «О Счётной Палате АР». По своему статусу Счётная Палата АР является постоянно действующим органом государственного финансового контроля, образуемым Милли Мэджлисом и подотчётным ему. В рамках задач, определённых действующим законодательством, Счётная Палата обладает организационной и функциональной независимостью. Контрольные полномочия Счётной Палаты распространяются на все государственные органы и учреждения в АР, на органы местного самоуправления, предприятия, организации, банки, страховые компании и другие финансово-кредитные учреждения, их союзы, ассоциации и иные объединения вне зависимости от видов и форм собственности, если они получают, перечисляют, используют средства из государственного бюджета или используют государственную собственность либо управляют ею, а также имеют предоставленные государственным законодательством или органами государственной власти налоговые, таможенные и иные льготы и преимущества.

Счётная Палата осуществляет оперативный контроль за исполнением государственного бюджета, контроль за состоянием государственного внутреннего и внешнего долга АР и за использованием кредитных ресурсов, контроль за государственными внебюджетными фондами, контроль за поступлением в государственный бюджет средств от распоряжения и управления государственной собственностью, в том числе его приватизации, продажи.

Специальная статья посвящена контролю за банковской системой, которая предусматривает, что Счётная Палата осуществляет контроль за:

- деятельностью ЦБ АР, его структурных подразделений, других банков и кредитно-финансовых учреждений в части обслуживания ими государственного бюджета;
- деятельностью ЦБ АР по обслуживанию государственного долга АР.

Закон «О Счётной Палате» предусматривает, что все другие органы осуществляющие финансовый контроль, обязаны оказывать содействие деятельности Счётной Палаты, предоставлять по её запросам информацию о результатах проводимых ревизий и проверок [3].

Деятельность и полномочия других органов государственного финансового контроля определяются Конституцией АР, Гражданским кодексом АР, Налоговым кодексом АР, Таможенным кодексом АР, законом АР «О бюджетной системе», соответствующими законами и другими нормативно-правовыми актами. В целом соответствующих законодательных и других нормативно-правовых актов имеется достаточно много, но состояние дел с государственным финансовым контролем желает лучшего.

Необходимо усилить ГФК за счёт расширения роли и функций Счётной Палаты, что потребует повышения качества её работы, оптимизации организационного устройства, заинтересованности Милли Мэджлиса в реализации результатов её деятельности.

Специфический порядок и процедуры действия Счётной Палаты должны быть подробно разработаны и зафиксированы в регламенте Счётной Палаты. Такой документ разграничит и определит порядок взаимодействия структурных подразделений аппарата Счётной Палаты АР, а также установит порядок (процедуры) ведения дел и проведения мероприятий всех видов и форм контрольной деятельности, методики проведения контрольных мероприятий.

Таким образом при организации финансового контроля основное внимание должно уделяться проблеме контроля за бюджетным процессом, за целесообразностью и эффективностью расходования государственных средств. Необходимо разработать действенную концепцию современной системы ГФК на основе системной методологии организационно-функционального подхода, всестороннего изучения отечественного и зарубежного исторического опыта и достижений современной практики в области организации финансового контроля [6].

Среди всего комплекса вопросов можно выделить следующие основные проблемы ГФК:

- методологические основы формирования системы государственного финансового контроля;
- концептуальный подход к реформированию системы государственного финансового контроля, в том числе роли и функций Счётной Палаты АР;
- принципы деятельности системы государственного финансового контроля;
- функции общегосударственного финансового контроля;
- основные сферы и особенности деятельности контрольных органов АР.

**Ключевые слова:** финансовый контроль, методологические основы, концептуальный подход, доходы и расходы бюджета, контрольные органы

**Использованная литература**

1. Конституция Азербайджанской Республики, Баку: 2009 г.
2. Указ Президента АР «О совершенствовании системы государственного контроля», Баку-1999 г.
3. Указ Президента АР «О создании Счётной Палаты АР», Баку: 1999 г.
4. Указ Президента АР «О создании Службы Финансового контроля при министерстве финансов АР», Баку: 2009 г.
5. Королев Ю.Ю. Ревизия и аудит. Минск: ФУАинформ, 2015, 214 с.
6. http://nanodigest.ru/content/view/1336/57/Государственный финансовый контроль.

**Şahin Qasımov**

## AZƏRBAYCAN RESPUBLIKASINDA DÖVLƏT MALIYYƏ NƏZARƏTİNİN TƏŞKILININ PROBLEMLƏRI

**Xülasə**

Məqalədə Azərbaycan Respublikasında Dövlət maliyyə nəzarətinin vəziyyəti, Hesablama Palatasının rolu, funksiyaları və fəaliyyətinin təkmilləşdirilməsi yolları öz əksini tapmış, Dövlət maliyyə nəzarətinin təşkilinin problemləri göstərilmişdir.

**Açar sözlər:** maliyyə nəzarəti, metodoloji əsaslar, konseptual yanaşma, büdcə gəlirləri və xərcləri, nəzarət orqanları

**Shahin Qasimov**

## PROBLEMS OF ORGANIZATION OF STATE FINANCIAL CONTROL IN THE REPUBLIC OF AZERBAIJAN

**Summary**

The standing of state financial control in the Republic of Azerbaijan, the role of the Chamber of Accounts, its functional and the ways of its activity improvement are reflected in the article and shown the problems of financial state organizations.

**Keywords:** financial control, methodological grounds, conseptual approach, budget revenues

**UOT – 332.01**

**Kutais Sarıyev**
**Bakı Dövlət Universiteti, i.ü.f.d., dosent**

# REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAF STRATEGİYASININ KONSEPTUAL ƏSASLARI VƏ ONUN REALLAŞMA İSTİQAMƏTLƏRİ

*Məqalədə regionların sosial-iqtisadi inkişaf strategiyası və onların həyara keçirilmə istiqamətləri geniş diapazonda araşdırılır. Ölkənin bütün iqtisadi rayonlarının balanslaşdırılmış inkişafına təsir edən amillərin müqayisəli təhlili aparılır. Bildirilir ki, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafına dair ardıcıl olaraq Dövlət Proqramları qəbul olunmuş və qarşıya qoyulmuş strateji məqsəd və vəzifələr müəyyən səviyyədə yerinə yetirilmişdir. Həmin Dövlət Proqramlarının qarşısında duran məqsəd və vəzifələri bir-birindən əsaslı surətdə fərqləndirən səbəblər açıqlanır.*

Azərbaycanda müstəqil milli iqtisadiyyatın formalaşmasında regionların sosial-iqtisadi inkişaf strategiyası mühüm rola malikdir. Xüsusilə, ölkənin davamlı (dayanıqlı) sosial-iqtisadi inkişafında regionların bütöv bir təsərrüfat sistemi kimi formalaşması olduqca zəruridir. Bir neçə ildir ki, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafına dair ardıcıl olaraq Dövlət Proqramları qəbul olunmuş və qarşıya qoyulmuş strateji məqsəd və vəzifələr müəyyən səviyyədə yerinə yetirilmişdir. Həmin Dövlət Proqramlarının qarşısında duran məqsəd və vəzifələr bir-birindən əsaslı surətdə fərqlənir. 2004-2008-ci illərdə ölkənin regional iqtisadiyyatında mövcud olan mühüm vəzifələr tədricən həll olunmuş, yeni emal müəssisələri işə salınmış, iş yerləri açılmış və sosial infrastruktur sistemi formalaşmağa başlamışdır. Dövlət proqramında regionlarda sənaye potensialının aşkar olunması, sahibkarın və biznes fəaliyyətinin tarazlı inkişafına əlverişli mühit yaradılması ön plana çəkilmişdir. Dövlət tərəfindən proqramda qarşıya qoyulan məqsədə çatmaq üçün bir sıra vəzifələr müəyyən edilmişdir. Onlara:

- dayanmış müəssisələrin istehsal fəaliyyətini bərpa etmək və yeni istehsal müəssisələri yaratmaq;
- yerli resurslardan səmərəli istifadəni stimullaşdırmaq;
- aqrar bölmədə islahatları sürətləndirmək və müxtəlif servis xidmətləri yaratmaq;
- məşğulluq probleminin həll olunmasını stimullaşdırmaq və s [2].

Qeyd etmək lazımdır ki, Dövlət Proqramı üzrə qarşıya qoyulmuş vəzifələrin icra olunması nəticəsində ölkədə 27,5 mindən çox yeni müəssisə yaradılmış, 547,5 min daimi iş yeri açılmış, yoxsulluğun səviyyəsi 13,2 faizədək azalmışdır. Bu müddətdə ümumi daxili məhsulun real həcmi 2,6 dəfə, qeyri-neft sektorunda məhsul istehsalı 1,8 dəfə artmış, iqtisadiyyatın bütün sahələrində dinamik artım müşahidə edilmiş, o cümlədən sənaye istehsalı 2,5 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 25,2 faiz, əhalinin gəlirləri 4 dəfə artmışdır [3].

Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı özündən əvvəlki proqramının davamı olaraq xeyli dərəcədə fərqli strateji vəzifələri müəyyən edilmişdir:

- Ölkədə qeyri-neft sektorunun inkişafının daha da sürətləndirilməsinə üstünlük verilməsi;
- İqtisadiyyatın diversifikasiyasına xüsusi diqqət yetirilməsi;
- Regionların tarazlı və davamlı sosial-inkişafına nail olunması;
- Bütün regionlarda sahibkarlığın tarazlı inkişafına əlverşli mühit yaradılması;
- İqtisadiyyatın inkişafına investisiya qoyuluşlarının həcminin artırılması;
- Müasir tipli infrastruktur obyeklərinin yaradılması;
- İxrac yönümlü məhsul istehsalının stimullaşdırılması
- Əhalinin məşğulluq səviyyəsinin artması;
- Yoxsulluq səviyyəsinin azaldılması və s [3].

2009-2013-cü illərdə regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramında irəli sürülən bu strateji vəzifələr ardıcıl olaraq yerinə yetirilmiş və qarşıya qoyulmuş məqsədlərə nail olunmuşdur. Qeyd etmək lazımdır ki, 2009-2013-cü illəri əhatə edən Dövlət Proqramı regionların sosial-iqtisadi inkişafında və ölkənin iqtisadi potensialının gücləndirilməsində mühüm rol oynadı. Bu dövrdə ölkə iqtisadiyyatı 3,4 dəfə, sənaye istehsalı isə 2,7 dəfə artmışdır. Ümumdaxili məhsul 6%, qeyri-neft sektoru 9,8%, əhalinin pul gəlirləri 8% inflyasiya səviyyəsi təşkil etmişdir.

Azərbaycan iqtisadiyyatına 28 milyard dollar investisiya qoyulmuşdur ki, bunun da 17,5 milyard dolları daxili sərmayədir. 2013-cü ildə ölkəmizdə 80 min daimi iş yeri olmaqla 110 min yeni iş yeri yaradılmış işsizlik səviyyəsi 5%, yoxsulluq 5,3% təşkil etmişdir [5].

Əldə olunan bu müsbət nəticələr bir daha Azərbaycanın dayanıqlı inkişafına təkan vermişdir. Azərbaycanın dayanıqlı inkişafının başlıca səbəbini bir daha vurğulayaraq ölkə başçısı İ.H.Əliyev cənabları göstərmişdir". Azərbaycan sabitlik adasıdır, inkişaf məkanıdır. Ölkəmizdə ictimai-siyasi vəziyyəti sabitdir, iqtisadiyyata böyük həcmdə investiyalar qoyulur və iqtisadiyyatımızın şaxələnməsi istiqamətində çox önəmli addımlar atılır. Bu gün Azərbaycan nəinki regionda, dünya miqyasında seçilən ölkələrdən biridir və dünyada bizə olan maraq gündən-günə artır" [5].

Ölkə başçısının bu fikri bir daha göstərir ki, son illərdə Azərbaycan dünya miqyasında iqtisadi və sosial baxımdan sürətlə inkişaf edən ölkələr sırasına aiddir. 2004-cü ildən bu günə qədər ümumi daxili məhsulun həcmi 3,4 dəfə artmışdır ki, bu da dünya ölkələri ilə müqayisədə rekord göstəricidir. Əgər 2004-cü ildə ölkənin valyuta ehtiyatları 1,8 milyard dollar olmuşdursa, hazırda bu 50 milyard dollara çatmışdır. 2009-2013-cü illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının reallaşması nəticəsində 1 milyon 360 min yeni iş yeri yaradılmışdır ki, onun da 1 milyonu daimi iş yeridir. Yeni iş yerinin yaradılması işsizlik səviyyəsinin azalmasına və əhalinin gəlirlərinin artmasına birbaşa təsir göstərir. Bunun nəticəsidir ki, Davos Dünya İqtisadi forumuna görə Azərbaycan iqtisadi sahədə rəqabət qabiliyyətliliyinə görə 38-ci yerə layiq görülmüşdür. Azərbaycanda 2014-2018-ci illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edildikdən sonra ölkə iqtisadiyyatının bütün sferalarında mühüm irəliləyişlərin baş verməsinə təkan verildi. Bu proqramda əsasən aşağıdakı sosial-iqtisadi problemlərin sürətlə inkişafı müəyyən edildi:

- Ölkədə qeyri-neft sektorunun davamlı inkişafına daha çox üstünlük verilməsi;
- Iqtisadiyyatın ixracyönümlülüyünün və rəqabətliliyinin artırılması;
- Sosial infrastruktur sisteminin daha da genişləndirilməsi;
- Regionlarda kommunal xidmətlərin yaxşılaşdırılması;
- Regionlarda sahibkarlığın və biznesin bütün üstünlüklərindən istifadə olunması;
- Yeni müəssisələrin və iş yerlərinin açılması;
- İnvestisiya qoyuluşlarının həcminin artırılması;
- Pul-kredit sistemində əsaslı islahatların aparılması [4].

Yuxarıda göstərilən bu strateji məqsəd və vəzifələr ölkənin gələcək dövr üçün sosial-iqtisadi inkişaf strategiyasında əsaslı dönüş yaradacaqdır. Azərbaycanda qeyri-neft sektorunun inkişafını təmin etmək məqsədi ilə "Sənayenin 2015-2020-ci illərdə inkişafına dair Dövlət Proqramının" həyata keçirilməsi mühüm rol oynayacaqdır. Dövlət Proqramında dövlətin regional sənaye siyasətinin əsas istiqamətləri, sənayenin inkişafının iqtisadiyyatın yüksəlişinə təsiri problemləri öz əksini tapmışdır. 2014-cü ilin sənaye ili kimi elan edilməsində "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasının mühüm rolu olmuşdur. Bu konsepsiyanın başlıca mahiyyəti Azərbaycanı qlobal miqyasda innovasiya və modernləşdirmə istiqamətində keyfiyyətcə yeni müstəviyə qaldırmaqdır. Həmçinin "Azərbaycan 2020 gələcəyə baxış" inkişaf konsepsiyası ölkə iqtisadiyyatını yüksək rəqabət gücünə malik olan iqtisadiyyata çevirmək, səmərəli sənaye siyasəti həyata keçirmək, qeyri-neft sektorunun hərtərəfli inkişafını təmin etmək və regionların tarazlı sosial-iqtisadi inkişafına nail olmaq kimi məsələləri irəli sürür [1]. Artıq müstəqil Azərbaycan iqtisadiyyatında həyata keçirilən səmərəli iqtisadi siyasət nəticəsində sənayeləşmə prosesinin miqyası daha da genişlənmişdir. Son on il ərzində sənaye istehsalı 2,7 dəfə, elektrik avadanlıqlarının istehsalı 25 dəfə, metallurgiya sənayesi 2,2 dəfə artmışdır. 2013-cü ildə sənayedə 33,7 milyard manatlıq məhsul və xidmətlər istehsal olun-

muş və bu sahədə əsas kapitala yönəldilmiş investisiya 2003-cü illə müqayisədə 2,4 dəfə artaraq 7 milyard manat olmuşdur. Sənayedə işləyənlərin ümumi sayında qadınlar 21,1% xüsusi çəkiyə malik olmuşdur. Bu göstərici son beş ildə dövlət sektorunda 21,2%, qeyri-dövlət sektorunda isə 20,9% təşkil edir [7].

2013-cü ildə ölkənin sənaye sektorunda çalışanların sayı 183,1 min nəfərə bərabər olmuşdur. Bunların daha çox hissəsi mədənçıxarma, emal sənayesi sahələrində, elektrik enerjisi, qaz və buxar istehsalı sahələrində çalışırlar [6].

Azərbaycanda milli iqtisadi inkişaf modelinin prioritet istiqaməti kimi qeyri-neft sektorunun inkişafında maşınqayırma, cihazqayırma, neft-kimya müəssisələrinin yaradılmasına daha çox diqqət yetirilir.

Azərbaycanda gələcək dövr üçün sənaye siyasətinin strateji məqsədlərinin reallaşdırılmasında aşağıdakı mühüm istiqamətlərə xüsusi diqqət yetirilməlidir:

- Azərbaycanın daxili tələbatını ödəyə bilən sənaye məhsullarının istehsalına daha çox üstünlük verilməlidir;
- Dövlətin regional, struktur və investisiya siyasətləri ilə sənaye siyasəti qarşılıqlı surətdə əlaqələndirməlidir;
- Ölkənin milli sənayesinin formalaşmasında dünya ölkələrinin qabaqcıl təcrübəsindən istifadə olunmalıdır (qənaətcil, resursqoyuluşu və innovasiya yönümlü);
- Qeyri-neft sənayesinin məhsullarının ixrac potensialının artırılmasına daha çox üstünlük verilməlidir;
- Dövlətin regional sənaye siyasəti ilə digər sahələrin qarşılıqlı surətdə əlaqələndirilməsinə daha çox üstünlük verilməlidir.

Son dövrdə yeni sənaye layihələrinin maliyyələşdirilməsinə 380 milyon manat güzəştli kreditlər ayrılmış və 14 rayonda gündəlik istehsal gücü 820 ton olan 28 müasir çörək zavodunun tikilməsi nəzərdə tutulmuşdur. Artıq həmin rayonlarda onların 22-i tikilib istifadəyə verilmişdir. Bununla yanaşı regionlarda elektron xidmətlərin sayı 450-ə çatmış, 4400 müəssisə fəaliyyətə başlamış, sahibkarlıq subyektlərinin sayı 2004-cü illə müqayisədə 2,4 dəfə artaraq 386 minə çatmışdır. 2014-cü ildə ölkədə güzəştli kreditlər hesabına 39, iri istehsal və infrastruktur müəssisəsi istifadəyə verilmişdir [5; 6].

Azərbaycanda sənayenin inkişaf strategiyası iqtisadiyyatına neft amillərindən asılılığını azaldır. Bu baxımdan ölkədə texnoparklar yaradılır və istifadəyə verilir. Son dövrdə sənaye klasterlərə formalaşır bu isə özünü daha çox metallurgiya kompleksinin yaradılmasında göstərir. Bu sənaye sahəsinin inkişafı üçün ölkədə xammal, resurs bazası vardır və ixrac imkanları da mümkündür.

Son illərdə Bakı, Sumqayıt, Gəncə, Mingəçevir şəhərlərində sənayenin inkişafına daha çox diqqət yetirilir. Onu da vurğulamaq lazımdır ki, Gəncə şəhəri gələcəkdə Cənubi Qafqazda iri sənaye şəhərinə çevriləcəkdir. Yaxın gələcəkdə Azərbaycan iqtisadiyyatının hərəkətverici qüvvəsi kimi rəqabət qabiliyyətli məhsulların ixrac potensialının artırılmasına xüsusi diqqət yetiriləcəkdir. Hazırda ixrac potensialının əksəriyyətinin təbii resursları və son məhsul həddinə çatdırılmamış məhsullar təşkil edir. Bunlara nail olmaq məqsədilə özəl sektorda istehsal fəaliyyətilə məşğul olan sahibkarlıq subyektlərinin sayı artırılmalı və dövlət tərəfindən maliyyə dəstəyi daha da gücləndirilməlidir. Ölkələrin dağlıq və dağətəyi rayonlarında yerli xammaldan və əmək ehtiyatlarından istifadə etmək məqsədilə bir sıra sənaye sahələrinin filialları yaradılmalıdır. Bu problemin vaxtında həll olunması ölkədə yeni iş yerlərinin yaranmasına və işsizlik səviyyəsinin xeyli dərəcədə azalmasına təsir göstərəcəkdir.

Dövlətin regional siyasətində və s. mühüm istiqamətlərdən biri də aqrar bölmənin bütün sahələrinin inkişaf etdirilməsidir. Ölkə prezdenti tərəfindən 2015-ci il Kənd Təsərrüfatı ili” elan olunmuşdur. Azərbaycanda ərzaq təhlükəsziliyinin təmin edilməsində bütün regionların hərtərəfli inkişafı xüsusi yer tutur. Son dövrdə respublika əhalisinin bütün kənd təsərrüfat məhsulları ilə təmin olunmasında əsaslı irəliləyiş baş vermişdir. Xüsusilə, heyvandarlıq, bitkiçilik, quşçuluq, dənli bitkilər sahəsində dünya ölkələrinin təcrübəsindən geniş surətdə istifadə olunur. Belə ki, BMT-nin Ər-

zaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatlarına əsasən son illərdə dünya üzrə əkin sahələri 9% artdığı halda, bitkiçilik məhsullarının həcmi 2,3 dəfə, dünya üzrə mövcud mal-qaranın sayı 26%, süd istehsalı 61% artmışdır. Ölkəmizdə də son 10 ildə eyni tendensiyanın saxlanılması aqrar siyasətin əsas prinsiplərindən biri kimi qəbul edilmişdir [5].

Respublikamızda aqrar bölmənin gələcəkdə daha da təkmilləşdirilməsi məqsədilə bir sıra mühüm tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- Keyfiyyətli yem təminatının vəziyyətinin yaxşılaşdırılması və ondan təkrar əkin prosesində səmərəli istifadə olunması;
- Ölkədə toxuma olan tələbatın davamlı olaraq təmin edilməsi;
- Kənd təsərrüfatında istehsalın fasiləsizliyini təmin etmək məqsədilə müasir texniki seviz xidmətnin yaradılması və istifadə olunması;
- Yararlı torpaqlardan istifadəyə görə istehsalçılara maddi texniki xidmət göstərilməsi;
- Aran rayonlarında torpaqdan səmərəli istifadə etmək və məhsuldarlığı artırmaq məqəsdilə meliorasiya imkanlarından istifadə olunması və s.;
- Ölkənin bütün regionlarında meliorasiya işinin gücləndirilməsində və təkmilləşdirilməsində fundamental işlər görülür. Təkcə ötən ildə 178 min hektar sahədə meliorativ vəziyyət yaxşılaşdırılması, 20 min hektor yeni suvarılan sahələr kənd təsərrüfatı dövriyyəsinə cəlb edilmiş, 1194 ədəd subartezian quyusu qazılmışdır. Dövlət Proqramının tələblərinə uyğun olaraq 50 rayon və 3 şəhərdə çoxsaylı meliorasiya irriqasiya tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulmuşdur. O cümlədən Şimal zonasının 6 çayından Samur-Abşeron Kanalına əlavə 320 milyon kubmetr su verilməsi üçün tikinti işlərinə başlanılmışdır [5].

Bununla yanaşı Azərsu Açıq Cəmiyyəti tərəfindən Bakı şəhərində və respublikanın bir sıra rayonlarında içməli su təchizatının yaxşılaşdırılması, kanalizasiya sistemlərinin yenidən qurulması sahəsində əsaslı işlər görülmüşdür. Belə bir vəziyyət əhalinin həyat şəraitinin daha da yaxşılaşdırılmasına, onların su təsərrüfatından səmərəli istifadə etmələrinə təsir göstərəcəkdir.

Regionların sosial-iqtisadi inkişafında mühüm konseptual problemlərdən biri də real sektorun inkişafında bankların fəaliyyətindən səmərəli istifadə olunmasıdır. Son illərdə bankların nizamnamə kapitalı daha da artmışdır ki, bu da onların gücünü və pul resurslarından məqsədli istifadə olunmasına imkan yaratmışdır. Hazırda sahibkarlığa kömək milli fondu tərəfindən real sektorun inkişafına güzəştli kreditlər verilir ki, bu da istehsal sahibkarlığının həvəsləndirilməsinə güclü dəstək verir. Gələcək dövr üçün Azərbaycan iqtisadiyyatının ixracyönümlü iqtisadiyyata çevrilməsində bankların rolu daha da artırılmalıdır. Azərbaycanda bankların kredit imkanları daim artır və onlar təkcə istehlak kreditlərinə deyil, daha çox real sektorun inkişafına üstünlük verməlidirlər. Bankların fəaliyyətinin daha da genişləndirilməsində milli valyutanın xarici valyutalara nisbətən dönərliliyinin sabit qalması xüsusi rol oynayır. Bütün sahibkarlıq subyektləri və təsərrüfatı üzvlərinin işgüzarlıq fəaliyyəti milli valyutanın alıcılıq qabiliyyətindən daha çox asılıdırlar. Azərbaycanda gələcəkdə regionların sosial-iqtisadi inkişafının daha da təkmilləşdirilməsi məqsədilə aşağıdakı tövsiyələrin nəzərə alınması məqsədəuyğun hesab olunur:

- Regionların mövcud təbii-iqtisadi və əmək potensialından istifadə etmklə iqtisadiyyatın ixracyönümlülüyünün təmin olunması;
- Regionlar üzrə qeyri-neft sektoru sahələrinin tarazlı inkişafına yönəldilən investisiya qoyuluşlarının fəallığının artırılması;
- Rəqabət-qabiliyyətli məhsul istehsal edən sahibkarların fəaliyyətinin dövlət tərəfindən stimullaşdırılması;
- Fəaliyyətdə olan sahibkarlıq obyektlərinin müasir infrastruktur sisteminin yaradılması və beynəlxalq standartlara uyğunlaşdırılması;
- Bir sıra regionlarda sərbəst (azad) iqtisadi zonaların yaradılması və onların milli iqtisadi mənafelərə uyğun fəaliyyət göstərilməsi;
- Milli və regional bazarların yerli rəqabətqabiliyyətli məhsullarla təmin edilməsinə nail olunması;

- Dağlıq və dağətəyi rayonlarda əhalinin məşğulluğunu təmin etmək məqsədilə yeni müəssisələrin yaradılmasına investisiya qoyuluşlarının həcminin daha da artırılması və s.

**Açar sözlər:** regional iqtisadiyyat, regional iqtisadiyyatin tarazlı inkişaf strategiyası, regionların sosial-iqtisadi inkişafının konseptual əsasları

**İstifadə edilmiş ədəbiyyat**

1. “Azərbaycan 2020: gələcəyə baxış, inkişaf konsepsiyası”. Azərbaycan qəzeti, 5 dekabr 2012-ci il
2. Azərbaycan Respublikası regionlarının 2004-2008-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı: 2004
3. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı: 2009
4. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı: 2014
5. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının birinci ilinin yekunlarına həsr olunmuş konfransda prezident İ.H.Əliyevin nitqi. 27 yanvar 2015-ci il
6. Azərbaycan Respublikasında Sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramının layihəsi. Bakı: 1 mart 2014-cü il
7. Nazirlər Kabinetinin 2013-cü ilinin sosial-iqtisadi inkişafının yekunları və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasda prezident İ.H.Əliyevin nitqi. Bakı: 15 yanvar 2014-cü il

**Кутаис Сарийев**

## КОНЦЕПТУАЛЬНЫЕ ОСНОВЫ СТРАТЕГИИ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ И НАПРАВЛЕНИЯ ЕЕ РЕАЛИЗАЦИИ

**Резюме**

В статье в широком диапазоне анализируются основные направления стратегии социально-экономического развития регионов и направления его реализации. В частности, уделяется особое внимание на сравнительный анализ факторов, влияющих на развитие сбалансированной экономики во всех экономических районах страны.

**Ключевые слова:** региональная экономика, стратегия равномерного развития региональной экономики, концептуальные основы социально-экономического развития регионов

**Kutais Sariyev**

## CONSEPTUAL BASIS OF SOCIAL-ECONOMIC DEVELOPMENT AND THE DIRECTIONS OF ITS REALIZATION

**Summary**

The main directions of strategy of social and economic development of regions and directions of its realization are analyzed in a wide range in the article. In particular, a special attention is paid to the comparative analysis of the factors influencing the development of balanced economy in all economic regions of the country.

**Keywords:** regional economy, strategy of balanced development of regional economy, conceptual foundations of social-economic regional development

**UOT – 32.01**

**Güloğlan İsmayılov**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.ü.f.d., dosent**

# DÖVLƏT ORQANLARININ İNFORMASİYALAŞDIRILMASININ MƏRHƏLƏLƏRİ

*Məqalədə dövlət orqanlarının informasiyalaşdırılmasının hüquqi əsasları göstərilmiş, bu sahədə Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən aparılan işlər mərhələlərlə nəzərdən keçirilmişdir. Eyni zamznda dövlət idarəetməsinin informasiyalaşdırılması sahəsində mövcud olan problemlər araşdırılaraq təhlil edilmiş, onların həlli yolları göstərilmişdir.*

İnformasiya-kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi Azərbaycan Respublikasının dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biridir. 2003-cü ildə təsdiq edilmiş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" yaxın 10 il ərzində görüləcək işlərin ümumi xəttini müəyyənləşdirmişdir. Azərbaycan Respublikası Cənubi Qafqazda bu sahə üzrə Milli Strategiya qəbul etmiş yeganə ölkədir. Bu siyasətin davamı olaraq İnformasiya Kommunikasiya Texnologiyaları (İKT) sahəsində dövlət proqramının hazırlanması vacib məsələ kimi irəli sürülmüş və "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı" (Elektron Azərbaycan) hazırlanmış və təsdiq edilmişdir.

"Azərbaycan Respublikasının dövlət orqanlarında informasiya təhlükəsizliyinin təmin edilməsi üzrə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2004-cü il tarixli 172 nömrəli Fərmanına uyğun olaraq, Azərbaycan Respublikasının dövlət orqanları üçün İnternet şəbəkəsi seqmentinin yaradılması, saxlanılması və inkişafının təmin edilməsi çərçivəsində Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən "AZSNET" (Azerbaijan State Network) İnternet şəbəkəsi seqmenti yaradılmış, Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı, Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Nazirlər Kabineti, 25-dən artıq dövlət orqanı yüksəksürətli İnternetlə təmin edilmiş və "www.president.az", "www.meclis.gov.az", "www.cabmin.gov.az", eləcə də İnternetlə təmin edilmiş digər dövlət orqanlarının veb səhifələri həmin seqmentdə yerləşdirilmişdir.

Bakı şəhərində və Azərbaycan Respublikasının digər ərazilərində yerləşən dövlət orqanlarının informasiya-kommunikasiya texnologiyalarından istifadə etmək imkanlarını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 may 2005-ci il tarixli 126-8 sm nömrəli sərəncamı ilə TAE fiber-optik kabel magistralından və Azərbaycan Respublikasının Dövlət Dəmir Yoluna məxsus fiber-optik kabel magistralından (TRASECA) ayrılmış optik liflərin üzərində Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən dövlət orqanları üçün müasir tələblərə cavab verən dayanıqlı və etibarlı vahid multiservis infrastruktur şəbəkəsinin yaradılması işlərinə başlanmış və 2007-ci ilin birinci yarısında bu işlərin 1-ci mərhələsinin başa çatdırılması nəzərdə tutulmuşdur. Quraşdırılan DWDM avadanlıqları şəbəkənin sürətinin 1,6 Terabit/san.-yə qədər artırılmasına imkan verir.

2005-ci ilin iyul ayından etibarən BMT-nin İnkişaf Proqramı ilə birgə "Milli E-İdarəçilik şəbəkəsi təşəbbüsü" (AzDATACOM) layihəsinin həyata keçirilməsinə başlanmışdır. Artıq Bakı şəhəri və Abşeron rayonu üzrə işlər başa çatmışdır. Bu layihələrin tətbiqi nəticəsində dövlət strukturlarının İKT-dən istifadə imkanları daha da artacaqdır.

Ölkədəki mərkəzi icra hakimiyyəti orqanlarının 90 faizdən çoxunun rəsmi veb-saytları (İnternet-informasiya resursları) mövcuddur. 2000-ci ildən dövlət strukturları *gov.az* domenindən pulsuz istifadə edirlər. Hökumət orqanlarına məxsus veb-saytlarda əsasən təşkilatın missiyası, strukturu və vəzifələri barədə məlumatlar yerləşdirilib. Bəzi saytlarda isə artıq bəzi xidmətlər və onlardan istifadə qaydaları, tariflər haqqında məlumatlar, müxtəlif sənədlərin nümunələri istifadəçilərə təqdim olunur.

Dövlət Gömrük Komitəsinin real vaxt çərçivəsində və "on-line" rejimdə məlumatların ötürülməsi şəbəkəsi mərkəzlə bölgələrdə yerləşən məntəqələr arasında fəaliyyət göstərir ki, bu da Azərbaycanda E-idarəçilik sahəsində geniş ərazi şəbəkə sisteminin ilk praktik nümunəsidir.

Dövlət Sosial Müdafiə Fondu Dünya Bankı ilə birlikdə üç istiqamətdə - təqaüdlər, sosial yardım və iş bazarında İnformasiya Kommunikasiya Texnologiyalarının (İKT) geniş istifadəsini təmin etmək üçün birgə iş aparırlar. Artıq nəticə olaraq, paytaxtda və əksər bölgələrdə təqaüdlər kart sistemi ilə ödənilir.

Vergilər Nazirliyində də Geniş Ərazi Şəbəkə Sistemi yaradılır. Artıq nazirliyin veb-saytında vətəndaşlar verdikləri suallara operativ cavab ala bilirlər. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi öz fəaliyyətini beynəlxalq səviyyədə qəbul olunmuş İnformasiya Kommunikasiya Texnologiyaları (İKT) standartlarına müvafiq qaydada qurmağa başlamışdır.

Ödəmə sistemi sahəsində də elektronlaşma həyata keçirilir. Belə ki, artıq real zaman rejimində Banklararası Milli Hesablaşma Sistemi fəaliyyət göstərir.

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ölkənin İKT sektorunda görülən işlər üzrə elektron şəffaflıq prinsipini həyata keçirməyə, rabitə və informasiya texnologiyaları sahəsində yerli və xarici istifadəçiləri dünya standartları səviyyəsində sahəvi informasiya resursları ilə təmin etməyə imkan verən müvafiq informasiya portalı hazırlamış, onu rus və ingilis dillərinə tərcümə edərək abunəçilərin və vətəndaş cəmiyyətinin istifadəsinə təqdim etmişdir.

Tələbə qəbulunun şəffaf şəkildə keçirilməsi məqsədilə 1992-ci ildən test sistemi tətbiq edilir və qiymətləndirmə prosesi informasiya texnologiyalarının ən qabaqcıl nailiyyətlərindən istifadə edilərək kompüterləşdirilmişdir.

2000-ci ildən isə cəmiyyətdə gedən demokratik proseslərin əsas göstəricisi olan şeçki proseslərinin şəffaf tərzdə keçirilməsi üçün "Seçkilər" Avtomatlaşdırılmış İnformasiya Sistemi fəaliyyət göstərir. Bu sistemin ən vacib funksiyalarından biri bölgələrdəki seçki dairələri ilə Mərkəzi Seçki Komissiyası arasında operativ informasiya mübadiləsi üçün etibarlı əlaqənin təmin edilməsidir.

"Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Qanuna müvafiq olaraq, 2001-ci ildə "Giriş-çıxış" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi (AMAS) yaradılmışdır. Pasport-viza və şəxsiyyəti təsdiq edən digər sənədlərin verilməsi, o cümlədən şəxslərin yaşayış və olduğu yer, əcnəbilərin ölkədə daimi yaşamasına icazə və vətəndaşlığa qəbul (çıxmaq) üzrə qeydiyyatların aparılması, şəxslərə və nəqliyyat vasitələrinə sərhədkeçmə nəzarətinin keçirilməsi, Daxili İşlər, Milli Təhlükəsizlik, Müdafiə, Xarici İşlər, Ədliyyə, Vergilər Nazirlikləri, Dövlət Sərhəd və Dövlət Miqrasiya Xidmətlərini və digər aidiyyəti dövlət orqanlarının şəxslər və miqrasiya üzrə informasiya təminatı kompüterləşdirilmişdir. Aidiyyəti dövlət orqanlarını, o cümlədən qeydiyyat və şəxsiyyət vəsiqələri üzrə yerli polis strukturlarını, regional pasport mərkəzlərini, sərhəd nəzarət məntəqələrini tam əhatə edən və ölkənin xaricdəki konsulluq bölmələrinin vahid şəbəkəyə birləşdirilməsini nəzərdə tutan infrastruktura malik "Giriş-çıxış" AMAS üzrə orqanlararası əlaqələndirmə işləri təşkil edilmişdir. Ölkə vətəndaşları barəsində toplanan informasiya seçici yaşına çatmış şəxsləri tam əhatə etmiş, bu resurslardan demoqrafik *statistika və siyahıyaalma işlərində,* habelə nəqliyyat, rabitə, turizm, təhsil, sosial təminat və digər sahələrdə istifadəsi üçün imkanlar genişlənmişdir. "Giriş-çıxış" AMAS-ın təkmilləşdirilməsi davam etdirilmiş, E-imza və biometrik texnologiyalarının tətbiqinə, mobil identifikasiya və elektron rəqəmli xəritə ilə vizuallaşdırma vasitələrinin yaradılmasına başlanılmışdır.

2007-ci ildə "Azərbaycan Respublikasında biometrik eyniləşdirmə sisteminin yaradılması üzrə 2007-2012-ci illər üçün Dövlət Proqrami" hazırlanmış və təsdiq edilmişdir. Bu Proqramda biometrik texnologiyaların tətbiqi ilə yeni nəsil pasport-viza və şəxsiyyəti təsdiq edən digər sənədlərin istehsalının və verilməsinin, bu sahədə E-xidmətlərin göstərilməsinin təşkil edilməsi, fərdiləşdirilən sənədlərin mühafizə dərəcəsinin və sərhədkeçmə nəzarətinin gücləndirilməsi, identifikasiya işlərinin dəqiqliyinin təmin edilməsi, kritik infrastrukturun və obyektlərin mühafizə rejiminin təkmilləşdirilməsi üzrə tədbirlər nəzərdə tutulmuşdur.

"Fərdi məlumatlar haqqında" və "Biometrik məlumatlar haqqında" Qanunların, "Dövlət informasiya ehtiyatlarının reyestrinin aparılması qaydaları haqqında əsasnamə" layihələrinin hazırlanması, ha-

belə “Kibercinayətkarlıqla mübarizə” və “Fərdi məlumatların avtomatlaşdırılmış sistemlərdə istifadəsi ilə əlaqədar şəxsin hüquqlarının qorunması” haqqında Avropa Şurasının konvensiyalarına qoşulmaq imkanlarının müəyyənləşdirilməsi işləri təşkil edilmişdir [1, s.164].

2004-2006-cı illərdə “Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında” Qanun, müvafiq qaydalar, o cümlədən “Fərdi identifikasiya nömrəsinin verilməsi qaydası” təsdiq edilmiş, ölkədə fərdi identifikasiya nömrəsinin (FİN) tətbiqinə, fərdi məlumatların informasiya sistemlərinin qarşılıqlı əlaqədə fəaliyyət göstərməsinə hüquqi əsas yaradılmış, Əhalinin Dövlət Reyestri ilə bağlı layihələndirmə və praktiki işlərin təşkilinə başlanılmışdır. Qanuna əsasən, Reyestrin tərkibinin əhalinin yaşayış və olduğu yer üzrə qeydiyyatı, eləcə də vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı və hərbi mükəlləfiyyətliyi barədə sənədləşdirilmiş informasiya resurslarından ibarət olması, bu resursların müvafiq olaraq, Daxili İşlər və Ədliyyə Nazirlikləri tərəfindən formalaşdırılması, Reyestrin aparılmasının milli informasiya məkanında vahid standartların və prinsiplərin tətbiqinə əsaslanması nəzərdə tutulmuşdur.

Dövlət orqanları tərəfindən İnternetdə elektron nümayəndəliklərin yaradılması vasitəsilə xidmətlərin göstərilməsi 40 dövlət orqanından 30-da həyata keçirilir. 16 təşkilat isə eyni zamanda on-line rejimdə ərizə və müraciətlərin qəbulunu həyata keçirir.

Dövlət xidməti növünün təhlilinin nəticələrinə əsasən E-hökumətin bu Proqram çərçivəsində həyata keçiriləcək 83 E-xidmətdən ibarət baza xidmətlərinin siyahısı tərtib olunub.

“Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli strategiya”nın (2003-2012-ci illər) həyata keçirilməsi istiqamətində “Elektron imza və elektron sənəd haqqında” və “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikası Qanunlarının icrası ilə əlaqədar, dövlət orqanlarının avtomatlaşdırılmış qarşılıqlı informasiya əlaqəsinin təmin olunması məqsədi ilə vahid elektron sənəd mübadiləsi sisteminin tətbiqi bazasında dövlət orqanlarının informasiya infrastrukturunun yaradılması həyata keçirilir. Bu məqsədlə:

- “Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri”, “Hüquqi şəxslərin Dövlət Reyestri”, “Azərbaycan Respublikasının ərazi vahidlərinin və inzibati ərazi dairələrinin dövlət reyestri”, “Daşınmaz əmlakın dövlət reyestri” və s. ;
- elektron sənəd dövriyyəsi, elektron arxiv informasiya sistemləri;
- “E-hökumət”in elementləri olan standart informasiya sistemləri (“Giriş-Çıxış” Avtomatlaşdırılmış məlumat-axtarış sistemi (AMAS), Vergi ödəyicilərinin dövlət reyestri, Avtomatlaşdırılmış gömrük informasiya sistemi və s.) yaradılıb inkişaf etdirilir.

Eyni zamanda dövlət idarəetməsinin informasiyalaşdırılması sahəsində müəyyən problemlər mövcuddur:

- E-hökumət konsepsiyasının olmaması;
- dövlət idarəetməsinin informasiyalaşdırılmasında institusional mexanizmin olmaması;
- dövlət orqanları arasında qarşılıqlı ələqəni təmin edən şəbəkə infrastrukturunun olmaması;
- informasiyalaşdırma sahəsində normativ-hüquqi bazanın mükəmməl olmaması;
- dövlət informasiya resurslarının və sistemlərinin yaradılması üzrə vahid tələb və standartların mövcud olmaması;
- idarələrarası informasiya sistemlərinin formalaşdırılmasında funksiya və məsuliyyətlərin bölüşdürülməsinin reqlamentinin olmaması;
- bir çox dövlət orqanlarında informasiya texnologiyaları sahəsində dövlət qulluqçularının ixtisas səviyyəsinin kifayət qədər olmaması;

Hal-hazırda respublikada informasiya cəmiyyətinin formalaşdırılmasında və inkişafında əsas maneələrdən biri də cəmiyyətdə rəqəmsal fərqliliyin mövcud olmasıdır.

Proqramın məqsədi vətəndaş və təşkilatların dövlət xidmətlərinə sürətli və keyfiyyətli çıxışının təmin edilməsi və İKT-nin geniş tətbiqi yolu ilə dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması və şəffaflığının təmin olunmasıdır.

Göstərilmiş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi zəruridir:

- dövlət, biznes və özəl təşkilatlara informasiya cəmiyyəti şəraitində fəaliyyət göstərməyə imkan verən normativ-hüquqi və metodoloji bazanın yaradılması;

- dövlət idarəetmə sistemində müasir informasiya texnologiyalarının geniş tətbiqi;
- vətəndaşlara və təşkilatlara dövlət orqanlarının fəaliyyəti barədə açıq informasiyaya, dövlət informasiya resurslarına çıxışın (o cümlədən İnternet vasitəsilə) təmin olunması;
- dövlət orqanları arasında mühafizə olunmuş vahid telekommunikasiya infrastrukturunun yaradılması və inkişaf etdirilməsi;
- E-hökumət infrastrukturunun baza komponentlərinin yaradılması və təhlükəsizliyinin təmin olunması;
- dövlət orqanlarının E-xidmətlərinin yaradılması və inkişaf etdirilməsi;
- müəllif hüquqlarının qorunması, dövlət orqanlarında lisenziyalaşdırılmış proqram təminatının istifadəsi, “open source” texnologiyası əsasında yaradılmış proqram təminatının tətbiq olunması;
- dövlət qulluqçularının informasiya texnologiyaları üzrə hazırlıq səviyyələrinin artırılması;
- əhalinin bütün təbəqələrinin E-hökumətin xidmətlərinə çıxışının təmin olunması, rəqəmsal fərqliliyin azaldılması.

Əhalinin müxtəlif sosial təbəqələri tərəfindən İKT-nin istifadəsində qeyri-bərabər imkanlar E-hökumətin təşəbbüslərinin həyata keçirilməsində əsas maneələrdən biridir. Rəqəmsal fərqliliyi yüksək prioritet dərəcəli sosial problem kimi qəbul etmək və onun ardıcıl ləğv olunma strategiyasını işləyib hazırlamaq lazımdır.

“İnsan kapitalına”, xüsusən də böyüməkdə olan nəslə İKT sahəsində professional təhsilin təkmilləşdirilməsi yolu ilə investisiya qoyulması sosial-iqtisadi problemlərin həllində prioritet istiqamətdir [2, s.346].

İKT və kompüter sahəsində bilik və bacarıqların artırılması üzrə aşağıdakı tədbirlərin həyata keçirilməsini nəzərdə tutan vahid siyasət həyata keçiriləcək:

- informasiya cəmiyyətinin tələbatına uyğun yeni ixtisaslar üzrə mütəxəssislərin hazırlanması üçün müvafiq tədbirlərin həyata keçirilməsi, o cümlədən dünyanın aparıcı İKT şirkətlərinin proqramları üzrə beynəlxalq sertifikatlı mütəxəssislərə tələbatın müəyyənləşdirilməsi, kadr ehtiyatının təşkili;
- “Elektron hökumət” çərçivəsində təhsilin bütün səviyyələrində dövlət orqanları ilə qaşılıqlı fəaliyyətin əsaslarını tədris edən təlim kurslarının təşkil olunması;
- E-hökumətin yaradılması, müşayiət olunması və inkişaf etdirilməsinin elmi-metodiki, analitik-informasiya və kadr təminatı ilə bağlı, həmçinin dövlət qulluqçuları üçün informasiya texnologiyaları üzrə seminarların və kursların (o cümlədən distant təhsil yolu ilə) keçirilməsi.

Rəqəmsal fərqliliyin azaldılması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi planlaşdırılır:

- İKT sahəsində “beyin mərkəzi” kimi milli ekspertlər qrupunun, “İKT inkişaf fondu”nun, “İKT assosiasiyası”nın və digər ictimai-peşəkar birliklərin yaradılması;
- İKT üzrə ixtisaslaşan gənclərə onların təhlükəli təsirlərdən mühafizəsi üçün hüquqi və texniki yardım göstərilməsi;
- məsləhət mərkəzləri, kompüter kursları da daxil olmaqla, kompüter vərdişlərinə yiyələnmək üçün ictimai tədris məntəqələrinin yaradılması;
- İnternetə etibarlı və ucuz çıxışın təmin olunması;
- kompüter avadanlığının qiymətlərinin aşağı salınması üçün tədbirlərin görülməsi, o cümlədən yerli istehsalın stimullaşdırılması və genişləndirilməsi, müxtəlif güzəştlərin tətbiqi və s.

E-xidmətlərə ictimai çıxışı təmin edən informasiya-kommunikasiya infrastrukturunun, o cümlədən, poçt rabitəsi infrastrukturunun səmərəli istifadəsi hesabına inkişaf etdirilməsi təmin olunacaq. İstehsalçı kateqoriyalarından asılı olaraq ödənişli, ödənişsiz və güzəştli əsaslarda E-xidmətlərə kütləvi çıxışı təmin etmək məqsədi ilə ictimai İnternet məntəqələri şəbəkəsi yaradılacaq ki, bu da daha geniş əhali kütlələrini İKT-dən istifadəyə cəlb etməyə imkan verəcək. İctimai İnternet məntəqələrinin yaradılması ilk növbədə “Azərpoçt” DM, “Aztelekom” İB və BTRİB strukturlarını, həmçinin məktəbləri, kitabxanaları, İnternet-kafe şəbəkəsini əhatə edəcək.

Respublikanın regionlarında da İnternetə keyfiyyətli və ucuz çıxışın təmin olunması üçün genişzolaqlı şəbəkə texnologiyalarının tətbiqi planlaşdırılır. Kənd əhalisi üçün isə keyfiyyətli telekom-

munikasiya xidmətləri vermək üçün Dövlət Proqramı çərçivəsində kompleks tədbirlər həyata keçiriləcəkdir.

İnformasiya cəmiyyətinin inkişaf indikatorları sistemi əsasında rəqəmsal fərqliliyin azaldılması üzrə həyata keçirilən tədbirlərin monitorinqinin aparılması məqsədilə respublika ərazisində mütəmadi sosioloji sorğuların keçirilməsi təşkil olunacaq.

İnternetin milli seqmentinin domen məkanının dövlət tənzimlənməsi domenlərin vahid bölüşdürülmə qaydasının müəyyən olunması və *.az* domeninin idarə olunma mərkəzinin yaradılması ilə təmin olunacaq.

İnformasiya texnologiyalarından istifadə sahəsində təcrübənin və qlobal “təhlükəsizlik mədəniyyəti”nin yayılması üzrə beynəlxalq proqramlar çərçivəsində əməkdaşlıq genişləndiriləcək.

Proqramın həyata keçirilməsi aşağıdakı istiqamətlər üzrə aparılacaq:

1) normativ-hüquqi və metodoloji təminatın təkmilləşdirilməsi;

2) dövlət orqanları üçün baza E-xidmətlərin müəyyənləşdirilməsi, realizə olunması və inkişaf etdirilməsi;

3) E-hökumətin xidmətlərinə çıxışın təmin olunması, rəqəmsal fərqliliyin azaldılması;

4) E-hökumət infrastrukturunun baza komponentlərinin - E-hökumət portal və şlüzü, bank sistemi ilə qarşılıqlı əlaqə üçün “ödəniş şlüzü”, milli identifikasiya sistemi, dövlət orqanlarının vahid şəbəkə infrastrukturunun yaradılması;

5) Mərkəzi və yerli icra orqanlarının və bələdiyyələrin informasiya resursları və sistemlərinin yaradılması və inkişaf etdirilməsi;

6) Dövlət orqanlarının informasiya sistemləri arasında qarşılıqlı fəaliyyətin təmin olunması üçün təşkilati, texniki və texnoloji tədbirlərin həyata keçirilməsi;

7) E-hökumətin informasiya-kommunikasiya infrastrukturunun təhlükəsizliyinin və fərdi məlumatların mühafizəsinin təmin olunması, milli informasiya təhlükəsizliyi sisteminin kompleks formalaşdırılması;

8) Proqramın yerinə yetirilməsinə ictimai dəstəyin təmin olunması, Normativ-hüquqi və metodoloji təminatın inkişafı informasiyalaşdırma və cəmiyyətin informasiya ehtiyaclarının təmin olunması, E-xidmət istehlakçılarının hüquqlarının müdafiə olunması, E-hökumətin fəaliyyət göstərməsi şəraitində dövlət orqanlarının səlahiyyətinin müəyyən olunması, həmçinin fəaliyyətlərinin əlaqələndirilməsi sahəsində münasibətlərin tənzimlənməsinə yönəldiləcək.

Normativ-hüquqi və metodoloji təminatın təkmilləşdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi sistemlilik, obyektivlik və Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun həyata keçiriləcək.

Dövlət orqanları tərəfindən E-xidmətlərin göstərilməsi üçün hüquqi əsasların yaradılması məqsədilə informasiyalaşdırma sahəsində Azərbaycan Respublikasının mövcud qanunvericiliyinin təhlili həyata keçiriləcək və E-hökumətin fəaliyyətini tənzim edən normativ-hüquqi aktlar kompleksi işlənib hazırlanacaq.

E-xidmətlərin yaradılması zamanı dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi məqsədi ilə dövlət xidmətlərinin göstərilməsi və inzibati prosedurlarının həyata keçirilməsi reqlamentlərinin təhlili aparılacaq ki, bunun da əsasında müvafiq normativ-hüquqi aktlar işlənib hazırlanacaq.

Baza komponentlərinin və idarələrarası informasiya sistemlərinin yaradılması zamanı vahid yanaşmaların həyata keçirilməsi və onların uyğunlaşdırılmasının təmin olunması məqsədilə E-hökumətin, dövlət orqanlarının informasiya sistemlərinin məlumat və servislərinin vahid inteqrasiya mexanizmini təmin edən milli texnoloji standartların işlənib hazırlanmasını və beynəlxalq standartların qəbul olunmasını, informasiya resurslarının və sistemlərinin dövlət reyestrinin yaradılmasını, informasiya layihələrinin və özlərinin inteqrasiya və təhlükəsizlik tələbləri üzrə dövlət ekspertizalarının keçirilməsini nəzərdə tutan vahid metodoloji baza infrastrukturu işlənib hazırlanacaq.

Dövlət orqanlarının E-xidmətlərinin yaradılması və həyata keçirilməsi dövlət informasiya sistemlərinin yaradılması və inkişaf etdirilməsi çərçivəsində gerçəkləşdiriləcək.

Dövlət orqanlarının E-xidmətlərinin yaradılması dövlət xidmətlərinin göstərilməsi və inzibati prosedurların həyata keçirilməsi reqlamentlərinin funksional təhlilinin aparılması əsasında həyata keçiriləcək. Aparılmış təhlilin nəticələrinə görə dövlət idarəetmə və inzibati reqlamentlərin (prosedurların) həyata keçirilməsi sisteminin modernləşdirilməsi üzrə təkliflərin hazırlanması planlaşdırılır.

Bu istiqamətdə tədbirlərin həyata keçirilməsi çərçivəsində E-xidmətlərin gerçəkləşdirilməsi və E-hökumət infrastrukturunun baza komponentləri ilə qarşılıqlı fəaliyyət sahəsində dövlət orqanlarının informasiya sistemləri ilə bağlı tələblər müəyyən olunacaq.

Proqramın həyata keçirilməsinin ilkin mərhələsində dövlət E-xidmətlərinin işlənilməsi və inkişaf etdirilməsi üçün reqlamentin və həmçinin onların standart sənədləşdirmə forması müəyyən olunacaq.

Dövlət orqanları tərəfindən E-xidmətlərin təqdim olunması mövcud informasiya sistemlərinə dəyişikliklərin edilməsi və ya E-hökumət portalı ilə inteqrasiya üçün qarşılıqlı fəaliyyət standartlarını nəzərə almaqla yeni informasiya sistemlərinin işlənib hazırlanmasını nəzərdə tutur [3, s. 218].

Proqram çərçivəsində 83 xidmət növündən ibarət E-xidmətlərin göstərilməsi planlaşdırılır. Vətəndaşların və təşkilatların fəaliyyətinin əsas sahələrinə müvafiq olaraq baza E-xidmətlərinin siyahısı tərtib olunacaq. Transaksiya xidmətləri bank sistemi ilə qarşılıqlı əlaqə üçün “ödəniş şlüzünün” yaradılmasından sonra həyata keçiriləcək.

**Açar sözlər:** elektron hökumət, siyasət, inkişaf, elektron sənəd, informasiya

**İstifadə edilmiş ədəbiyyat**

1. İsmayılov G.İ. İnformasiya iqtisadiyyatı. Dərslik. Bakı: 2013
2. İsmayılov G.İ. İnformasiya iqtisadiyyatının meydana gəlməsinin tarixi dövrləri. Bakı: Avropa, 2013
3. Белл Д. Грядущее постиндустриальное общество. Образец социального прогнозирования. М.: Академия, 2004

**Гюльоглан Исмайлов**

**ЭТАПЫ ИНФОРМАТИЗАЦИИ ГОСУДАРСТВЕННЫХ ОРГАНОВ**

**Резюме**

В статье показаны юридические основы информатизации государственных органов, поэтапно рассмотрены проведенные работы Министерством Связи и Высоких Технологий Азербайджанской Республики. Анализированы и разработаны рекомендации в сфере информатизации государственного управления.

**Ключевые слова:** электронное правительство, политика, развития, электронный документ, информация

**Guloghlan Ismayilov**

**PHASES OF INFORMATIZATION OF STATE AUTHORITIES**

**Summary**

The legal basis of informatization of state authorities were shown in the article, the work carried out by the Ministry of Communication and Information Technologies of Azerbaijan Republic was looked through in stages. At the same time, some problems in the field of informatization of state administration were investigated and analyzed.

**Keywords:** e-government, politics, electronic documents, information, informative society

**UOT – 338.3**

**Firuz Qurbanov**
**Qərb Universiteti**

# TURİZMİN DAVAMLI İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏR

*İnteqrasiyanın genişlənməsinin əsas xüsusiyyəti turizmin inkişafı ilə bağlıdır. Bu isə özünü tərkib elementlər və proseslər arasında əlaqələrin genişlənməsi, dərinləşməsində büruzə verərək, turistlərin sürətlə dəyişən tələbatlarının ödənilməsi baxımından yeni birliyin yaradılmasına gətirib çıxarır. Turizm regionun tərkib hissəsini təşkil edən böyük bir sosial-iqtisadi sistemdir. Burada infrastruktur komponentlərinin sayı artır, birbaşa və dolayı yolla turist xidmətlərinə təsir göstərən sahələrin sayı artır. Bu isə turizmi yeni inkişaf edən bir sistem kimi xarakterizə edir ki, onun fəaliyyəti nəticəsində əvvəllər məlum olmayan xüsusiyyətlər aşkar edilir ki, bu da yeni elementlərin tətbiqi nəticəsində uzun dövr ərzində turizm sahəsinə marağın artmasına imkan verir. İşdə turizmin inkişafına təsir edən amillər təsnifləşdirilir,turist tələbatının formalaşmasına amilləri araşdırılır.*

Qloballaşma şəraitində turizmin əsas xüsusiyyəti inteqrasiyanın genişlənməsidir. Bu isə özunü tərkib elementlər və proseslər arasında əlaqələrin genişlənməsi, dərinləşməsində büruzə verərək, turistlərin sürətlə dəyişən tələbatlarının ödənilməsi baxımından yeni birliyin yaradılmasına gətirib çıxarır [3].

Təhlil nəticəsində belə nəticəyə gəlmək olur ki,turizm sosial-iqtisadi sistem-regionun tərkib hissəsini təşkil edən böyük bir sistemdir. Burada infrastruktur komponentlərinin sayı artır, birbaşa və dolayı yolla turist xidmətlərinə təsir göstərən sahələrin sayı artır. Bu isə turizmi yeni inkişaf edən bir sistem kimi xarakterizə edir ki, onun fəaliyyəti nəticəsində əvvəllər məlum olmayan xüsusiyyətlər aşkar edilir ki, bu da yeni elementlərin tətbiqi nəticəsində uzun dövr ərzində turizm sahəsinə marağın artmasına imkan verir.

Bəzi iqtisadçı alimlərin fikrincə, amil – 1) iqtisadi fəaliyyətə təsir edən istehsal və iqtisadi proseslərin hərəkətverici qüvvəsidir; 2) iqtisadi proses və onun nəticələrinə təsir edən səbəb, parametr və ya göstəricidir.

Regionda turizmin davamlı inkişafının əsas amili turistlərdir. Məhz insan və onun tələbatı turist sisteminin əsas elementi kimi çıxış edir.Turizmin inkişafının müxtəlif mərhələlərində turist tələbatı hər zaman inkişafın vektoru və onun formalaşması səviyyəsinə əhəmiyyətli təsir göstərir.

Xarici amillər turizmin fəaliyyəti üçün zəruri olan hadisə və proseslər yığımıdır [2, s.150]. Bu amillər turizmin inkişaf şəraitini formalaşdırır, eyni zamanda onun inkişafını ya stimullaşdırır, ya da ləngidir. Xarici amillər turizmə cəmiyyətdə baş verən dəyişikliklərlə təsir edir və turizm sisteminin ayrı-ayrı elementləri üçün eyni əhəmiyyət daşımırlar.

Xarici amillərin öyrənilməsinin zəruriliyi onun dinamizmi və mürəkkəbliyi ilə xarakterizə olunur. Xarici mühitin mürəkkəbliyi, hər şeydən əvvəl, onun haqqında kifayət qədər məlumat əldə etməyin mümkün olmaması ilə əlaqədardır ki, bu da elementlərin ayrı-ayrılıqda öyrənilə bilməməsini şərtləndirir. Bu zaman turist subyektlərinin yeni səviyyəyə çıxışında (məs. turoperator daxili bazardan beynəlxalq bazara çıxdıqda) xarici mühit amilləri yeni keyfiyyətə malik olurlar (qanunvericiliyin təkmilləşdirilməsi, yeni turist tələbatı, yeni rəqabət mühiti və s.)

Turizm fəaliyyətinə təsir edən xarici amillərə aşağıdakıları aid etmək olar: təbii-coğrafi, mədəni-tarixi, iqtisadi, sosial-demoqrafik, siyasi-hüquqi, ekoloji, texnoloji.

Təbii-coğrafi və mədəni-tarixi amillər, turist resurslarının əsası kimi, turistlər tərəfindən bu və ya digər regionun seçilməsində həlledici rola malikdir.Onlar turizmin inkişaf sürəti və istiqamətinə, onun həcminə əsaslı təsir edirlər. Qeyd edək ki, bu amillər dəyişməz, əvəzi olmayan dəyərə malikdir. İnsan onları sərbəst şəkildə yaratmaq, dağıtmaq və yenidən bərpa edə bilməz. İnsan yalnız onları öz tələbatına uyğun dəyişdirə və turist məqsədi üçün istifadəyə yararlı edə bilər.

İqtisadi amillərin təsiri (məs. regionda iqtisadi vəziyyətin dəyişilməsi, inflyasiya, əhalinin gəlirlərinin dəyişilməsi, işsizlik) onunla şərtlənir ki, iqtisadiyyatın və turizmin inkişaf meyilləri arasında sıx asılılıq mövcuddur. Bu baxımdan inkişaf etmiş dövlətlər dünya bazarında vətəndaşlarının turist gedişlərinin sayına görə liderlik edirlər. Ölkənin iqtisadi vəziyyətindən asılı olaraq nəinki əhalinin gəlirləri, həm də turizmin maddi-texniki baza və infrastrukturunun inkişaf səviyyəsi də asılıdır.

Sosial amillər cəmiyyətin əhvalı, gözləntisi, tələbatı və marağını xarakterizə edir. Sosial amillər sırasında, əhalinin asudə vaxtının uzadılmasını (iş vaxtının qısaldılması, illik məzuniyyətlərin vaxtının uzadılması) göstərmək olar ki, bu da yeni potensial turistlərin gəlişi deməkdir. Asudə vaxtın uzadılması müasir elmi-texniki inqilabla bağlıdır ki, burada da əqli əməyin əhəmiyyəti artır, istehsal və məişət gərginliyi artır. Bu öz növbəsində insanların psixoloji və fiziki yorğunluğuna gətirir ki, o da iş qüvvəsinin bərpa olunması üçün əlavə tədbirlərin görülməsini tələb edir. Bunun əldə olunmasına isə turizm kömək edir.

Turizmin inkişafının sosial amillərinə müxtəlif əmtəə və xidmətlərin istehlak səviyyəsi; əhalinin təhsil səviyyəsi, mədəni və estetik tələbatının yüksəlməsi; cəmiyyətdə sosial mobillik aiddir. Turizmin inkişafında sosial amillərin mühüm elementi kimi həyat tərzi və modanı aid etmək olar ki, bunlar da bu və ya digər turist məhsulunun seçimində insanın nəyə üstün verməsinə əhəmiyyətli təsir göstərir. Məs., insan aktiv həyat tərzi aparanda, ekstremal idman növləri ilə məşğul olanda turun alınmasında əsasən o proqrama üstünlük verəcək ki, hansı ki, onun aktiv istirahət tələbatını reallaşdırmağa imkan verəcək.

Turizmin inkişafına daim təsir edən amil demoqrafik amillərdir. Bunlar isə əhalinin sayı, onun ayrı-ayrı ölkə və regionlar üzrə yerləşdirilməsi, cins və yaş tərkibi, ailənin tərkibi və quruluşunu (təhsil alanları, təqaüdçüləri, əmək qabiliyyətli əhalini ayırmaqla) özündə əks etdirir. Belə ki, dünyada və ayrı-ayrı regionlarda əhalinin artımı birbaşa turistlərin sayının artmasına təsir edir. Statistik göstəricilərin təhlili göstərir ki,turistlərin ölkədən axını əhalinin sıx məskunlaşdığı ərazidə daha intensiv olur, nəinki az məskunlaşmış ölkələrdə. Bundan başqa, turistlərin hərəkətindəki dəyişikliklər onların yaş, cins və ailə vəziyyətindən asılı olaraq müşahidə edilir.

Məlumdur ki, hazırda beynəlxalq turizmin inkişafı əhalinin yaşlı qruplarında artmağa meyillidir. Əhalinin bu qrupunda turizmin intensivliyinin artmasının əsasını aşağıdakı səbəblər təşkil edir: əhalinin maddi vəziyyətinin yüksəlməsi, ömür müddətinin artması, eyni zamanda yaşlanmaya psixoloji yanaşmanın dəyişməsi. Nəticədə, hazırda qərb ölkələrində aktiv istirahət etmək arzusunda olan yaşlı insanların sayı kifayət qədər çoxdur və onlar kifayət qədər maddi vəsaitə malikdirlər. Eyni zamanda onlar çox böyük məmnuniyyətlə öz yığımlarını şəxsi istehlaklarına sərf etməyə üstünlük verirlər.

Demoqrafik amillər qrupuna həmçinin urbanizasiya aiddir, onların səviyyəsi də turist intensivliyinə birbaşa mütənasibdir. Bir çox qərb ekspertləri qeyd edirlər ki, son zamanlar qərbi Avropa ölkələrinin kənd əhalisinin turist aktivliyi əhəmiyyətli şəkildə artmışdır və onların turist məhsulu və xidməti istehlakının intensivliyi artmışdır. Bu məlumat ənənəvi aktiv turist xidməti istehlakçıları qrupuna turist bazarında kifayət qədər perspektiv seqmentin proqnozlaşdırılmasına imkan verir.

Regionda turizmin davamlı inkişafının təmin edilməsi baxımından demoqrafik amilin öyrənilməsinin zəruriliyi onunla bağlıdır ki, onlar əhalinin strukturunu öyrənməyə əsas verir və beləliklə, bu və ya digər turist xidmətinin potensial istehlakçılarını müəyyən etməyə əsas verir.

Turizmin inkişafına siyasi-hüquqi amillər də əsaslı təsir edir. Belə ki, dünyada və ayrı-ayrı ölkələrdə siyasi vəziyyət, sərhədlərin açılması siyasəti, turizm sahəsində inzibati nəzarətin yümşaldılması, pul və vergi siyasətinin unifikasiyası. Turist aktivliyi əsaslı şəkildə siyasi vəziyyətdən asılıdır. Belə ki, 90-cı illərin əvvəllərinə nəzər salsaq, ABŞ-ın Fars körfəzindəki hərbi əməliyyatları nəticəsində dünyanın bütün bölgələrində turistlərin sayının azalması müşahidə edilmişdir, İtaliya, İngiltərə, Almaniya və İsveçrədə turistlərin mütləq sayı azalmışdır. Azərbaycanda da bu illərdə siyasi vəziyyətin sabit olmadığı bir vaxtda ölkəyə gələn turistlərin sayı əsaslı şəkildə azalmışdır.

Ekoloji amillər turizmin inkişafına birbaşa təsir göstərirlər. Belə ki, ətraf mühit turist fəaliyyətinin əsasını və potensialını təşkil edir. Turizmin qeyri-proporsional inkişafı onun fəaliyyətinin əsa-

sını sarsıda bilər: turizm təbii resursları istehlak edir; kütləvi turizm mərkəzlərində bu proses sarsıdıcı xarakter daşıyır; ətraf mühitə vurulan ziyan turist təklifinin azalmasına gətirib çıxarır.

Texnika və texnologiya ilə bağlı olan texnoloji amillər turizmin inkişafına əsaslı şəkildə təsir edirlər, yeni növ xidmət istehsal etmək, satmaq müştərilərə xidməti təkmilləşdirmək üçün imkanlar açır. Elm və texnikanın inkişafı turist xidmətinin (otel təsərrüfatı, nəqliyyat, səyahət bürosu) kütləvi istehsal vasitələrinin təkmilləşdirilməsinə şərait yaradır. Belə ki, nəqliyyatın texniki cəhətdən yenilənməsi səyahət edənləri komfort şəraitində daşınmasına imkan verir.

**Nəqliyyat növlərinə görə xidmət göstərilmiş turistlərin sayı**

cədvəl 1

| | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2013 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Xidmət göstərilmiş vətəndaşların sayı** | **45605** | **56290** | **59607** | **59700** | **69923** | **91961** | **83620** | **101431** | **91961** |
| o cümlədən: | | | | | | | | | |
| Azərbaycan vətəndaşları | 42412 | 47152 | 46034 | 47730 | 57777 | 81638 | 69555 | 82808 | 81638 |
| digər ölkə vətəndaşları | 3193 | 9138 | 13573 | 11970 | 12146 | 10323 | 14065 | 18623 | 10323 |
| **Avtobus** | **14100** | **21212** | **25028** | **17766** | **10665** | **14868** | **22073** | **30240** | **14868** |
| ondan: | | | | | | | | | |
| Azərbaycan vətəndaşları | 13070 | 18108 | 17873 | 10555 | 10553 | 14868 | 19470 | 18206 | 14868 |
| digər ölkə vətəndaşları | 1 030 | 3 104 | 7 155 | 7 211 | 112 | - | 2603 | 12034 | - |
| **Dəmir yolu** | **1300** | **1364** | **384** | **58** | **102** | **340** | **184** | **244** | **340** |
| ondan: | | | | | | | | | |
| Azərbaycan vətəndaşları | 1252 | 1347 | 374 | 58 | 102 | 22 | 184 | 214 | 22 |
| digər ölkə vətəndaşları | 48 | 17 | 10 | - | - | 318 | - | 30 | 318 |
| **Hava nəqliyyatı** | **22908** | **28053** | **28447** | **32510** | **49594** | **68046** | **48669** | **61991** | **68046** |
| ondan: | | | | | | | | | |
| Azərbaycan vətəndaşları | 20874 | 22136 | 22216 | 27751 | 37593 | 58041 | 37207 | 59432 | 58041 |
| digər ölkə vətəndaşları | 2 034 | 5 917 | 6 231 | 4 759 | 12 001 | 10005 | 11462 | 2559 | 10005 |
| **Su nəqliyyatı** | **-** | **-** | **-** | **4269** | **16** | **-** | **16** | **-** | **-** |
| ondan: | | | | | | | | | |
| Azərbaycan vətəndaşları | - | - | - | 4269 | 16 | - | 16 | - | - |
| **Minik avtomobilləri** | **2762** | **3569** | **5463** | **5097** | **4357** | **8707** | **5934** | **4956** | **8707** |
| ondan: | | | | | | | | | |
| Azərbaycan vətəndaşları | 2737 | 3552 | 5286 | 5097 | 4357 | 8707 | 5934 | 4956 | 8707 |
| digər ölkə vətəndaşları | 25 | 17 | 177 | - | - | | - | | - |
| **Bir neçə nəqliyyat növləri, digər nəqliyyat növü** | **4535** | **2092** | **285** | **-** | **5189** | **-** | **6744** | **4000** | **-** |
| ondan: | | | | | | | | - | |
| Azərbaycan vətəndaşları | 4479 | 2009 | 285 | - | 5156 | - | 6744 | - | - |
| digər ölkə vətəndaşları | 56 | 83 | - | - | 33 | - | - | 4000 | - |

Cədvəldən göründüyü kimi turistlərin daşınmasında ən rahat, tez və müxtəlif istiqamətlərdə hərəkət edən nəqliyyat növlərindən biri kimi hava nəqliyyatının xüsusi çəkisi demək olar ki, 74% təşkil etmişdir. 2013-cü ildə 2006-cı illə müqayisədə isə 2,9 dəfə artım müşahidə edilmişdir. Turizmin inkişafında nəqliyyatın xüsusi rolu var. Turistlərin uzaq məsafəyə aparılmasında ildən-ilə hava nəqliyyatının rolu artır.

Turizm sənayesinə kompüter texnikasının tətbiq edilməsini xüsusilə qeyd etmək lazımdır. Belə ki, hazirda kütləvi turist səyahətlərinin təşkili kompüter texnikası olmadan mümkün deyil. İnformasiya texnologiyaları turist məhsulları istehsalı və onların bölgüsünü yaymağa imkan verir. Turizmdə internet yalnız informasiyanın ötürülməsi və mübadiləsi funksiyasını deyil, eyni zamanda yeni satış sistemini formalaşdırır ki, bu da birbaşa son istehlakçını turist xidmətinin sifarişçiləri ilə əlaqələndirir və hazırda turist məhsullarının ənənəvi satış kanalları ilə ciddi rəqabət aparır.

Xarici mühitin nəzərdən keçirilən amilləri regionda turizmin davamlı inkişafına təsir edirlər. Lakin qeyd etmək lazımdır ki, bu amillər ölkədə daxili vəziyyətə təsir göstərən beynəlxalq amillərin təsirinə də məruz qalırlar. Belə ki, dünya maliyyə-iqtisadi böhranı hazırda bütün ölkələrin vəziyyətinə təsir edir. Bununla yanaşı qida məhsulları, enerji daşıyıcılarının dünya qiymətlərində artım meyilləri müşahidə edilir, bu isə sabitliyin pozulmasına, əmtəə və xidmətlərə tələbatın azalmasına gəti-

rib çıxarır. Ölkənin beynəlxalq arenada vəziyyəti, onun digər dövlətlərlə qarşılıqlı əlaqələri qloballaşma şəraitində xüsusilə mühüm əhəmiyyət daşıyır və regionun ümumiqtisadi inkişaf sürətinə, o cümlədən turizmə təsir edir.

Daxili amillər - turizmdə öz əksini tapan həlledici hadisə və meyillərdir. Onların öyrənilməsi həm xarici mühit amillərinin mənfi təsirinin azalması, həm də sistemin daxilində ehtiyatların aşkara çıxarılması baxımından zəruridir.

Daxili mühit amillərinə hər şeydən əvvəl, maddi-texniki amillər aiddir ki, bunlar da turizm infrastrukturunun inkişafı ilə (nəqliyyat,qida müəssisələri,məişət xidməti, rekreasiya sferası və s.) əlaqədardır. Eyni zamanda turizmin inkişafında əsas rol oynayan amilləri də göstərmək lazımdır. Bu amillər turist xidmətinin tələb və təklifinə təsir edirlər: istehlakçıların məlumatlandırılması və onların tələbatlarının dəyişilməsi; turizmdə əlaqələndirmə fəaliyyəti və inhisarlaşma prosesi; turizmin kadrla təminatı; xüsusi turist biznesinin inkişafı; kütləvi informasiya vasitələrinin inkişafı və s. Turizmin inkişafına təsir edən amillərə mövsümülüyü də göstərmək olar. Mövsümülük – müəyyən dövr ərzində müəyyən yerlərdə turist axınlarının mərkəzləşməsi xüsusiyyətidir. Bu göstərici üzrə turist aktivliyinin pik nöqtəsi may-iyul aylarına düşür ki, bu da çimərliklik mövsümü, eyni zamanda ölkə regionlarının sosial-iqtisadi inkişaf proqramının reallaşdırılması nəticəsində regionların cəlbedici mənzərəsi və infrastrukturun inkişafı,beynəlxalq səviyyədə keçirilən yarışlar və digər tədbirlərlə bağlıdır.

Turizmdə mövsümülük mühit, sosial və psixoloji xarakterə malik olan amillərlə müəyyən edilir. Mühit amilləri ondan ibarətdir ki, dünyanın müxtəlif yerlərində səyahət etmək, müalicə qəbul etmək, istirahət, idmanla məşğul olmaq üçün hava şəraiti ilin fəsillərindən asılıdır. Sosial amillər onunla şərtləndirilir ki,məktəblilərin istirahətinin əsas hissəsi yay aylarına düşür. Bu baxımdan valideynlər öz məzuniyyətlərini məhz bu vaxta salırlar. Psixoloji xarakterli amillərə, ənənə və bənzətmələr aiddir. Turizm aktivliyinin pik və enmə nöqtələrinin izahı əksər turistlərin konservatizmi ilə bağlıdır. Belə ki, əksəriyyət elə hesab edir ki, istirahət üçün ən yaxşı vaxt yay aylarıdır.

Turizmin iqtisadi səmərəliliyinin artırılması üçün onun maddi-texniki bazasının istismar müddətinin, personalın əməyindən istifadənin səmərəliliyinin ,turizmdən daxil olan gəlirlərin artırılmasına nail olmaq üçün turizmdə mövsümülüyü hamarlaşdırmaq lazımdır. Bu istiqamətdə səmərəli yollardan biri turizm sisteminin inkişafı və formalaşması prosesinə yeni elementlərin tətbiqidir.Bu isə özünü turist məhsullarının təkmilləşdirilməsi,yeni marketinq strategiyası, yeni idarəetmə metodlarının işlənilməsində göstərir.

Göstərilən amilləri aşağıdakı qruplara ayırmaq olar: selektiv, reallaşan, lokal, ekstensiv, intensiv, məhdudiyyətləşdirici.

Selektiv amillər turizmin inkişafının zəruriliyi və məqsədyönlülüyünü müəyyən edir. Onlara aşağıdakılar aiddir: iqtisadi, demoqrafik, siyasi-hüquqi, sosial.Reallaşdırıcı amillər turizm tələbatlarının tam ödənilməsinə yönəldilir. Bunlara isə maddi-texniki amilləri göstərmək olar. Lokal amillər müəyyən ərazidə turist fəaliyyətinin sərhədlərini müəyyənləşdirir: təbii-coğrafi, tarixi-mədəni, ekoloji.

Ekstensiv amillər turist sahəsinin kəmiyyətcə inkişafı və genişlənməsinə yönəldilmişdir. Onlara aşağıdakıları aid etmək olar: işçilərin sayının artması, təsərrüfat dövriyyəsinə cəlb edilmiş material resurslarının sayının artırılması, turizmin yeni obyektlərinin tikilməsi. İntensiv amillər – kadrların ixtisasının artırılması, idarəetmə sisteminin inkişafı, maddi texniki bazanın təkmilləşdirilməsi, material resurslarının rasional istifadəsi və s.

Məhdudlaşdırıcı amillərə aşağıdakılar aiddir: iqtisadi böhran, siyasi və maliyyə qeyri-sabitlik, istehlak məhsullarının qiymətlərinin artması, işsizlik, ekoloji vəziyyət, turizm rəsmiləşdirilməsinin sərtləşdirilməsi və s.

Son dövrlər turist tələbinin artmasına təsir edən amillər əsaslı şəkildə artmışdır. Tələb kəskin şəkildə differensiallaşmışdır: yüksək gəlirli əhali xidmətin keyfiyyətinə yüksək tələb və seçim nümayiş etdirirlər. Tələbin müasir vəziyyəti turist texnologiyalarında, deməli, xidmət bazarında təklifin həcmi və quruluşunda [4, s.35] özünü büruzə verir.

Bununla bağlı demək olar ki, bu gün turizmin inkişafının əsas şərti diversifikasiyadır. Diversifikasiya dedikdə: müxtəlif sahələrə eyni zamanda kapital qoyuluşu; müəssisə tərəfindən istehsal edilən məhsulun çeşidinin genişləndirilməsi başa düşülür.

Alimlərin fikirlərini təhlil edərək qeyd etmək olar ki, diversiifikasiyanın məzmunu təklif edilən məhsul və xidmətlərin növlərinin dəyişilməsinə, onların keyfiyyətinin yüksəldilməsinə, coğrafi fəaliyyətinin genişləndirilməsinə, yeni istehsal sahələrinin mənimsənilməsinə istiqamətləndirilmişdir. Bu isə istehsalın səmərəliliyinin yüksəldilməsi, iqtisadi səmərənin əldə edilməsi, müəssisənin müflisləşməsi ehtimalının azaldılmasına təsir edir.

Turizmdə diversifikasiya göstərilən xidmətlərin çeşidinin keyfiyyət baxımından genişləndirilməsində, onların təkmilləşdirilməsində, turizmin yeni növlərinin formalaşmasında və artıq mövcud olanların birləşdirilməsində özünü ərs etdirir. Beləliklə, turist bazarına əlavə iştirakçılar cəlb etmək olar və yeni satış bazarlarına çıxmaq olar. Diversifikasiyanın əlverişli nümunəsi kimi Marriott kompaniyasını misal göstərmək olar ki, o da öz fəaliyyətini restoran biznesində başlamışdır. Restorana gələnlərin əksəriyyəti hava limanına gedərkən yolüstü qəlyanaltı sifariş edirdilər. Mariott təyyarələrdə qidanın təşkili ilə məşğul olmaq icazəsini almışdı. Bundan sonra o, təşkilatlara xidmət göstərməyə başladı. Daha sonra Mariottun müştərilər bazası ailə restoranlar şəbəkəsi hesabına genişləndi və otel biznesi ilə məşğul olmağa başladı.

Ümumi qloballaşma şəraitində turizmin davamlı inkişafının əsas şərti kimi inteqrasiya əlaqələri genişlənir ki, bu da həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə həyata keçirilir.Əksər alimlərin fikrincə, [5] turizmdə inteqrasiya birləşmə, genişlənmə və tərkib elementlərin əlaqələrinin dərinləşməsi deməkdir ki, bu da cəmiyyətdə intensiv şəkildə dəyişən turist tələbatının dolğun ödənilməsi məqsədilə, yeni bütöv bir sistemin yaradılmasına gətirib çıxarır. Biz bu fikirlə qismən razılaşa bilərik. Lakin əlavə etmək istərdik ki, əmlakın qismən və ya tam birləşməsi, resurslardan birgə istifadə, bazar infrastrukturu və ya fəaliyyət sahəsi turist sistemində müxtəlif resurslardan istifadədə ədalətin təmin edilməsinə şərait yaradır. Turizmdə inteqrasiyanın belə xarakterizə edilməsi iri sistemlərin xüsusiyyətləri, onların açıqlığı ilə izah olunur ki, bu da daxili və xarici amillərin qarşılıqlı imkanları hesabına həm turist obyektlərinin, həm də turist sisteminin subyektlərinin dəyişən tələbatlarının maksimal dolğun ödənilməsinə imkan yaradır.

Ölkənin ümumilikdə, və xüsusilə turizmin müasir inkişaf sürətinin təhlili göstərir ki, diversifikasiya və inteqrasiya sosial-iqtisadi sistemlərin davamlı inkişafının ayrılmaz tərkib hissəsini təşkil edirlər. Bu anlayışların mahiyyətini nəzərdən keçirərkək belə nəticəyə gəlirik ki, onların təsiri altında turizmin davamlı inkişafının novasiya amili formalaşır. Bu amilin mahiyyəti ümumilikdə turist sənayesi və ayrı-ayrı turist məhsullarının rəqabətqabiliyyətliliyinin artması istiqamətində turist fəaliyyətində müxtəlif yeniliklərin tətbiqini nəzərdə tutur. Bu amil həm maddi xarakter daşıyaraq yeni turist məhsullarının yaradılması və tətbiqində, həm də qeyri-maddi xarakter daşıyaraq yeni turist xidmətlərinin formalaşmasında özünü büruzə verir. Eyni zamanda novasiya amili turist müəssisələrinin təşkilati-idarəetmə fəaliyyətinin təkmilləşdirilməsi baxımından yeni idarəetmə formaları və metodlarının tətbiqini təcəssüm etdirir. Hər bir amil turizmin inkişafına güc və vaxt baxımından müxtəlif cür təsir edir. Lakin turist fəaliyyətinin fəaliyyəti və təşkilinin səmərəliliyini yüksəltmək üçün bu amilləri qarşılıqlı əlaqədə nəzərdən keçirmək lazımdır ki, bunun da nəticəsində amillər arasında əlaqə formalaşır. Müxtəlif amillər arasında kombinasiyalar müxtəlif xarakter daşıyır. Məsələn, novasiya amili bütün digər amillərlə əlaqədardır. Burada aşağıdakı əlaqələri ayırmaq olar:

- turist amili-novasiya amili yeni turist məhsullarının təklifi hesabına turistin tələbatının ödənilməsi. Qeyd edək ki, bu əlaqə turizm sistemində mühüm əhəmiyyət kəsb edir, belə ki, regionda davamlı turizm inkişafını təmin etmək üçün bu amillər hərəkətverici qüvvədirlər;
- sosial (məs. turizmdə yeni təhsil standartlarının işlənilməsi və tətbiqi);
- iqtisadi (məs. regionda turizmin inkişafına çəkilən xərclərin azaldılmasına imkan verən yeni idarəetmə metodlarının tətbiqi);
- informasiya (məs. elmi-texniki işləmələrlə bağlı informasiya) və s.

Nəticələri ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, elmi-texniki tərəqqi və sosial-iqtisadi tərəqqi turizmin inkişafına stimul verir. Lakin ekologiya, mədəniyyət və sosiologiyada ciddi problemlər yaranmağa başladı. Bu problemlərin aradan qaldırılması ilə bağlı XX əsrin ortalarında turizm sahəsində radikal yeniliklər tətbiq edilməyə başlandı.

Qeyd etdiyimiz kimi turist və novasiya amilləri turizmin inkişaf amilləri kimi çıxış edərək bu inkişafın vektorunu təşkil edirlər. Turist amili turizmin inkişafına təkan verən istirahət zamanı maddi və mənəvi tələbatların formalaşmasında özünü büruzə verir. Novasiya amili isə turizm sisteminin öz fəaliyyət sahəsində yeni elementlərin işlənilməsi və tətbiqinə yönəldilmiş bacarığı xarakterizə edir və turizmin regionda inkişafını təmin etmək üçün turist resurslarının rasional istifadəsinə yönəldilmişdir.

**Açar sözlər:** turizm, nəqliyyat, amil, turist tələbatı, qloballaşma

**İstifadə edilmiş ədəbiyyat**


1. Azərbaycanın statistik göstəriciləri. Bakı: Səda, 2014
2. Гапоненко Т.В. Управленческие решения: учебное пособие. Ростов н/Д: Феникс, 2008, 284
3. Макаренко С.Н., Саак А.Э. История туризма: Учебное пособие. Изд-воТРТУ, 2003, 94 с.
4. Севастьянова С.А. Методологические основы развития и системного управления туризмом в регионе, СПб.: СПбГИЭУ, 2005, 180 с.
5. Степанова С.А., Наволокина А.В. Экономика предприятия туризма: Учебное пособие / СПб.: СПбГИЭУ, ч.1. 2008, 475 с.


**Фируз Гурбанов**

**ВЛИЯНИЕ ФАКТОРОВ НА УСТОЙЧИВОЕ РАЗВИТИЕ ТУРИЗМА**

**Резюме**

Особенностью интеграционного развития является развитие туристической деятельности. А это себя проявляет в расширении взаимосвязей между составными элементами и процессами туристической деятельности. Туризм являясь составным элементом развития региона характеризует обширную социально-экономическую систему. Здесь растет число инфраструктурных элементов, а также число отраслей, которые прямым и косвенным образом влияют на туристические услуги. Все это характеризует туризм как развивающуюся систему, потребность в которой растет с каждым днем. Учитывая возросщую потребность в туристических услугах в статье рассматриваются классификация факторов, которые формируют туристическую потребность.

**Ключевые слова:** туризм, транспорт, факторы, туристическая потребность, глобализация

**Firuz Qurbanov**

**INFLUENCE FACTORS ON THE SUSTAINABLE DEVELOPMENTOF TOURISM**

**Summary**

The main feature of the integration development is the one of tourist activity. It is depicted in the expansion of interrelations between the main elements and process of tourist activities. Being as the main element of regional development the tourist characterizes the broad social and economic system. The number of infrastructure components and areas affecting the tourist services directly or indirectly is increasing here. All this characterizes the tourism as a developing system, need to which is inceasing day by day. Taking into account the increasing need for tourist service the article looks through the classification of factors, forming the tourist demand.

**Keywords:** tourism, transport, factors, tourist demand, globalization

**UOT – 339.01**

**Şövqi Quliyev**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.ü.f.d.**
**Xaqani Məmmədov**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**Təranə Əhmədova**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**

# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

*Məqalədə Azərbaycan Respublikasının xarici ticarət əlaqələri 2007-2013-cü illər üzrə kompleks təhlil edilmiş və xarici ticarətdə mənfi və məqam tendensiyalar müəyyənləşdirilmişdir. Belə ki, 1999-cu ildən etbarən ölkənin xarici ticarət əlaqələrində müsbət saldo ilə müşahidə olunduğu, ölkənin ixrac potensialından lazımi səviyyədə tam və səmərəli istifadə olunmadığı, hazırda Azərbaycan iqtisadiyyatının dünya bazarından asılılığı konkret rəqəmlərlə göstərilmişdir. Eyni zamanda məqalədə ölkə iqtisadiyyatına həddən artıq investisiya qoyulduğu, neft fondu üzrə kifayət qədər valyuta ehtiyatları yığıldığı bildirilir.*

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikası bu müstəqilliyi yaşatmaq və daha da möhkəmlətmək gücünə malik olan bütöv iqtisadi sistemin- müstəqil milli iqtisadiyyatın yaradılması zərurəti ilə üzləşmişdir. Dünya təcrübəsi göstərir ki, müasir dövrdə milli iqtisadiyyatın təşəkkülü və inkişafı prosesində qarşıya çıxan problemlərin uğurlu həlli əhəmiyyətli dərəcədə xarici iqtisadi əlaqələrin məqbul vasitələrlə genişləndirilməsi və inkişafı hesabına ölkə iqtisadiyyatının dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyasının təmin edilməsindən asılıdır. Bu, onunla izah olunur ki, müasir dövrdə dünyada baş verən köklü keyfiyyət dəyişiklikləri (beynəlxalq əmək bölgüsünün yeni əsaslar üzərində dərinləşməsi, qlobal problemlərin kəskinləşməsi, elmi-texniki tərəqqinin inqilabiləşməsi və s.) beynəlxalq iqtisadi inteqrasiyanı milli iqtisadi inkişafın zəruri şərtinə çevirmişdir. Bunun nəticəsidir ki, hazırda dünyada tədricən iqtisadi sərhədlərin silinməsi, bütün ölkələr üçün eyni qanunlara tabe olan qlobal iqtisadi sistemin – dünya təsərrüfat sisteminin təşəkkülü prosesi gedir.

Aydındır ki, belə şəraitdə sosial-iqtisadi inkişaf səviyyəsindən və milli xüsusiyyətlərindən asılı olmayaraq hər hansı bir ölkənin iqtisadi siyasəti ancaq o vaxt səmərəli ola bilər ki,o digər ölkələrin iqtsadi strategiyaları ilə uzlaşdırılmış olsun, başqa sözlə, yuxarıda qeyd olunan ümumi qanunlar nəzərə alınmaqla hazırlansın və həyata keçirilsin. Məhz belə siyasətin nəticəsində dünya təsərrüfat sisteminə fəal surətdə qoşulmaqla dövlətlər bir tərəfdən özlərinin müvafiq ehtiyatları olmadıqda belə cəmiyyətin tələbatını daha dolğun ödəmək, iqtisadiyyatın səmərəli strukturunu formalaşdırmaq və s. bu kimi digər problemləri həll etmək, digər tərəfdən isə özlərinin beynəlxalq əmək bölgüsündə malik olduqları üstünlükləri reallaşdırmaq imkanı əldə etmiş olurlar. Tam qətiyyətlə təsdiq etmək olar ki,bu gün iqtisadi inkişaf səviyyəsinə görə təbii ehtiyatları baxımından özündən dəfələrlə artıq dərəcədə zəngin olan ölkələri geridə buraxan ölkələrin (Yaponiya, C.Koreya, Malaziya və s.) müvəffəqiyyətlərinin başlıca səbəbi onların dünya təsərrüfat sistemnə səmərəli şəkildə inteqrasiya olunmalarındadır.

Buradan belə bir qənaətə gəlmək olar ki, müasir dövrdə milli inkişafın təmin olunması yalnız xarici və daxili amillərin dialektik vəhdəti bazasında mümkündür. Məhz buna görə də xarici iqtisadi əlaqələrin inkişaf etdirilməsi və bu əsasda iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyasının təmin olunması son dövrlərdə özünün dövlət müstəqilliyini əldə etmiş ölkələrin sosial-iqtisadi siyasətinin strateji istiqamətlərindən biri hesab olunur.

Bu ölkələr üçün dünya təsərüfat sisteminə inteqrasiya həm də ona görə əhəmiyyətlidir ki, ölkə iqtisadiyyatını xarici dövlətlərin və beynəlxalq təşkilatların üzünə açmadan və onlarla qarşılıqlı faydalı əlaqələr yaratmadan nə onların maliyyə imkanlarına arxalanmaq, nə mütərəqqi idarəçilik və təsərrüfatçılıq təcrübəsi qazanmaq, nə də ki, müasir texnika və texnologiya əldə etmək yolu ilə ümumi tərəqqiyə çatmaq olmaz.

İqtisadi baxımdan dünya təsərrüfat sisteminə inteqrasiyasının Azərbaycan üçün əhəmiyyəti isə daha böyükdür. Belə ki, dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikası iqtisadiyyat sahəsində iki fundamental problemi eyni zamanda həll etmək zərurəti qarşısında qalmışdır. Bunlardan birincisi və fikrimizcə, ən mühümü dövlət müstəqilliyimizi qoruyub yaşatmaq və daha da möhkəmlətmək gücünə malik olan bütöv milli iqtisadi sistem formalaşdırmaqdır. Bu onunla şərtlənir ki, güclü təbii-iqtisadi potensiala (zəngin təbii sərvətlərə, bol işçi qüvvəsinə, əlverişli coğrafi mövqeyə və s.) malik olması və bu potensialın keçmiş İttifaqın “Vahid xalq təsərrüfatı kompleksi”nə maksimum dərəcədə cəlb olunması müqabilində Azərbaycan Respublikasına milli inkişaf mənafeyi bir yana, hətta mövcud potensialdan səmərəli istifadə olunması baxımından da qeyri-təkmil struktura malik, səmərəsiz, natamam bir “sistem” kimi formalaşmış iqtisadiyyat miras qalmışdır. İqtisadiyyatda mövcud olan bu cür çatışmazlıqlar və uyğunsuzluqlar iqtisadi artımın təmin olunması, əmək ehtiyatlarının optimal məşğulluğu, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, ətraf mühitin mühafizəsi və s. bu kimi mühüm sosial-iqtisadi problemlərin həllinə mənfi təsir göstərmişlər.

Buradan aydın olur ki, belə bir şəraitdə Azərbaycanda dövlət müstəqilliyinin iqtisadi əsaslarının möhkəmləndirilməsi və sosial-iqtisadi inkişafın təmin olunması, hər şeydən əvvəl, bütöv iqtisadi sistemin formalaşdırılmasını tələb edir.

Bu problemin həlli milli mənafe baxımından iqtisadi sistemin yenidən qurulmasını, ölkənin iqtisadi potensialının millətin iqtsadi və sosial inkişafına yönəldilməsini tələb edir ki, bu da öz növbəsində xalq təsərrüfatının strukturunun iqtisadi potensiala, daxili tələbata və ölkənin beynəlxalq əmək bölgüsündə malik olduğu üstünlüklərə uyğun olaraq təkmilləşdirilməsini, məhsuldar qüvvələrin optimal inkişafının təmin olunmasını, mükəmməl iqtisadi təhlükəsizlik sisteminin yaradılmasını və s. nəzərdə tutur.

İkinci mühüm məsələ isə real bazar münasibətlərinə keçidlə əlaqədar olaraq iqtisadi münasibətlərin əsaslı şəkildə yenidən qurulması zərurətidir.

Bu problemin həlli isə bazar infrastrukturunun formalaşdırılmasını, mülkiyyət çoxnövçülüyünün yaradılmasını, istehsalçı və istehlakçıların sərbəstliyinin təmin olunmasını, azad rəqabət üçün şərait yaradılmasını və s. nəzərdə tutur.

Eyni zamanda nəzərə almaq lazımdır ki, bu problemlərin həllini bir sıra digər amillər; məcburi cəlb olunduğumuz müharibə və onun doğurduğu nəticələr (ölkənin ərazisinin 20 faizinin zəbt olunması, iqtisadi potensialın 15 faizdən çoxunun itirilməsi, 1 milyondan artıq didərgin və qaçqının sosial-iqtisadi problemləri və s.), on illərlə formalaşmış iqtisadi əlaqələrin, o cümlədən istehsal-kooperasiya əlaqələrinin birdən-birə pozulması, dünya bazarlarına, həmçinin ənənəvi bazarlara çıxış yollarında yaranmış maneələr və s. daha da çətinləşdirmişdir.

Təbii ki, bir-biri ilə kəsişən belə çoxsaylı sosial-iqtisadi problemləri təkcə daxili imkanlar hesabına həll etmək mümkün deyildir.

Buradan aydın olur ki, xarici iqtisadi əlaqələrin məqbul vasitələrlə genişləndirilməsi və inkişafı yolu ilə ölkə iqtisadiyyatının dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası müasir dövrdə Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın təmin edilməsinin zəruri şərtidir.

Lakin bu da həqiqətdir ki, dünya təsərrüfat sisteminə səmərəli daxil olmaq avtomatik (öz-özlüyündə) baş vermir. Bunun üçün ilk növbədə yaranmış şəraitə adekvat, elmi cəhətdən əsaslandırılmış xarici iqtisadi fəaliyyət siyasətinin formalaşdırılması tələb olunur.

Tədqiqatlar göstərir ki, iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası üçün Azərbaycanda real imkanlar vardır və bu imkanlardan bacarıqla istifadə olunması ölkə qarşısında

duran bir çox aktual, sosial-iqtisadi problemlərin həllində, o cümlədən davamlı iqtisadi artımın təmin olunmasında mühüm rol oynamaqla yanaşı, perspektivdə Azərbaycanın dünyanın inkişaf etmiş ölkələri sırasına çıxmasını təmin edə bilər.

Aparılan tədqiqatlar göstərir ki, Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətində əsas yeri xarici ticarət əlaqələri tutur. Bu baxımdan Respublikanın 2007-2013-cü illərdə həyata keçirilən xarici ticarət əlaqələrinin təhlili və qiymətləndirilməsi maraq dağurur (bax cədvəl 1).

**Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin ümumi göstəriciləri (mln. ABŞ dolları ilə)**

Cədvəl 1

| **İllər** | **Dövriyyə** | | | **İdxal** | | | **İxrac** | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | **Cəmi** | **MDB** | **Uzaq xaric** | **Cəmi** | **MDB** | **Uzaq xaric** | **Cəmi** | **MDB** | **Uzaq xaric** |
| 2007 | 11 771,7 | 2 598, 3 | 9 173,4 | 5 713, 5 | 1 840,0 | 3 873,9 | 6058,2 | 758, 7 | 52 995,7 |
| 2008 | 54 926,0 | 3 417, 8 | 51 508,2 | 7 170,0 | 2 289,4 | 4 880, 6 | 47 756, 0 | 1 128, 4 | 46 627,7 |
| 2009 | 20 824,5 | 2 964,6 | 17 859,9 | 6 123, 1 | 1 827, 1 | 4 296,0 | 14 701,4 | 1 137,4 | 13 564,0 |
| 2010 | 27 960, 8 | 4 034, 9 | 23 925,8 | 6 600, 6 | 2 051,1 | 4 549, 5 | 21 360,2 | 1 983, 9 | 19 376, 3 |
| 2011 | 36 326,9 | 5 477, 9 | 30 849,0 | 9 756,0 | 2 553, 5 | 7 202, 5 | 26 570,9 | 2 924, 4 | 23 646, 5 |
| 2012 | 33 560, 8 | 3 630, 0 | 29 930,8 | 9 652,9 | 2 378, 0 | 7 274,9 | 23 907, 9 | 1 252,0 | 22 656,0 |
| 2013 | 34 687, 9 | 4 062,9 | 30 625,0 | 10 712, 5 | 2 553, 2 | 8 159,3 | 23 975, 4 | 1 509, 7 | 22 465,8 |

Mənbə: www.stat.gov.az

Azərbaycan Respublikası 2013-cü ildə dünyanın 129 dövləti ilə xarici ticarət əlaqələri qurmuşdur ki, bunlardan da 119-u uzaq xaric, 10-u isə MDB ölkələri olmuşdur. Aparılan araşdırmalar göstərir ki, 2007-ci ilə nisbətən ölkənin xarici ticarət dövriyyəsi 34% artaraq 34 687,9 mln. ABŞ dolları səviyyəsinə çatmışdır. Əgər 2007-ci ildə xarici ticarət dövriyyəsinin 22,1%-i MDB ölkələrinin 77,9%-i isə uzaq xaricin payına düşürdüsə, bu göstərici 2013-cü ildə 11,7% MDB ölkələrinin, 88,3% isə uzaq xarici ölkələrin payına düşmüşdür. Eyni zamanda təhlil dövründə idxalın həcmi 53,3% artaraq 10712,5 mln. ABŞ dollarına çatmış və 2007-ci ildə idxalın 32,2% MDB ölkələrinin 67,8% uzaq xaricin payına düşürdüsə, bu göstərici 2013-cü ildə 23,8% MDB ölkələrinin,76,2% isə uzaq xaricin payına düşmüşdür. Həmçinin təhlil dövründə ölkənin ixracı 6,1 mlrd. ABŞ dolları səviyyəsindən 4 dəfə artaraq 23,9 mlrd. ABŞ dolları səviyyəsinə çatmışdır. 2007-ci ildə ixracın 12,5% MDB ölkələrinin payına 87,5% uzaq xaricin payına düşürdüsə, bu göstərici, 2013-cü ildə 6,3% MDB ölkələrinin 93,7% uzaq xarici ölkələrin payına düşmüşdür. Təhlil göstərir ki, 2007-2013-cü illərdə uzaq xarici ölkələr ilə xarici ticarətin həcmi armış, MDB ölkələri ilə xarici ticarətin həcmi azalmağa doğru meyil etmişdir.

Əməliyyat növləri üzrə idxal və ixracın araşdırılması da maraqlıdır. Bu baxımdan ölkənin 2007-2013-cü illərdə həyata keçirdiyi idxalın həcminin 74,2%-i sərbəst dönərli valyuta ilə, 21,3%-i isə digər əməliyyat növləri ilə həyata keçirilmişdir (bax cədvəl 2).

**Əməliyyat növləri üzrə idxal (%)**

Cədvəl 2.

| **Əməliyyat növləri** | **2007** | **2008** | **2009** | **2010** | **2011** | **2012** | **2013** |
|---|---|---|---|---|---|---|---|
| Milli valyuta ilə hesablaşmalar | 0,3 | 0,2 | 0,6 | 0,2 | 0,0 | 0,1 | 0,0 |
| Sərbəst dönərli valyuta (SDV) ilə hesablaşmalar | 75,0 | 79,0 | 84,6 | 78,5 | 79,9 | 79,8 | 74,2 |
| Qapalı valyuta üzrə hesablaşmalar | 4,4 | 4,9 | 3,8 | 5,0 | 5,0 | 5,1 | 4,4 |
| Digər əməliyyat növləri | 21,3 | 15,8 | 11,1 | 16,3 | 15,1 | 15,0 | 21,4 |
| Cəmi (*Faizlə*) | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |

Qeyd: Cədvəl DSK-nın məlumatları əsasında Exsel proqramında emal edilmişdir.

Əməliyyat növləri üzrə ixracın isə 2007-2013-cü illərdə daha çox hissəsi, yəni: 82,2-94%-i sərbəst dönərli valyuta ilə həyata keçirilmişdir (bax cədvəl 3).

**Əməliyyat növləri üzrə ixrac (%)**

Cədvəl 3

| Əməliyyat növləri | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|
| Milli valyuta ilə hesablaşmalar | 0,0 | 0,0 | 3,2 | 0,2 | 0,4 | 0,4 | 0,3 |
| Sərbəst dönərli valyuta (SDV) ilə hesablaşmalar | 82,2 | 38,5 | 91,7 | 95,5 | 96,0 | 95,3 | 94,0 |
| Qapalı valyuta üzrə hesablaşmalar | 2,4 | 0,4 | 0,9 | 0,7 | 1,0 | 1,1 | 1,5 |
| Müəssisə və obyektlərin tikintisi haqqında saziş-öhdəlik hesabına malların keçirilməsi | 7,4 | 59,7 | | | | | 0,6 |
| Digər əməliyyat növləri | 8,0 | 1,3 | 4,1 | 3,6 | 2,5 | 3,2 | 3,7 |
| Cəmi (faizlə) | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |

Qeyd: cədvəl DSK-nın məlumatları əsasında Exsel proqramında emal edilmişdir.

İdxalın və ixracın coğrafi quruluşunun təhlili də maraqlıdır. Aparılan təhlillər göstərir ki, ölkə idxalının 50%-dən çoxu Avroparegionunun payına, 34%-dən çoxu Asiya regionunun payına, 7% isə Amerikaregionunun payına düşmüşdür (bax cədvəl 4).

**İdxalın coğrafi quruluşu (%)**

Cədvəl 4

| Coğrafi regionlar | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|
| Cəmi (faizlə) | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| Avropa | 57,6 | 58,3 | 56,5 | 53,1 | 57,9 | 49,7 | 57,0 |
| Asiya | 34,3 | 35,0 | 35,5 | 39,2 | 32,6 | 39,3 | 34,3 |
| Amerika | 7,6 | 6,0 | 7,2 | 7,0 | 9,1 | 10,4 | 7,7 |
| Afrika | 0,3 | 0,5 | 0,6 | 0,3 | 0,1 | 0,4 | 0,8 |
| Okeaniya | 0,2 | 0,2 | 0,2 | 0,4 | 0,3 | 0,2 | 0,2 |

Mənbə: www.stat.gov.az

İxracın coğrafi quruluşunda da Avropa və Asiya ölkələrinin payı dominantlıq təşkil edir. Belə ki, 2007-ci ildə ölkədən Avropa regionuna ixrac olunan məhsulların həcmi 37,7% olmuşdursa, bu göstərici 16,3% artaraq 2013-cü ildə 54% çatmış, Asiya regionuna ixrac olunan məhsulların həcmi isə 2007-ci ildə müvafiq olaraq 54,4% olmuşdursa, bu göstərici 14,5% azalaraq 2013-cü ildə 39,9% enmişdir (bax cədvəl 5).

**İxracın coğrafi quruluşu (%)**

Cədvəl 5

| Coğrafi regionlar | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|
| Cəmi (faizlə) | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| Avropa | 37,7 | 59,4 | 51,9 | 59,1 | 71,5 | 52,9 | 54,0 |
| Asiya | 54,4 | 23,9 | 30,7 | 29,7 | 18,9 | 38,5 | 39,9 |
| Amerika | 7,9 | 16,3 | 16,0 | 9,5 | 8,6 | 6,7 | 4,1 |
| Afrika | 0,0 | 0,4 | 1,4 | 1,6 | 1,0 | 1,8 | 2,0 |
| Okeaniya | 0,0 | 0,0 | 0,0 | 0,1 | 0,0 | 0,1 | 0,0 |

Mənbə: www.stat.gov.az

2007-2013-cü illər üzrə məlumatlar göstərir ki, ölkəyə idxal olunan məhsullar həm çox çeşidliliyi ilə, həm də hazır məhsul olması ilə seçilir. Təhlili dövründə ölkəyə idxal olunan məhsulların 10%-15%-i ərzaq məhsulları, 22%-25% yüngül sənaye məhsulları, 27%-30% ağır sənaye məhsulları, 10%-15% isə digər yüksək texnologiyaya əsaslanan məhsullar təşkil edir (bax cədvəl 6).

**İdxalın əmtəə strukturu (%)**

Cədvəl 6

| Mal qrupları | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|
| Diri heyvanlar və heyvan mənşəli məhsullar | 0,8 | 0,7 | 1,1 | 1,3 | 1,2 | 1,2 | 1,2 |
| Dənli bitkilər | 5,4 | 5,7 | 3,6 | 4,8 | 3,2 | 3,9 | 4,1 |
| Şəkər və şəkərdən hazırlanan qənnadı məmulatları | 2,2 | 1,7 | 2,2 | 3,1 | 2,0 | 2,2 | 2,1 |
| Tütün və tütünün sənaye əvəzediciləri | 3,0 | 2,8 | 3,8 | 3,4 | 2,5 | 3,1 | 3,2 |
| Duz, kükürd, torpaq və daş, əhəng və sement | 1,8 | 1,8 | 1,7 | 1,9 | 1,4 | 1,9 | 2,0 |
| Mineral yanacaq, neftvəneftemalıməhsulları | 2,5 | 1,6 | 1,0 | 1,2 | 0,9 | 0,9 | 1,3 |
| Əczaçılıq məhsulları | 1,6 | 1,6 | 2,3 | 2,3 | 2,5 | 2,4 | 2,3 |
| Digər kimyəvi məhsullar | 1,2 | 0,8 | 0,9 | 1,1 | 1,2 | 1,3 | 1,1 |
| Plastikkütlələr, kauçuk, rezin, onlardanhazırlananməmulatlar | 3,1 | 3,4 | 2,8 | 3,4 | 3,7 | 4,4 | 3,3 |
| Oduncaq, mantar və onlardan hazırlanan məmulatlar, hörmə məhsulları | 1,3 | 1,2 | 1,4 | 2,5 | 2,7 | 2,8 | 2,6 |
| Oduncaqdan hazırlanan kütlə, kağız və karton, onlardan hazırlanan məmulatlar | 1,7 | 1,8 | 2,1 | 1,9 | 1,4 | 1,2 | 1,1 |
| Toxuculuq materialları və məmulatları | 1,0 | 0,8 | 0,9 | 0,9 | 0,8 | 0,8 | 0,9 |
| Daş, gips, sement, asbest, slyuda, keramika və şüşədən məmulatlar | 2,3 | 2,4 | 2,6 | 3,1 | 2,2 | 2,4 | 1,9 |
| Qara metallar | 2,1 | 2,7 | 2,6 | 3,4 | 4,3 | 4,6 | 3,6 |
| Qara metallardan məmulatlar | 8,7 | 6,6 | 6,4 | 8,5 | 7,7 | 9,0 | 7,0 |
| Nüvə reaktorları, qazanlar, avadanlıqlar və mexaniki qurğular, onların hissələri | 21,5 | 22,4 | 18,9 | 21,4 | 21,9 | 19,4 | 18,7 |
| Elektrik maşınları və avadanlıqları, aparatura, onların hissələri | 8,7 | 8,4 | 15,9 | 7,4 | 9,2 | 7,8 | 7,0 |
| Quru nəqliyyat vasitələri (dəmiryol nəqliyyat vasitələrindən başqa) və onların hissələri | 11,6 | 13,8 | 9,3 | 9,5 | 7,1 | 10,4 | 8,5 |
| Optik, fotoqrafik, kinematoqrafiya, ölçü, nəzarət, tibbi alət və aparatları, saatlar, musiqi alətləri | 3,1 | 3,2 | 3,5 | 2,7 | 2,0 | 3,6 | 3,0 |
| Mebel və müxtəlif sənaye malları | 1,2 | 1,5 | 1,1 | 1,4 | 1,6 | 2,2 | 1,9 |
| Cəmi (faizlə) | 84,8 | 84,9 | 84,1 | 85,2 | 79,5 | 85,5 | 76,8 |

Mənbə: cədvəl DSK-nın məlumatları əsasında Exsel proqramında emal edilmişdir.

Aparılan təhlillər göstərir ki, xarici ölkələrdən idxal olunan məhsulların böyük bir hissəsini Azərbaycanda istehsal etmək olar ki, bu da ölkənin idxaldan aslılığının azalmasına səbəb ola bilər. Ölkədən ixrac olunan məhsulların strukturu ixdalın strukturundan köklü surətdə fərqlənir. Belə ki, təhlil dövründə mineral yanacaq, sürtkü yağları, neft məhsullarının xüsusi çəkisi 81,4%-dən artaraq 92,7% çatmışdır (bax cədvəl 7).

**İxracın strukturunda əsas yer tutan məhsulların xüsusi çəkisi, faizlə (%)**

Cədvəl 7

| № | Məhsul bölmələri | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | Yeyinti məhsulları və diri heyvanlar | 6,7 | 0,9 | 2,7 | 1,9 | 2,1 | 2,6 | 2,7 |
| 2 | İçkilər və tütün | 0,5 | 0,0 | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,2 |
| 3 | Qeyri-ərzaq xammalı (yanacaqdan başqa) | 1,8 | 0,2 | 0,2 | 0,1 | 0,1 | 0,3 | 0,2 |
| 4 | Mineral yanacaq, sürtküyağları, analoji materiallar | 81,4 | 97,1 | 92,8 | 94,1 | 94,4 | 93,1 | 92,7 |
| 6 | Heyvan və bitki mənşəli yağlar, piylər | 1,1 | 0,2 | 0,7 | 0,7 | 0,5 | 0,8 | 0,8 |
| 7 | Əsasən materialın növünə görə təsnifləşdirilən sənaye malları | 3,6 | 0,9 | 1,2 | 0,8 | 1,1 | 1,2 | 1,1 |
| 8 | Maşınlar və nəqliyyat avadanlıqları | 2,4 | 0,3 | 1,4 | 1,0 | 0,2 | 0,4 | 0,7 |
| 9 | Müxtəlif sənaye məmulatları | 0,9 | 0,0 | 0,2 | 0,3 | 0,2 | 0,2 | 0,6 |
| | Cəmi | 98,4 | 99,6 | 99,3 | 99,0 | 98,7 | 98,7 | 99,0 |

Mənbə: cədvəl DSK-nın məlumatları əsasında Exsel proqramında emal edilmişdir.

Eyni zamanda aparılan təhlillər göstərir ki, Azərbaycan Respublikasının ixrac etdiyi məhsulların, demək olar ki, əksəriyyəti xammal və yarımfabrikat məhsullarıdır. Qeyd edək ki, ölkədən ixrac edilən xammalı son məhsul istehsalına çatdırmaqla daha çox gəlir əldə etmək olar.

Ölkəmizə idxal olunan məhsulların hansı ölkələrdən idxal olunduğu müəyyənlədirmək də maraqlıdır. Bunun üçün aşağıdakı cədvələ nəzər salaq.

**Azərbaycanın idxalında əsas yer tutan ölkələrin xüsusi çəkisi (faizlə)**

Cədvəl 8

| Ölkələr | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|
| Qazaxıstan | 3,89 | 2,8 | 1,0 | 4,4 | 2,2 | 3,5 | 2,9 |
| Rusiya Federasiyası | 17,6 | 18,8 | 17,5 | 17,3 | 16,8 | 14,3 | 14,1 |
| Ukrayna | 8,15 | 7,9 | 8,4 | 7,1 | 5,7 | 5,6 | 5,5 |
| Almaniya | 8,26 | 8,3 | 9,1 | 9,2 | 8,7 | 8,1 | 7,7 |
| Amerika Birləşmiş Ştatları | 4,71 | 3,7 | 4,3 | 3,1 | 6,5 | 7,4 | 3,5 |
| Böyük Britaniya və Şimali İrlandiyanın Birləşmiş Krallığı | 7,20 | 5,4 | 4,5 | 4,6 | 5,0 | 5,1 | 12,5 |
| Braziliya | 2,06 | 1,3 | 1,9 | 2,4 | 1,8 | 1,9 | 3,5 |
| Çin | 4,88 | 6,7 | 7,9 | 8,9 | 6,4 | 6,5 | 5,3 |
| Fransa | 1,82 | 1,9 | 2,3 | 2,1 | 6,2 | 1,9 | 4,0 |
| Gürcüstan | 1,10 | 0,7 | 1,0 | 0,8 | 0,9 | 1,3 | 1,2 |
| İran İslam Respublikası | 1,84 | 1,4 | 1,3 | 1,8 | 1,6 | 1,8 | 1,9 |
| İsveçrə | 0,76 | 1,1 | 1,5 | 1,5 | 1,9 | 1,4 | 1,5 |
| İtaliya | 2,47 | 2,7 | 2,1 | 1,8 | 2,6 | 2,7 | 2,3 |
| Koreya Respublikası | 1,60 | 2,3 | 2,0 | 2,4 | 2,1 | 2,5 | 2,1 |
| Niderland | 1,76 | 1,1 | 0,9 | 0,7 | 1,4 | 1,6 | 1,7 |
| Türkiyə | 10,93 | 11,3 | 14,8 | 11,7 | 13,4 | 15,8 | 13,7 |
| Yaponiya | 5,16 | 3,4 | 2,4 | 2,2 | 1,8 | 2,5 | 2,7 |
| Cəmi | 84,17 | 80,73 | 82,80 | 81,98 | 85,06 | 84,01 | 85,96 |

Mənbə: cədvəl DSK-nın məlumatları əsasında müəlliflər tərəfindən hesablanmışdır.

Cədvəl 8-in məlumatları göstərir ki, 2007-2013-cü illərdə ölkəmizə ən çox Rusiya Federasiyasından məhsullar idxal edilmiş və bu göstərici 14,1%-18,8%arasında dəyişmişdir. Bu baxımdan Rusiya Federasiyasından idxal olunan məhsulları qeyd etmək maraqlı olar:İribuynuzlu heyvanlar (7,4 mln. ABŞ dolları), təzə və dondurulmuş balıq (1,2 mln. ABŞ dolları), süd və qaymaq (2,9 mln. ABŞ dolları),kərə yağı, digər süd yağları və pastaları (2,4 mln. ABŞ dolları),pendir və kəsmik (4,0 mln. ABŞ dolları), buğda və buğda unu (155,0 mln. ABŞ dolları), bitki yağları (18,0 mln. ABŞ dolları), marqarin, digər qida qarışıqları (2,6 mln. ABŞ dolları), ət kolbasası (1,7 mln. ABŞ dolları), qənnadı və şokolad məhsulları (24,1mln. ABŞ dolları), makaron və çörək unu məmulatları (10,2 mln. ABŞ dolları) məmulatları, siqaret (165,0 mln. ABŞ doları) və s. göstərmək olar.

Yeri gəlmişkən qeyd edək ki, ölkəmizin idxal-ixrac əməliyyatlarında MDB ölkələrində Rusiyanın xüsusi çəkisi yüksək, digər ölkələrlə isə ticarət iqtisadi əlaqələri azalmağa doğru meyil etdiyi halda, uzaq xarici ölkələr üzrə bu proses daha da inkişaf edərək güclənir.

**Azərbaycanın ixracında əsas yer tutan ölkələrin xüsusi çəkisi (faizlə)**

Cədvəl 9

| Ölkələr | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|
| Rusiya Federasiyası | 13,0 | 3,5 | 8,7 | 6,9 | 7,8 | 7,0 | 7,4 |
| Almaniya | 4,2 | 1,5 | 3,1 | 2,2 | 3,8 | 5,2 | 6,3 |
| ABŞ | 4,2 | 11,4 | 9,6 | 6,6 | 6,7 | 6,9 | 3,9 |
| Böyük Britaniya | 3,5 | 2,4 | 2,3 | 1,1 | 1,4 | 2,5 | 5,2 |
| Braziliya | 1,6 | 0,5 | 0,6 | 0,6 | 0,5 | 0,5 | 1,1 |
| Çin | 2,5 | 1,8 | 3,0 | 3,3 | 1,8 | 2,4 | 1,9 |
| Fransa | 3,1 | 4,5 | 7,1 | 7,1 | 12,8 | 5,8 | 4,5 |
| Gürcüstan | 3,5 | 1,0 | 2,2 | 1,7 | 1,7 | 2,1 | 1,9 |
| Hindistan | 1,8 | 4,6 | 1,5 | 1,2 | 1,1 | 5,8 | 3,3 |
| İndoneziya | 3,4 | 2,6 | 3,2 | 2,8 | 2,6 | 5,3 | 8,1 |
| İran İslam Respublikası | 4,6 | 0,8 | 0,8 | 0,9 | 0,8 | 0,8 | 0,8 |
| İsrail | 3,4 | 6,7 | 6,3 | 6,5 | 2,4 | 5,1 | 3,7 |
| İsveçrə | 0,4 | 0,1 | 0,5 | 0,7 | 1,0 | 0,6 | 0,7 |
| İsveç | 0,1 | 0,2 | 0,6 | 0,2 | 0,2 | 0,2 | 0,1 |
| İtaliya | 9,2 | 35,3 | 18,8 | 25,6 | 26,4 | 17,3 | 18,0 |
| Koreya Respublikası | 1,8 | 1,6 | 1,3 | 1,3 | 1,8 | 0,7 | 0,8 |
| Tailand | 0,1 | 0,2 | 0,0 | 0,7 | 0,4 | 1,1 | 4,9 |
| Tayvan | 0,0 | 0,7 | 3,3 | 1,1 | 0,1 | 2,0 | 1,4 |
| Türkiyə | 14,3 | 2,6 | 4,9 | 3,4 | 4,8 | 6,3 | 5,7 |
| Yunanıstan | 1,2 | 0,5 | 0,9 | 1,0 | 0,6 | 2,5 | 2,3 |
| Cəmi | 75,9 | 82,5 | 78,6 | 74,7 | 78,7 | 80,4 | 82,0 |

Mənbə: cədvəl DSK-nın məlumatları əsasında müəlliflər tərəfindən hesablanmışdır.

Azərbaycan Respublikasından ixrac olunan məhsulların xüsusi çəkisində isə İtaliya ilə olan ticarət əlaqələri üstünlük təşkil edir. Bu da neft və neft məhsullarının ixracı ilə bağlıdır.

Qeyd olunanlarla əlaqədar olaraq müasir dövrdə bir çox ölkələr özlərinin “ticarət şərti indeksləri”ni hesablayırlar ki, bununla ölkədə istehsal olunan və ixrac edilən milli məhsulların dünya bazarında nə dərəcədə rəqabətə davamlı olduğunu, eləcə də idxal olunan məhsulların daxili bazarda qiymətlərin səviyyəsinə necə təsir etdiklərini müəyyən etməyə çalışırlar. Bunun üçün ticarət şərti indeksi hesablanılır. Ticarət şərti indeksi riyazi şəkildə aşağıdakı kimi ifadə olunur:

$$T_i = \frac{İ_i}{İ_g}$$

Burada: $T_i$-ticarət şərti indeksi, $İ_i$ - ixrac qiymətləri indeksi, $İ_g$ isə idxal qiymətləri indeksini göstərir.

Ticarət şərti indeksini hesablamaq üçün adətən “Paaşa, Laspeyres və Fişer” indekslərindən istifadə olunur. Biz tədqiqat işimizdə Laspeyres indeksindən istifadə etmişik.Laspeyresindeksi aşağıdakı kimidir:

$$I_{cp} = \frac{\sum_{i=1}^{n} P^1 \times Q_0}{\sum_{i=1}^{n} P_0 \times Q_0}$$

Burada:

$P^1$- malların cari qiymətlərini,

$Q_0$- malların baza ilindəki miqdarını,

$P^0$- malların baza ilinindəki qiymətlərini,

Azərbaycan Respublikasının ticarət şərti indeksini hesablamaq üçün 2007-ci il baza ili olmaq şərti ilə 2007-2013-cü illər üzrə ixracda on dörd mal qrupu, respublikamızın idxal etdiyi 38 mal qrupu əsasında (müvafiq olaraq, ölkənin ümumi ixracında və idxalında həmin məhsulların xüsusi çəkisi baxılan dövrdə bütün illər üzrə 75-80% olmaq şərti ilə nəzərə alınıb) götürülmüş və təhlil edilmişdir. Təhlilin nəticələri ölkənin ticarət balansı haqqında bir sıra maraqlı fikirlər söyləməyə əsas verir (bax cədvəl 10).

**Azərbaycan Respublikasının xarici ticarət şərti indeksinin (Lasperesə görə) dinamikası**

**Cədvəl 10**

| İllər | İxrac qiymətləri indeksi | İdxal qiymətləri indeksi | Xarici ticarət şərti |
|---|---|---|---|
| 2007 | 1 | 1 | 1 |
| 2008 | 1,56 | 0,82 | 1,9 |
| 2009 | 0,92 | 0,76 | 1,2 |
| 2010 | 0,96 | 0,67 | 1,4 |
| 2011 | 0,75 | 0,65 | 1,2 |
| 2012 | 1,4 | 0,96 | 1,5 |
| 2013 | 1,5 | 1,1 | 1,4 |

Mənbə: DSK-nın məlumatları əsasında müəlliflər tərəfindən hesablanmışdır.

Qeyd edək ki, BVF-u üzv ölkələrə hər il üzrə özlərinin ticarət şərti indeksini hesablamağı tövsiyə edir. Bununla əlaqədar Azərbaycanda bir sıra iqtisadçı-alimlərin tədqiqatlarına də rast gəlmək olar [2, s.217].

Azərbaycan Respublikasıda ticarət şərti indeksi ilə əlaqədar apardığımız tədqiqatlar göstərir ki, ölkənin ticarər şərti indeksi tədqiq olunan illərdə müsbət olmuşdur. Şübhəsiz ki, belə hal ölkəmiz üçün müsbətqiymətləndirilir. Lakin bununla belə bu məqamların dərindən aydınlaşdırılmasına böyük ehtiyac var. Təhlil göstərir ki,2008-ci ildə ixrac qiymətləri indeksi 1,56-ya bərabər olmuşdur. Belə hal onu göstərir ki, Azərbaycandanixrac olunan məhsullar dünya bazarında həddən artıq yüksək şəkildə xarakterizə olunmaqla yanaşı baha qiymətə satılmışdır.Fikrimizcə belə hal iki mühüm məqamı ortaya çıxarır: birincisi ola bilər ki, Azərbaycanın ixrac etdiyi məhsullar həqiqətən yüksək keyfiyyətli olmuş və buna görə də dünya bazarında baha qiymətə satılmışdır.Buna görədə ixrac qiymətləri indeksi belə yüksək şəkildə xarakterizə olunmuşdur. Bununla əlaqədar ixrac olunan məhsulların strukturuna nəzər saldıqda aydın olur ki, həmin məhsullar daha çox xammal yönümlüdür. Deməli, qeyd olunan birinci amil o qədər də reallığı əks etdirmir. Çünki nəzəriyyəyə görə xammal ixracı heç bir ölkə iqtisadiyyatı üçün əlverişli deyildir. İkinci amil isə neft faktoru ilə əlaqədar ola bi-

lər. Yəni məlum olduğu kimi ixracın strukturunda neft və neft məhsullarının xüsusi çəkisi yüksəkdir və bu da 2008-ci ildə dünya bazarında neft məhsullarının qiymətinin yüksək səviyyədə olması Azərbaycan məhsulunun yüksək qiymətlərlə satılmasını şərtləndirmişdir. Qeyd edək ki, bu amil reallığa daha çox yaxın görünür. 2009-cu il, 2010-cu il, 2011-ci il, 2012-ci il və 2013-cü illərdə ixrac qiymətləri indeksi üzrə aparılan təhlil göstərir ki, bu illərdə ixrac qiymətləri indeksinin yüksək şəkildə xarakterizə olunması neftin qiymətlərinin beynəlxalq qiymətlərinin yüksək səviyydə olması ilə bağlı olmuşdur. Doğrudan da, dünya bazarında neft məhsullarının qiymətinin yüksək olması Azərbaycan Respublikasına proqnozlaşdırılandan xeyli artıq valyuta vasitələrinin daxil olmasına səbəb olmuşdur. Bu özünü dövlət büdcəsinin gəlirlərində də özünü göstərmişdir. Məsələn, 2013-cü ildə 1 barel neftin qiyməti 90 dollar təsdiqləndiyi halda dünya bazarında 1 barel neft 140-150 dollara satılaraq Republikanın büdcəsinə əlavə valyuta gəlməsini təmin etmişdir.

2007-2013-cü illər üzrə idxal qiymətləri indeksinin təhlili göstərir ki, ölkəyə idxal edilən məhsullar ucuz başa gəlmişdir. İdxal qiymətləri indeksinin belə aşağı səviyyədə olmasını bir neçə səbəblə izah etmək olar. Birincisi ola bilər ki, Azərbaycan Respublikasının gömrük sərhədləri həddən artıq şəffaf qorunmur və bir sıra mallar gömrük vergisindən yayınırlar. Bu isə öz növbəsində idxal olunan malların ucuz başa gəlməsinə səbəb olur. İkinci amil isə onunla izah oluna bilər ki, idxal olunan məhsullar həddən artıq keyfiyyətsiz məhsullardır və bu məhsulları da ixrac edən ölkədə həmin məhsullar çox ucuzdur. Buna görə də Azərbaycana idxal olunan məhsullar ucuz başa gəlir. Nəhayət, üçüncü amil ucuz məhsullarıAzərbaycana idxal etməklə ölkənin daxili bazarını ələ almaq, yerli məhsulları sıxlaşdırmaq və dempinq siyasəti yeritməklə əlaqədar ola bilər. Lakin 2008-ci ildə idxal qiymətləri indeksinin qalxması müşahidə olunur. Bu isə neft sektoruna gətirilən avadanlıqlarla bağlı ola bilər.

Beləliklə, Azərbaycanın ticarət şərti indeksinin təhlili göstərdi ki, idxal və ixracının keyfiyyət parametrlərinə diqqət yetirmək lazımdır.

Aparılan təhlillər göstərir ki, son dövrlərdə Azərbaycanın xarici ticarət əlaqələr sistemində baş verən bir sıra müsbət dəyişikliklərlə yanaşı, bir çox problemlər və xoşagəlməz meyillər də mövcuddur.

Bu təhlil həm də onu sübut etdi ki, hazırda Azərbaycanda xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi vahid sistem şəklində fəaliyyət göstərmir. Ən azı ona görə ki, Dövlət Gömrük Komitəsinin (DGK), Dövlət Statistika Komitəsi (DSK) və Mərkəzi Bankın xarici iqtisadi fəaliyyətin eyni göstəriciləri üzrə məlumatlar bir-birindən xeyli fərqlənirlər. Eyni zamanda, bu, həm də onu göstərir ki, dövlət iqtisadiyyata tam nəzarət funksiyasını yerinə yetirə bilmir və buna görə də balans maddələri üzrə hərtərəfli, tam və düzgün məlumata malik deyildir.

Azərbaycanın xarici iqtisadi əlaqələrində müşahidə olunan müsbət meyillər və dəyişikliklər kimi aşağıdakıları göstərmək olar:

Azərbaycan beynəlxalq iqtisadi münasibətlər sistemində əsl bərabərhüquqlu, müstəqil subyekt kimi təmsil olunaraq 1994-2013-cü illər ərzində dünyanın 60-a yaxın dövləti, o cümlədən iqtisadi cəhətdən inkişaf etmiş dövlətləri ilə ticarət, iqtisadi əməkdaşlıq haqqında saziş və müqavilələr imzalamışdır. Türkiyə, Çin, Özbəkistan, Türkmənistan, Gürcüstan, Rumıniya, Fransa və Almaniya ilə imzalanmış dövlətlərarası sazişlər Azərbaycanı qədim “İpək Yolu” zamanı olduğu kimi yenidən beynəlxalq Avropa-Qafqaz-Asiya transmilli nəqliyyat dəhlizinin mərkəzinə çevirməkdir.

Hazırda ölkəmizin BMT daxilində olan bir çox təşkilatlarla (BMT-nin inkişaf proqramı, BMT-nin sənaye üzrə inkişaf təşkilatı (YUNİDO), BMT-nin ticarət və inkişaf üzrə konfransı (YUNKTAD), BMT-nin ərzaq və kənd təsərrüfatı təşkilatı, Avropa üçün iqtisadi Komissiya, BMT-nin iqtisadi və sosial şurası, BMT-nin Asiya və Sakit Okean üçün iqtisadi və sosial komissiyası (ESKATO)) BVF, DB, AYİB, İİB, ÜTT və digər nüfuzlu beynəlxalq təşkilatlarla sıx əlaqələr yaratması, bir sıra beynəlxalq saziş və müqavilələrə qoşulması, MDB, QDHÖB, İƏB, AB, EKO kimi iqtisadi birliklərə daxil olması və onun yeni iqtisadi birliklərin (XHÖB, ÜQB, GÜAM) yaradılmasının təşəbbüskarı kimi çıxış etməsi təqdirəlayiq haldır:

- Hazırda ölkəmizin Bakı-Axalkalaki-Qars dəmir yol xəttinin 2015-ci ilin II yarısından etibarən, istifadəyə verilməsinin nəzərdə tutulması, TANAP və TAP təbii qaz layihəsinin həyata keçirilməsi, TRASEKA kimi beynəlxalq əhəmiyyət daşıyan nəqliyyat dəhlizinin inkişaf etdirilməsi Azərbaycanın beynəlxalq aləmdə nifuzunun yüksəlməsinə imkan yaradır;

-Neft sənayesinə və onunla bağlı ölkə iqtisadiyyatının digər sahələrinə 180 milyard ABŞ dolları həcmində investisiya qoyulması haqqında dünyanın inkişaf etmiş və iri dövlətlərinin (Böyük Britaniya, ABŞ, Fransa, İtaliya, İran, Yaponiya, Rusiya, Norveç, Türkiyə, Səudiyyə Ərəbistanı)

aparıcı neft şirkətləri ilə kontraktlar bağlanmış və artıq bu kontraktldar əsasında 5 neft konsersumu işə başlamışdır. Bağlanan beynəlxalq neft müqavilələrinin, o cümlədən ticarət müqavilələrinin səmərəlilik dərəcəsi ilbəil yaxşılaşır. Belə ki, Azərbaycan Respublikasında, o cümlədən Xəzər dənizinin Azərbaycan sektorunda neft-qaz ehtiyatlarının kəşfiyyatı və işlənməsinə dair bağlanmış sazişlərin həyata keçirilməsindən əldə olunan gəlirlərin daha səmərəli istifadə olunması məqsədilə 29 dekabr 1999-cu ildə ölkə prezidentinin 240 saylı fərmanı ilə Azərbaycan Dövlət Neft Fondu yaradılmışdır. 2015-ci ilin 01yanvarına olan məlumata görə bu fonda 30 mlrd. ABŞ dolları həcmində vəsait daxil olmuşdur ki, bu da ölkənin iqtisadi və sosial baxımdan inkişaf etdirilməsi üçün çox faydalı maliyyə mənbəyidir.

Mənfi meyillər və problemlər kimi aşağıdakıları göstərmək olar:

- Aparılan təhlillər göstərir ki, 1999-cu ildən etbarən ölkənin xarici ticarət əlaqələri müsbət saldo ilə müşahidə olunduğu görünür. Lakin xarici ticarətin sahə və coğrafi quruluşunda əsaslı dəyişiklik olmadığı üçün yaranmış müsbət meylin dönməzliyi haqqında fikir söyləmək çətindir. Belə ki, hələ də ölkənin ixrac potensialından lazımi səviyyədə tam və səmərəli istifadə olunmur. Eyni zamanda idxalı əvəz edə bilən və ixrac yönümlü məhsul istehsalına hələ də lazımi dərəcədə fikir verilmir.

- Hazırda Azərbaycan iqtisadiyyatının dünya bazarından asılılığı yüksəkdir. Belə ki, 2013-cü ildə XTD-nin ÜDM-da xüsusi çəkisi 46,3 %, idxal 14,3%, ixrac 32,0% təşkil etmişdir (Cədvəl 11). Müqayisə üçün qeyd edək ki, XTD-nin ÜDM-da xüsusi çəkisi Argentinada 16,3%, Braziliyada 9,2%, ABŞ-da 15,2%, Yaponiyada 16,1% olur [1, s.78].

**ÜDM-da XTD-nın, İdxal və İxracın xüsusi çəkisi (faizlə)**

**Cədvəl 11**

| İllər | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|
| ÜDM-da XTD-nin payı | 35,6 | 112,4 | 47,0 | 52,8 | 55,1 | 48,8 | 46,3 |
| ÜDM-da idxalın payı | 17,3 | 14,7 | 13,8 | 12,5 | 14,8 | 14,0 | 14,3 |
| ÜDM-da ixracın payı | 18,3 | 97,8 | 33,2 | 40,4 | 40,3 | 34,8 | 32,0 |

Qeyd: DSK-nın məlumatları əsasında müəlliflər tərəfindən emal edilmişdir.

- Xarici ticarət əlaqələrinin coğrafi quruluşunu da qənaətbəxş saymaq olmaz. Belə ki, 2013-ci ildə Azərbaycan dünyanın 129 dövləti ilə ticarət əlaqələrinə girməsinə baxmayaraq, xarici ticarət dövriyyəsinin 81,9 %-i cəmi 19 ölkənin payına düşür (bax cədvəl 12).

**Azərbaycanın xarici ticarət əlaqələrinin coğrafi quruluşunda əsas yer tutan ölkələrin XTD-də xüsusi çəkisi (faizlə)**

Cədvəl 12

| Ölkələr | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|
| Rusiya Federasiyası | 13,0 | 3,5 | 8,7 | 6,9 | 7,8 | 7,0 | 7,4 |
| Almaniya | 4,2 | 1,5 | 3,1 | 2,2 | 3,8 | 5,2 | 6,3 |
| Amerika Birləşmiş Ştatları | 4,2 | 11,4 | 9,6 | 6,6 | 6,7 | 6,9 | 3,9 |
| Böyük Britaniya və Şimali İrlandiyanın Birləşmiş Krallığı | 3,5 | 2,4 | 2,3 | 1,1 | 1,4 | 2,5 | 5,2 |
| Braziliya | 1,6 | 0,5 | 0,6 | 0,6 | 0,5 | 0,5 | 1,1 |
| Çin | 2,5 | 1,8 | 3,0 | 3,3 | 1,8 | 2,4 | 1,9 |
| Fransa | 3,1 | 4,5 | 7,1 | 7,1 | 12,8 | 5,8 | 4,5 |
| Gürcüstan | 3,5 | 1,0 | 2,2 | 1,7 | 1,7 | 2,1 | 1,9 |
| Hindistan | 1,8 | 4,6 | 1,5 | 1,2 | 1,1 | 5,8 | 3,3 |
| İndoneziya | 3,4 | 2,6 | 3,2 | 2,8 | 2,6 | 5,3 | 8,1 |
| İran İslam Respublikası | 4,6 | 0,8 | 0,8 | 0,9 | 0,8 | 0,8 | 0,8 |
| İsrail | 3,4 | 6,7 | 6,3 | 6,5 | 2,4 | 5,1 | 3,7 |
| İsveçrə | 0,4 | 0,1 | 0,5 | 0,7 | 1,0 | 0,6 | 0,7 |
| İtaliya | 9,2 | 35,3 | 18,8 | 25,6 | 26,4 | 17,3 | 18,0 |
| Koreya Respublikası | 1,8 | 1,6 | 1,3 | 1,3 | 1,8 | 0,7 | 0,8 |
| Tailand | 0,1 | 0,2 | 0,0 | 0,7 | 0,4 | 1,1 | 4,9 |
| Tayvan | 0,0 | 0,7 | 3,3 | 1,1 | 0,1 | 2,0 | 1,4 |
| Türkiyə | 14,3 | 2,6 | 4,9 | 3,4 | 4,8 | 6,3 | 5,7 |
| Yunanıstan | 1,2 | 0,5 | 0,9 | 1,0 | 0,6 | 2,5 | 2,3 |
| Cəmi | 75,8 | 82,3 | 78,0 | 74,6 | 78,5 | 80,2 | 81,9 |

Qeyd: Cədvəl DSK-nın məlumatları əsasında müəllif tərəfindən hesablanmışdır.

- Xarici ticarət əlaqələrinin coğrafi quruluşunu da digər mənfi məqam isə idxalın 86%-i, cəmi 17 ölkənin payına, ixracın isə 82%-i isə cəmi 20 ölkənin payına düşür. Bu da müəyyən hallarda bu dövlətlərin ölkəmizə siyasi və iqtisadi təzyiq göstərməsinə imkan yaradır.

**Açar sözlər:** xarici iqtisadi əlaqələr, sosial-iqtisadi inkişaf, dünya təsərrüfat sistemi, ixrac, idxal, ticarət şərti indeksi

**İstifadə edilmiş ədəbiyyat**

1. Rüstəmov V.Ə. “Qafqaz və Orta Asiya Ölkələrin Dünya İqtisadiyyatına inteqrasiyasında ticarət və investisiya əlaqələrinin təhlili” Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri, Elmi əsərlər toplusu. Bakı: 2004-ci il.
2. Гаджиев Ш.Г. Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития. Експресс- об-ява. Киев: 2000, 504 стр.
3. www.stat.gov.az

**Шовги Кулиев**
**Хагани Мамедеов**
**Тарана Ахмедова**

**АНАЛИЗ И ОЦЕНКА СОВРЕМЕННОГО СОСТОЯНИЯ ВНЕШНЕ ТОРГОВЫХ ОТНОШЕНИЙ АЗЕРБАЙДЖАНСКИЙ РЕСПУБЛИКИ**

**Резюме**

В статье за 2007-2013 гг. анализируются внешне торговые отношения Азербайджанской Республики, определены положительные и отрицательные тенденции. Так, начиная с 1999 года наблюдается положительное сальдо во внешне торговых отношениях, рассмотрены конкретные данные, отражающие зависимость экономики страны от мирового рынка, не эффективное использование экспортного потенциала. В статье также отмечается чрезмерное вложения инвестиций в экономику страны, сбор валютных запасов по нефтяному фонду.

**Ключевые слова:** внешнеэкономические отношения, социально-экономическое развитие, мировой экономика, экспорт, импорт, индекс условий торговли

**Shovqi Quliyev**
**Xaqani Mammadov**
**Tarana Ahmedova**

**ANALYSIS AND ASSESSMENT OF CURRENT SITUATION OF FOREIGN TRADE RELATIONS OF AZERBAIJAN REPUBLIC**

**Summary**

The foreign trade relations of Azerbaijan Republic were complex analyzed for the period 2007-2013 in the article and negative trends were determined in foreign trade. Thus, the observation of positive balance in foreign trade relations of the country since 1999 was shown in the article. Also the article noted the export potensial of the country has not been fully and effectively used. Dependence the economy of Azerbaijan on the world market has been shown with concrete figures in the article. At the same time the article noted too much invested on the economy of the country and accumulated exchange reserves according to the oil fund.

**Keywords:** external economic relations, social-economic development, world economic system, export, import, trade index

**UOT – 331.2**

**Gülnarə Hacıyeva**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.ü.f.d., dos.**

# ƏMƏK HAQQI ƏMƏK MƏHSULDARLIĞININ YÜKSƏLDİLMƏSİNİN ƏSAS AMİLİDİR

*Dünya iqtisadiyyatında baş verən proseslər sosial siyasətin formalaşması və onun həyata keçirilmə mexanizminə yeni yanaşma metodunu tələb edir. Bu siyasət əmək qabiliyyətli əhalinin iqtisadi fəallığının stimullaşdırılmasının optimal uyğunluğunu, yaşa, ailə vəziyyətinə görə işləyə bilməyənlərin sosial müdafiəsini təmin etməlidir. Sosial sistemin formalaşması iqtisadi, siyasi, təşkilati, mədəni və s. məsələlərin kompleks həllini zəruriləşdirir. Sosial sistemin formalaşmasında əmək haqqı aparıcı yerlərdən birini tutur. Əmək haqqının belə xüsusiyyətə malik olması onu beynəlxalq təşkilatlar səviyyəsində müzakirə obyektinə çevirmişdir.*

Məhsuldarlığın artırılmasında dominant rolunu oynayan əmək haqqı əməyin motivasiyasının ənənəvi amilidir. Son illərdə dünya iqtisadiyyatında baş verən proseslər sosial siyasətin formalaşması və onun həyata keçirilmə mexanizminə yeni yanaşma metodunu tələb edir. Bu siyasət əmək qabiliyyətli əhalinin iqtisadi fəallığının stimullaşdırılmasının optimal uyğunluğunu, yaşa, ailə vəziyyətinə görə işləyə bilməyənlərin sosial müdafiəsini təmin etməlidir. Aydındır ki, sosial sistemin formalaşması iqtisadi, siyasi, təşkilati, mədəni məsələlərin kompleks həllini zəruriləşdirir [4, s.65]. Sosial sistemin formalaşmasında əmək haqqı aparıcı yerlərdən birini tutur. Əmək haqqının belə xüsusiyyətə malik olması onu beynəlxalq təşkilatlar səviyyəsində müzakirə obyektinə çevirmişdir. Əmək haqqının tənzimlənməsində əmək bazarı və bu bazarda rəqabətin təşkili zəruridir. Firmaların sayının çox olması əmək bazarında tənzimləmənin mühüm şərti hesab olunur. Yalnız belə halda onlar konkret əməyə görə muzdlu işçi götürmək üçün bir-biri ilə rəqabət aparırlar. Eyni zamanda bir-birindən xəbərsiz çoxsaylı eyni ixtisaslı işçilər, əmək növünü təklif edirlər. Belə halda iş qüvvəsini təklif edənlər arasında rəqabət artır və nəticədə əmək haqqının artmasına imkan yaradır. Belə halda nə firma, nə də işçilər əmək haqqının bazar dəyərinə təsir göstərə bilmirlər. Beləliklə, minimal əmək haqqını artıq bazar diktə edir. Bazarın diktə etdiyi əmək haqqı isə hər iki tərəfin maraqlarını təmin edir. Qeyd edək ki, Azərbaycanda minimum əmək haqqının dinamikasına nəzər yetirsək, görərik ki, 2013-cü ildə 2006-cı ilə nisbətən 3 dəfədən çox artmışdır. Orta əmək haqqının ölkə üzrə dinamikası 2010-cu ilin yanvar ayında 302,6 manat təşkil etdiyi halda, 2014-cü ilin yanvar ayında müqayisə olunan dövrə nisbtən 40% artaraq 426,3 manat təşkil etmişdir.

Əmək haqqında islahatların həyata keçirilməsi zamanı dövlət və bələdiyyə təşkilatları rəhbərlərinin, həmçinin qarışıq mülkiyyət formasında olan təşkilatlarda işçi ilə işəgötürən arasında onların ixtisasından asılı olaraq kollektiv tarif müqavilələrində və razılaşmalarda əmək haqqının minimum səviyyəsinə zəmanət verən sistemin qurulması zəruridir.

Hazırda çevik əmək haqqı sisteminin tətbiqi məqsədəuyğun olardı. Çünki iqtisadi böhran və inflyasiya şəraitinə görə əməyə tələb azalır. Bu zaman əmək haqqı dərəcəsinin əvvəlki səviyyəsində saxlanılması inflyasiyanın tempini azaltmağa imkan verir, əməyə sərf olunan xərclərin azalmasına, məhsulun qiymətinə və müəssisənin böhrandan çıxmasına zəmin yaradır. Lakin bunu uzun müddət tətbiq etmək məqsədəuyğun deyildir. Əks halda çoxlu sayda işdən azadolmalar baş verəcək və işsizlik həddi yüksələcəkdir. Bu isə müəssisənin rəhbəri üçün bazarın itirilməsi ilə nəticələnə bilər və müəssisə iflasa uğrayar. İqtisadi inkişaf şəraitində isə əmək haqqının səviyyəsinin mütəmadi olaraq artırılması bu tempi sürətləndirə bilər.

Əgər müəssisə rəqabətqabiliyyətliliyini saxlamağa görə mükafat vermirsə və işçilərin əməyini stimullaşdıran ödəmə cədvəlinə malik deyildirsə, işçi qüvvəsini uzun müddətə saxlaya bilməz. Belə

ki, məhsuldarlığın sabit artımını təmin etmək üçün rəhbərlik onu əmək haqqı ilə əlaqələndirməlidir. Bura vəzifə və dərəcə pillələri ilə irəli getmək, istehsal olunan məhsul və yerinə yetirilən xidmətdə əmək məhsuldarlığı göstəricilərini artırmaq məqsədilə əlavə ödənişlərin pilləli sistemini tətbiq etmək məqsədəuyğun olardı.

Sərf edilmiş əməyə görə haqqın ödənilməsi ikili vəzifə daşıyır. Belə ki, sərf edilmiş əməyə görə haqqın ödənilməsi, bir tərəfdən işçilərin gəlirlərinin və həyat səviyyəsinin yüksəldilməsinin əsas mənbəyi, digər tərəfdən isə istehsalın səmərəliliyinin artılmasının, məhsul və xidmətlər istehsalında keyfiyyətin yüksəldilməsinin, əməyin maddi stimulunun əsas vasitəsi kimi çıxış edir. Bu zaman əmək haqqının elə səviyyəsi nəzərdə tutulur ki, əldə olunan əmək haqqı təkcə cari istehlak xərclərinin (ərzaq, qeyri-ərzaq, xidmət, o cümlədən kommunal xidmətlər) ödənilməsinə deyil, həmçinin yığımın formalaşmasına imkan versin.

Bu məsələlərin həllində qeyri-neft sektorunda regionlar üzrə tarazlı məşğulluğun həvəsləndirilməsi vasitəsilə işçi qüvvəsinə tələbin stimullaşdırılması, əmək haqqı sistemində (vəzifə maaşları və Vahid Tarif Cədvəlində) islahatların aparılması, əmək münasibətlərinin və əmək bazarının tənzimlənməsi istiqamətində tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab edilir.

Əmək haqqının tənzimlənməsi istiqamətində dövlət siyasətinin strateji vəzifələrindən biri də əmək haqqının təkrar istehsal və stimullaşdırıcı funksiyasının bərpa edilməsidir. Əlbəttə, əmək haqqının birbaşa dövlət tənzimlənməsi bazar iqtisadi sistemi üçün xarakterik deyildir və dövlət tərəfindən iqtisadiyyatın bütün sahələrində əmək haqqının mərkəzləşdirilmiş şəkildə tənzimlənməsi qeyri-mümkündür. Lakin dövlət müxtəlif üsullardan istifadə etməklə əmək haqqının dolayısı ilə tənzimlənməsini həyata keçirə bilir. Burada vacib məsələlərdən biri əmək haqqının işçi qüvvəsinin təkrar istehsalını təmin etməsində, başqa sözlə, işçinin həyat şəraitinin yaxşılaşdırılmasında əsas vasitə olmasıdır. Çünki işçi əmək fəaliyyəti göstərmək üçün zəruri olan fiziki və intellektual qüvvəni bərpa etməli, bunun üçün asudə vaxtdan istifadə etmək imkanına malik olmalıdır. Yalnız belə halda əmək haqqının öz funksiyalarını reallaşdırmasından danışmaq olar.

Əmək haqqının öz funksiyasını yerinə yetirməsi üçün həyata keçirilən tənzimləmə siyasəti işçinin öz ixtisasının artırılmasında marağını yüksəldə bilər. İxtisasın artması (bir qayda olaraq bazar münasibətləri şəraitində müəssisələr yüksək ixtisaslı kadrlara maraq göstərir və onu heyətə daxil etmək üçün yüksək əmək haqqı təklif edirlər) nisbətən yüksək əmək haqqının verilməsinə zəmin yaradır. Yüksək əmək haqqı təkcə bu gün üçün deyil, ölkənin gələcək inkişafı baxımından da əhəmiyyətlidir. İşçinin aldığı yüksək əmək haqqı onun gələcəkdə sağlam, yüksək təhsilli əmək ehtiyatlarının formalaşmasında mühüm rol oynayır. Əmək haqqının səviyyəsi elə müəyyənləşdirilməlidir ki, gələcək əmək ehtiyatlarını təşkil edən ailələrin uşaqlarının sağlam və gümrah böyüməsi üçün lazımi şəraitin yaradılmasına imkan versin [3, s.419].

Firmanın kommersiya maraqları baxımından işçinin cəlb edilməsi üçün elə bir vəziyyət yaratmaq lazımdır ki, işçi eyni zamanda həm öz fərdi göstəricilərində, həm də kollektivin fəaliyyət yekunlarında maraqlı olsun. İşçinin bu cür ikili marağını yalnız bir vasitə ilə münasib əmək haqqı səviyyəsinin müəyyənləşdirilməsi ilə yüksəltmək olar. Onun səviyyəsi bu halda aşağıda göstərilənlərdən asılı olacaq:

1) istehsal prosesində işçinin fərdi göstəricisindən;
2) kollektivin işinin ümumi nəticəsindən.

Təcrübədə üç komponentin – işçinin əmək haqqının səviyyəsi, onun fərdi göstəricisi və kollektiv əməyin nəticəsinin qarşılıqlı əlaqəsinin konkret forması sahibkar tərəfindən müəyyənləşdirilir.

Məlumdur ki, əksər ailələrin büdcəsinin başlıca gəlir mənbəyini əmək haqqı təşkil edir. Gəlirlərin tərkibində əmək haqqının xüsusi çəkisinin yüksək olması məşğulluğun səmərəliliyindən və məhsuldarlığın yüksək olmasından, azalması isə bunun əksindən xəbər verir. Bazar iqtisadi sistemində əmək münasibətlərinin inkişaf etdiyi ölkələrdə, əhalinin gəlirlərinin ¾-nü əmək haqqı gəlirlə-

ri təşkil edir. Hazırda Azərbaycanda bu, inkişaf etmiş ölkələrdən təqribən 3 dəfə aşağıdır. DSK-nın məlumatlarına əsasən bu, təqribən 25% təşkil etmişdir.

İqtisadi qanunların tələblərindən çıxış edərək makro və mikrosəviyyədə əmək haqqının tənzimlənməsi aşağıdakı prinsiplər üzərində qurulmalıdır.

Birincisi, əmək ödənişi xərclərə görə həyata keçirilməlidir. Bu prinsip bütün qəbul edilmiş qanunlardan yüksəkdə durur. Bu bazar münasibətləri şəraitində iqtisadiyyatın inkişaf səviyyəsinə və bazar iqtisadiyyatının prinsiplərinə uyğun gəlmir. Ona görə hazırda əmək ödənişinin təkcə xərclərə görə deyil, eləcədə də nəticələrə görə ödənilməsi daha məqsədəuyğundur.

Hazırda ən səmərəli metod - nəticəyə görə əmək haqqı gəlirdə iştiraka görə tətbiq edilən sistemdir ki, bundan da ABŞ, Yaponiya, Qərbi Avropanın əksər müəssisələrində istifadə edilir. Hesab edirik ki, bu sistemin Azərbaycan müəssisələrində tətbiqi əmək məhsuldarlığının artırılmasına təsir göstərə bilər. Bu, işçini müəssisənin son fəaliyyətinə stimullaşdırar. Belə ki,standart aylıq əmək haqqı sistemi tətbiq edilən, xüsusilə dovlət, bəzi hallarda özəl müəssisələrdə işçidə biganəlik yaradır, müəssisənin inkişafı naminə öz intellektual potensialından istifadə etməyə maraq doğurmur. Amerika şirkətlərinə nəzər yetirsək, görərik ki, onların 26%-i bu sistemdən istifadə edir. Onlardan 75 %-i isə bu sistemi 1980-cı illərdən sonra tətbiq etməyə başlamışlar [1, s.192].

İkincisi, işçinin əmək haqqının səviyyəsi yalnız əmək məhsuldarlığının artırılmasına əsaslanaraq həyata keçirilməlidir. Lakin bu zaman əmək haqqının artımı ictimai əmək məhsuldarlığını qabaqlamamalıdır. Bu prinsip əmək məhsuldarlığının yüksəldilməsi qanunundan irəli gələrək yığım və istehsalın gələcək tənzimlənməsini təmin edir.

Üçüncüsü, müəssisədə tətbiq edilən maddi stimullaşdırma sistemi əməyin səmərəliliyinin yüksəldilməsinə imkan verməlidir. Bu prinsip əmək məhsuldarlığının yüksəldilməsi və dəyər qanununa əsaslanmalıdır. Bu zaman təkcə sərf olunan əməyə görə maddi stimul deyil, eləcə də işçinin əməyinin səmərəliliyinin yüksəldilməsinə doğru maraqlandırılması tələb olunur. Bu prinsipin reallaşdırılması baxımından bütün müəssisələrdə müəyyən keyfiyyət dəyişikliklərinin aparılmasına imkan verməlidir.

Dördüncüsü, əmək haqqının tənzimlənməsində müxtəlif əmsallardan (rayon, təbii iqlim, ekoloji mühit, iş şəraiti və s.) istifadə edilməlidir. Bu səmərəli məşğulluğun təmin edilməsi, eyni zamanda kənd əhalisinin şəhərə axınının qarşısını ala bilər. Qeyd edək ki, mövcud əmsallar təsərrüfatçılığın bazar prinsiplərinə cavab vermir. Bu baxımdan əmək haqqına əlavə kimi tətbiq edilən əmsallara yenidən baxılmalı və stimullaşdırıcı mexanizmlərdən istifadə edilməlidir. Belə ki, əmək haqqının aşağı olduğu hazırkı şəraitdə tətbiq edilən əmsallar işçi qüvvəsinin əməyinin stimullaşdırılmasına imkan vermir.

İşçi heyətindən səmərəli istifadə olunması müəssisədə əmək məhsuldarlığının yüksəldilməsində, istehsal olunan məhsulların rəqabət qabiliyyətinin artırılmasında, kadrların ixtisas və bilik səviyyəsinin yüksəldilməsində əhəmiyyətli rol oynayır. Müəssisədə insan resurslarının səmərəli idarə edilməsi insan resurslarının inkişafında, qarşıya qoyulan məqsəd və vəzifələrə çatmaqda, eləcə də müəssisənin inkişafında həlledici rol oynayır. Xarici şirkətlərdə qeyd olunan məsələlərə xüsusi diqqət yetirilir. Məhz bunun nəticəsidir ki, xarici şirkətlərdə istehsal olunan məhsulun keyfiyyəti yerli şirkətlərlə müqayisədə daha yüksək olur. Bunun əsas səbəbi əmək məhsuldarlığının daha yüksək səviyyədə olması, dövlət və müəssisə idarəçilik sistemlərinin daha inkişaf etmiş olması, işçilərin əmək hüquqlarını qoruyan qanunların və müvafiq təşkilatların daha da inkişaf etməsi, vətəndaşların layiqli həyat tərzinə və insan haqlarına yüksək diqqət yetirilməsi və s. məsələləri göstərmək olar.

Bu gün Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərdə bir sıra nöqsanlara baxmayaraq, əməyin təşkili, və insan resurslarının idarə edilməsi yerli şirkətlərlə müqayisədə daha yaxşıdır. Xarici şirkətlərdə müəssisənin operativ iş planının hazırlanması, əmək resurslarının planlaşdırılmasına ciddi nəzarət olunur. Bu, işçilərin əməyə münasibətinin dəyişməsinə müsbət təsir göstərir.

Mövcud heyət, onun strukturu (ixtisas, fəhlə və qulluqçuların sayı), kadr axıcılığı, iş vaxtı, onun üzrlü səbəbdən itirilməsi, işçilərin sosial ehtiyaclarının ödənilməsi və əmək haqqı barədə geniş

informasiya toplamaqla bir sıra məsələlərin həllinə kömək etmək olar. Ətraflı məlumatın toplanılması və işlənilməsi kadr məsələləri üzrə qərarın qəbul edilməsində əhəmiyyətlidir.

Ümumiyyətlə, mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə və təşkilatlarda rəhbərlərin və mütəxəssislərin əməyinin əsas nəticələrini səciyyələndirən göstəriciləri seçərkən təşkilatın bütün fəaliyyətinin nəticəsinə birbaşa və həlledici təsirini nəzərə almaq lazımdır.

Əməyin səmərəliliyinin qiymətləndirilməsi proseduru aşağıda göstərilən məcburi şərtlər daxilində səmərəli ola bilər:

- hər vəzifə (iş yeri) və onun qiymət meyarları üçün əməyin dəqiq səmərəlilik “standartlarının” müəyyənləşdirilməsi;
- əməyin səmərəliliyinin qiymətləndirilməsi prosedurunun hazırlanması (qiymətləndirməni kim, nə vaxt və necə tez icra edir, qiymətləndirmə üsulları);
- işçi əməyinin səmərəliliyi haqqında düzgün və tam informasiyanın verilməsi;
- qiymətləndirmə nəticələrinin işçi ilə birlikdə müzakirə edilməsi;
- qiymətləndirmə nəticələri üzrə qərarın qəbul edilməsi.

Xarici şirkətlərdə xidməti fəaliyyətin dəyərləndirilməsi rəsmi olaraq ildə bir dəfə keçirilir. Bu proses isə əsasən aşağıdakı mərhələlərdən keçir:

- fəaliyyət məqsədlərinin və istiqamətlərinin müəyyənləşdirilməsi;
- fəaliyyət nəticələrinin dəyərləndirilməsi ilə bağlı görüşlərin keçirilməsi;
- fəaliyyətin mükafatla, stimullaşdırma və təlim proqramları ilə əlaqələndirilməsi.

Xarici şirkətlərin əksəriyyətində İnsan Resurslarının İnkişafı Departamenti fəaliyyət göstərir ki, bu da prosesin idarə olunmasına və əlaqələndirilməsinə əhəmiyyətli təsir göstərir. İnsan resurslarının idarəedilməsində 3 “R” (right time, right position, right person) prinsipi geniş qəbul edilmişdir və münasib vaxtda, münasib vəzifədə münasib işçi mənasını bildirir. Münasib adamları işə cəlb etmək, onları düzgün mükafatlandırmaq, təlim keçmək, inkişaf etdirmək və həvəsləndirmək çox vacibdir. İşçi heyəti öz vəzifələrini zəif yerinə yetirdiyi zaman müəssisə lazımi tədbirlər görə bilər. Bütün bu məsələlər insan resurslarının idarə edilməsinin bir hissəsidir.

Məlum olduğu kimi əmək haqqı sisteminin tənzimlənməsində üçtərəfli əməkdaşlıq haqqında Sazişin bağlanması mühüm əhəmiyyətə malikdir. Sazişin Tərəfləri aşağıdakı tədbirləri həyata keçirməyə görə öhdəlik götürür:

- Yaşayış minimumunun müəyyən edilməsinə dair qanunvericilik və razılaşdırılmış zəruri normativ-hüquqi aktların hazırlanmasını və təsdiqini başa çatdırmaq və bu sənədlərin tələblərinə riayət etmək;
- Yaşayış minimumunun artımına nisbətən, əhalinin gəlirlərinin qabaqlayıcı artım templərini təmin etmək;
- Əməyin ödənilməsinə sərf olunan vəsaitin ÜDM-də xüsusi çəkisinin tədricən 30-35%-ə qədər artırılması üçün tədbirlər planını işləyib hazırlamaq;
- Büdcədən maliyyələşən təşkilatlarda çalışanların Vahid Tarif Cədvəlinin təkmilləşdirilməsini davam etdirmək;
- Əməyin ödənilməsi, pensiya və müavinətlərin vaxtında verilməsi üçün büdcədən vəsaitin ayrılması və istifadəsində qanunvericiliyə uyğun olaraq (müvafiq həmkarlar ittifaqları orqanlarının iştirakı ilə) dövlət nəzarətinin gücləndirilməsini təmin etmək;
- Əmək haqqı üzrə borcların azaldılması və aradan qaldırılması sahəsində təsirli tədbirlər görmək.

Qeyd edilənləri ümumiləşdirərək əmək haqqının tənzimlənməsi üçün əmək haqqının vaxtında ödənilməsi, əhali gəlirləri siyasətinin gücləndirilməsi, yaşayış minimumu səviyyəsini nəzərə almaqla minimum əmək haqqı qanunvericiliyinin yaradılması, mülkiyyət formasından asılı olmayaraq bütün müəssisələrdə əmək haqqının dövri indeksasiyasının həyata keçirilməsi məqsədəuyğundur.

**Açar sözlər:** əmək haqqı, əmək məhsuldarlığl, işçi qüvvəsi, orta əmək haqqı

**İstifadə edilmiş ədəbiyyat**

1. Abbasova S.Q. Demoqrafik proqnoz və əmək qabiliyyətli əhalinin inkişaf perspektivləri // AMEA-nın Xəbərləri. Humanitar və ictimai elmlər seriyası (iqtisadiyyat), 2006, №1, 415-420 s.
2. Azərbaycanın statistik göstəriciləri - 2014. Bakı: 2015
3. Журавлева Г.П. Экономика: Учебник. М.: Юристь, 2001, 574 с.
4. Основы социального управления: Учебное пособие / А.Г.Гладышев, В.Н.Иванов, В.И.Патрушев и др. Под ред. В.Н. Иванова. М.: Высш. шк., 2001, 271 с.

**Гюльнара Гаджиева**

## ЗАРАБОТНАЯ ПЛАТА ГЛАВНЫЙ ФАКТОР ПОВЫШЕНИЯ ПРОИЗВОДИТЕЛЬНОСТИ ТРУДА

**Резюме**

Процессы происходящие в мировой экономике требуют новый методический подход к формированию и механизму претворения социальной политики. Эта политика должна обеспечить оптимальное соответствие стимулирования экономически активной части населения, социальную защиту населения, вовлеченную в экономически неактивную часть по возрасту или по семейному положению. Формирование социальной системы выполняет комплексные экономические, политические, организационные, культурные и другие задачи. Основную роль в формировании социальной системы играет заработная плата. С учетом особенности заработной платы на международной арене, она является объектом обсуждения.

**Ключевые слова:** заработная плата, производительность труда, рабочая сила, средняя заработная плата

**Gulnara Hajiyeva**

## SALARY AS THE MAIN FACTOR IN INCREASING OF LABOUR PRODUCTIVITY

**Summary**

The processess occuring in the world economy require a new approach to forming and mechanism of social politics. This politics should provide with optimal conformation of stimulation of economically active part of population, its social protection involved in economically inactive part based on age or family status. Salaries play an important role in the formation of social system. Taking into accont the features of the salary on the international stage it is the subject of discussion.

**Keywords:** salaries, labor productivity, labor force, the average salary

**UOT – 338.1**

**Təranə Vəliyeva**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**

# İQTİSADİYYATIN İDARƏEDİLMƏSİNDƏ İNFORMASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏ ETMƏKLƏ HESABLAMALARIN APARILMASI

*Cəmiyyətin informasiyalaşdırılması, idarəetmə texnologiyasının avtomatlaşdırıldığı bir dövrdə informasiya texnologiyalarından istifadə böyük əhəmiyyət kəsb edir. Hal-hazırda informasiya texnologiyalarından böyük nailiyyətlər əldə edilərək informasiya resurslarından (informasiya sistemlərində, kitabxanalarda, arxivlərdə, fondlarda, məlumat bazalarında, muzeylərdə və s. olan sənədlər toplusu) düzgün istifadə edilir. İnformasiya texnologiyaları kompüterdə interaktiv rejimdə iş, proqram məhsullarının qarşılıqlı əlaqələndirilməsi və proqramlaşmada həm verilənlərin, həm də məsələnin qoyuluşunun dəyişdirilməsi prosesinin çevikliyi prinsipləri üzrə inkişaf edir.*

Kompüter texnikası olmadan müasir cəmiyyəti təsəvvür etmək qeyri-mümkündür. Daha doğrusu, informasiya cəmiyyətində, elm və texnikanın bütün sahəsində kompüter texnikasının tətbiqi vacib məsələlərdən biri kimi indi dövlət səviyyəsində diqqət mərkəzindədir. Hal-hazırda müəssisənin və ya təşkilatın fəaliyyəti yeni innovasiya üsulu olan *informasiya texnologiyalarının* tətbiqi ilə həyata keçirilir. Daim yeniləşən bu informasiya texnoloji mühitində işləyən mütəxəssislər zəruri biliklərə yiyələnməklə onun tətbiqinin böyük əhəmiyyət kəsb etdiyini dərk etməlidirlər. Bir sözlə,, müəssisələrin problemlərinin həlli üçün verilənləri toplamaq, onların emalını həyata keçirmək və təqdim etmək qabiliyyətinə malik olan informasiya sistemləri vasitələrindən istifadə etməyi bacarmalıdırlar [3, s.110].

İqtisadiyyatın bütün sahələrində-maliyyə, menecment, mühasibat uçotu, auditor fəaliyyəti, bankçılıq, vergi xidməti, büdcə prosesi, xəzinadarlıq orqanlarında avto-matlaşdırılmış informasiya texnologiyalarının tətbiqi geniş imkanlara malikdir və bu sahələrdə məsələlər, əsasən, informasiya texnologiyaları və sistemlərinin tətbiqi ilə həll olunur. Məsələn,

**Mühasibat uçotu.** Mühasibat uçotu informasiya texnologiyasının klassik tətbiq sahələrindən biri olub, bu gün də daha çox reallaşdırılan məsələdir. Bu onunla izah olunur ki, mühasibin səhvi çox baha başa gələ bilər, kompüterdən istifadə olunması isə bunun qarşısını alır. Digər tərəfdən, mühasibat uçotu məsələsi asan formallaşdırıldığından, onun avtomatlaşdırılması sisteminin qurulması texniki və proqram baxımından heç bir çətinlik yaratmır.

**Bank sistemi.** Hazırda həm dövlət, həm də özəl kommersiya banklarının böyük əksəriyyətində avtomatlaşdırılmış informasiya texnologiyalarından geniş istiafdə olunur. Bu texnologiyalar bankın yerinə yetirdiyi bütün funksiyaları əhatə edə bilər: depozit hesablarının və kredit əməliyyatların avtomatlaşdırılması, fiziki və hüquqi müştərilər haqqında, onların hesabları və kredit almaları haqqında verilənlər bazasının qurulması və s. *(burada informasiyanın təhlükəsizliyi məsələsi yüksək səviyyədə həll olunur)* [5, s.51].

**Maliyyə axınlarının idarə olunması**. İnformasiya texnologiyaları maliyyə sahəsində tətbiq olunmaqla maliyyə axınlarının idarə olunmasında səhvlərin qarşısını almağa imkan verir. Tədarükçülər və istehlakçılar arasında hesablaşma sisteminin düzgün qurulmaması nəticəsində məsələlərin yaxşı həll olunduğu halda belə, maliyyə böhranları yarana bilər. Bu halda informasiya texnologiyaları əvəzolunmaz vasitədir.

**Mal dövriyyəsinin, çeşidin və tədarükün idarə olunması**. Mal dövriyyəsinin, çeşidin və tədarükün təhlili prosesinin informasiya texnologiyaları vasitəsi ilə icra olunması vəsaitlərin daim çatışmaması şəraitində müəssisənin gəlirlə işləməsinə və dinamik inkişafına zəmin yaradır. Dövriyyə vəsaitlərinin həddən artıq miqdarda anbarlarda yığılıb “dondurulması” istənilən istehsal müəssisəsinin zərərinə yönələn proses hesab olunur. Perspektiv malları nəzərə almadan müəssisə inkişaf edə bilməz. Bütün bunlar isə mal dövriyyəsinin, çeşidin və tədarükün informasiya texnologiyalarının tətbiqi ilə hərtərəfli təhlili və məqsədyönlü idarə olunması sayəsində aradan qaldırıla bilər [4, s.68].

**İstehsal proseslərinin idarə olunması.** İstehsal proseslərinin idarə olunması çox zəhmət tələb edən problemdir. Burada əsas məsələ istehsal prosesinin planlaşdırılması və optimal idarə olunmasıdır. Bu məsələnin informasiya texnologiyaları ilə həlli istehsal güclərini, sərfləri, bazarı və s. nəzərə almaqla planlaşdırmanı düzgün aparmağa, istehsalın texniki hazırlağını yerinə yetirməyə, istehsal proqramına və texnologiyaya uyğun məhsul istehsalı prosesini operativ idarə etməyə imkan-

lar yaradır. Aydındır ki, istehsalat böyük olduqda gəlirin alınmasında iştirak edən biznes proseslərin sayı çox olur, odur ki, informasiya sistemindən istifadə olunması həyati zərurət daşıyır [4, s.18].

**Texnoloji proseslərin idarə olunması.** Texnoloji proseslərin idarə olunmasında kompüter texnologiyasından uzun müddətdir ki, *(təxminən 70-ci illərdən başlayaraq)* istifadə olunur. İlk vaxtlar bu məqsədlə aparat vasitəsi kimi xüsusiləşdirilmiş idarəedici kompüterlərdən istifadə olunurdu. Mikroprosessorlar və fərdi kompüterlər yaradılandan sonra aparat vasitəsi kimi onlardan istifadə olunmağa başlandı. Əksər hallarda kompüter və ya mikroprosessor texnoloji qurğunun özündə yerləşdirilir. Texnoloji proseslərin idarə olunmasında əsas problem sistemin həqiqi zaman miqyasında *(online)* işinin təmin olımmasıdır. Bu problemin həlli sistemin bütün komponentlərinə xüsusi tələblər qoyur. Müasir texnoloji qurğuların əksəriyyətində informasiya texnologiyaları ilə qurğuların layihə edilməsi və hazırlanması nəzərə alınır, onlann tərkib hissəsi kimi istehlakçılara təqdim edilir. [3, s.194].

**Marketinqin idarə oluıunası.** Marketinqin idarə olunması rəqib firmalar, onların məhsulları və qiymət siyasəti haqqında verilənlərin toplanması, təhlili, həmçinin optimal qiymət səviyyəsinin təyini, gəlirin proqnozlaşdırılması və reklam kampaniyasmın planlaşdınlması üçün xarici mühitin parametrlərinin modelləşdirilməsini əhatə edir. Bu məsələlərin əksəriyyətinin həlli formallaşdırıla bilir və informasiya texnologiyaları ilə asan reallaşdırılır. Bununla da marketinqin idarə olunmasının səmərəliyini artırmaq mümkün olur.

**Sənəd dövriyyəsi.** Sənəd dövriyyəsi istənilən müəssisənin fəaliyyətində çox vacib proses hesab olunur. Uçot və hesabat sənədlərinin dövriyyəsi sisteminin yaxşı təşkili müəssisədə cari istehsal fəaliyyətinin real gedişini əks etdirir və bu prosesə idarəetmə orqanlarının operativ reaksiya verməsinə zəmin yaradır. Odur ki, sənəd dövriyyəsinin informasiya texnologiyaları ilə həlli idarəetmənin səmərəliliyini artırmağa imkan verir. Müəssisənin bütün funksional bölmələrinin kompüterləşdirilməsi şəraitində lokal kompüter şəbəkəsi yaratmaqla və sənədlərin elektron variantlarından istifadə etməklə, sənəd dövriyyəsini tam avtomatlaşdırmaq olar.

**Müəssisənin operativ idarə edilməsi.** Müəssisədə fəaliyyət göstərən korporativ informasiya sistemi müəssisənin operativ idarə olunmasmda əvəzsiz rol oynayır. Sistemin informasiya bazasında müəssisənin istehsal fəaliyyəti, funksional bölmələr və onların yerinə yetirdikləri funksiyalar, istehsal sahələri, avadanhq, xammal, materiallar, məhsullar, əmək və maliyyə resursları və s. haqqında informasiya toplanır. Operativ idarəetmə məqsədilə istifadə olunan informasiya texnologiyaları biznes-proseslərin avtomatlaşdırılması üçün müxtəlif proqram vasitələrinə malik olur. Bu cür informasiya texnologiyalarından çeviklik, adaptasiya və inkişaf imkanına malik olmaq tələb edilir.

İnformasiya texnologiyalarının tətbiqi olmadan elmi və sosial-iqtisadı məsələlərin həlli, mürəkkəb problemlərin tədqiqi mümkün deyildir və ona görə də istehsalın səmərəli təşkili və idarə edilməsində, maliyyə, mühasibat, biznes, bank və s. işlərdə hesablama əməliyyatları kompüterin köməyi ilə aparılır, çox əlverişli hesab olunur, adətən, riyazi modelin və kompüter proqramlarının köməyi ilə həyata keçirilir. Belə proqramlardan geniş yayılanı *MS EXCEL* cədvəl prosessorudur [2, s.141].

EXCEL cədvəl prosessorunda verilənlər cədvəl şəklində təsvir olunaraq onlardan elektron formada istifadə edilir və asan emal olunur. Cədvəllərin elektron formada tərtib olunması, onlardakı müxtəlif xanaların qiymətləri arasında əlaqə yaratmaq üçün formulların tətbiqinə imkan verir. Verilən formullar üzrə hesabat avtomatik yerinə yetirilir.Hər hansı bir xanada edilən dəyişiklik onunla formul nisbətləri ilə əlaqələndirilmiş bütün xanalardakı qiymətlərin yenidən hesablanmasının, dəyişdirilmiş verilənə uyğun bütün cədvəlin yeniləşdirilməsinə gətirib çıxarır.

Hesablama işlərinin EXCEL cədvəl prosessorunun köməyi ilə aparılmasına misal üzərində baxaq [6, s.52]:

*Məsələ: İki müəssisəyə müxtəlif miqdarlarda məhsul hazırlamaq sifariş edilmişdir. Bu məhsullar üç sexdə hazırlana bilər. Belə ki, birinci müəssisədə 1000 vahid məhsulu I sex 10 gün ərzində, II sex 25 gün ərzində, III sex isə 20 gün ərzində, ikinci müəssisədə isə uyğun olaraq I sex 35 gün ərzində, II sex 28 gün ərzində, III sex isə 22 gün ərzində buraxa bilər. Müəyyən olunmuş müddətə sifarişi birlikdə yerinə yetirmək üçün hər sex üçün hər iki müəssisəyə ayrı- ayrı hansı plan tapşırığı müəyyən edilməlidir və sifarişin müddəti nə qədər olmalıdır?*

Məsələni Excel tətbiqi proqramının köməyi ilə belə həll etmək olar: əvvəlcə hesablama aparılacaq cədvəlin tələb olunacaq sayda sətir və sütunu nəzərə alınmaqla strukturu hazırlanır ***(C5:H11)***,

sonra müvafiq sütunlar ***(C, D, E, F)*** üzrə istifadəçi tərəfindən verilən göstəricilər xanalara daxil edilir. **G** və **H** sütunlarında isə hesablamalar aparılır. Yəni, **G6** sütununda

**=E6/(1000/F6+1000/F7+1000/F8)**

düsturundan istifadə etməklə ***birgə iş vaxtı,*** **H6** sütununda

**=1000/F6*$G$6**

düsturundan istifadə etməklə ***plan tapşırıqları*** hesablanır. Sonra düsturların digər düsturlara da tətbiq etmə qaydasından istifadə etməklə hesablamalar bütün xanalarda əks olunur və hesablanmış əməliyyatlar aşağıdakı kimi görünür:

Şəkil 1



| № | Müəssisənin adı | Məhsulun ümumi miqdarı | Məhsulun sexlər üzrə istehsal gücü | Birgə iş vaxtı (sifarişin müddəti) | Hər sex üzrə məhsulun miqdarı (plan tapşırığı) |
|---|---|---|---|---|---|
| | | | 10 | | 1200 |
| | | | 25 | | 480 |
| 1. | Müəssisə 1 | 2280 | 20 | 12 | 600 |
| | | | 35 | | 911 |
| | | | 28 | | 1139 |
| 2. | Müəssisə 2 | 3500 | 22 | 32 | 1450 |

Excel proqramından istifadə etməklə çoxlu sayda bu tip hesablamalar da aparmaq olar [8, s.103].

Dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin və operativliyinin yüksəldilməsi, əhali, biznes qurumları ilə, həmçinin öz aralarında əlaqələrin asanlaşdırılması və sərbəstləşdirilməsi məqsədi ilə informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməsi dünya təcrübəsində “elektron hökumət” *(e-hökumət)* anlayışı ilə adlandırılmışdır. “e-hökumət” ideyası son 10-15 ildə bütün dünyada geniş vüsət tapmış və özünü təcrübədə tam doğrultmuşdur. Müxtəlif ölkələrdə “e-hökumət” üzrə strategiya, metodika və fəaliyyət planları qəbul edilmiş və icra edilməkdədir. Beynəlxalq qurumlar bu prosesə ciddi diqqət yetirir, maliyyə yardımları edir, hətta qlobal xarakter almış bu prosesi bir qədər də sürətləndirmək üçün ümumdünya tədbirləri, o cümlədən reytinqlərin tərtibatını həyata keçirir [3, s.300].

Azərbaycan Respublikasında da müasir informasiya kommunikasiya texnolo-giyalarından istifadənin ümumi səviyyəsi qənaətbəxşdir və “e-hökumət”in formalaşdırılması üçün zəmin mövcuddur. “e-hökumət”in formalaşdırılması üzrə respublikada aparılan fəaliyyətin əsası 2003-cü ildə təsdiq edilmiş “Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)” ilə qoyulmuşdur. Həmin dövrdən sonrakı illərdə müxtəlif sahələrin inkişaf etdirilməsi üzrə qəbul edilmiş çoxsaylı Dövlət Proqramlarında İKT-nin tətbiqinə, sahədə idarəetmənin səmərəliliyinin, göstərilən xidmətlərin daha keyfiyyətli təşkilinə yönəlmiş məqsədyönlü tədbirlər nəzərdə tutulmuşdur. Bu işlər kompleks şəkildə bir-birini tamamlayaraq, az bir vaxtda dünyanın inkişaf etmiş dövlətləri səviyyəsinə yüksəlmək üçün müəyyənləşdirilmiş strategiyanı təşkil edir [1].

**Açar sözlər:** iqtisadiyyatın idarə edilməsi, informasiya texnologiyası, texniki və proqram təminatı, sənəd dövriyyəsi, operativ idarə edilmə, *MS EXCEL* cədvəl prosessoru, “e-hökumət”

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasında inkişaf naminə İKT-ın tətbiqi və inkişaf etdirilməsinin Milli Strategiyası (İKTSM). 2003-2012-ci illər. Bakı: 2003
2. Gündüz O.M., Əfəndiyev Q.C., Rüstəmov N.S. Kompüter-İnformasiya texnologiyalarının əsasları. Bakı: Multimedia Mərkəzi, 2006, 304 s.
3. Hümbətəliyev R., Tağıyev H., Quliyeva F. İqtisadi informatikanın əsasları. Bakı: 2014
4. Məmmədova Ə. Sosial-iqtisadi proseslərin proqnozlaşdırılması. Bakı: 2015
5. Məmmədova Ə., Səfərova S., Vəliyeva T. İqtisadiyyatda informasiya sistemləri. Bakı: 2011
6. Süleymanov S.H. Kompüterdə iqtisadi-riyazi modelləşdirmənin elementləri. Bakı: Bakı nəşriyyatı, 2002, 175 s.
7. http://ikt.az
8. Юнов С.В. Я могу работать с Microsoft Excell. Москва: Бином, 2007, 280 с.

**Тарана Велиева**

**ПРОВЕДЕНИЕ ВЫЧИСЛИТЕЛЬНЫХ РАБОТ С ИСПОЛЬЗОВАНИЕМ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ В УПРАВЛЕНИИ ЭКОНОМИКОЙ**

**Резюме**

Использование информационных технологий в период автоматизации технологии управления, в условиях постоянно обновляющейся информационной среды, имеет важное значение. Широкое распространение получило использование компьютеров, как основной инструмент этих технологий, во всех сферах деятельности человека. В этой связи прикладная компьютерная программа EXCEL для автоматического осуществления расчетов в экономической сфере является самой востребованной программой.

**Ключевые слова:** управление экономикой, информационные технологии, техническое и программное обеспечение, документооборот, оперативное управление, табличный процессор MS EXCEL, «э-правительство»

**Tarana Veliyeva**

**CALCULATIONS USING INFORMATION TECHNOLOGIES IN THE MANAGEMENT OF THE ECONOMY**

**Summary**

The use of information technologies during automatisation of technologic management in conditions of constantly updated informational system is of great significance. The use of computers as the main tool of these technologies is widely spread in all spheres of human activity . For this reason the computer programme Excell for automatic calculation is of the greatest demand in economic sphere.

**Keywords:** the management of the economy, information technology, technical and software, document management, operational management, MS EXCEL table processor, E-government

**UOT – 338.1**

**Mehparə Hidayətova**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**

# AZƏRBAYCAN RESPUBLİKASININ BÜDCƏ XƏRCLƏRİNİN SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

*Məqalədə büdcə xərclərinin effektivliyi məsələləri nəzərdən keçirilir. Büdcə xərclərinin effektivliyini müəyyən edən meyarlar, Azərbaycan Respublikasında cari dövlət büdcəsi xərclərinin təhlili aparılır. Büdcə xərclərinin effektivliyinin yüksəldilməsi üçün tövsiyələr və təkliflər irəli sürülür. Bildirilir ki, büdcə xərclərinin səmərəliliyinin artırılması əksər ölkələrin və eləcə də yerli özünüidarəetmə orqanlarının qarşısında duran ən vacib məsələlərdən biridir. Bununla bağlı istər beynəlxalq, istərsə də yerli mütəxəssislərin fikirlərinə nəzər salsaq görərik ki, büdcə xərclərinin səmərəliliyi ilə bağlı yanaşmalar kifayət qədər ümumiləşmiş xarakter daşıyır. Məqalədə büdcə xərclərinin səmərəliliyi ilə bağlı yanaşmaların üç qrupa bölünməsi ətrafında da təhlillər aparılır.*

Məlum olduğu kimi, dövlətlə müxtəlif təşkilatlar, müəssisələr, idarələr və əhali arasında müxtəlif formada maliyyə münasibətləri yaranır ki, bu münasibətlər də büdcə münasibətləri adlanır. Maliyyə münasibətlərinin tərkib hissəsi kimi bu münasibətlərin spesifik xüsusiyyətləri ondan ibarətdir ki, onlar bölgü prosesində meydana gəlir və ümumdövlət tələbatının ödənilməsi üçün müəyyən edilmiş mərkəzləşdirilmiş pul vəsaiti fondunun formalaşması və istifadəsi ilə əlaqədardır.

Dövlət büdcəsi dövlətin gəlir və xərclərinin başlıca maliyyə kateqoriyası kimi çıxış etdiyindən istər gəlir hissəsi, istərsə də xərc hissəsinin səmərəliliyi olduqca aktual məsələdir. Son illərin statistik məlumatları göstərir ki, ölkəmizdə dövlət büdcəsi vasitəsilə ÜDM-ün 30%-ə qədəri yenidən bölüşdürülür ki, bu da məhsuldar qüvvələrin daha səmərəli yerləşdirilməsini, Azərbaycan Respublikasının ərazisində iqtisadiyyatın yüksəldilməsi tələbləri nəzərə alınmaqla maliyyə resurslarının sahələrarası və ərazi üzrə yenidən bölgüsünün həyata keçirilməsini təmin edir.

Müasir dövrdə büdcə xərclərinin səmərəliliyinin artırılması əksər ölkələrin və eləcə də yerli özünüidarəetmə orqanlarının qarşısında duran ən vacib məsələlərdən biridir. Bununla bağlı istər beynəlxalq, istərsə də yerli mütəxəssislərin fikirlərinə nəzər salsaq görərik ki, büdcə xərclərinin səmərəliliyi ilə bağlı yanaşmalar kifayət qədər ümumiləşmiş xarakter daşıyır. Büdcə xərclərinin səmərəliliyi ilə bağlı yanaşmaları 3 qrupa bölmək olar:

- I qrup tədqiqatçılar hesab edirlər ki, büdcə xərclərinin səmərəliliyi əldə edilmiş nəticənin istehsal xərclərinə olan nisbətindən asılıdır. Bu cür yanaşma Q.P.Xatri və bir sıra başqa müəlliflərin də tərəfdar olduğu ictimai sektorun iqtisadi nəzəriyyəsində və Böyük iqtisadi lüğətdə də öz əksini tapmışdır.
- II neoklassik nəzəriyyədir ki, bu nəzəriyyə büdcə xərclərinin səmərəliliyi təqdim olunan resursların (ehtiyatların) daha böyük hissəsinin istehlakçının sərəncamına verilməsini nəzərdə tutur.
- III qrup tədqiqatçılar büdcə xərclərinin effektivliyini mövcud resurslardan (ehtiyatlardan) istifadə etməklə, maksimal nəticə əldə etməkdə və ya resursların minimal istehlakı müqabilində müvafiq keyfiyyətlilik və həcmin təmin olunmasında görürlər [4, s.194-198].

Araşdırmalar göstərir ki, müsbət nəticəyə hədəflənmiş büdcə xərclərinin səmərəsindən maksimum yararlanmaq üçün bir sıra məqamlar nəzərə alınmalıdır: nəticəlilik - planlaşdırılan nəticənin icra səviyyəsi; effektivlik - vahid məhsula (və ya xidmətə, işə) çəkilən məsrəflərin minimuma endirilməsi [3, s.120].

Ümumiyyətlə, səmərəlilik - təkcə büdcədə deyil, bütün iqtisadiyyat üçün olduqca zəruri və əhəmiyyətli məsələlərdən biridir. Səmərəlilik məsələsinə Dünya Bankının da yanaşması maraqlı olardı. Bu baxımdan Dünya Bankının metodik göstərişlərində büdcənin səmərəliliyinin qiymətləndirilməsi aşağıdakı amillər nəzərə alınmaqla aparılır:

- uyğunluq - proqramlarda qoyulan məqsədlərin dövlətin hədəfləri ilə uyğunlaşdırılması;
- sosial səmərə - müəyyən edilən hədəflərin əldə edilən sosial səmərəsi;
- iqtisadi səmərə - proqram çərçivəsində əldə edilmiş nəticələrin onlara çəkilən xərclərə nisbəti.

Beləliklə, büdcə xərclərinin səmərəliliyinin metodoloji əsasları ilə bağlı yanaşmalar göstərir ki, səmərəlilik meyarı dəyişən bir göstəici olub, istifadə olunduğu sahədən asılı olaraq müəyyənləşdirilməlidir.

Qeyd edək ki, Azərbaycan Respublikasında vahid büdcə təsnifatı tətbiq olunur. Büdcə təsnifatı büdcə gəlirlərinin təsnifatından, büdcə xərclərinin funksional, iqtisadi, təşkilati və s. prinsiplər əsasında tərtib olunmuş təsnifatından ibarətdir ki, bu da Azərbaycan Respublikasının “Büdcə sistemi haqqında” qanununa əsasən müəyyən edilir (*2 iyul 2002-ci il, № 358 IIQ*).

Qeyd etdiyimiz kimi, dövlət büdcəsi - Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti orqanları vasitəsilə dövlətə məxsus vəzifə və funksiyalarını yerinə yetirmək üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması üçün əsas maliyyə sənədidir və dövlət büdcəsinin ən ümdə məqsədi ölkənin iqtisadi, sosial və digər strateji proqramlarının və problemlərinin həlli, dövlətin funksiyalarının həyata keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vəsaitinin toplanmasını və müəyyən edilmiş sahələr üzrə istifadə edilməsini təmin etməkdir. Bu baxımdan Azərbaycan Respublikasında büdcə vəsaitlərinin iqtisadi, sosial və dövlətin digər funksiyalarının həyata keçirilməsi üçün xərclərin qiymətləndirilməsini aparmaq üçün DSK-nin son 5 il ərzində büdcə vəsaitlərinin sahələr üzrə xərclərinin statistikasına nəzər salmağı məqsədəuyğun hesab etmişik.

**2009-2014-cü illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsinin xərclərinin göstəriciləri (milyon manatla)**

Cədvəl 1

| | **2009** | **xüsusi çəkisi %** | **2010** | **xüsusi çəkisi %** | **2011** | **xüsusi çəkisi %** | **2012** | **xüsusi çəkisi %** | **2013** | **xüsusi çəkisi %** | **2014** | **xüsusi çəkisi %** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Xərclər-cəmi | 10503,9 | 100% | 11765,9 | 100% | 15397,5 | 100% | 17416,5 | 100% | 19143,5 | 100% | 18699,3 | 100% |
| *o cümlədən:* | | | | | | | | | | | | |
| İqtisadiyyata | 4373,9 | 41,6 | 4889,9 | 41,6 | 6803,2 | 44,2 | 6960,7 | 40,0 | 8207,5 | 42,9 | 7596,6 | 40,6 |
| sosial-mədəni tədbirlərə | 2763,0 | 26,3 | 2901,4 | 24,7 | 3447,2 | 22,4 | 4072,9 | 23,4 | 4081,8 | 21,3 | 4484,4 | 24,0 |
| *onlardan:* | | | | | | | | | | | | |
| Təhsil | 1147,9 | 10,9 | 1180,8 | 10,0 | 1268,5 | 8,2 | 1453,2 | 8,3 | 1437,7 | 7,5 | 1553,9 | 8,3 |
| Səhiyyə | 402,4 | 3,8 | 429,2 | 3,6 | 493,4 | 3,2 | 609,4 | 3,5 | 618,9 | 3,2 | 665,3 | 3,6 |
| Sosial müdafiə və sosial təminat | 1054,4 | 10,0 | 1123,0 | 9,5 | 1495,4 | 9,7 | 1769,5 | 10,2 | 1750,3 | 9,1 | 1971,2 | 10,5 |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəal | 158,3 | 1,5 | 168,4 | 1,4 | 189,9 | 1,2 | 240,8 | 1,4 | 274,9 | 1,4 | 294,0 | 1,6 |
| elmə | 83,3 | 0,8 | 92,8 | 0,8 | 106,1 | 0,7 | 116,7 | 0,7 | 117,0 | 0,6 | 124,2 | 0,7 |
| Məhkəmə hakimiyyəti,hüquq-mühafizə və prokurorluq | 648,9 | 6,2 | 668,5 | 5,7 | 710,3 | 4,6 | 929,2 | 5,3 | 1049,3 | 5,5 | 1103,6 | 5,9 |
| qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının saxlanmasına | 289,7 | 2,8 | 303,0 | 2,6 | 281,9 | 1,8 | 342,3 | 2,0 | 349,3 | 1,8 | 449,7 | 2,4 |
| Sair xərclər | 2345,1 | 22,3 | 2910,3 | 24,7 | 4048,8 | 100,0 | 4994,7 | 28,7 | 5338,6 | 27,9 | 4940,8 | 26,4 |

*Cədvəl DSK-nın məlumatları əsasında hazırlanmışdır.*

Dövlət büdcəsinin xərclərinin təhlili istiqamətində aparılan araşdırmalar göstərir ki, Azərbaycan Respublikasında 2009-2014-cü illərdə dövlət büdcəsindən iqtisadiyyata ayrılan xərclərin həcmi 40-42% həcmində dəyişmişdir ki, bu da müəyyən mənada xərclərdən səmərəli istifadə olunduğunu göstərir.

Digər mühüm göstərici kimi isə sosial-müdafiə xərcləridir ki, bu da dövlət büdcəsinin xərclərinin təqribən 10-12% həcmindədir.

Beləliklə, aparılan tədqiqatlar göstərir ki, dövlət ölkənin müdafiəsini təşkil etmək üçün ordu saxlanmasına, ordunun maddi-texniki təminatının təşkilinə, əhaliyə dövlət hesabına səhiyyə və təhsil xidməti, sosial müdafiəyə ehtiyacı olan əhali qruplarına (qocalara, əlillərə, kimsəsiz uşaqlara, tələbələrə) yardımlar göstərilməsinə, mədəniyyət və idmanın inkişafına daim xüsusi diqqət göstərir və eyni zamanda da tənzimləyir.

Fikrimizcə, Azərbaycanda dövlət büdcəsinin xərcləri əsasında aparılan təhlillər nəticəsində belə qənaətə gəlmək olar ki, ölkəmizdə büdcə xərclərinin səmərəlilik meyarlarına riayət olunur. Bunun üçün hətta Azərbaycan reallığında dövlət xərclərinə nəzarət və bu xərclərin səmərəliliyinin qiymətləndirilməsi üçün ilk növbədə norma və normativlərə də müraciət olunur. Bu isə onunla izah olunur ki, dövlət büdcəsindən müxtəlif istiqamətlər üzrə maliyyə vəsaitlərinin bölgüsü təyin olunmuş norma və normativlər əsasında aparılır. Bu normativlərin tətbiqi dövlət büdcəsindən həmin sahələr üzrə ayrılan vəsaitlərin həcmini müəyyənləşdirməyə və büdcənin icrası mərhələsinə nəzarət etmək imkanı verir.

Hazırda Azərbaycan Respublikasının büdcə sisteminin bütün səviyyəli büdcələrinin tərtib edilməsində və icrasında, onun göstəriciləri müqayisə edilməklə tərtib olunur. Burada əsas meyar kimi qruplaşdırılan büdcə xərclərinin şəffalığı və dəqiqliyi ön planda durur. Bununla belə, Azərbaycan Respublikasında dövlət büdcəsinin xərclərinin səmərəliliyinin artırılması üçün fikrimizcə, aşağıdakı tədbirlərin həyata keçirilməsi daha məqsədəmüvafiq olardı:

- büdcə xərclərinin ilkin qiymətləndirməsi;
- büdcə xərcləri üzrə mütəmadi monitorinqin təmin olunması;
- büdcə xərcləri hesabına həyata keçirilən bütün layihələrin sonda yenidən qiymətləndiriməsi.

Fikrimizcə, irəli sürülən təklif və tövsiyələr büdcə xərclərinin səmərliliyinin artırılması istiqamətində müsbət nəticə verəcəkdir.

**Açar sözlər:** maliyyə, büdcə xərcləri, səmərəlilik, büdcə təsnifatı, sosial səmərə, iqtisadi səmərə, müəssisə.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının "Büdcə sistemi haqqında" Qanunu. Bakı şəhəri, 2 iyul 2002-ci il, № 358-IIQ
2. www.stat.gov.az
3. Бушмин Е.Б. Бюджет: прцедуры и эффективность. М.: Альтернатива, 2003, 371 с.
4. Тишутина О.И., Михайлов А.В. Бюджетные расходы: вопросы эффективности, результативности и разработка системы показателей оценки // Проблемы современной экономики – 2012 - № 4 (44)

**Мехпара Гидаятова**

## ОЦЕНКА ЭФФЕКТИВНОСТИ БЮДЖЕТНЫХ РАСХОДОВ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

### Резюме

В статье рассматриваются вопросы эффективности бюджетных расходов, критерии определяющие эффективность бюджетных расходов, анализ текущих расходов государственного бюджета в Азербайджанской Республике, даются рекомендации, направленные на повышение эффективности бюджетных расходов.

**Ключевые слова:** финансы, бюджетные расходы, эффективность, бюджетная классификация, социальный эффект, экономический эффект, предприятие

**Mehpara Hidayetova**

## EVALUATION OF THE EFFECTIVENESS OF BUDGET EXPENSES

### Summary

The issues of the effevtiveness of budget expences, the criterias determining the effectiveness of budget expenses and the analyses of current expenses of state budget in the Azerbaijan Republic are noted in the article. The recommendations for improving the effectiveness of budget expenses are given in the article too.

**Keywords:** finance, budget expenses, efficiency, budget classification, social effects, economic effects, company

**UOT – 339.9: 3381**

**Faziyə Məlikova**
**Azərbaycan Dövlət Neft Akademiyası**

# AZƏRBAYCAN-KANADA İQTİSADİ ƏMƏKDAŞLIĞININ PRİORITETLƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ

*Məqalədə Azərbaycanla Kanada arasında iqtisadi əməkdaşlığın təşkilinin mövcud vəziyyətinin qiymətləndirilməsi nəticəsində aşkar edilən ehtiyat imkanlarından səmərəli istifadə etmək, Kanada şirkətlərinin qeyri-neft sektorunun inkişaf etdirilməsi üzrə prioritet sferalar müəyyən edilmiş, gözlənilən sosial-iqtisadi nəticələr şərh olunmuşdur.*

Azərbaycan bu gün Avrasiya məkanında sürətli inkişaf edən, dünyanın ən islahatçı və bölgənin lider dövlətidir. Bu yüksəliş ölkə rəhbərliyinin güclü, prinsipial siyasi iradəsinin, gələcək perspektivi aydın təsəvvür edə və vaxtında düzgün qərarlar qəbul edərək müəyyənləşdirilmiş strateji kursu müasir çağırışlara uyğun həyata keçirə bilməsinin nəticəsidir Azərbaycanın sosial-iqtisadi uğurları davamlı, iqtisadiyyatı ilə dayanıqlı və rəqabətədavamlıdır. Bununla belə, xarici iqtisadi əməkdaşlığın daha da dərinləşdirilməsi, ixrac potensialının artırılması, XİF üzrə mütərəqqi təcrübənin öyrənilib, ölkəmizin  makro və mikro səviyyələrində daha geniş istifadə edilməsi – qarşıda duran mühüm vəzifələrdəndir.

Həmin vəzifələrin yerinə yetirilməsi üçün Azərbaycanın qarşısında duran əsas məsələ dünya ölkələrinin inkişaf sürəti ilə müqayisədə geriliyə yol verməməkdir. Bu isə ilk növbədə iqtisadiyyatda karbohidrogen ehtiyatların ixracından mövcud asılılığı aradan qaldırmaqla orta və uzunmüddətli perspektivdə dünya iqtisadiyyatının xammal əlavəsinə və texnoloji "autsaydera" çevrilmək təhlükəsinin qarşısını almaq kimi mühüm məsələnin daim diqqət mərkəzində saxlanılmasını tələb edir. Deməli, təxirəsalınmadan Azərbaycan iqtisadiyyatının ağırlıq mərkəzi qeyri-neft sektorunun üzərinə keçirilməlidir. Bu baxımdan Kanadanın müvafiq iş təcrübəsindən bəhrələnmək məqsədəuyğun olardı.

**Azərbaycan-Kanada iqtisadi əməkdaşlığının genişləndirilməsinin zəruriliyi.**

Azərbaycanda həyata keçirilən uğurlu daxili və xarici siyasət, iqtisadi islahatların nəticəsidir ki, ÜDM-in neft amilindən asılılığı tədriclə azalmış, qeyri-neft sektorunun sürətli inkişafı təmin edilmişdir. Buna baxmayaraq, idxal ediləni məhsulların sayı ixrac edilənləri bir neçə dəfə üstələyir. Bu fakt Kanada ilə xarici ticarət əlaqələrində də özünü büruzə verir. Azərbaycanın Kanada ilə idxal-ixracının strukturu əsaslı şəkildə təkmilləşdirilməlidir.

Son illər Azərbaycanla Kanada  arasında xarici ticarət dövriyyəsinin həcmi xeyli azalmış və bu prosesdə ixracın məbləği minimuma enmişdir. Bu fakt onu göstərir ki, iki ölkə arasında xarici iqtisadi əlaqələr (XİƏ) üzrə mövcud strategiyaya yenidən baxılmalı, inteqrasiyanın dərinləşməsi üçün kompleks xarakterli tədbirlərin icrasına nail olunmalıdır. Bu sahədə potensial genişlənmə imkanlarını qiymətləndirmək üçün fərqli metodoloji yanaşmaya üstünlük verilməlidir. Bu baxımdan Beynəlxalq Ticarət Mərkəzinin (İnternational Trade Center) təklif etdiyi ticarət platformasından istifadə etmək məqsədəuyğun olardı. Deməli, qeyd edilən konteksdə aşağıdakıların icrasına zərurət yaranmışdır:

- Xarici ticarətin sahə və əmtəə strukturunun diversifikasiyası (bu ən çox Azərbaycan-Kanada ticarət əlaqələri üçün daha xarakterikdir) və Azərbaycanın qeyri-neft sektoruna daxil olan müəssisələrinin beynəlxalq ticarət sistemində iştirak mexanizminin təkmilləşdirilməsi. Bunun üçün müştərək emal müəssisələrinin sayının artırılması, onların innovasiya fəaliyyətinin əsaslı şəkildə yaxşılaşdırılması hesabına ixrac ediləcək məhsulların çeşidinin genişləndirilməsi vacibdir;
- Yüksək texnologiyalara və müasir menecment metodlarına əsaslanan emal məhsullarının istehsalı, onların ixrac həcminin və coğrafiyasının genişləndirilməsi;
- Azərbaycanın regionlarında aqrar kiçik və orta  sahibkarların (KOS) innovasiya aktivliyinin yüksəldilməsi üçün Kanada firmalarının təcrübəsindən geniş istifadə olunması;

➢ KOS-ın XİF-ni tənzimləyən və onlara ucuz maliyyələşdirmə mənbələrinin tapılmasında, yeni kadrların hazırlanmasında məqsədli innovasiya layihələrin işlənilməsi və tətbiqində əməli kömək göstərmək üçün Kanadanın Xarici Ticarət Şirkətlərinin (XTŞ) iş təcrübəsindən Azərbaycanın iqtisadi fəaliyyət sahələrində geniş istifadə olunması;

➢ İki ölkə arasında XİƏ-nin genişləndirilməsi üçün təkmil diversifikasiya modelinin işlənilməsi və həyata keçirilməsi;

➢ İdxal və ixracın strukturunun Beynəlxalq Əmək Bölgüsündə iştirakı imkanları çərçivəsində təkmilləşdirilməsi.

Bütün bunların reallığa çevrilməsi üçün isə, ilk növbədə, iki ölkə arasında əməkdaşlığın hüquqi tənzimlənmə mexanizmi formalaşmalıdır.

**Əməkdaşlığın hüquqi tənzimlənməsi.** Onun baza hissəsini Azərbaycan Respublikası ilə Kanada arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında sazişin imzalanması təşkil etməlidir. Bununla yanaşı, iki ölkə arasında İşgüzar Şuranın yaradılması, iqtisadi əməkdaşlıq haqqında normativ-hüquqi aktlar qəbul edilməli, iqtisadi əməkdaşlığın digər sahələr üzrə hüquqi bazası formalaşmalıdır. Eyni zamanda iki ölkənin Parlamentləri arasında sıx əlaqənin yaradılması da münasibətlərin müsbət mənada dərinləşməsinə imkan vermiş olacaqdır (şəkil 1).

Hesab edirik ki, bu məqsədlə Azərbaycan Hökuməti milli mənafelərin qorunması və onun uğurla reallaşdırılması üçün öz səylərini ölkə daxilində elmi-texniki və innovativ proseslərin inkişafı üçün əlverişli şəraitin formalaşdırılmasına yönəltməli və bu sahədə də Kanadanın mövcud təcrübəsindən istifadəyə üstünlük verilməlidir.

Formalaşacaq hüquqi baza isə, nəticə etibarı ilə, Azərbaycan-Kanada iqtisadi əməkdaşlığının prioritet sferalarını və fəaliyyət sahələrini müəyyən edərək inkişaf etdirilməsinə təminat yaradacaqdır.




Şəkil 1. Azərbaycan-Kanada əməkdaşlığının hüquqi tənzimlənməsi mexanizminin prinsipial sxemi.

**İqtisadi əməkdaşlığın prioritet sferaları.** Çoxşaxəli Kanada iqtisadiyyatı təcrübəsindən Azərbaycanda istifadə imkanları genişdir. İlk növbədə onu qeyd etmək olar ki, Azərbaycan Respub-

likası Kanada ilə müxtəlif sahələrdə əməkdaşlığın inkişafına əhəmiyyət verir və bütünlükdə ölkələr arasındakı münasibətləri inkişafda olan dostluq əlaqələri kimi dəyərləndirmək olar. Hələ 2004-cü ildə Azərbaycanın Kanadada səfirliyinin açılması ikitərəfli münasibətlərin inkişafına mühüm töhfə vermişdir. İki ölkə arasında siyasi əlaqələr inkişaf etdirilir. Bu baxımdan iki ölkənin qanunvericilik orqanlarında Parlamentlərarası əlaqələr üzrə yaradılan işçi qrupları və onların qarşılıqlı səfərləri həyata keçirilir. Lakin iqtisadi sahədə iki ölkə arasında daha sıx əlaqənin qurulmasına ehtiyac duyulur. Bu ən azı ona görə vacibdir ki, Kanada iqtisadi inkişaf baxımından dünyanın ən aparıcı ölkələrindən biri hesab edilir. Odur ki, Azərbaycan Kanada ilə iqtisadi-ticarət əlaqələrinin inkişafında maraqlarını artırmalı və əlaqələrini bir çox iqtisadi fəaliyyət sahələrində genişləndirilməsinə səy göstərməlidir. Kanadanın iqtisadi inkişaf modeli və ayrı-ayrı sahələrdəki zəngin təcrübəsindən Azərbaycanda istifadə olunması ölkəmizin iqtisadi inkişafı üçün faydalı olardı. İki ölkənin, ticarət əlaqələrinin səviyyəsinə qiymət verərkən aydın olmuşdur ki, ayrı-ayrı dövrlərdə qarşılıqlı ticarət dövriyyəsinin həcmində yüksək inkişafın müşahidə olunmasına baxmayaraq, ticarətin əsas hissəsini Azərbaycandan Kanadaya ixrac edilən neft və neft məhsulları təşkil edir, halbuki Kanadanın neft sənayesi kifayət qədər inkişaf mərhələsindədir. Bizim fikrimizcə, xarici ticarət sahəsində iki ölkə arasında yaranan və zəifləmə meylində olan belə bir şəraitdə iqtisadi əməkdaşlığın ən vacib istiqamətlərindən biri – iki ölkə arasında qeyri-neft sektorunun inkişafı üzrə əlaqələr təşkil etməlidir. Müqayisəli təhlil göstərir ki, iki ölkə arasında bir çox sahələrdə və istiqamətlərdə əməkdaşlıq üçün geniş imkanlar mövcuddur. Tərəfimizdən həmin prioritet sferaların və fəaliyyət sahələrinin təsnifatı işlənilmişdir (şəkil 2).




Şəkil 2. Azərbaycan-Kanada iqtisadi əməkdaşlığının prioritet sferaları.

Sadalanan iqtisadi fəaliyyət sahələri üzrə ikitərəfli əməkdaşlığın mümkün variantlarını nəzərdən keçirək. İlk **növbədə dağ-mədən sənayesinin inkişafı üzrə əməkdaşlıq** haqqında. Məlumdur

ki, Azərbaycanın qərb rayonlarında (Gədəbəy, Daşkəsən, Kəlbəcər və s.) böyük həcmdə qızıl, gümüş, mis və digər əlvan metal ehtiyatları mövcuddur. Onların istismarı özünün ilkin mərhələsindədir. Onların intensiv istismarı prosesinə Kanadanın “Xay-River”, “Xaylend Qold Mayninq”, “Kola Mayninq”, “Layon Or” kompaniyalarının müştərək fəaliyyət əsasında cəlb edilməsi yüksək iqtisadi səmərə verə bilər. Alüminium üçün gil-torpaq hasilatı və alüminiumun emalı sahəsində Kanadanın təcrübəsindən istifadə və müştərək fəaliyyətin təşkili də alternativ variant kimi Azərbaycanın İqtisadiyyat və Sənaye Nazirliyinin tədbirlər planına daxil edilməsi məqsədəuyğun olardı.

Azərbaycan geoloqlarının tədqiqatlarının təcrübəsində Qobustan, Abşeron və Şamaxı-İsmayıllı bölgələrində şist yataqlarının mövcudluğu müəyyən edilmişdir, lakin həmin yataqların istismarı baha başa gəldiyindən və ekoloji cəhətdən zərərli olduğundan bu vaxtadək onlara maraq göstərilməmişdir. Lakin zaman keçdikcə Azərbaycanda neft və qaz hasilatının kəskin azaldığı şəraitdə şist yataqlarının istismarı ehtimal ki, aktuallaşacaqdır. Şist-neft və ya qaz hopmuş süxurlardır. Belə yataqlardan neft-qaz almaq üçün həmin süxurlar yüksək hərarətə qədər qızdırılır, daha sonra böyük həcmdə su vurularaq soyudulur. Bu zaman buxarlanmış neft mayeyə çevrilir, yaz isə – şistdən ayrılır. Bütün dünyada bu üsul ekoloji problemə görə tənqid olunur. Azərbaycan bu sahədə Kanadanın təcrübəsindən bəhrələnə bilər, bir şərtlə ki, həmin prosesə daha mütərəqqi texnologiya cəlb edilmiş olsun.

Azərbaycan-Kanada iqtisadi əməkdaşlığının prioritet sahələrindən biri – **kənd təsərrüfatıdır**. Bizim fikrimizcə, bu sahədə ikitərəfli əməkdaşlıqda əsas diqqət – cins və məhsuldar heyvanların və kənd təsərrüfatı texnikasının alınmasına, baytarlıq, fitosanitariya sahəsində təcrübələrin mənimsənilməsinə yönəldilməlidir. Bu sahədə müştərək fəaliyyət də istisna edilmir. Araşdırmalar göstərir ki, Azərbaycanın kənd təsərrüfatı məhsullarının, xüsusilə də qida sənayesi məhsullarının (meyvə şirələri, zeytun yağı və s.) Kanadaya ixrac edilməsi üçün geniş imkanlar mövcuddur. Zənnimizcə, həmin məhsulların Kanada bazarına çıxarılması məqsədilə Azərbaycan iş adamlarının bu ölkədə keçirilən sərgilərdə iştirakı və həmin sərgilər zamanı məhsulların reklam edilməsi məqsədəuyğundur.

İki ölkə arasında **emal sənayesi** üzrə əməkdaşlıq sahəsində yüksək nəticələr əldə etmək olar. Son illər Azərbaycanda həmin sənayenin ayrı-ayrı alt sahələrində uğurlara imza atılsa da, orada böyük ehtiyat imkanlarından istifadəyə zəruri ehtiyac duyulur. Bu baxımdan Kanada ilə müştərək fəaliyyətin təşkili yüksək fayda verə bilər. Fikrimizcə, bu məqsədə əsas diqqət ilk növbədə respublikanın regionlarında müasir aqrar-emal müəssisələrinin, tədarük anbarlarının tikintisinə yönəldilməli; dərman vasitələri, ətir-kosmetika məhsulları, nasos-kompressor avadanlıqları, nəzarət-ölçü cihazları, müxtəlif gücə malik su, qaz və enerji sayğacları; qaldırıcı nəqliyyat avadanlıqları, qara və əlvan metal emalı sahələrində müştərək fəaliyyətin genişləndirilməsinə diqqət artırılmalıdır. Bu sahədə uğur qazanmağın real yollarından biri – iki ölkə arasında maliyyə-kredit əməkdaşlığının genişləndirilməsidir. Bu məqsədlə Kanadanın “Skoşa Benk” nümayəndəliyinin Bakıda yaradılması investisiya imkanlarını artırmış olacaqdır.

Azərbaycan-Kanada arasında **enerji istehsalı** sahəsində əməkdaşlığın genişləndirilməsi imkanları da mövcuddur. Bizim fikrimizcə, kiçik su elektrik stansiyalarının, bio-yanacaq elektrik stansiyalarının tikintisinə Kanada şirkətlərinin cəlb olunması yeni texnologiyaların tətbiqi baxımından faydalı ola bilər.

İki ölkə arasında **telekommunikasiya sahəsində** əməkdaşlıq da həmin sahənin inkişafına təkan vermiş olacaqdır. Bu məqsədlə “Wind Mobile Canada” telekommunikasiya kompaniyası ilə naqilsiz rabitə sisteminin yaradılması haqqında sazişin imzalanması məsələsi də gündəlikdə dayana bilər.

Azərbaycanda **kosmik sənayesinin inkişafı və pilotsuz uçan aparatların hazırlanmasında** Kanada təcrübəsindən bəhrələnmək məqsədəuyğun olardı.

“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında nəzərdə tutulan və həllini təxirəsalınmadan gözləyən məsələlərdən biri – **nəqliyyat sektorunun yenidən qurulması və inkişafıdır.** Bu baxımdan son illər avtomobil yollarının, körpülərinin, ötürücü şəbəkələrinin yaradılmasında uğurlu layihələr həyata keçirilməkdədir. Dəmir yolunun çəkilişində “Bakı-Tbilisi-Qars” öz orijinallığı və beynəlxalq əhəmiyyəti ilə diqqəti cəlb edir. Bununla belə, dəmir yolunun çəkilişi, metro nəqliyyatının inkişafı istiqamətində perspektiv layihələrin icrasına zəruri ehtiyac duyulur. Yaxın gələcəkdə sürət qatarları üçün yeni dəmir yolunun çəkilişi, mövcud yolların yenidən qurulması, metro

dairəvi xətlərinin tikintisi planlaşdırılır. Fikrimizcə, bu prosesə böyük iş təcrübəsi olan və dünya miqyasında tanınan Kanadanın “Es-En-Si lavalin” kompaniyasının cəlb edilməsi təkcə dəmir yollarının tikintisində deyil, həm də metro üçün qatarların hazırlanması və təminatında fəal iştirak edə bilər.

Son 15 ildə Azərbaycanda **idmanın** bütün növlərinin inkişafına xüsusi diqqət yetirilir. Bu məqsədlə respublikanın regionlarında çoxsaylı müasir Olimpiya İdman Kompleksləri, açıq və qapalı stadionlar, idman meydançaları, atıcılıq kompleksləri, avarçəkmə obyekti və s. tikilib istifadəyə verilmişdir. İlk Avropa çempionatı məhz 2015-ci ilin iyun ayında Azərbaycanda keçirilmişdir. Yaxın gələcəkdə Beynəlxalq miqyaslı idman yarışlarına Azərbaycanın ev sahibliyi etməsi gözlənilir. Bu məqsədlə yeni idman obyektlərinin tikintisinə də ehtiyac duyulacaqdır. Bizim fikrimizcə, Kanada şirkətlərinin üstü-örtülü **konki mərkəzinin, xizək tramplinin, Olimpiya İdman Komplekslərinin** tikintisinə də Kanada şirkətlərini cəlb etmək olar.

Azərbaycan-Kanada **innovasiya sahəsində** əməkdaşlığının inkişaf etdirilməsi hazırda daha aktualdır. Bu məqsədlə nanotexnalogiya, bio-yanacaq (məişət tullantılarının emal dərinliyinin artırılması, ikinci nəsil bio-yanacağın işlənilməsi), əczaçılıq, istehsal sahəsində rəqəmli texnologiya, kommunikasiya, ətraf mühitin qorunması üzrə innovasiya texnologiyalarının tətbiqi, səhiyyədə yeni yanaşmalardan istifadə sahəsində əməkdaşlığın genişləndirilməsi yüksək səmərə verə bilər. Bu sahədə daha önəmli uğura nail olmaq üçün “Azərbaycan-Kanada vençur fondunun yaradılmasına dair” hökumətlərarası sazişin hazırlanması və rəsmiləşdirilməsi məqsədəuyğun olardı.

İki ölkə arasında **elmi-texniki və təhsil sahəsində** əməkdaşlığın genişləndirilməsi də yüksək sosial-iqtisadi səmərə verə bilər. Bu məqsədlə birgə elmi-tədqiqatların aparılması, aktual problemlər üzrə beynəlxalq konfransların keçirilməsi, elmi işçilərin ixtisasartırmaya və yenidənhazırlanma prosesinə cəlb edilməsi, innovasiya texnologiyalarının və patentlərin transferi, Kanadanın nüfuzlu universitetlərində tibb, stomatologiya, menecment, audit, bank işi, İKT, sığorta və digər müasir ixtisaslar üzrə kadr hazırlığı məsələləri hökumətlərarası əməkdaşlıq sazişinin predmetinə çevrilməsi məqsədəmüvafiq olardı.

Azərbaycan-Kanada **regionlararası əlaqələrin genişləndirilməsi** (ölkələrin iri şəhərləri və rayonları arasında: aqrar, alternativ enerji, informasiya texnologiyaları, mənzil tikintisi və s. sahələrdə müştərək layihələrin həyata keçirilməsi), “Aqrar-sənaye kompleksinin inkişafı”, “Əlçatan mənzil”, “Sənaye məhəlləsinin yaradılması”, “Unikal innovasiya layihələrinin tətbiqi” üzrə məqsədli milli layihələrin həyata keçirilməsi prosesinə Kanada subyektlərinin fəal cəlb edilməsi də ölkələrarası iqtisadi əməkdaşlığın inkişafına təkan verə bilər.

Yuxarıda qeyd edilənlərlə yanaşı, hazırkı və yaxın gələcəkdəki dövrdə əsas diqqət iqtisadi-ticarət əlaqələrinin yeni keyfiyyət müstəvisinə keçirilməsinə yönəldilməlidir. Hesab edirik ki, Azərbaycandan xarici ölkələrə, o cümlədən Kanadaya, strateji xammalların, perspektiv texnologiyaların, “nou-hau”nun “ağılın” ixracı üzərində dövlət nəzarəti gücləndirilməli və onlara hədd qoyulmalıdır.

Digər tərəfdən, iki ölkə arasında idxal və ixracın strukturunun təkmilləşdirilməsi, idxalın təsir dairəsindən çıxmaq və ixrac imkanlarını artırmaq üçün Azərbaycan hökuməti öz səylərini innovasiya prosesinin intensivləşdirilməsi, əlverişli şəraitin formalaşmasına yönəltməlidir**. Bu məqsədlə yaxın gələcəkdə aşağıdakı kompleks tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olardı:**

- Azərbaycanda innovativ inkişaf modelinə keçidi sürətləndirmək üçün Kanadadan texnologiyaların alınması və tətbiqinə üstünlük verilməsi;
- Bu vaxtadək xammal şəklində ixrac edilən neft və neft məhsullarının, pambığın, alüminium oksidlərinin, iri və xırda buynuzlu heyvan dərilərinin, kimya məhsullarının və digər yarımfabrikatların Kanada şirkətlərinin Azərbaycanda təşkil edəcəyi müştərək müəssisələrdə emalının təşkil edilməsi və hazır, rəqabətyönümlü məhsul şəklində ixrac olunması;
- Kanada şirkətlərinin iş təcrübəsindən və müştərək investisiya-innovasiya imkanlarından bəhrələnərək, neft maşınqayırma, elektrotexnika və cihazqayırma, məişət texnikası, yüngül sənaye sahələrinin istehsal və ixrac imkanlarının artırılması;
- Kanadanın və Azərbaycanın da üzvü olduğu İƏİT və ASİƏ ölkələr çərçivəsində regiondaxili tarif və qeyri-tarif maneələrin ləğv edilməsi; bunun üçün zəruri dövlətlərarası razılaşmaların ratifikasiyasının sürətləndirilməsi, üzv dövlətlərin xarici ticarət rejiminin daha da liberallaşdırılması, onların ayrı-ayrı regionları (iri şəhərləri) arasında ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi;

- İƏİT və ASİƏ-nin reallaşdırdığı layihələr Kanadanın dəstəyi ilə Azərbaycana da şamil edilməsi. Fikrimizcə, bu işdə əsas diqqət investisiya bankları, Transmilli şirkətlər və sənaye-maliyyə qruplarının müştərək şəkildə yaradılmasına yönəldilməlidir;
- Azərbaycanda regional azad iqtisadi zonaların – Naxçıvan, Sumqayıt, Mingəçevir, Gəncə, Şirvan və digər şəhərlərdə – yaradılmasında Kanadanın və bütünlükdə İƏİT və ASİƏ ölkələrin iş təcrübəsindən geniş istifadə olunması;
- Azərbaycanda mövcud olan istifadəsiz və şoran torpaqların dövriyyəyə cəlb edilməsi, kiçik fermer təsərrüfatlarının ixtisaslaşdırılaraq birləşdirilməsi, hazır məhsulun mövcud tədarükü prosesinin əsaslı şəkildə yaxşılaşdırılması, lizinq yolu ilə fermerlərin kənd təsərrüfatı texnikalarından aşağı qiymətlə istifadə etmək imkanlarının artırılması, regionlarda innovasiya infrastrukturunun yaradılması, vergi ödənişi (xüsusilə kənd təsərrüfatı sahəsində) üzrə Kanada təcrübəsindən geniş istifadə edilməsi;
- Dərman bitkilərinin tədarükü, qurudulması, satışı, kimyəvi tərkibli dərman vasitələrinin hazırlanması, təkrar xammalın emalı, istehsalat tullantılarının emalı və utilizasiyası, bərk tullantıların toplanması, turizm sənayesinin inkişafında Kanadanın zəngin təcrübəsindən istifadə edilməsi Azərbaycanda yüksək sosial-iqtisadi səmərə verə bilər;
- Azərbaycanın iri şəhərlərində və rayon mərkəzlərində sosial təyinatlı obyektlərin (mehmanxana, su təchizatı və kanalizasiya sistemlərinin qurulması və s.) tikintisi işində Kanada şirkətlərinin iştirakı və təcrübəsindən istifadə edilməsi.

**Açar sözlər:** iqtisadi əməkdaşlıq, tənzimlənmə mexanizmi, prioritet sferalar, qeyri-neft sektoru

**İstifadə edilmiş ədəbiyyat**

1. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

**Фазия Меликова**

## ОПРЕДЕЛЕНИЕ ПРИОРИТЕТОВ ЭКОНОМИЧЕСКОГО СОТРУДНИЧЕСТВА АЗЕРБАЙДЖАН – КАНАДА

### Резюме

В статье в результате оценки современного состояния экономического сотрудничества между Азербайджаном и Канадой выявлены резервы и их рациональное использование, определены приоритетные сферы по развитию нефтяного сектора с участием канадских компаний, изложены их социально-экономические результаты.

**Ключевые слова:** экономическое сотрудничество, механизм регулирования, приоритетные сферы, нефтяной сектор

**Faziya Melikova**

## DETERMINATION OF PRIORITIES OF ECONOMIC COOPERATION BETWEEN AZERBAIJAN-CANADA

### Summary

As a result the evaluation of the modern state of economic cooperation between Azerbaijan and Canada, the article finds out reserves and their rational use. The article defines the priority spheres of development of oil sector with participation of Canadian companies and states their social and economic consequenses.

**Keywords:** economic cooperation, mechanism of regulation, priority areas, non-oil sector

**UOT – 336.02**

**Azər İbrahimov**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**

# PLASTİK KATLARLA ƏMƏLİYYATLAR VƏ ONLARIN İNKİŞAF İSTİQAMƏTLƏRİ

*Müasir dövrdə plastik kartlar nağdsız hesablaşmaların ayrımaz hissəsidir. Plastik katlarla aparılan əməliyyatalrın sayı və həcmi durmadan artır, bu da pul vəsaitlərinin bank hesablarında toplanması deməkdir. Bu baxımdan plastik kartlarla əməliyyatlar aktual xarakter daşıyır. Məqalədə plastik kartların növləri və onlarla aparılan əməliyyatlar təhlil edilmiş, həmçinin Azərbaycanda fəaliyyət göstərən prosessinq təşkilatları haqqında məlumat verilmişdir.*

Dünya iqtisadiyyatında qloballaşmanın genişlənməsi və rəqabətin güclənməsi ilə xarakterizə olunan hazırkı tendensiyalar, iqtisadi inkişafa nail olunması, cəmiyyətdə mövcud olan sosial problemlərin həll edilməsi ödəniş sistemləri sahəsində beynəlxalq standartlar və təcrübə əsasında müasir ödəniş sistemi infrastrukturunun, pul vəsaitlərinin köçürülməsi üzrə düzgün formalaşdırılmış, yüksək effektivliyə malik və etibarlı fəaliyyət göstərən mexanizmin təşkil olunmasını tələb edir. Ödəniş sistemləri sahibinə və istifadəçilərinə pul vəsaitlərinin köçürülməsi imkanı verən ödəniş alətlərinə əsaslanır. Hal-hazırda ödəniş alətlərinin daha əlverişli və coğrafı baxımdan geniş yayılmış növü ödəniş kartlarıdır. İqtisadi cəhətdən inkişaf etmiş dövlətlərdə ödəniş kartları ticarət və xidmət sferasının ayrılmaz atributudur.

Azərbaycan Respublikasında ödəniş sistemlərinin inkişaf etdirilməsi, dövriyyədə olan nağd pul kütləsinin nağdsız dövriyyə ilə əvəz olunması, iqtisadi fəaliyyətlə məşğul olan şəxslərin və əhalinin elektron ödəniş sistemlərindən daha fəal istifadə etməsi müasir dövrümüzün real tələblərindən biridir. Digər tərəfdən, plastik kartlardan istifadə vergidən yayınma hallarının qarşısının alınmasına, əməliyyatların şəffaf şəkildə həyata keçirilməsinə, vergi ödəyicisi olan sahibkarların maliyyə sanksiyaları ilə üzləşmə riskinin aradan qalxmasına gətirib çıxarır.

Bu sahənin təkmilləşdirilməsi, inkişaf etdirilməsi dövlətin daim diqqət mərkəzində olmuşdur. Hələ 2004-cü il 9 dekabr tarixində ölkəmizdə müasir elektron ödəniş xidmətlərinin təkmilləşdirilməsi və inkişafı məqsədilə Dövlət Proqramı təsdiq edilmişdir. Proqramın tətbiq olunduğu vaxtdan etibarən plastik kartlar bazarı təkmilləşdirilmiş, pensiyaların, təqaüdlərin, bir sıra sosial yardımların, həmçinin büdcə təşkilatlarında işləyənlərə əməkhaqlarının ödəniş kartları vasitəsilə verilməsinə başlanılmışdır. Qeyd olunan işlər böyük əhəmiyyətə malik olmuş və vətəndaşların razılığı ilə qarşılanmışdır. Artıq əmək haqlarının, pensiyaların və əhaliyə çatdırılan digər vəsaitlərin ödənişində ortaya çıxan neqativ hallar aradan qaldırılmış, şəffaflığın təmin olunmasında münbit şərait yaradılmışdır.

Artıq əhalinin böyük hissəsi kredit kartlarına malikdir. Elə bu səbəbdən də hər bir məntəqədə, ticarət obyektində və digər obyektlərdə plastik kartlardan istifadə olunmalıdır. Bu tələbinin yerinə yetirilməsi məqsədilə son vaxtlar ölkədə bir sıra tədbirlər həyata keçirilmiş və əməliyyatların nağdsız şəkildə aparılması üçün müvafiq baza yaradılmışdır. Həmin tapşırıqların yerinə yetirilməsi üçün Vergilər Nazirliyi və Mərkəzi Bankın əməkdaşlarından ibarət işçi qrup yaradılmış və bu qrup tərəfindən nağdsız ödənişlərin stimullaşdırılmasının yolları araşdırılır. Vergilər Nazirliyinin “Tədbirlər Planı”nda da vergitutma bazasının genişləndirilməsi və vergidən yayınma hallarına qarşı mübarizə tədbirlərinin gücləndirilməsi məqsədilə ticarət, məişət, iaşə və digər obyektlərdə nağd əməliyyatların minimuma endirilməsi və POS-terminallardan plastik kartlar vasitəsilə əməliyyatların aparılmasının stimullaşdırılması ilə əlaqədar təkliflər öz əksini tapmışdır.

Elektron hesablaşmaları sisteminin qüvvədə olması mexanizmi plastik kartların tətbiqinə əsaslanır və bankomatların, köməyi ilə həyata keçirilən əməliyyatlardan, ticarət təşkilatlarında əhalinin elektron hesablaşma sistemlərindən, evdə və iş yerində müştərilərin bank xidməti sistemindən ibarətdir.

Azərbaycanda kart bazarının inkişaf etdirilməsi istiqamətində aşağıdakı fərman və sərəncamlar verilmiş, qaydalar qəbul edilmişdir:

- Azərbaycan Respublikası Prezidentinin 9 dekabr 2004-cü il tarixli 152 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında Milli Ödəniş Sisteminin inkişafı üzrə 2005-2007ci illər üçün Dövlət Proqramı”;
- Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında ödəniş sistemlərinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında” 22 noyabr 2005-ci il tarixli 1114 nömrəli Sərəncamı;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 fevral 2006-cı il tarixli “POS-terminalların quraşdırılması məqsədəmüvafiq hesab edilən pərakəndə ticarət, iaşə və digər xidmət müəssisələrinin müəyyənləşdirilməsi meyarları” və “Ərazilər üzrə POS-terminal aparatlarının mərhələlərlə tətbiq edilməsi cədvəli”;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 fevral 2006-cı il tarixli “Azərbaycan Respublikasının ərazisində POS-terminalların istismar və istifadə edilməsi Qaydaları”.

Bütün plaktik kartların əsas xüsusiyyəti təkmillik dərəcəsindən asılı olmayaraq müxtəlif tətbiqi proqramlarda istifadə olunan informasiyanın müəyyən toplumunun bu kartlarda qorunmasından ibarətdir. Kart binaya buraxılış vasitəsi, kompüterə çıxış vasitəsi, sürücülük vəsiqəsi kimi çıxış edə bilər və telefon danışıqlarının da ödənilməsi üçün istifadə oluna bilər. Plastik kartlar pul dövriyyəsi sahəsində qeyri-nağd hesablaşmaların ən proqressiv təşkili vasitələrindən biridir.

Elektron pul hesablaşmalarının formalaşması prosesində Qərbdə International Standarts Organisation (ISO) təşkilatı yaradılmışdır.

Bu təşkilat:

- plastik kartların xarici görkəmi ilə bağlı müəyyən standartları;
- hesabların nömrələnməsi (təşkili) qaydasını;
- maqnit zolaqlarının formatını;
- kartın sahibinə onun əməliyyatları haqqında göndərilən məlunmatın formatını işləyib hazırlamışdır.

1) İndiki dövrdə 200 ölkədən çoxu ödəniş dövriyyəsində plastik kartları istifadə edirlər. Bu, plastik kartların bank işində baş verən texnoloji inqilabın vacib elementi olması haqqında nəticəyə gəlməyə icazə verir. Məhz plastik kartlar bir sıra hallarda elektron bank və digər sistemlərin əsas elementi kimi çıxış edir. Onlar Qərbin sənaye baxımından inkişaf etmiş ölkələrinin pul dövriyyəsinin təşkilində “ən qabaqcıl mövqeləri tutaraq”, çekləri və çek kitabçalarını tədricən sıxışdırmışlar [1, s.380-381].

Hesablaşmalar üçün nəzərdə tutulan bütün plastik kartlar:

- şəxsi kartlar,
- korporativ kartlara bolünür.

Banklar şəxsi kartlarını fərdi şəxslərə: tədiyyə qabiliyyətli müştərilərinə, eləcə də onların kredit tarixinin təhlilindən sonra və bu bankda onlar tərəfindən cari hesabın açılmasından sonra və ya sığorta depozitinin köçürülməsindən sonra digər şəxslərə də verir.

Korporativ kartlar hüquqi şəxslərə onların tədiyyə qabiliyyətinin təhlilindən sonra həmin şəxslərin zəmanəti və təminatı altında təqdim olunur. Kartı alan təşkilatın əməkdaşları da korporativ kartlardan istifadə edə bilirlər.

Plastik kartları funksional əlamətinə görə bir neçə qrupa bölmək mümkündür (cədvəl 1).

**Plastik kartların əsas növləri**

Cədvəl 1

| Maqnit kartları | Çoxfunksiyalı elektron kartları |
|---|---|
| Kredit kartları | Mikroprosessorlu:<br>yaddaş kartları (memory cards)<br>intellektual kartlar (smart cards)<br>superintelektual kartlar (super- smart cards) |
| Ödənişli (debet) kartları | Lazerli kartlar |
| Qəti müəyyən edilmiş alış qabiliyyətli (store-value) kartlar | |

Kartların funksiyalaşma mexanizmi kredit və debet kartlarının istifadəsindən bir qədər fərqlənir. Kredit və debet kartları nağd pulların, çeklərin, pərakəndə ticarət müəssisələrində kredit kartların potensial elektron alternativini əks etdirir.

Debet kartları bankomat və ya bankların filiallarının kassalarında yerləşən POS-terminallar vasitəsilə nağd vəsaitlərin alınması üçün istifadə edilirlər. Kartlar debet rejimində işləyir, yəni ancaq kart hesabında faktiki olan məbləğ daxilində xərclər aparmaq və ya bankomatlardan nağd pul çıxarmaq imkanını verirlər.

Azərbaycanda və dünyanın bir çox ölkələrində debet kartları alınan məhsul və xidmətlərin haqqının ödənilməsi üçün də istifadə edilirlər. Azərbaycanda aşağıdakı debet kartlarından istifadə olunur: VISA Electron Cirrus Maestro.

Bu plastik kart növləri debet rejimində işləyir və banklardan, bankomatlardan (ATM) nağd pul götürülməsi, POS-terminal qoyulmuş mağazalarda, restoran və təşkilatlarda ödənişlərin aparılması üçün istifadə edilə bilər. Bu kartlar dünyada ən geniş yayılmış kartlardır.

Debet kartlarından fərqli olaraq kredit kartları öz sahibinə daha çox sərbəstlik verir: lazım olduqda kart sahibi hesabında olduğu məbləğdən daha çox vəsait xərcləyə bilər, lakin yalnız bank tərəfindən təyin olunmuş kredit limiti çərçivəsində. Kredit kartları bankomat və ya bankın filiallarının kassalarında yerləşən POS-terminallar vasitəsilə nağd vəsaitlərin alınması üçün istifadə edilə bilər. Bundan əlavə, onlar bütün dünyada məhsul və xidmətlərin haqqının ödənilməsi üçün qəbul edilirlər. Kredit kartları öz sahibinin maliyyə cəhətdən sabitliyini göstərir. Visa Gold, MasterCard Gold, Visa Platinum və MasterCard Platinum kimi elit kartların sahibləri isə əlavə olaraq bir çox imtiyaz və güzəştlər alırlar. Kredit kartları həmçinin Internet şəbəkəsində də ödəniş üçün qəbul edilirlər, lakin təhlükəsizlik üçün xüsusi “virtual” kartlardan istifadə etməyi məsləhətdir. Azərbaycanda aşağıdakı kredit kartlarını istifadə olunur: Visa Classic, MasterCard Standard, Visa Gold, Master- Card Gold, Visa Platinum, MasterCard Platinum, American Express Green, American Express Gold.

VISA Classic/MasterCard Standard kartlar istər debet, istərsə də kredit rejimində işləyir, ona görə də dükanlarda, mehmanxana, restoran və təşkilatlarda ödəniş aparılması və ya banklardan, bankomatlardan (ATM) nağd pul götürülməsi üçün istifadə edə bilər. Muştərinin bankda müddətli depoziti olduqda onun istəyiilə kart üzrə kredit xətti açıla bilər.Yuxarıda göstərilənlərdən başqa, bu kartlardan internet və telefon vasitəsilə malların və xidmətlərin pulunu ödəməyə, aviabiletləri, mehmanxanalarda otaqları və s. kimi xidmətləri sifariş etmək üçün istifadə etmək olar.

**Azərbaycanda debet və kredit kartları ilə aparılan əməliyyatlar**

Cədvəl 2

| il | Ödəniş kartlarının ümumi sayı, min ədəd, (dövrün sonuna) | Dövriyyədə olan ödəniş kartlarının ümumi sayı | | Debet və kredit kartları vasitəsilə aparılan əməliyyatların sayı | |
|---|---|---|---|---|---|
| | | Debet kartları | Kredit kartları | Sayı, min əməliyyat | Həcmi, mln. manat |
| 2010 | 4231 | 4097 | 134 | 5239 | 755 |
| 2011 | 4580 | 4399 | 181 | 5068 | 771 |
| 2012 | 5008 | 4600 | 408 | 5753 | 926 |
| 2013 | 5673 | 4731 | 942 | 1149 | 5185 |
| 2014 | 5965 | 4663 | 1302 | 1245 | 5483 |
| 04.2015 | 6049 | 4785 | 1264 | 1053 | 4689 |

Mənbə: http://www.cbar.az/

Müəyyən Azərbaycan bankları Visa International və Master Card International beynəlxalq ödəniş sistemlərinin yalnız internet şəbəkəsində məhsul və xidmətlərin haqqının ödənilməsi üçün nəzərdə tutulan xüsusi kartlarını buraxır. Bu kartlarda maqnit zolağı və PIN-kod olmadığından onlardan bankomatlar vasitəsilə nağd pul almaq və ya mağazalarda alınan malların haqqını ödəmək məqsədilə istifadə etmək qeyri-mümkündür. Bu kartlar yalnız debet rejimində işləyir. Hər hansı başqa plastik kartda olduğu kimi internet kartlarda da universal və təkrarsız 16 işarəli nömrə, kart sahibinin adı, kartın qüvvədə olma müddətinin bitəcəyi tarix, habelə InterCardın üz tərəfində göstərilən xüsusi üç işarəli CVV2/CVC2 kodu var.

Hal-hazırda ölkədə fəaliyyət göstərən banklar tərəfindən beynəlxalq kart təşkilatlarından “Visa Int.”, “MasterCard Worldwide”, “American Express”, “Diners Club” kimi təşkilatlara məxsus beynəlxalq ödəniş kartları və həmçinin lokal ödəniş kartları emissiya olunur.




Şəkil 1. Plastik kartlarla həyata keçirilən hesablaşmaların sxemi.

Azərbaycan Respublikasında ödəniş kartları vasitəsilə aparılmış əməliyyatlar haqqında məlumatların toplanması, emalı və ötürülməsi, həmçinin kart emissiyasına və ekvayrinqinə texniki xidmət göstərilməsi üzrə fəaliyyəti qanunvericiliyinə uyğun olaraq prosessinq təşkilatları həyata keçirir. Prosessinq təşkilatlarına prosessinq fəaliyyətinin həyata keçirilməsi üçün icazələrin verilməsi, bu fəaliyyətə nəzarət qaydaları, həmçinin prosessinq sisteminin etibarlılığına və təhlükəsizliyinə aid minimum tələblər Azərbaycan Respublikası Mərkəzi Bankının “Prosessinq təşkilatlarına icazələrin verilməsi və prosessinq fəaliyyətinə nəzarət” Qaydaları əsasında müəyyən edilir. Prosessinq fəaliyyətinin həyata keçirilməsi üçün icazə müddətsiz olaraq verilir.4

Hal-hazırda ölkədə 5 prosessinq təşkilatı fəaliyyət göstərir. Bu prosessinq təşkilatlarından 3-ü ayrıca hüquqi şəxs kimi, 2-si isə bankın daxili bölməsi kimi fəaliyyət göstərir.

“Azərbaycan Beynəlxalq Bankı” ASC-yə məxsus olan “AzeriCard”ın 1996-cı ildə ölkədə ilk prosessinq təşkilatı kimi əsası qoyulmuşdur. 1997-ci ildə Qafqaz regionu və Orta Asiyada debet/kredit kartlarının xidmət olunması üçün “AzeriCard” prosessinq təşkilatının qurulması başlanmışdır. Birinci mərhələdə təşkilat üçün təşkil olunmuş yer MasterCardın Təhlükəsizlik Departamentində tam sertifikasiyadan keçmiş, MasterCard və VISA-ın bütün standartlarına tam şəkildə uyğunlaşdırılmışdır. “AzeriCard” şirkəti fəaliyyətə başladığı andan, ilk 24 saatlıq Müştərilərə Dəstək Xidməti yaradılmışdır.

“AzeriCard”-a MSP (Member Service Provider) vəEurocard-Mastercard, Cirrus/Maestro, VISA Electron və VISA kartlarının embossinq/şifrələmə mərkəzi statusları verilmişdir. Ödəniş kartlarının qəbulu və emissiyası üzrə “Azərbaycan Beynəlxalq Bankı” ASC, “AzeriCard” tərəfindən MasterCard və VISA beynəlxalq kart təşkilatlarında tam sertifikasiyadan keçmişdir.

1999-cu ildə “Royal Bank of Scotland” Özbəkistan, “AzeriCard” prosessinq təşkilatı tərəfindən MasterCard beynəlxalq kart təşkilatında sertifikasiyadan keçmişdir. 2005-ci ildə isə “Azərbaycan Beynəlxalq Bankı-Moskva” “AzeriCard” prosessinq təşkilatına qoşulmuşdur.

2000-ci ilin əvvəllərində “AzeriCard” və “Azərbaycan Beynəlxalq Bankı” ASC American Express beynəlxalq kart təşkilatında ödəniş kartlarının qəbulu üzrə sertifikasiyadan keçmişlər. 1 may 2008-ci ildə isə “AzeriCard” prosessinq təşkilatı və “Azərbaycan Beynəlxalq Bankı” ASC American Express ödəniş kartlarının emissiyası üzrə xüsusi hüquq qazanmışlar.

Hal-hazırda “AzeriCard” kart əməliyyatları və ödəniş xidmətləri üzrə yeni sistem quraşdırmışdır. Yeni sistem mükəmməl məlumatlar bazası sistemi olan “Oracle”-da qurulmuş və istənilən beynəlxalq və ya daxili əməliyyatların həyata keçirilməsinə imkan verir. Bu sistem MasterCard, Visa, American Express və Diners Club kimi beynəlxalq kart təşkilatları ilə çalışır.

“AzeriCard” prosessinq təşkilatı yüksək texnologiya bazasında “card to card”, mobil və şəhər telefonları, kommunal xidmətləri, gömrük rüsumları və vergilərin ödənişi, “Mobil banking” və “İnternet banking”, PIN Change, ORM (Online Risk monitorinq), SMS Xəbərdarlıq və başqa xidmətləri həyata keçirir.

“AzeriCard” prosessinq təşkilatı tərəfindən elektron ticarət əməliyyatların ıaparmaq üçün VISA və MasterCard beynəlxalq kart təşkilatlarında bütün lazımi proseslər uğurla başa çatdırılmışdır. “AzeriCard” MMC “3D Secure Verified by VISA” və “MasterCard Secure Code” texnologiyaları sayəsində kart sahibləri və pərakəndə ticarət, iaşə və digər xidmət müəssisələri üçün ödənişlərin tam təhlükəsizliyini təmin edir.

Azərbaycan Respublikası Prezidentinin 09 dekabr 2004-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında Milli Ödəniş Sisteminin İnkişafı üzrə 2005-2007-ci illər üçün Dövlət Proqramı”nın icrası çərçivəsində Dünya Bankının maliyyə dəstəyiilə Azərbaycan Respublikasının Mərkəzi Bankında “MilliKart” prosessinq təşkilatı 03 yanvar 2005-ci il tarixində yaradılaraq istismara verilmişdir.

14 iyul 2006-cı il tarixində 18 bankın təşəbbüsü ilə “MilliKart” MMC təsis edilmişdir. Bankın təsisçiləri aşağıdakı banklardır: “AtaBank” ASC, “Dəmirbank” ASC, “Azər-Türk Bank” ASC, “Turanbank” ASC, “Bank of Baku” ASC, “Zaminbank” ASC, “Amrahbank” ASC, “Xalq Bank” ASC, “KredoBank” ASC, “AccessBank” QSC, “Parabank” ASC, “Rabitəbank” ASC, “Bank Respublika” ASC, “Bank Standard Kommersiya Bankı” QSC, “Texnika Bank” ASC, “Unibank” KB ASC, “Debüt” KB ASC, “Azərbaycan Sənaye Bankı” ASC.

02 oktyabr 2006-cı il tarixindən isə “MilliKart” prosessinq təşkilatı fəaliyyətini Məhdud Məsuliyyətli Cəmiyyət kimi davam etdirir. Azərbaycan Respublikasında kart ödənişlərinin inkişaf etdirilməsi məqsədi ilə Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) “MilliKart” MMC-nin nizamnamə kapitalında iştirakı ilə bağlı öz niyyətini bildirmiş və bununla əlaqədar 30 dekabr 2008-ci il tarixində AYİB-nin “MilliKart” MMC-nin təsisçiləri sıralarına daxil olması ilə bağlı müvafiq saziş imzalanmışdır. AYİB-nin prosessinq təşkilatının nizamnamə kapitalında iştirak etməsi ilə əlaqədar olaraq, 07 iyun 2010-cu il tarixində “MilliKart” MMC-nin yeni nizamnaməsi dövlət qeydiyyatına alınmışdır.

Bu prosessinq təşkilatı VİSA və MasterCard kimi beynəlxalq kart təşkilatları tərəfindən sertifikasiyadan keçmiş və müvafiq olaraq həmin təşkilatlarda TPP (Third Party Processor) və MSP (Member Service Provider) kimi qeydiyyata alınmışdır.

Prosessinq təşkilatının funksiyaları onun tərəfindən kart ödənişləri üzrə prosessinq xidmətlərinin göstərilməsi, kart hesablarının dəstəklənməsi, bankomat, POS-terminal və digər ödəniş terminallarının fəaliyyətinin təmin olunması, banklar və beynəlxalq kart təşkilatları üçün hesabatların hazırlanması, beynəlxalq kart təşkilatları ilə banklar arasında məlumat mübadiləsinin təşkil edilməsi və digər xidmətlərdən ibarətdir [4].

“MilliKart” MMC, “Dəmirbank” ASC, “Unibank” KB ASC, “GoldenPay” MMC-nin sıx əməkdaşlığı nəticəsində elektron ticarət xidməti yaradılaraq istifadəyə verilmişdir. Bu sistemin göstərdiyi elektron ticarət xidmətlərində qabaqcıl texnologiyaların istifadə edilməsi ilə yanaşı, etibarlılıq və təhlükəsizliyin yüksək səviyyədə təmin olunması üçün məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Belə ki, internet vasitəsilə ödənişlərin təhlükəsiz aparılması məqsədi ilə “MilliKart” MMC “3-D Secure” texnologiyalarının tətbiqi ilə əlaqədar MasterCard və VISA təşkilatlarında müvafiq olaraq “Secure Code” və “Verified by VISA” üzrə sertifikasiyadan keçmişdir.

Ödəniş kartları sahəsində müştərilərə göstərilən xidmət səviyyəsini yüksəltmək və operativliyi daha da artırmaq məqsədilə “Kapital Bank” ASC tərəfindən daxili prosesinq sisteminin yaradılması üzrə bank tərəfindən elan edilən tenderdə Rusiyanın “Compass Plus” şirkəti qalib olmuşdur.

05 may 2009-cu il tarixində “Kapital Bank” ASC-yə məxsus ödəniş kart bazası və ekvayrinq şəbəkəsi “Azəricard” MMC-dən “KapitalKart” daxili prosessinq sisteminə miqrasiya edilmişdir. “KapitalKart” hazırda yalnız “Kapital Bank” ASC-yə xidmət göstərir. Bu prosessinq sistemi “Kapital Bank” ASC tərəfindən idarə edilir və Visa və MasterCard beynəlxalq kart təşkilatları tərəfindən tam şəkildə sertifikatlaşdırılıb.

“KapitalKart” prosessinq sisteminin funksiyaları kart ödənişləri üzrə prosessinq xidmətlərinin göstərilməsi, kart hesablarının dəstəklənməsi, bankomat, POS-terminal və digər ödəniş terminallarının fəaliyyətinin təmin olunması, bank və beynəlxalq kart təşkilatları üçün hesabatların hazırlanması, beynəlxalq kart təşkilatları ilə banklar arasında məlumat mübadiləsinin təşkil edilməsi və digər xidmətlərdən ibarətdir. “KapitalKart” prosessinq sisteminin nəzdində kart sahiblərinə günün 24 saatı xidmət göstərən “196 Müştəri Xidməti” mövcuddur. Bundan başqa, kart əməliyyatlarının və terminal şəbəkəsinin təhlükəsizliyini təmin etmək məqsədilə “KapitalKart” tərəfindən xüsusi proram vasitəsilə günün 24 saatı monitorinq xidməti də həyata keçirilir.

Bununla yanaşı, nağdsız ödənişləri daha da stimullaşdırmaq məqsədilə 2010-cu ilin iyun ayından etibarən “KapitalKart” tərəfindən Ethernet və GPRS tipli POS-terminalların quraşdırılmasına başlanmışdır. “KapitalKart” real vaxt rejimində kart hesabına daxil olan mədaxil haqqında məlumatın verilməsi, o cümlədən mobil danışıq, kommunal xidmətlər üzrə borcların ödənilməsi kimi bir sıra nağdsız ödənişlərin həyata keçirilməsini təmin etmək məqsədilə “SMS Info”, “SMS Banking” və “Internet Banking“ xidmətlərini müştərilərin istifadəsinə vermişdir.

Həmçinin, internet vasitəsilə ödənişlərin təhlükəsiz aparılması məqsədilə “KapitalKart” “3-D Secure” texnologiyalarının tətbiqi ilə əlaqədar MasterCard və VISA beynəlxalq kart təşkilatlarında müvafiq olaraq “SecureCode” və “Verified by VISA” üzrə sertifikasiyadan keçmişdir.

2010-ci ilin ortalarından Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sistemi vasitəsilə ödənişlərin həyata keçirilməsi mümkün olmuşdur. Bu sistem sayəsində ödəniş kartı sahibləri elektrik enerjisi, qaz, su və digər kommunal borclarını ödəyə bilərlər. Həmçinin, pərakəndə ticarət, iaşə və digər xidmət müəssisələrində simsiz POS-terminalların quraşdırılma prosesi başlanmışdır.

Azərbaycanda aktiv ödəniş kartı istifadəçilərinin sayını artırmaq və ümumiyyətlə, nağdsız ödənişlərin həcmini yüksəltmək üçün həmin kartlarda vəsaitlərə kənar müdaxilələrin minimum endirilməsi lazımdır.

Aparıcı dünya ölkələrinə nisbətən, Azərbaycanda ödəniş kartları ilə hesablaşmalar o qədər də geniş yayılmamışdır. Bunun səbəblərindən biri də kart istifadəçilərinin onların verdiyi üstünlüklər barədə kifayət qədər xəbərdar olmamasıdır.

Kart sahibləri arasında maariflənmə səviyyəsinin aşağı olması inkişaf etmiş ölkələrlə müqayisədə göstəricilərin aşağı olmasında öz sözünü deyir. Bu gün respublikada 4,5 milyona yaxın ödəniş kartı sahibi vardır ki, bu da əmək qabiliyyətli əhalinin təxminən 70%-i deməkdir.

Hesablaşmalarda ödəniş kartlarından zəif istifadə edilməsinin digər səbəbi isə odur ki, təsərrüfat subyektlərinin sahibləri vergidən yayınmaq üçün real dövriyyələrinin bir qismini gizlətməyə cəhd göstərir və bu məqsədlə POS-terminalları quraşdırmaqdan imtina edir və ya müxtəlif bəhanələrlə quraşdırılmış terminallardan istifadə etmir.

**Plastik kartlar və terminallardan istifadə göstəriciləri**

Cədvəl 3

| İl | Bir terminala düşən əhalinin sayı, min nəfər | | Bir ATM-ə düşən əməliyyatların orta aylıq | | Bir POS-a düşən əməliyyatların orta aylıq | |
|---|---|---|---|---|---|---|
| | ATM | POS | sayı, əməliyyat | həcmi, manat | sayı, əməliyyat | həcmi, manat |
| 2010 | 4,8 | 1,14 | 2602,7 | 345690,8 | 15,8 | 5181,1 |
| 2011 | 4,3 | 0,69 | 2144,5 | 323531,0 | 16,7 | 3147,7 |
| 2012 | 4,1 | 0,25 | 2126,6 | 355559,6 | 16,1 | 2003,1 |
| 2013 | 3,9 | 0,28 | 2167,6 | 394833,0 | 43,0 | 3549,8 |
| 2014 | 3,7 | 0,13 | 2121,8 | 395792,8 | 14,0 | 1713,6 |
| 04.2015 | 3,6 | 0,12 | 1792,7 | 324691,2 | 11,0 | 1434,3 |

Mənbə: http://www.cbar.az/

Ödəniş kartlarının çatışmazlığı yalnız onun tətbiq edildiyi sahələrdə infrastrukturun zəif inkişaf etməsi ola bilər. Ölkə ərazisi bütövlükdə kart infrastrukturu ilə əhatə olunarsa, belə bir problem də yaşanmayacaqdır. İnnovativ ödəniş aləti olmaqla, kart infrastrukturunun inkişafı üçün rabitə və elektrik xətlərinin sabit işləməsi mühüm amillərdir.

İnformasiya texnologiyalarının və elektron ticarətin inkişafı ilə internet vasitəsilə reallaşan mal, iş və xidmətlərin sayı son illərdə xeyli artmışdır. Artıq ölkədə kommunal xidmətlərin, internet provayderlərin, kabel televiziyası operatorlarının və s. xidmətlərinin ödənişini “on-line” aparmaq mümkündür [3].

Plastik kartlardan daha geniş istifadə olunmasında Mərkəzi Bankın fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Azərbaycan Respublikasının Mərkəzi Bankı mövcud qanunvericiliyə uyğun olaraq Korporativ İdarəetmə standartları çərçivəsində ödəniş sistemlərinin əsas iştirakçıları olan bankların, xüsusilə sistem əhəmiyyətli və geniş filial şəbəkəsinə malik olan kommersiya banklarının daxili informasiya və hesablaşma sistemlərinin inkişaf etdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması üçün müvafiq tələblər və standartlar müəyyən edəcək və həyata keçirilməsinə yardım göstərəcəklər.

Bununla bank sistemində ödənişlərin daha effektiv, təhlükəsiz və sürətli həyata keçirilməsi, pul dövriyyəsinin sürətinin nəzərə çarpacaq dərəcədə artırılması, “yolda olan” pul vəsaitlərinin minimuma endirilməsi təmin olunacaq, əhaliyə və hüquqi şəxslərə keyfiyyətli xidmətlər göstərilməsi yolu ilə bankların müştəri bazasının genişləndirilməsinə, əlavə pul vəsaitlərinin cəlb edilməsinə, iqtisadiyyatın müxtəlif sektorlarının kreditləşdirilməsinə imkan yaranacaq, bu isə öz növbəsində bank sisteminə olan inam və etimadın daha da artmasına və maliyyə bazarlarının inkişafına müsbət təsir göstərmişdir [2].

Ölkədə makroiqtisadi sabitliyin, çevik antiinflyasiya siyasətinin həyata keçirilməsinin təmin olunması üçün bütün ölkəni əhatə etməklə vahid elektron ödəniş məkanının yaradılması, iqtisadi dövriyyədə olan nağd pul kütləsinin nağdsız dövriyyə ilə əvəz olunması və nəticədə, bank sistemi

tərəfindən ölkə iqtisadiyyatının müxtəlif sahələrinin inkişafına sərmayə qoyuluşlarının artırılması məqsədilə ictimaiyyətin bütün təbəqələrinin elektron ödəniş sistemlərinin imkanlarından daha aktiv istifadə etmələrinə cəlb olunmaları zəruridir. Ölkənin hər bir vətəndaşı son zamanlar hökumət tərəfindən qəbul edilmiş iqtisadi subyektlər arasında ödənişlərin həyata keçirilməsi üçün daha əlverişli və səmərəli mühitin təşkil edilməsinə və nəticə etibarı ilə bütövlükdə cəmiyyətin rifahının yüksəldilməsinə hədəflənmiş ideya və qərarların reallaşdırılmasında aktiv iştirakçı olmalıdır.

**Açar sözlər:** plastik kart, debet və kredit kartları, ödəniş sistemləri, prosessinq təşkilatları, bankomat, POS-terminal

**İstifadə edilmiş ədəbiyyat**

1. Abdullayev Ş.Ə., Əsgərova R.V. Bank işi. Dərslik. Bakı: Çaşıoğlu, 2009, 472 s.
2. http://www.cbar.az/
3. http://banklar-biznes.com/index.php/component/k2/item/624-kartlarla-daelaeduzluzh-hallar-na-zharsh-mubarizae. Kartlarla dələduzluq hallarına qarşı mübarizə
4. http://www.cbar.az/assets/1167/prosesinq_icaze_23.09.pdf. “Prosessinq təşkilatlarına icazələrin verilməsi və prosessinq fəaliyyətinə nəzarət” Qaydaları. Bakı: 09 sentyabr 2009

**Азер Ибрагимов**

## ОПЕРАЦИИ С ПЛАСТИКОВЫМИ КАРТАМИ И НАПРАВЛЕНИЯ ИХ РАЗВИТИЯ

**Резюме**

В данной статье рассматриваются пластиковые карты и их виды, а также платежные системы. Анализируются операции с пластиковыми картами. Указаны факторы влияющие на эти операции. Кроме того, показаны направления развития операций с пластиковыми картами.

**Ключевые слова:** пластиковые карты, дебетовые и кредитные карты, платежные системы, процессинговые организации, банкомат, POS- терминал

**Azer Ibrahimov**

## OPERATION WITH PLASTIC CARDS AND DIRECTION OF THEIR DEVELOPMENT

**Summary**

The plastic cards, their types and payment systems are also reviewed in the article. The operations with plastic cards are analyzed. The factors affecting these operations and also directions of their development with plastic cards are shown in the article.

**Keywords:** plastic card, debit and credit cards, payment systems, processing organizations, ATM, POS terminal

# "ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR"

## Elmi-praktiki jurnal

## № 1 (03), 2015

**Redaktorlar:**

***Gülnarə Hacıyeva, Lətifə Məcidova, Qızılgül Əlimirzəyeva***

**Kompüter tərtibatı:**

***Pərvanə Məcidova***

**Dizayn:**

***Mail Xəlilov***

Yığılmağa verilib: 01.06.2015
Çapa imzalanıb: 29.06.2015
Format: 70x100 16/[1]
8.62 ş.ç.v
Tiraj: 300

***"AVROPA" nəşriyyatı***